

9

# ƏDƏBİYYAT

## METODİK VƏSAİT

**BİLAL HƏSƏNOV, AYNUR MUSTAFAYEVA**
**SOLTAN ƏLİYEV, NURİYYƏ VERDİYEVA**

# ƏDƏBİYYAT

# 9

Ümumi təhsil müəssisələrinin 9-cu sinifləri üçün ədəbiyyat fənni
üzrə dərsliyin metodik vəsaiti

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0
International (CC BY-NC-SA 4.0)

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0
International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az
saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən
lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi bn@bakineshr.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

## BAŞLIQLAR

**Fənn kurikulumu tələblərinin "Ədəbiyyat" dərslik komplektində reallaşdırılması mexanizmlərinin şərhi** ........... 4

Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli ..................... 8

IX sinifdə ədəbiyyat dərslərinin illik planlaşdırılması nümunəsi ............ 14

Fəndaxili və fənlərarası inteqrasiya ........................................................ 33

Ədəbiyyat fənni üzrə məktəbdaxili qiymətləndirmə ................................ 35

## MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

Həyat həqiqətləri və zəngin ədəbiyyatımız............................................. 46

## MİLLİ-DEMOKROTİK HƏRƏKAT, SOVET DÖNƏMİ VƏ DÖVLƏT MÜSTƏQİLLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

### I mərhələ
### AZƏRBAYCANDA MİLLİ-DEMOKRATİK HƏRƏKAT DÖVRÜNDƏ ƏDƏBİYYAT

Əhməd Cavad. Azərbaycan bayrağına ................................................... 49
Cəfər Cabbarlı. Ana ............................................................................... 55

### II mərhələ
### SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

**Proletkultçuluq və repressiya dövründə ədəbiyyat (1920–1940)**
Abdulla Şaiq. Anabacı ........................................................................... 61
Yusif Vəzir Çəmənzəminli. Zeybək qızı ............................................... 64
Almas İldırım. Əsir Azərbaycanım......................................................... 70
Mikayıl Müşfiq. Həyat sevgisi ............................................................... 75
Sinifdənxaric oxu dərsi ........................................................................... 77
*Kiçik summativ qiymətləndirmə* ............................................................. 80

**İkinci dünya müharibəsi, şəxsiyyətə pərəstiş və mülayimləşmə dövründə ədəbiyyat (1941–1960)**

Müqayisə xarakterli yazıya hazırlıq ........................................................ 82
Müqayisə xarakterli yazıların icrası......................................................... 84
Səməd Vurğun. Ananın öyüdü ............................................................... 85
Süleyman Rüstəm. Təbrizim .................................................................. 90
Mir Cəlal. Vətən yaraları ......................................................................... 95

Mirzə İbrahimov. Gələcək gün ... 99
Sinifdənxaric oxu dərsi ... 105
*Kiçik summativ qiymətləndirmə* ... 109

**Milli-mənəvi özünüdərk dövründə ədəbiyyat (1961–1990)**

Rəsul Rza. Çinar ömrü ... 111
İsmayıl Şıxlı. Namərd gülləsi ... 116
İsa Hüseynov. Zəhər ... 121
*Kiçik summativ qiymətləndirmə* ... 125

Məmməd Araz. Əsgər məktubu ... 131
*Kiçik summativ qiymətləndirmə* ... 136

Əli Kərim. Qaytar ana borcunu ... 138
Anar. Keçən ilin son gecəsi ... 142
Elçin. Talvar ... 149
Sinifdənxaric oxu dərsi ... 156
*Kiçik summativ qiymətləndirmə* ... 159

**III mərhələ**

**Dövlət müstəqilliyi dövründə Azərbaycan ədəbiyyatı (1991-ci ildən günümüzə qədər)**

Qılman İlkin. İntiqam ... 161
Bəxtiyar Vahabzadə. İstiqlal ... 167
Xəlil Rza. Qaytar mənim qüdrətimi, Azərbaycan! ... 173
*Kiçik summativ qiymətləndirmə* ... 179

**CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI**

Məhəmmədhüseyn Şəhriyar. Heydərbabaya salam ... 181

**DÜNYA ƏDƏBİYYATI**

Ernest Heminquey. Qoca və dəniz ... 188
Sinifdənxaric oxu dərsi ... 193
*Kiçik summativ qiymətləndirmə* ... 198

Gündəlik planlaşdırmaya aid nümunələr ... 200
Mənbələr ... 223

# FƏNN KURİKULUMU TƏLƏBLƏRİNİN “ƏDƏBİYYAT” DƏRSLİK KOMPLEKTİNDƏ REALLAŞDIRILMASI MEXANİZMLƏRİNİN ŞƏRHİ

Ümumtəhsil məktəblərinin IX sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik komplekti “Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)” əsasında hazırlanmışdır.

Dərslik komplektinin elmi-metodik konsepsiyasının əsasında “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda qarşıya qoyulan hədəflər, şagirdlərin ədəbi təhsilinin məzmununda nəzəri biliklərlə yanaşı, praktik bilik, bacarıq və səriştənin vacibliyi konkret fəaliyyətin nəticəsinə çevrilməsi durur.

Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənn kurikulumundakı (bax:http://www.kurikulum.az/images/kurikulumTam/edebiyyat.pdf) **ümumi orta təhsilin tamamlandığı VIII – IX siniflərdə ədəbiyyatın qədim dövrlərdən bu günə qədər keçdiyi inkişaf yolunun izlənilməsi tələbi dərslikdə əsas götürülmüşdür**. Başqa sözlə, VIII sinifdə ədəbiyyatımızın tarixi-xronoloji zəmində öyrənilməsi üzrə həyata keçirilən metodik sistem IX sinifdə də gözlənilmişdir. Bu sinifdə ədəbiyyatımızın öyrədilməsi XX əsrin əvvəllərindən (1918-ci ildən) günümüzə qədər keçdiyi tarixi yol nəzərə alınmaqla həyata keçirilmişdir.

## DƏRSLİK

Ədəbiyyatımızın inkişaf mərhələləri müəyyənləşdirilərkən Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin təsdiq etdiyi ədəbiyyat tarixinin dövrləşdirilməsi konsepsiyasında (Azərbaycan MEA-nın Rəyasət Heyətinin qərarı. № 14/1.23 sentyabr 2015-ci il) Azərbaycan ədəbiyyatı tarixinə, onun dövrləşdirilməsinə və ədəbi prosesə yeni yanaşma, elmi-metodoloji prinsip və tələblər diqqət mərkəzində saxlanılmışdır. Ədəbi irsin və müasir ədəbi prosesin tədrisi, öyrənilməsi və mənimsənilməsi üçün əsas götürülən yeni elmi-metodoloji konsepsiyaya uyğun olaraq, müasir ədəbiyyatımızın dövrləşdirilməsi, tarixi-xronoloji ardıcıllıqla, kurikulumun məqsəd və vəzifələrinə, məzmun standartlarına və şagirdlərin yaş və mənimsəmə səviyyəsinə uyğun şəkildə öyrənilməsi imkanları müəyyənləşdirilmişdir.

Dərslikdə təlim prosesinin mərhələlərinə uyğun olaraq, təlim materiallarının aşağıdakı kimi qruplaşdırılması məqsədəuyğun sayılmışdır:

- **Yada salın.** Şagirdləri mövzu ilə bağlı biliklərini xatırlamağa, maraq və istəklərini ifadə etməyə istiqamətləndirəcəkdir.
- **Düşünün.** İlkin fərziyyələr söyləməyə, araşdırma aparmağa yönəldəcəkdir.
- **Oxuda aydınlaşdırın.** Tanış olmayan sözlərin mənasını aydınlaşdırmaq, eləcə də bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək üçün nəzərdə tutulmuşdur.
- **Məzmun üzrə iş.** Əsərin məzmununun öyrənilməsi ilə əlaqədar yerinə yetirilən işlər əhatə olunur. Məzmunun necə mənimsənildiyini aşkara çıxarmaq və dərinləşdirmək üçün təklif edilir.
- **Təhlil üzrə iş.** Əsərin təhlili, bununla bağlı zəruri bacarıqların formalaşdırılması və tətbiqi üzrə işlər əhatə olunur.

- **Tətbiq. Müzakirə. Yaradıcı iş.** Fərdi, eləcə də cütlük, qrup şəklində tədqiqat aparmağa, yaradıcı işə qoşulmağa, bilik və bacarıqların tətbiqinə istiqamətləndirir.
- **İfadəli oxuya hazırlıq.** İfadəli oxu ilə bağlı tövsiyələr verilir, bilik və bacarıqların inkişafı məqsədi ilə tapşırıqlar təklif edilir.
- **Qiymətləndirmə materialları.** Bölmələrin sonunda həyata keçirilən kiçik summativ qiymətləndirmə üçün nümunə olaraqnəzərdə tutulmuşdur.
- **Layihələr üzrə iş.** Layihələr şagirdlərin müxtəlif mənbələrlə, dərslikdəki müvafiq materiallarla işləmələri, bilik və bacarıqlarını tətbiq etmələri, yaradıcı fəaliyyət göstərmələri üçün təklif edilir.
- **Müstəqil iş.** Bölmələrdə əsərləri tədris olunan sənətkarların həyatı haqqında müxtəlif mənbələrdən məlumatların toplanması və öyrənilməsi üçün nəzərdə tutulmuşdur.

Hər bir mövzu üzrə qruplaşdırılmış təlim materialları ilə iş texnologiyası müəllim üçün vəsaitdə ətraflı şərh edilmişdir.

Dərslikdə aşağıdakı *pedaqoji prinsiplər* gözlənilmişdir:
- düzgünlük
- əyanilik
- müasirlik
- tamlıq
- ardıcıllıq
- yaş səviyyəsinə uyğunluq
- təlim vaxtına uyğunluq
- oxunaqlılıq
- inklüzivlik
- inteqrativlik

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

Fənn müəlliminə kömək məqsədi ilə metodik vəsaitə aşağıdakı tövsiyələr daxil edilmişdir:
- IX sinif ədəbiyyat fənn kurikulumunun xüsusiyyətləri;
- Məzmun standartlarının reallaşdırılması cədvəli;
- Tədris materiallarının illik planlaşdırılması (mövzuların həftələr üzrə bölgüsü, reallaşdırılan standartlar, fənlərarası inteqrasiya, strategiyalar: metodlar, iş formaları, resurslar, qiymətləndirmə üsul və vasitələri);
- Fəndaxili və fənlərarası inteqrasiya;
- Ədəbiyyat dərslərində yeni təlim texnologiyaları;
- Diferensial təlim imkanları;
- Ədəbiyyat fənni üzrə məktəbdaxili qiymətləndirmə.

## IX sinif üzrə təlim nəticələri və məzmun standartları

**IX sinfin sonunda şagird:**

- müxtəlif ədəbi növdə (vəzndə) olan bədii nümunələri ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir, obrazlara ilkin münasibət bildirir;
- növünə və janrına, təsvir və ifadə vasitələrinə əsaslanmaqla ədəbi əsərləri bədii xüsusiyyətlərinə görə təhlil edir;
- bədii nümunələrin mövzusunu və ideyasını aydınlaşdırır, yazıçı mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları səciyyələndirir;
- şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktə fərqli mənbələrdən topladığı məlumatlara əsaslanmaqla münasibət bildirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**
**1. Ədəbiyyat və həyat həqiqətləri**
**Şagird:**
*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*
1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (poema, hekayə, povest, roman, dram) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.
1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram) ideya-məzmununa uyğun ifadəli oxuyur.
1.1.3. Süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.
1.1.4. Bədii nümunələrin (hekayə, povest, roman, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir.
1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metonimiya, inversiya, simvol) müəyyənləşdirir.
*1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*
1.2.1. Bədii nümunələri (hekayə, povest, roman, dram, poema) növ və janr baxımından müqayisə edir.
1.2.2. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.
1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metonimiya, inversiya, simvol) rolunu aydınlaşdırır.
1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq**
**Şagird:**
*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir.
2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.
*2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.*
2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**3. Yazılı nitq**
**Şagird:**
*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*
3.1.1. Yazacağı mətnin məzmununa uyğun üslub müəyyənləşdirir.
3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirir.
3.1.3. 2,5-3 səhifə həcmində mühakimə, təsvir, müqayisə xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞDIRILMASI CƏDVƏLİ

| BÖLMƏ VƏ MÖVZULAR | | Məzmun xətti 1 | | | | | | | | | Məzmun xətti 2 | | | Məzmun xətti 3 | | | Saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M.st. 1.1 | | | | | M.st. 1.2 | | | | M.st. 2.1 | | M. st. 2.2 | M.st. 3.1 | | | |
| | | 1.1.1 | 1.1.2 | 1.1.3 | 1.1.4 | 1.1.5 | 1.2.1 | 1.2.2 | 1.2.3 | 1.2.4 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1 | 3.1.2 | 3.1.3 | |
| | 1. Həyat həqiqətləri və zəngin ədəbiyyatımız | | | | | | | | | | | + | + | | | | 1 |
| Azərbaycanda milli-demokratik hərəkat dövründə ədəbiyyat | 2. Ə.Cavad. “Azərbaycan bayrağına”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 3. Ə.Cavad. “Azərbaycan bayrağına”. Təhlili | | | | | | | | + | + | | + | | | | | 1 |
| | 4. C. Cabbarlı. “Ana”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | + | | | | 1 |
| | 5. C. Cabbarlı. “Ana”. Təhlili | | | | | | | | + | + | | | + | | | + | 1 |
| | 6. C. Cabbarlı. “Ana”. Tətbiq. Müzakirə. Yaradıcı iş | + | + | | | + | | | + | + | | + | | | | | 1 |
| Proletkultçuluq və repressiya dövründə ədəbiyyat (1920-1940) | 7. A.Şaiq. “Anabacı”. Məzmunu üzrə iş | + | | + | | + | | | | | | | + | | | | 1 |
| | 8. A.Şaiq. “Anabacı”. Təhlili | | | | | | | + | + | + | + | | | | | | 1 |
| | 9. A.Şaiq. “Anabacı”. Tətbiq Müzakirə. Yaradıcı iş | | | | | | | | | | | | + | + | + | + | 1 |
| | 10. Y.V.Çəmənzəminli. “Zeybək qızı”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | + | | | | 1 |
| | 11. Y.V.Çəmənzəminli. “Zeybək qızı”. Məzmunu üzrə iş | + | | + | + | + | | | | | | | + | | | | 1 |
| | 12. Y.V.Çəmənzəminli. “Zeybək qızı”. Təhlili | | | | | | | + | | + | | + | + | | | | 1 |
| | 13. A. İldırım. “Əsir Azərbaycanım”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | + | | | | 1 |
| | 14. A. İldırım. “Əsir Azərbaycanım”. Təhlili | | | | | | | | + | + | | + | + | | | | |
| | 15. M.Müşfiq.“Həyat sevgisi”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | + | | | | 1 |
| | 16. M.Müşfiq. “Həyat sevgisi”. Təhlili | | | | | | | | + | + | + | | + | | | | 1 |
| | 17. Sinifdənxaric oxu dərsi | | + | | | | | | + | + | | | + | | | | 1 |
| | 18. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

| BÖLMƏ VƏ MÖVZULAR | | **Məzmun xətti 1** | | | | | | | | | **Məzmun xətti 2** | | | **Məzmun xətti 3** | | | **Saatlar** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | **M.st. 1.1** | | | | | **M.st. 1.2** | | | | **M.st. 2.1** | | **M. st. 2.2** | **M.st. 3.1** | | | |
| | | 1.1.1 | 1.1.2 | 1.1.3 | 1.1.4 | 1.1.5 | 1.2.1 | 1.2.2 | 1.2.3 | 1.2.4 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1 | 3.1.2 | 3.1.3 | |
| İkinci Dünya müharibəsi, şəxsiyyətə pərəstiş və mülayimləşmə dövründə ədəbiyyat (1941–1960) | 19. Müqayisə xarakterli yazıya hazırlıq | | | | | | | | | | | | + | | | | 1 |
| | 20. Müqayisə xarakterli yazıların icrası | | | | | | | | | | | | | + | | + | 1 |
| | 21. S. Vurğun. “Ananın öyüdü”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | + | | | | 1 |
| | 22. S. Vurğun. “Ananın öyüdü”. Təhlili | | | | | | | + | + | + | | | + | | | | 1 |
| | 23. S. Vurğun. “Ananın öyüdü”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | + | | | | | | | | | + | | | | | 1 |
| | 24. S.Rüstəm. “Təbrizim”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | + | | | | 1 |
| | 25. S.Rüstəm. “Təbrizim”. Təhlili | | | | | | | | + | + | | | + | | | | 1 |
| | 26. S. Rüstəm. “Təbrizim”. Tətbiq. Müzakirə. Yaradıcı iş | + | + | | | + | | | + | + | | + | | | | | 1 |
| | 27. Mir Cəlal. “Vətən yaraları”. Məzmunu üzrə iş | + | | + | | + | | | | | | | + | | | | 1 |
| | 28. Mir Cəlal. “Vətən yaraları”. Məzmunu üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 29. Mir Cəlal. “Vətən yaraları”. Təhlili | | | | | | + | + | + | + | | | | | | + | 1 |
| | 30. M.İbrahimov. “Gələcək gün”. Məzmunu üzrə iş | + | | + | | + | | | | | | | + | | | | 1 |
| | 31. M.İbrahimov. “Gələcək gün”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | + | | | | 1 |
| | 32. M.İbrahimov. “Gələcək gün”. Təhlili | | | | | | | + | | + | | | + | | | | 1 |
| | 33. M.İbrahimov.“Gələcək gün”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | + | | + | | | | + | | | + | 1 |
| | 34. Sinifdənxaric oxu dərsi | | + | | | | | | + | | | + | + | | | | 1 |
| | 35. “Torpaq, uğrunda ölən varsa, vətəndir” mövzusunda inşa yazı | | | | | | | | | | | | | + | | + | 1 |
| | 36. “Torpaq, uğrunda ölən varsa, vətəndir” mövzusunda inşa yazının müzakirəsi | | | | | | | | | | | | + | | + | | 1 |
| | 37. “XX əsrin I yarısında ədəbiyyatımızda vətənpərvərlik və qəhrəmanlıq motivləri” mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | | | | | | | | | | + | + | + | | | | 1 |
| | 38. Layihə üzrə təqdimatların dəyərləndirilməsi | | | | | | | | | | + | + | + | | | | 1 |
| | 39. “Həyat həqiqətlərinin ədəbiyyatımızda bədii əksi” mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | | | | | | | | | | + | + | + | | | | 1 |
| | 40. Layihə üzrə təqdimatların dəyərləndirilməsi | | | | | | | | | | + | + | + | | | | 1 |
| | 41. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

| BÖLMƏ VƏ MÖVZULAR | | Məzmun xətti 1 | | | | | | | | | Məzmun xətti 2 | | | Məzmun xətti 3 | | | Saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M.st. 1.1 | | | | | M.st. 1.2 | | | | M.st. 2.1 | | M. st. 2.2 | M.st. 3.1 | | | |
| | | 1.1.1 | 1.1.2 | 1.1.3 | 1.1.4 | 1.1.5 | 1.2.1 | 1.2.2 | 1.2.3 | 1.2.4 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1 | 3.1.2 | 3.1.3 | |
| Milli-mənəvi özünüdərk dövründə ədəbiyyat (1961–1990) | 42. R.Rza. "Çinar ömrü". Məzmunu üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 43. R.Rza. "Çinar ömrü". Təhlili | | | | | | | | + | + | | | + | | | | 1 |
| | 44. R.Rza. "Çinar ömrü". Tətbiq. Müzakirə. Yaradıcı iş | + | | | | + | | | + | + | | + | | | | | 1 |
| | 45. İ.Şıxlı. "Namərd gülləsi". Məzmunu üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 46. İ.Şıxlı. "Namərd gülləsi". Məzmunu üzrə iş | + | | + | + | + | | | | | | | | | | | 1 |
| | 47. İ.Şıxlı. "Namərd gülləsi". Təhlili | | | | | | | + | + | + | + | + | | | | | 1 |
| | 48. İ.Hüseynov. "Zəhər". Məzmunu üzrə iş | + | | + | | + | | | | | | | | | | + | 1 |
| | 49. İ.Hüseynov. "Zəhər". Məzmunu üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 50. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 51. *Böyük summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 52. İ.Hüseynov. "Zəhər". Təhlili | | | | | | | + | + | + | | | + | | | | 1 |
| | 53. İ.Hüseynov. "Zəhər". Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | | | | | | | + | + | | + | 1 |
| | 54. M.Araz. "Əsgər məktubu". Məzmunu üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 55. M.Araz. "Əsgər məktubu". Təhlili | | | | | | | + | | + | | | + | | | | 1 |
| | 56. M.Araz. "Əsgər məktubu". Tətbiq. Müzakirə. Yaradıcı iş | + | + | | | | | | | + | | + | | | | | 1 |
| | 57. "Kimi mənəviyyatlı insan saymaq olar" mövzusunda essenin yazılması | | | | | | | | | | | | | | | + | 1 |
| | 58. "Kimi mənəviyyatlı insan saymaq olar" mövzusunda essenin müzakirəsi | | | | | | | | | | | | | + | + | + | 1 |
| | 59. "Mənəvi dəyərlərimizi yaşadaq" mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | | | | | | | | | | + | + | + | | | | 1 |
| | 60. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

| BÖLMƏ VƏ MÖVZULAR | | Məzmun xətti 1 | | | | | | | | | Məzmun xətti 2 | | | Məzmun xətti 3 | | | Saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M.st. 1.1 | | | | | M.st. 1.2 | | | | M.st. 2.1 | | M. st. 2.2 | M.st. 3.1 | | | |
| | | 1.1.1 | 1.1.2 | 1.1.3 | 1.1.4 | 1.1.5 | 1.2.1 | 1.2.2 | 1.2.3 | 1.2.4 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1 | 3.1.2 | 3.1.3 | |
| Milli-mənəvi özünüdərk dövründə ədəbiyyat (1961–1990) | 61. Ə.Kərim. “Qaytar ana borcunu”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 62. Ə.Kərim. “Qaytar ana borcunu”. Təhlili | | | | | | | + | + | + | | | + | | | | 1 |
| | 63. Ə.Kərim. “Qaytar ana borcunu”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | + | | | | | | | | | + | + | | | | 1 |
| | 64.Anar. “Keçən ilin son gecəsi”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 65. Anar. “Keçən ilin son gecəsi”. Məzmunu üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 66. Anar. “Keçən ilin son gecəsi”. Təhlili | | | | | | | + | | + | + | | + | | | | 1 |
| | 67. Anar. “Keçən ilin son gecəsi”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | + | | | | | + | + | | | | 1 |
| | 68. “Ədəbiyyat və incəsənətimizdə ana obrazı” mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | | | | | | | | | | + | + | + | | | | 1 |
| | 69. Elçin. “Talvar”. Məzmunu üzrə iş | + | | + | | + | | | | | | | | | | | 1 |
| | 70. Elçin. “Talvar”. Məzmunu üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 71. Elçin. “Talvar”. Təhlili | | | | | | + | + | + | + | + | + | | | | | 1 |
| | 72. Elçin. “Talvar”. Tətbiq. Müzakirə. Yaradıcı iş | + | + | | | + | | | + | + | | + | | | | | 1 |
| | 73. Sinifdənxaric oxu dərsi | | | | | | | + | | + | | | + | | | | 1 |
| | 74. “Talvar” hekayəsinin qəhrəmanı Əliabbas obrazına münasibətim” mövzusunda inşa yazı | | | | | | | | | | | | | | | + | 1 |
| | 75. “Talvar” hekayəsinin qəhrəmanı Əliabbas obrazına münasibətim” mövzusunda inşa yazının müzakirəsi | | | | | | | | | | | | | + | + | + | 1 |
| | 76. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

| BÖLMƏ VƏ MÖVZULAR | | Məzmun xətti 1 | | | | | | | | | Məzmun xətti 2 | | | Məzmun xətti 3 | | | Saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M.st. 1.1 | | | | | M.st. 1.2 | | | | M.st. 2.1 | | M. st. 2.2 | M.st. 3.1 | | | |
| | | 1.1.1 | 1.1.2 | 1.1.3 | 1.1.4 | 1.1.5 | 1.2.1 | 1.2.2 | 1.2.3 | 1.2.4 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1 | 3.1.2 | 3.1.3 | |
| Dövlət müstəqilliyi dövründə Azərbaycan ədəbiyyatı (1991-ci ildən günümüzə qədər)1 | 77. Q.İlkin. “İntiqam”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 78. Q.İlkin. “İntiqam”. Təhlili | | | | | | | + | + | + | | | + | | | | 1 |
| | 79. Q.İlkin. “İntiqam”. Tətbiq. Müzakirə. Yaradıcı iş. | | | | | | | | | | | | + | + | | + | 1 |
| | 80. B.Vahabzadə. “İstiqlal”. Məzmunu üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 81. B.Vahabzadə. “İstiqlal”. Məzmunu üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 82. B.Vahabzadə. “İstiqlal”. Təhlili | | | | | | | | | + | + | | + | | | | 1 |
| | 83. B.Vahabzadə “İstiqlal”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | + | | | | + | + | + | | | | 1 |
| | 84. X.R.Ulutürk. “Qaytar mənim qüdrətimi, Azərbaycan!” Məzmunu üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 85. X.R.Ulutürk. “Qaytar mənim qüdrətimi, Azərbaycan!” Təhlili | | | | | | | + | + | + | + | | + | | | | 1 |
| | 86. X.R.Ulutürk. “Qaytar mənim qüdrətimi, Azərbaycan!” Tətbiq. Müzakirə. Yaradıcı iş | | + | | | | | | | | | + | + | | | | 1 |
| | 87. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| Cənubi Azərbaycan ədəbiyyatı | 88. M.Şəhriyar. “Heydərbabaya salam”. Məzmunu üzrə iş | + | | + | | + | | | | | | | | | | | 1 |
| | 89. M.Şəhriyar. “Heydərbabaya salam”. Məzmunu üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 90. M.Şəhriyar. “Heydərbabaya salam”. Təhlili | | | | | | | + | + | + | | | + | | | | 1 |
| | 91. M.Şəhriyar. “Heydərbabaya salam”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | + | | | | | | | | + | | + | | | | 1 |
| Dünya ədəbiyyatı | 92. E. Heminquey. “Qoca və dəniz”. Məzmunu üzrə iş | + | | + | | + | | | | | | | + | | | | 1 |
| | 93. E.Heminquey. “Qoca və dəniz”. Məzmunu üzrə iş | + | | + | | + | | | | | | | + | | | | 1 |
| | 94. E.Heminquey. “Qoca və dəniz”. Təhlili | | | | | | | + | | + | | + | + | | | | 1 |
| | 95. E.Heminquey. “Qoca və dəniz”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | + | | + | | | | | | + | | | | 1 |
| | 96. Sinifdənxaric oxu dərsi | | | | | | | + | + | + | + | + | | | | | 1 |
| | 97. “Ədəbiyyat dərsləri mənə nə verdi” mövzusunda esse yazılması | | | | | | | | | | | | | + | | + | 1 |

| | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 98. Ədəbiyyat dərsləri mənə nə verdi" mövzusunda esselərin müzakirəsi | | | | | | | | | | | | + | | + | | 1 |
| | 99. "Ədəbiyyat dərslərində öyrəndiyim hansı əsər məndə daha güclü təəssürat oyatdı" mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | | | | | | | | | | + | + | + | | | | 1 |
| | 100. Layihə üzrə təqdimatların dəyərləndirilməsi | | | | | | | | | | + | + | + | | | | 1 |
| | *101. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| *102. Böyük summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | | 1 |

**IX sinifdə ədəbiyyat dərslərinin illik planlaşdırılması nümunəsi**

Aşağıda tövsiyə xarakterli illik iş planı verilmişdir. İş planı həftədə 3 saat olmaqla, ildə 34 həftə və ya 102 saat üçün nəzərdə tutulmuşdur. Müəllim mövzuların tədrisi zamanı qarşıya qoyduğu təlim məqsədlərindən və şəraitdən asılı olaraq, tövsiyə olunan illik planlaşdırma nümunəsində dəyişiklik edə bilər.

| Həftələr | Mövzular | Reallaşdırılan standartlar | Fənlərarası inteqrasiya | Strategiyalar: metodlar, iş formaları | Resurslar | Qiymətləndirmə üsul və vasitələri |
|---|---|---|---|---|---|---|
| 1 | Həyat həqiqətləri zəngin və ədəbiyyatımız | 2.1.2.<br>2.2.1. | Az.d.<br>1.1.2.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>3.1.4 | Müsahibə, İNSERT, ziqzaq, müzakirə, bütün siniflə birgə iş. | Dərslik, ədəbiyya-tın rolu haqqında fikirlər yazılmış plakat, lüğətlər, az.wikipedia.org/wiki/Azərbaycan_ədəbiyyatı | Müsahibə (müəllimin diaqnostik qeydiyyat vərəqi), oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |

## MİLLİ-DEMOKRATİK HƏRƏKAT, SOVET DÖNƏMİ VƏ DÖVLƏT MÜSTƏQİLLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

## I MƏRHƏLƏ

| Azərbaycanda milli-demokratik hərəkat dövründə ədəbiyyat | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | Ə. Cavad. “Azərbaycan bayrağına”. Məzmunu üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>1.1.2.<br>3.1.4. | Müsahibə, ikihissəli gündəlik, təqdimat, müzakirə, fərdi iş, cütlük şəklində iş, kiçik və böyük qruplarda iş. | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, https://az.wikipedia.org/wiki/Əhməd_Cavad https://www.youtube.com/watch?v=creDpfir2Vc | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq baca-rıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 1 | Ə. Cavad. “Azərbaycan bayrağına”. Təhlili | 1.2.3.<br>1.2.4.<br>2.1.2. | Az.d.<br>2.1.2.<br>2.2.3.<br>X.d.<br>2.1.3.<br>3.1.4. | Müsahibə, təqdimat, müzakirə, fərdi iş, cütlük şəklində iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, (https://anl.az/el/vsb/Ehmed_Cavad/index.htm), https://anl.az/down/E.Cavad2022.pdf) | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2 | C. Cabbarlı. “Ana”. Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. 2.2.1. | Az.d. 2.1.1. 2.2.1. X.d. 1.1.2. | Müsahibə, müzakirə, problemin həlli, fərdi iş, cütlük şəklində iş, kiçik və böyük qruplarda iş. | Dərslik, ədibin portreti, əsərin məzmununa uyğun şəkillər, iş vərəq-ləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Cəfər_Cabbarlı https://www.youtube.com/watch?v=V4hz3vlgxUo | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 2 | C. Cabbarlı. “Ana”. Təhlili | 1.2.3. 1.2.4. 2.2.1. 3.1.3. | Az.d. 1.1.2. 2.1.2. 2.2.3. X.d. 3.1.1. | Müsahibə, təq-dimat, diskussiya, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | Dərslik, sənətkarın portreti, lüğətlər, https://az.wikipedia.org/wiki/Cəfər_Cabbarlı https://www.youtube.com/watch?v=V4hz3vlgxUo | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 2 | C. Cabbarlı. “Ana”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.1.1. 1.1.2. 1.1.5. 1.2.3. 1.2.4. 2.1.2. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. | Müsahibə, təq-dimat, müzakirə, müqayisə, prob-lemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, əsərin məz-mununa uyğun şəkil-lər, lüğətlər, https://az.wikipedia.org/wiki/Cəfər_Cabbarlı https://www.youtube.com/watch?v=V4hz3vlgxUo | Şifahi sual-cavab (şi-fahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tap-şırıq), təqdimatlar |

**II MƏRHƏLƏ**
**SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI**

| • Proletkutçuluq və repressiya dövründə ədəbiyyat (1920-1940) | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3 | A.Şaiq. “Anabacı”. Məzmunu üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. 2.2.1. | Az.d. 2.1.1. X.d. 1.1.2. 3.1.3. 3.1.4. | Müsahibə, Təqdimat, müzakirə, problemin həlli, kiçik və böyük qruplarda iş, | Dərslik, iş vərəqləri, ədəbi guşə, lüğətlər, https://anl.az/el/vsb/Abdulla_Saiq_140/index.htm http://www.clb.az/files/mv/AShaiq.pdf | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 3 | A.Şaiq. “Anabacı”. Təhlili | 1.2.2. 1.2.3. 1.2.4. 2.1.1. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.2. 2.1.3. | Müsahibə, təq-dimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, ədəbi guşə, lüğətlər, https://az.wikipedia.org/wiki/Abdulla_Şaiq http://www.clb.az/files/mv/AShaiq.pdf | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 3 | A.Şaiq . “Anabacı”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 2.2.1. 3.1.1. 3.1.2. 3.1.3. | Az.d. 1.1.2. 2.2.3. 3.1.1. X.d. 4.1.1. | Müsahibə, təq-dimat, müzakirə, müqayisə, prob-lemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, ədəbi guşə, lüğətlər https://az.wikipedia.org/wiki/Abdulla_Şaiq | Şifahi sual-cavab (şi-fahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 4 | Y.V.Çəmənzəminli. “Zeybək | 1.1.1. 1.1.5. 2.2.1. | Az.d. | Müsahibə, təd-qiqat, təqdimat, müzakirə, fərdi | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.o | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | qızı". Məzmunu üzrə iş | | 2.1.1. X.d. 1.1.2. 3.1.4. | iş, kiçik və böyük qruplarda iş. | rg/.../Yusif_Vəzir_Çəmənzəminli... | cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 4 | Y.V.Çəmənzəminli . "Zeybək qızı". Məzmunu üzrə iş | 1.1.1. 1.1.3. 1.1.4. 1.1.5. 2.2.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 1.1.1.. 3.1.3. | Müsahibə, müzakirə, tədqiqat, ikihissəli gündəlik, problemin həlli, fərdi iş, kiçik qruplarla iş. | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/.../Yusif_Vəzir_Çəmənzəminli... | Oxu (mətn), şifahi sual-cavab müşahidə (müşahidə vərəqləri), yazılı nitq bacarıqları üzrə qeydiyyat vərəqi, tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 4 | Y.V.Çəmənzəminli. "Zeybək qızı". Təhlili | 1.2.2. 1.2.4. 2.1.2. 2.2.1. | Az.d. 1.1.2. 2.2.3. X.d. 2.1.3.. | Müsahibə, təqdimat, diskussiya, müqayisə, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, https://az.wikipedia.org/.../Yusif_Vəzir_Çəmənzəminli... | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 5 | A. İldırım. "Əsir Azərbaycanım". Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. 2.2.1. | Az.d. 1.1.2. 2.1.1. X.d. 3.1.1. | Müsahibə, təqdimat, ikihissəli gündəlik, fərdi iş, kiçik və böyük qruplarla iş. | https://az.wikipedia.org/wiki/Almas_İldırım https://www.youtube.com/watch?v=NtJlsHA3JPU | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 5 | A. İldırım. "Əsir Azərbaycanım". Təhlili | 1.2.3. 1.2.4. 2.1.2. 2.2.1. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. | Müsahibə, təqdimat, diskussiya, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Almas_İldırım https://www.youtube.com/watch?v=NtJlsHA3JPU | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 5 | M.Müşfiq. "Həyat sevgisi". Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. 2.2.1. | Az.d. 2.1.1. X.d. 2.1.2. | Müsahibə, ikihissəli gündəlik, təqdimat, müzakirə, fərdi iş, cütlük şəklində iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Mikayıl_Müşfiq | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 6 | M.Müşfiq. "Həyat sevgisi". Təhlili | 1.2.3. 1.2.4. 2.1.1. 2.2.1. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.2. 2.1.3. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, lüğətlər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Mikayıl_Müşfiq | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 6 | Sinifdənxaric oxu dərsi | 1.1.2.<br>1.2.3.<br>1.2.4.<br>2.2.1 | Az.d.<br>1.1.2.<br>1.2.4.<br>2.1.2.<br>2.2.1.<br>X..d.<br>3.1.4. | Müsahibə, təqdimat, müzakirə, müqayisə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Əhməd_Cavad<br>https://www.youtube.com/watch?v=S1sPggi8wnQ<br>https://www.youtube.com/watch?v=FVuznY9MrDM<br>https://az.wikipedia.org/wiki/Almas_İldırım<br>https://www.youtube.com/watch?v=NtJlsHA3JPU | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 6 | ***Kiçik summativ qiymətləndirmə*** | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **• İkinci Dünya müharibəsi, şəxsiyyətə pərəstiş və mülayimləşmə dövründə ədəbiyyat (1941-1960)** | | | | | | |
| 7 | Müqayisə xarakterli yazıya hazırlıq | 2.2.1. | Az.d.<br>3.1.1.<br>3.1.3..<br>X.d.<br>4.1.1.<br>4.1.2. | Müsahibə, İNSERT, ziqzaq, müqayisə, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri | Müsahibə (müəllimin qeydiyyat vərəqi), oxu (mətn), şifahi tapşırıqvermə (tapşırıq), təqdimatlar, özünüqiymətləndirmə cədvəli |
| 7 | Müqayisə xarakterli yazıların icrası | 3.1.1.<br>3.1.3. | Az.d.<br>3.1.3.<br>X.d.<br>4.1.2. | Müsahibə, təqdimatlar, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri | Mətn (yazılı nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 7 | S. Vurğun. "Ananın öyüdü". Məzmunu üzrə iş | 1.1.1.<br>1.1.5.<br>2.2.1. | Az.d.<br>2.1.1.<br>X.d.<br>1.1.2.<br>3.1.4. | Müsahibə, müzakirə, problemin həlli, təqdimatlar, fərdi iş, kiçik və böyük qruplarda iş | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Səməd_Vurğun<br>www.youtube.com/watch?v=AxmVl_2oTAc | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar, özünüqiymətləndirmə cədvəli |
| 8 | S.Vurğun. "Ananın öyüdü". Təhlili | 1.2.2.<br>1.2.3.<br>1.2.4.<br>2.2.1. | Az.d.<br>1.1.2.<br>2.1.2.<br>X.d.<br>1.1.2.<br>3.1.4. | Müsahibə, təqdimat, müzakirə, fərdi iş, cütlük şəklində iş, kiçik və böyük qruplarda iş. | Dərslik, şairin portreti, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Səməd_Vurğun | Müsahibə (müəllimin diaqnostik qeydiyyat vərəqi), oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 8 | S. Vurğun. "Ananın öyüdü". Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.1.2.<br>2.1.2. | Az.d.<br>2.1.2.<br>2.2.3.<br>X.d.<br>2.1.3.<br>3.1.4. | Müsahibə, Venn diaqramı, təqdimat, müzakirə, fərdi iş, cütlük şəklində iş, kiçik | https://az.wikipedia.org/wiki/Səməd_Vurğun<br>www.youtube.com/watch?v=V7_sGXQn_vQ | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | və böyük qruplarda iş. | | |
| 8 | S. Rüstəm. “Təbrizim”. Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. 2.2.1. | Az.d. 2.1.1. 2.2.1. X.d. 1.1.2. 3.1.4. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, təqdimat, müzakirə, fərdi iş, kiçik qruplarda iş. | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Süleyman_Rüstəm https://www.youtube.com/watch?v=ftLtpe8bv3g | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 9 | S. Rüstəm. “Təbrizim”. Təhlili | 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. 3.1.4. | Müsahibə, iki-hissəli gündəlik, təqdimat, müzakirə, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | Dərslik, əsərin məzmununa uyğun plakat, lüğətlər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Süleyman_Rüstəm https://www.youtube.com/watch?v=ftLtpe8bv3g | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 9 | S. Rüstəm. “Təbrizim”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.1.1. 1.1.2. 1.1.5. 1.2.3. 1.2.4. 2.1.2. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. 3.1.4. | Müsahibə, müqayisə, problemin həlli, təqdimat, müzakirə, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Süleyman_Rüstəm https://www.youtube.com/watch?v=ftLtpe8bv3g | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 9 | Mir Cəlal. “Vətən yaraları”. Məzmunu üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. 2.2.1. | Az.d. 2.1.1. 2.2.1. X.d. 1.1.2. 3.1.3. 3.1.4. | Müsahibə, problemin həlli, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Mir_Cəlal_Paşayev www.youtube.com/watch?v=Jw209kGJl_I | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar. |
| 10 | Mir Cəlal. “Vətən yaraları”. Məzmunu üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. | Az.d. 2.1.1. 2.2.1. X.d. 1.1.2. 3.1.3. 3.1.4. | Müsahibə, təqdimat, müzakirə, müqayisə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Mir_Cəlal_Paşayev www.youtube.com/watch?v=Jw209kGJl_I | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar. |
| 10 | Mir Cəlal. “Vətən yaraları”. Təhlili | 1.2.1. 1.2.2. 1.2.3. 1.2.4. | Az.d. 2.1.2. 2.2.3. X.d. | Müsahibə, təqdimat, müzakirə, müqayisə, | Dərslik, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Mir_Cəlal_Paşayev | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | 3.1.3. | 2.1.3.<br>3.1.4. | problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | www. youtube.com/watch?v =Jw209kGJl_I | tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 10 | M.İbrahimov. “Gələcək gün”. Məzmunu üzrə iş | 1.1.1.<br>1.1.3.<br>1.1.5.<br>2.2.1. | Az.d.<br>2.1.1.<br>2.1.2.<br>X.d.<br>1.1.2.<br>3.1.3.<br>3.1.4. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia. org/wiki/Mirzə_İbrahimov www.clb.az/files/mv/ mirze_ibrahimov.pdf | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 11 | M.İbrahimov. “Gələcək gün”. Məzmunu üzrə iş | 1.1.1.<br>1.1.5.<br>2.2.1. | Az.d.<br>2.1.1.<br>2.1.2.<br>X.d.<br>1.1.2.<br>3.1.3.<br>3.1.4. | Müsahibə, təqdimat, problemin həlli, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia. org/wiki/Mirzə_İbrahimov www.clb.az/files/mv/ mirze_ibrahimov.pdf | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 11 | M.İbrahimov. “Gələcək gün”. Təhlili | 1.2.2.<br>1.2.4.<br>2.2.1. | Az.d.<br>2.1.2.<br>2.2.3.<br>3.1.3.<br>X.d.<br>2.1.3.<br>3.1.4.<br>4.1.1. | Müsahibə, təqdimat, problemin həlli, diskussiya, müqayisə cədvəli, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia. org/wiki/Mirzə_İbrahimov www.clb.az/files/mv/ mirze_ibrahimov.pdf | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 11 | M.İbrahimov. “Gələcək gün”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.2.1.<br>1.2.3.<br>2.2.1.<br>3.1.3. | Az.d.<br>2.1.2.<br>2.2.3.<br>X.d.<br>2.1.3.<br>3.1.4. | Müsahibə, təqdimat, müqayisə, problemin həlli, diskussiya, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia. org/wiki/Mirzə_İbrahimov www.clb.az/files/mv/ mirze_ibrahimov.pdf | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 12 | Sinifdənxaric oxu dərsi | 1.2.2.<br>1.2.3.<br>1.2.4.<br>2.1.1.<br>2.1.2. | Az.d.<br>1.1.2.<br>1.2.4.<br>2.1.2.<br>2.2.1.<br>X.d.<br>3.1.4. | Müsahibə, müqayisə cədvəli, təqdimat, problemin həlli, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia. org/wiki/Nigar_Rəfibəyliwww.clb.az/html/nigar.html www.youtube.com/ watch?v=p8PKA5C-v48 https://az.wikipedia. org/wiki/Mirvarid_ Dilbazi | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 12 | “Torpaq, uğrunda ölən varsa, vətəndir” mövzusunda inşa yazı | 3.1.1.<br>3.1.3. | Az.d.<br>1.1.2.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>2.1.3. | Müsahibə, müzakirə, təqdimat. | Dərslik, inşa ilə bağlı tövsiyələr, lüğətlər | Mətn (inşa) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 12 | “Torpaq, uğrunda ölən varsa, vətəndir” mövzusunda inşa yazının müzakirəsi | 2.2.1.<br>3.1.2. | Az.d.<br>1.1.2.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>2.1.3. | Müsahibə, müzakirə, təqdimat. | Dərslik, inşa ilə bağlı tövsiyələr, lüğətlər | Mətn (yazılı nitq bacarıqları üzrə qeydiyyat vərəqi), şagirdin təqdimatı, özünüqiymətləndirmə cədvəli |
| 13 | “XX əsrin I yarısında ədəbiyyatımızda vətənpərvərlik və qəhrəmanlıq motivləri” mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | 2.1.1.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>3.1.4. | Müsahibə, müzakirə, problemin həlli, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, layihə materialları | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı), özünüqiymətləndirmə cədvəli |
| 13 | Layihə üzrə təqdimatların dəyərləndirilməsi | 2.1.1.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>3.1.4. | Müsahibə, müzakirə. | Dərslik, layihə materialları | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), layihə (şagirdin təqdimatı), özünüqiymətləndirmə cədvəli |
| 13 | “Həyat həqiqətlərinin ədəbiyyatımızda bədii əksi” mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | 2.1.1.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>3.1.4. | Müsahibə, müzakirə, problemin həlli, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, layihə materialları | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar, özünüqiymətləndirmə cədvəli |
| 14 | Layihə üzrə təqdimatların dəyərləndirilməsi | 2.1.1.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>3.1.4. | Müsahibə, müqayisə cədvəli və ya təqdimat, problemin həlli, müzakirə, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı). |
| 14 | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

**MİLLİ-MƏNƏVİ ÖZÜNÜDƏRK DÖVRÜNDƏ ƏDƏBİYYAT (1961–1990)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 14 | R.Rza. “Çinar ömrü”. Məzmunu üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>1.1.2.<br>3.1.4.<br>Biol.<br>4.1.1. | Müsahibə, ikihissəli gündəlik, təqdimat, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, əsərin məzmununa uyğun şəkillər, sənətkarın portreti, iş vərəqləri, lüğətlər, az. https://az.wikipedia.org/wiki/Rəsul_Rza https://www.youtube | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | .com/watch?v=IUSad13xksA | |
| 15 | R.Rza. "Çinar ömrü". Təhlili | 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. 3.1.4. Biol. 4.2.2. | Müsahibə, əqli hücum, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | Dərslik, sənətkarın portreti, lüğətlər, https://az.wikipedia.org/wiki/Rəsul_Rza https://www.youtube.com/watch?v=IUSad13xksA | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 15 | R.Rza. "Çinar ömrü". Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.1.1. 1.1.5. 1.2.3. 1.2.4. 2.1.2. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. 3.1.4. Biol. 4.2.2. Coğr. 3.2.5. | Müsahibə, Venn diaqramı, tədqiqat, müzakirə, problemin həlli, fərdi iş, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, sənətkarın portreti, lüğətlər, https://az.wikipedia.org/wiki/Rəsul_Rza https://www.youtube.com/watch?v=IUSad13xksA | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 15 | İ.Şıxlı. "Namərd gülləsi". Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. | Az.d. 2.1.1. X.d. 1.1.2. 3.1.3. 3.1.4. | Müsahibə, fasiləli oxu, proqnozlaşdırılmış oxu, müzakirə, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, əsərin məzmunu üzrə şəkillər, sənətkarın portreti, lüğətlər, https://az.wikipedia.org/wiki/İsmayıl_Şıxlı www.youtube.com/watch?v=plZiGtO2IZ8 www.youtube.com/watch?v=69BUiQdNqQc | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 16 | İ.Şıxlı. "Namərd gülləsi". Məzmunu üzrə iş | 1.1.1. 1.1.3. 1.1.4. 1.1.5. | Az.d. 2.1.1. X.d. 1.1.2. 3.1.3. 3.1.4. | Müsahibə, müzakirə, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/İsmayıl_Şıxlı | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 16 | İ.Şıxlı. "Namərd gülləsi". Təhlili | 1.2.2. 1.2.3. 1.2.4. 2.1.1. 2.1.2. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. 3.1.4. | Müsahibə, əqli hücum, Venn diaqramı, müzakirə, problemin həlli, təqdimat, kiçik və böyük qruplarda iş. | Dərslik, lüğətlər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/İsmayıl_Şıxlı | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 16 | İ.Hüseynov. "Zəhər". Məzmunu üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. 3.1.3. | Az.d. 2.1.1. X.d. 1.1.2. 3.1.3. | Müsahibə, fasiləli oxu, proqnozlaşdırılmış oxu, müzakirə, təqdimat, fərdi iş, | https://az.wikipedia.org/wiki/İsa_Muğanna | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | 3.1.4. | kiçik və böyük qruplarda iş. | www.youtube.com/ watch?v=ftr-OPpa6YQ | tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 17 | İ.Hüseynov. "Zəhər". Məzmunu üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. | Az.d. 2.1.1. X.d. 1.1.2. 2.1.3. 3.1.4. | Müsahibə, müzakirə, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia. org/wiki/İsa_Muğanna www.youtube.com/ watch?v=ftr-OPpa6YQ | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 17 | ***Kiçik summativ qiymətləndirmə*** | | | | | |
| 17 | ***Böyük summativ qiymətləndirmə*** | | | | | |
| 18 | İ.Hüseynov. "Zəhər". Təhlili | 1.2.2. 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. 3.1.4 | Müsahibə, əqli hücum, Venn diaqramı, müzakirə, problemin həlli, təqdimat, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia. org/wiki/İsa_Muğanna www.youtube.com/watch?v=ftr-OPpa6YQ | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 18 | İ.Hüseynov. "Zəhər". Tətbiq. Müzakirə. Yaradıcı iş | 2.2.1. 3.1.1. 3.1.3. | Az.d. 2.2.3. 3.1.1. X.d. 2.1.3. 4.1.1. Biol. 4.1.1. 4.1.2. H.b, 1.2.1. | Müsahibə, təqdimat, müzakirə, müqayisə cədvəli, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia. org/wiki/İsa_Muğanna www.youtube.com/watch?v=ftr-OPpa6YQ | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 18 | M.Araz. "Əsgər məktubu". Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. | Az.d. 1.2.4. 2.2.3. X.d. 3.1.4. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia. org/wiki/Məmməd_Araz www.youtube.com/watch?v=gZJ6o-TwXpg | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 19 | M.Araz. "Əsgər məktubu". Təhlili | 1.2.2. 1.2.4. 2.2.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. | Müsahibə, təqdimat, fərdi iş, cütlük şəklində iş, kiçik və böyük qruplarda iş. | Dərslik, sənətkarın portreti, iş vərəqləri, lüğətlər, www.youtube.com/ watch?v=4cNi3Wdkc3k | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 19 | M.Araz. "Əsgər məktubu". Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.1.1. 1.1.2. 1.2.4. 2.1.2. | Az.d. 1.2.4. 2.2.3. X.d. 3.1.4. | Müsahibə, müzakirə, problemin həlli, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, lüğətlər, www.youtube.com/ watch?v=4cNi3Wdkc3k www.youtube.com/ watch?v=A-CiJf_Wh8s | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 19 | "Kimi mənəviyyatlı insan saymaq olar" mövzusunda essenin yazılması | 3.1.1. | Az.d. 1.1.2. 1.2.4. 2.2.3. X.d. 2.1.2. 2.1.3. | Esse üzərində iş, fərdi iş. | Dərslik, inşa ilə bağlı tövsiyələr, lüğətlər | Mətn (esse) |
| 20 | "Kimi mənəviy-yatlı insan saymaq olar" mövzusunda essenin müzakirəsi | 3.1.1. 3.1.2. 3.1.3. | Az.d. 1.1.2. 1.2.4. 2.2.3. X.d. 2.1.2. 2.1.3. | Təqdimat, müsahibə, müzakirə. | Dərslik, esse ilə bağlı tövsiyələr, lüğətlər | Mətn (yazılı nitq bacarıqları üzrə qeydiyyat vərəqi), şagirdin təqdimatı, özünüqiymətləndir-mə cədvəli |
| 20 | "Mənəvi dəyərlərimizi yaşadaq" mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | 2.1.1. 2.1.2. 2.2.1. | Az.d. 1.2.4. 2.2.3. X.d. 3.1.4. | Təqdimat, müsahibə, müzakirə, kiçik və böyük qruplarda iş. | Dərslik, layihə materialları | şifahi sual-cavab (şifahi nitq baca-rıqları üzrə qeydiy-yat vərəqi), layihə (şagirdin təqdimatı), özünüqiymətlən-dirmə cədvəli |
| 20 | ***Kiçik summativ qiymətləndirmə*** | | | | | |
| 21 | Ə. Kərim. "Qaytar ana borcunu". Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. | Az.d. 2.1.1. X.d. 1.1.2. 3.1.4. H.b. 3.2.2. | Müsahibə, iki-hissəli gündə-lik, təqdimat, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Əli_Kərim www.youtube.com/watch?v=Y05eACGYZPs www.youtube.com/watch?v=mqLWliXSebY | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqver-mə (tapşırıq), təqdimatlar |
| 21 | Ə. Kərim ."Qaytar ana borcunu". Təhlili | 1.2.2. 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. 3.1.4. H.b. 3.2.2. | Müsahibə, əqli hücum, Venn diaqramı, müzakirə, problemin həlli, təqdimat, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Əli_Kərim www.youtube.com/watch?v=Y05eACGYZPs | Şifahi sual-cavab (şifahi nitq baca-rıqları üzrə qeydiy-yat vərəqi), tapşı-rıqvermə (tapşırıq), təqdimatlar |
| 21 | Ə. Kərim. "Qaytar ana borcunu". Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.1.2. 2.1.2. 2.2.1. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. 3.1.4. H.b. 3.2.2. | Müsahibə, təqdimat, müzakirə, müqayisə cədvəli, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Əli_Kərim www.youtube.com/watch?v=Y05eACGYZPs | Şifahi sual-cavab (şifahi nitq baca-rıqları üzrə qeydiy-yat vərəqi), tapşı-rıqvermə (tapşırıq), təqdimatlar |
| 22 | Anar. "Keçən ilin son gecəsi". Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. | Az.d. 2.1.1. X.d. 1.1.2. 3.1.3. 3.1.4. | Müsahibə, fasiləli oxu, proqnozlaşdırıl-mış oxu, müzakirə, təqdimat, fərdi iş, kiçik və | https://az.wikipedia.org/wiki/Anar https://www.youtube.com/watch?v=rhKUzh8g4hE https://www.youtube.com/watch?v=UkCXwElPWP0 | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq ba-carıqları üzrə qeydiyyat vərə-qi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | böyük qruplarda iş. | www.myvideo.az/?video_id=1892581 | |
| 22 | Anar . “Keçən ilin son gecəsi”. Məzmunu üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>1.1.2.<br>3.1.3.<br>3.1.4 | Müsahibə, fasiləli oxu, müzakirə, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://www.youtube.com/watch?v=rhKUzh8g4hE<br>https://www.youtube.com/watch?v=UkCXwElPWP0<br>www.myvideo.az/?video_id=1892581 | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 22 | Anar. “Keçən ilin son gecəsi”. Təhlili | 1.2.2.<br>1.2.4.<br>2.1.1.<br>2.2.1. | Az.d.<br>.2.2.3.<br>X.d.<br>2.1.3.<br>3.1.4 | Müsahibə, əqli hücum, Venn diaqramı, müzakirə, problemin həlli, təqdimat, kiçik və böyük qruplarda iş. | https://www.youtube.com/watch?v=rhKUzh8g4hE<br>https://www.youtube.com/watch?v=UkCXwElPWP0 | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə tapşırıq), təqdimatlar |
| 23 | Anar. “Keçən ilin son gecəsi”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.2.1.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>2.1.2<br>2.2.3.<br>X.d.<br>2.1.3. | Müsahibə, təqdimat, müzakirə, müqayisə cədvəli, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | https://www.youtube.com/watch?v=rhKUzh8g4hE<br>https://www.youtube.com/watch?v=UkCXwElPWP0 | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 23 | “Ədəbiyyat və incəsənətimizdə ana obrazı” mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | 2.1.1.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>3.1.4. | Təqdimat, müsahibə, müzakirə, kiçik və böyük qruplarda iş. | Dərslik, layihə materialları | şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), layihə (şagirdin təqdimatı), özünüqiymətləndirmə cədvəli |
| 23 | Elçin. “Talvar”. Məzmunu üzrə iş | 1.1.1.<br>1.1.3.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>1.1.2.<br>3.1.3.<br>3.1.4. | Müsahibə, fasiləli oxu, proqnozlaşdırılmış oxu, müzakirə, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Elçin_Əfəndiyev<br>www.youtube.com/watch?v=g8kc5IWVMdU | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 24 | Elçin. “Talvar”. Məzmunu üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>1.1.2.<br>3.1.3.<br>3.1.4. | Müsahibə, əqli hücum, Venn diaqramı, müzakirə, problemin həlli, təqdimat, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Elçin_Əfəndiyev<br>www.youtube.com/watch?v=g8kc5IWVMdU | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 24 | Elçin. “Talvar”. Təhlili | 1.2.1.<br>1.2.2.<br>1.2.3.<br>1.2.4.<br>2.1.1.<br>2.1.2. | Az.d.<br>2.1.2.<br>2.2.3.<br>X.d.<br>2.1.3.<br>3.1.4. | Müsahibə, təqdimat, müzakirə, müqayisə cədvəli, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | www.youtube.com/watch?v=g8kc5IWVMdU | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 24 | Elçin. “Talvar”. Tətbiq. Müzakirə, Yaradıcı iş | 1.1.1.<br>1.1.2.<br>1.1.5.<br>1.2.3.<br>1.2.4.<br>2.1.2. | Az.d.<br>2.1.2.<br>2.2.3.<br>X.d.<br>2.1.3.<br>3.1.4. | Müsahibə, təqdimat, müzakirə, müqayisə cədvəli, kiçik və böyük qruplarda iş. | www.youtube.com/watch?v=g8kc5IWVMdU | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| 25 | Sinifdənxaric oxu dərsi | 1.2.2.<br>1.2.4.<br>2.2.1. | Az.d.<br>1.1.2.<br>1.2.4.<br>2.1.2.<br>2.2.1.<br>X.d.<br>2.1.3. | Müsahibə, təqdimat, müzakirə, müqayisə cədvəli, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/İsi_Məlikzadə | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar, özünüqiymətləndirmə cədvəli |
| 25 | “Talvar” hekayəsinin qəhrəmanı Əliabbas obrazına münasibətim” mövzusunda inşa yazının aparılması | 3.1.3. | Az.d.<br>1.1.2.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>2.1.3. | Müsahibə, müzakirə, təqdimat. | Dərslik, inşa ilə bağlı tövsiyələr, lüğətlər | Yazı işi (inşa) |
| 25 | “Talvar” hekayəsinin qəhrəmanı Əliabbas obrazına münasibətim” mövzusunda inşa yazının müzakirəsi | 3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>1.1.2.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>2.1.3. | Müsahibə, müzakirə, təqdimat. | Dərslik, inşa ilə bağlı tövsiyələr, lüğətlər | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), şagirdin təqdimatı, özünüqiymətləndirmə cədvəli |
| 26 | ***Kiçik summativ qiymətləndirmə*** | | | | | |

**III MƏRHƏLƏ**
**DÖVLƏT MÜSTƏQİLLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI**
**(1991-Cİ İLDƏN GÜNÜMÜZƏ QƏDƏR)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 26 | Q. İlkin. "İntiqam". Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. | Az.d. 1.2.4. 2.2.3. X.d. 3.1.4. | Müsahibə, müzakirə, təqdimat, problemin həlli, fərdi iş, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Qılman_İlkin www.youtube.com/watch?v=lK-SehxW-NY | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 26 | Q. İlkin. "İntiqam". Təhlili | 1.2.2. 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. | Müsahibə, ikihissəli gündəlik, fasilələrlə oxu, müzakirə, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, sənətkarın portreti, əsərləri https://az.wikipedia.org/wiki/Qılman_İlkin | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 27 | Q. İlkin. "İntiqam". Tətbiq. Müzakirə. Yaradıcı iş | 2.2.1. 3.1.1. 3.1.3. | | Müsahibə, təqdimat, müzakirə, müqayisə cədvəli, cütlüklə iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Qılman_İlkin | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 27 | B.Vahabzadə. "İstiqlal". Məzmunu üzrə iş | 1.1.1. 1.1.5. | 1.2.4. 2.2.3. X.d. 3.1.4. Biol. 3.1.1. | Təqdimat, müzakirə, problemin həlli, kiçik və böyük qruplarda iş. | www.youtube.com/watch?v=sFFXI9pTrHA https://az.wikipedia.org/.../Bəxtiyar_Vahabza-də | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 27 | B.Vahabzadə. "İstiqlal". Məzmunu üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. | Az.d. 1.2.4. 2.2.3. X.d. 3.1.4. Biol. 3.1.1. | Müsahibə, müzakirə, Venn diaqramı, müqayisə cədvəli, problemin həlli, təqdimat, fərdi iş, cütlüklə iş, kiçik qruplarda iş. | Dərslik, iş vərəqləri, https://az.wikipedia.org/.../Bəxtiyar_Vahabza-də www.youtube.com/watch?v=L1DP-Ue88x4 | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 28 | B.Vahabzadə. "İstiqlal". Təhlili | 1.2.4. 2.1.1. 2.2.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. | Müsahibə, təqdimat, müzakirə, ikihissəli gündəlik, fərdi iş, kiçik qruplarda iş. | Dərslik, əsərin məzmunu üzrə şəkillər, sənətkarın portreti, iş vərəqləri,https://az.wikipedia.org/.../Bəxtiyar_Vahabzadə www.youtube.com/watch?v=nTLntlb2omI | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 28 | B.Vahabzadə. "İstiqlal". Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.2.1.<br>2.1.1.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3. | Müsahibə, təqdimat, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, əsərin məzmunu üzrə şəkillər, sənətkarın portreti, https://az.wikipedia.org/.../Bəxtiyar_Vahabza-də www.youtube.com/watch?v=nTLntlb2omI | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), təqdimatlar |
| 28 | X. R. Ulutürk. "Qaytar mənim qüdrətimi, Azərbaycan!" Məzmunu üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>3.1.4.<br>Biol.<br>3.1.1. | Müsahibə, iki-hissəli gündə-lik, təqdimat, müzakirə, fərdi iş, kiçik və bö-yük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Xəlil_Rza_Ulutürk www.youtube.com/watch?v=szcJpMua6Mc | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tap-şırıq), təqdimatlar |
| 29 | X. R. Ulutürk. "Qaytar mənim qüdrətimi, Azərbaycan!" Təhlili | 1.2.2.<br>1.2.3.<br>1.2.4.<br>2.1.1.<br>2.2.1. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3. | Müsahibə, əqli hücum, Venn diaqramı, müzakirə, problemin həlli, təqdimat, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Xəlil_Rza_Ulutürk www.youtube.com/watch?v=7ybeFFBLT5Q | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 29 | X. R. Ulutürk. "Qaytar mənim qüdrətimi, Azərbaycan!" Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.1.2.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3. | Müsahibə, təq-dimat, müza-kirə, müqayisə cədvəli, cütlük-lə iş, kiçik və böyük qrup-larda iş. | https://az.wikipedia.org/wiki/Xəlil_Rza_Ulutürk www.youtube.com/watch?v=5p0U7GOBdfA | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 29 | ***Kiçik summativ qiymətləndirmə*** | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| • **CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI** | | | | | | |
| 30 | M.Şəhriyar. "Heydərbabaya salam". Məz-munu üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. | Az.d. 2.1.1. | Müsahibə, ikihissəli gündəlik, təqdimat, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, əsərin məz-mununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, h*ttps://az.wikipedia. org/.../Məhəmməd-hüseyn_Şəhriyar* www.youtube.com/watch?v=JEgpYo_ZPWg | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 30 | M.Şəhriyar. "Heydərbabaya salam". Məzmunu üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. | Az.d. 2.1.1. X.d. 3.1.4 Az.t. 3.1.3. | Müsahibə, təq-dimat, problemin həlli, müzakirə, təqdimat, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, lü-ğətlər, *https://az.wikipedia. org/.../Məhəmmədhü-seyn_Şəhriyar* www.youtube.com/watch?v=JEgpYo_ZPWg | Oxu (mətn), müşahi-də (müşahidə vərəq-ləri), şifahi sual-ca-vab (şifahi nitq baca-rıqları üzrə qeydiyyat vəsrəqi), tapşırıq-vermə (tapşırıq), təqdimatlar |
| 30 | M.Şəhriyar. "Heydərbabaya salam". Təhlili | 1.2.2. 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 1.1.2. 2.2.1. 3.1.1. X.d. 3.1.4. 4.1.1. | Müsahibə, təqdimat, problemin həlli, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, iş vərəqləri, lüğətlər, *https://az.wikipedia. org/.../Məhəmmədhüseyn_Şəhriyar* www.youtube.com/watch?v=JEgpYo_ZPWg | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq ba-carıqları üzrə qeydiy-yat vərəqi), tap-şırıqvermə (tapşırıq), təqdimatlar |
| 31 | M.Şəhriyar. "Heydərbabaya salam". Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.1.2. 2.1.1. 2.2.1. | Az.d. 2.2.1. 3.1.1. X.d. 2.1.3. 4.1.1. | Müsahibə, təqdimat, müzakirə, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, *https://az.wikipedia. org/.../Məhəmmədhüseyn_Şəhriyar* www.youtube.com/watch?v=JEgpYo_ZPWg | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |

| • DÜNYA ƏDƏBİYYATI | | | | | | |
|---|---|---|---|---|---|---|
| 31 | E.Heminquey. "Qoca və dəniz". Məzmunu üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. 2.2.1. | Az.d. 2.1.1. 2.1.2. X.d. 1.1.2. 3.1.3. 3.1.4 | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Ernest_Heminquey https://www.youtube.com/watch?v=N0cGw5dGJNE | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 31 | E.Heminquey. "Qoca və dəniz". Məzmunu üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. 2.2.1. | Az.d. 2.1.1. 2.1.2. X.d. 1.1.2. 3.1.3. 3.1.4 | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Ernest_Heminquey https://www.youtube.com/watch?v=N0cGw5dGJNE | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 32 | E.Heminquey. "Qoca və dəniz". Təhlili | 1.2.2. 1.2.4. 2.1.2. 2.2.1. | Az.d. 2.1.2. 2.2.3. 3.1.3. X.d. 2.1.3. 3.1.4. 4.1.1. | Müsahibə, təqdimat, problemin həlli, diskussiya, müqayisə cədvəli, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Ernest_Heminquey https://www.youtube.com/watch?v=N0cGw5dGJNE | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 32 | E.Heminquey. "Qoca və dəniz". Tətbiq. Müzakirə. Yaradıcı iş | 1.1.4. 1.2.1. 2.2.1. | Az.d. 2.1.2. 2.2.3. X.d. 2.1.3. 3.1.4 | Müsahibə, təqdimat, müqayisə, problemin həlli, diskussiya, fərdi iş, kiçik və böyük qruplarda iş. | https://az.wikipedia.org/wiki/Ernest_Heminquey https://www.youtube.com/watch?v=N0cGw5dGJNE | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar |
| 32 | Sinifdənxaric oxu dərsi | 1.2.2. 1.2.3. 1.2.4. 2.1.1. 2.1.2. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. | Müsahibə, müzakirə, ikihissəli gündəlik, fasilələrlə oxu, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, sənətkarın portreti, əsərləri. https://az.wikipedia.org/wiki/Zəlimxan_Yaqub www.youtube.com/watch?v=21Y-n-FPsX4 | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), təqdimatlar, özünüqiymətləndirmə cədvəli |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 33 | "Ədəbiyyat dərsləri mənə nə verdi" mövzusunda esse yazılması | 3.1.1.<br>3.1.3 | Az.d.<br>1.1.2.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>2.1.3. | Müsahibə, müzakirə, təqdimat. | Dərslik, esse ilə bağlı tövsiyələr, lüğətlər | Yazı işi (esse) |
| 33 | "Ədəbiyyat dərsləri mənə nə verdi" mövzusunda esselərin müzakirəsi | 2.2.1.<br>3.1.2. | Az.d.<br>1.1.2.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>2.1.3. | Müsahibə, müzakirə, təqdimat. | Dərslik, esse ilə bağlı tövsiyələr, lüğətlər | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), şagirdin təqdimatı, özünüqiymətləndirmə cədvəli |
| 33 | "Ədəbiyyat dərslərində öyrəndiyim hansı əsər məndə daha güclü təəssürat oyatdı" mövzusunda layihə üzrə təqdimatların müzakirəsi | 2.1.1.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>3.1.4. | Müsahibə, müzakirə, problemin həlli, təqdimat, fərdi iş, kiçik və böyük qruplarda iş. | Dərslik, layihə materialları | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tap-şırıq), layihə (şagir-din təqdimatı), özünüqiymətləndirmə cədvəli |
| 34 | Layihə üzrə təqdimatların dəyərləndirilmə si | 2.1.1.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>3.1.4. | Müsahibə, müzakirə. | Dərslik<br>layihə materialları | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tap-şırıq), layihə (şagir-din təqdimatı), özünüqiymətləndirmə cədvəli |
| 34 | ***Kiçik summativ qiymətləndirmə*** | | | | | |
| 34 | ***Böyük summativ qiymətləndirmə*** | | | | | |

Az.d. – Azərbaycan dili, X.d. – xarici dil, Üm. t. – ümumi tarix, Biol. – biologiya, C. – coğrafiya, H.b.– həyat bilgisi, M. – musiqi.

Metodik vəsaitə müəllimlərin təşəbbüskar, yaradıcı fəaliyyətinə istiqamət vermək məqsədi ilə **icmallarla yanaşı, yığcam dərs planları – mövzular üzrə təlim texnologiyaları** da daxil edilmişdir.

**“Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı tədbirlər barədə” Azərbaycan Respublikası Elm və Təhsil nazirinin 16 dekabr 2014-cü il tarixli, 1279 №-li əmrində** aşağıda qeyd olunan istiqamətlər əsasında şagirdlərin mütaliəyə həvəsləndirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması vəzifəsi qarşıya qoyulur:

– məktəblərdə “Ən fəal oxucu”, “Bədii əsər haqqında ən yaxşı inşa”, “Bədii əsər barədə ən mükəmməl rəy” müsabiqələrinin və s. keçirilməsi;

– şagirdlər tərəfindən oxunan əsərlərin onların iştirakı ilə müzakirəsinin keçirilməsi, bu əsərlər əsasında şagirdlərin təəssürat, rəy və mühakimə xarakterli inşa yazmalarının təşkil edilməsi;

– oxuduqları əsərlər üzrə məktəblərdə şagirdlərin iştirakı ilə fraqmentlər şəklində səhnələşdirilmiş tamaşa nümunələrinin təşkili;

– məktəblərdə oxuduqları əsərlərin sayına görə siniflər üzrə şagirdlərin reytinqinin müəyyən edilməsi və bu əsasda onların arasında sağlam rəqabət mühitinin yaradılması. (https://edu.gov.az/az/esas-senedler/9763)

Bu vəzifələrin yerinə yetirilməsində, şübhəsiz, ədəbiyyat dərslərinin müxtəlif tiplərindən, təlimin təşkilinin fərqli formalarından istifadə olunmalıdır. Bu, eləcə də 9-cu sinfin icbari xarakter daşıyan ümumi orta təhsilin son pilləsi olması təlimin təşkili formalarından daha məqsədyönlü istifadə zərurətini doğurmuşdur. Təhsil Nazirliyinin şagirdlərin bədii ədəbiyyatın geniş və sistemli mütaliəsi və müzakirəsinə cəlb edilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr, eləcə də kurikulumun tələbləri dərslikdə və metodik vəsaitdə təlimin təşkilinin aşağıdakı formaları üzərində dayanmağı zəruri etmişdir:

1. Bədii əsərin məzmununun öyrənilməsi dərsləri
2. Bədii əsərlərin təhlili dərsləri
3. Sinifdənxaric oxu dərsləri
4. Layihələr üzrə təqdimatlar
5. Nitq inkişafı (inşa, esse) dərsləri

Öyrənilmiş materialın düzgün təqdim edilməsi kurikulum üzrə ədəbiyyat dərslərində şagirdlərdə formalaşdırılan əsas bacarıqlardandır. Bu bacarıq 9-cu sinif üçün fənn kurikulumunda təlim nəticələrində (şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir), eləcə də 2.1.1. altstandartında (Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir) və 2.1.2. altstandartında (Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir) öz əksini tapmışdır.

Şagirdlərdə təqdimetmə bacarığının formalaşdırılması üçün dərs ili boyu müstəqil olaraq müvafiq məlumatları əldə etmək, müxtəlif mənbə və vasitələrdən düzgün yararlanmaq, informasiya texnologiyalarının imkanlarından faydalanmaq, əldə olunanları sistemləşdirmək və ümumiləşdirmək bacarıqları aşılanmalıdır.

Bu baxımdan, öyrənilən bədii əsərlərlə bağlı təqdimatlar hazırlamaq üçün demək olar ki, hər bir dərsdə, eləcə də hər yarımilin sonunda müxtəlif mövzuların təklif edilməsi xüsusi əhəmiyyət kəsb edir. Şagirdlərin apardıqları tədqiqatların nəticələrini, qazandıqları bilikləri **layihələr üzrə təqdimatlara** həsr olunmuş dərslərdə nümayiş etdirməsi isə müstəqil araşdırma aparmaq, yaradıcı fəaliyyətin nəticələrini təqdim etmək bacarıqlarının formalaşdırılması baxımından əhəmiyyətlidir.

9-cu sinifdə ədəbi təhsilin mühüm bir mərhələsinin yekunlaşması yazılı nitqin inkişafı dərslərinə daha çox diqqət yetirilməsini tələb edir. Bu baxımdan, bölmələrin sonunda yazılı nitqin inkişafını təmin edən **inşa və ya esse dərslərinə** ayrıca yer verilməsi zərurəti meydana çıxmışdır. Həmin dərslərdə yalnız müqayisə deyil, həmçinin təsvir, mühakimə xarakterli inşa və esselərin yazılması, müvafiq standartlar əsasında formativ qiymətləndirmənin aparılması məqsədəuyğundur. İnşa və esse yazmaq bacarığının formalaşdırılması ümumi orta təhsili başa vuran şagirdlərin yazı işinin aparılmasını da nəzərdə tutan buraxılış imtahanlarında uğur qazanması baxımından da zəruridir.

Ev tapşırıqlarında şagirdlərin yaradıcı müstəqil işə cəlb edilməsi məqsədi ön plana çəkilir. Belə ki, irihəcmli əsərlərin davamının evdə oxunması, tanış olmayan sözlərin mənasının müxtəlif lüğətlərdən və sorğu kitablarından istifadə ilə aydınlaşdırılması, müxtəlif səciyyəli şifahi təqdimatların hazırlanması və s. tapşırıqlar bu qəbildəndir. Ev tapşırıqlarının yerinə yetirilməsi səviyyəsi müvafiq qiymətləndirmə meyarları (yalnız məruzə, inşa və esse üzrə reallaşdırılan standartlar növbəti dərsin standartları sırasında əks etdirilmişdir) əsasında müəyyənləşdirilir.

Mütaliə mədəniyyətinin formalaşdırılmasında mühüm rol oynayan **sinifdənxaric oxu dərsləri** şagirdlərin mütaliə etdikləri kitabların müzakirəsi, əsər barədə rəy və mülahizələrinin öyrənilməsi, kitab, mütaliə mühitinin yaradılması üçün geniş imkanlar yaradır. Bu dərslərdə sinifdənxaric iş elementlərindən istifadə, şagirdlərin maraq və qabiliyyətlərinin daha çox nəzərə alınması, sərbəst rəy mübadiləsi mütaliə mədəniyyətinin formalaşdırılmasına zəmin yaradır, mütaliə ilə bağlı yaradıcılıq və təşəbbüskarlığın, müstəqil mütaliəyə həvəsin artırılmasına səbəb olur.

Fənn kurikulumunda 1.1.1. altstandartı tanış olmayan sözlərin mənasının dərsliyin sonunda verilmiş lüğətdən, eləcə də digər lüğət və sorğu kitablarından istifadə etməklə müstəqil aydınlaşdırılmasını nəzərdə tutur. Bütün sözlərin mənasının yalnız dərsliyin sonunda verilmiş lüğətdə axtarılması, əslində, həmin standartın məzmununun təhrif edilməsinə səbəb olur. İşin belə təşkili şagirdlərin digər lüğətlərdən, sorğu kitablarından istifadə bacarığına mənfi təsir edir. Buna görə də şagirdlərə tanış olmayan sözlərin bir qismi dərslikdəki lüğətdə əks etdirilməmişdir. Standartın tələbinə uyğun olaraq, belə sözlərin mənasının digər lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırılması diqqət mərkəzində saxlanılmalıdır.

Sinifdə öyrənilən əsərlərin tədrisinə qədər onların müstəqil oxusunun həyata keçrilməsi vacibdir. Bu, məzmun üzrə işin səmərəli təşkilində əhəmiyyətli rol oynadığı kimi, vaxt itkisinin də qarşısını alır.

# FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYA

**Fəndaxili inteqrasiya** tələbi kurikulumun məzmun xətlərinin mahiyyətindən irəli gəlir. Belə ki, fənn kurikulumunun məzmun xətləri mahiyyət etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və inkişaf etdirir.

Fəndaxili inteqrasiyanın əsas yolu **məzmun standartlarının inteqrativ şəkildə reallaşdırılmasıdır.** Belə ki, ədəbiyyat kurikulumunda bütün məzmun xətləri və standartları arasında təbii əlaqə vardır. Aşağıdakı cədvəldə verilən nümunələrdən göründüyü kimi, kurikulumdakı məzmun xətti üzrə bir-birini tamamlayan altstandartların inteqrativ reallaşdırılması imkanları genişdir:

| 1. Ədəbiyyat və həyat həqiqətləri | | 2. Şifahi nitq<br>3. Yazılı nitq |
|---|---|---|
| 1.1.4. Bədii nümunələrin (hekayə, povest, roman, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir. | 1.2.1. Bədii nümunələri (hekayə, povest, roman, dram, poema) növ və janr baxımından müqayisə edir. | 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir. |
| 1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metonimiya, inversiya, simvol) müəyyənləşdirir. | 1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metonimiya, inversiya, simvol) rolunu aydınlaşdırır. | 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir.<br>3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirir. |

Əsas və altstandartların əlaqəsi təlim prosesində müxtəlif sual və tapşırıqlar vasitəsilə reallaşdırılır. Bundan əlavə, bədii əsərlərin mövzu, ədəbi növ, janr, obrazlar, problem baxımından əlaqələndirilməsi, müqayisə edilməsi məqsədəuyğundur.

**Fənlərarası inteqrasiya** IX sinifdə tədris olunan müxtəlif fənlər üzrə altstandartların əlaqələndirilməsi, təlim prosesində digər fənlər üzrə qazanılmış müvafiq bilik və bacarıqlara, o cümlədən musiqi, rəssamlıq, heykəltəraşlıq, kino, teatr və s. istinad edilməsi ilə reallaşdırılır. Ədəbiyyat dərslərinin illik planlaşdırılması nümunəsində bu imkanlar daha geniş şəkildə dil fənləri ilə yanaşı, tarix, coğrafiya, biologiya və s. fənlərin nümunəsində şərh edilmişdir.

Metodik vəsaitdə ədəbiyyat dərslərinin icmal və planları (texnologiyalar) **fəal/interaktiv təlim texnologiyası əsasında işlənilmişdir.** Müəllim və şagirdlərin ədəbiyyat dərslərində qarşıya qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsinə yönəldilən birgə fəaliyyəti aşağıdakı interaktiv metodlar (bir qismi xatırladılır) zəminində həyata keçirilir.

| № | METOD | TEXNİKALAR |
|---|---|---|
| 1. | Beyin həmləsi | o Əqli hücum<br>o BİBÖ<br>o Auksion<br>o Şaxələndirmə (Klaster)<br>o Suallar<br>o Anlayışın müəyyənləşdirilməsi<br>o Söz assosiasiyaları və s. |
| 2. | Müzakirələr | o Diskussiya<br>o Müzakirə<br>o Klassik dialoq<br>o Akvarium və s. |
| 3. | Rollu oyunlar | o Rollu oyun<br>o Səhnələşdirmə və s. |
| 4. | Prezentasiyalar | o Təqdimatlar<br>o Esse və s. |
| 5. | Tədqiqatın aparılması | o Problemin həlli<br>o Konkret hadisənin tədqiqi<br>o Venn diaqramı<br>o Layihələrin hazırlanması<br>o Müsahibə<br>o Qərarlar ağacı<br>o İdeyalar xalısı və s. |
| 6. | Məntiqi təfəkkürün inkişafına yönəldilmiş metodlar | o Qaydalara əsasən oyunlar: oyun-tapmaca, oyun-yarış və s. |
| 7. | Tənqidi təfəkkürün inkişafına yönəldilmiş metodlar | o Meyar üzrə qiymətləndirmə<br>o əsərdə qoyulan problemə, təsvir olunan hadisəyə müxtəlif nöqteyi-nəzərdən baxılması və s. |
| 8. | Yaradıcılığa yönəldilmiş metodlar | o Proqnozlaşdırma<br>o Atalar sözləri üzrə iş və s. |
| 9. | Təşkilati metodlar | o Ziqzaq və ya Mozaika və s. |
| 10. | Qruplara bölünmə | o "Say"<br>o "Ad günləri sırası üzrə say"<br>o "Ümumi xüsusiyyət"<br>o "Püşkatma"<br>o "Mozaika"<br>o Sosiometrik üsul<br>o "Mahnı axtarışında" |
| 11. | Fəallaşdırma | o Müsbət iş iqliminin yaranmasına imkan yaradan oyunlar<br>o Fəallaşdırma oyunları və s. |

**Diferensial təlimin, inklüzivliyin təmin edilməsi** məqsədilə bərpaedici və yaradıcı, qapalı, açıq, yarımaçıq tipli suallardan müxtəlif səviyyəli şagirdlər üçün tapşırıq variantlarından, cədvəllərdən və s. istifadə olunmuş konkret təlim şəraitinə uyğun tövsiyələr verilmişdir.

Təcrübə göstərir ki, diferensial təlimdə şagirdləri fəallaşdırmaq üçün interaktiv təlim texnologiyalarından, informasiya-kommunikasiya vasitələrindən istifadə faydalıdır. Eləcə də, şagirdləri cütlərə və qruplara ayırarkən hər qrupda təlim nəticələri müxtəlif olan şagirdlərin təmsil olunması diqqət mərkəzində saxlanılmalıdır. Fərdi və cütlük şəklində aparılan tədqiqat zamanı fərqli inkişaf xüsusiyyətlərinə malik şagirdlərə istiqamət verilməsi, bilik və bacarıqların nümayiş etdirilməsi üçün müxtəlif təqdimat formalarından (şifahi və yazılı cavablar, oyun və s.) istifadə olunması təlimin səmərəliliyinə az təsir etmir.

Özünüqiymətləndirmə üçün meyarlar elə müəyyənləşdirilməlidir ki, şagirdlərdə qiymətləndirmə ilə bağlı psixoloji gərginlik yaranmasın. Ümumiyyətlə, qiymətləndirilmə prosesində fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqlara müəllimin həssas münasibəti çox əhəmiyyətlidir.

## ƏDƏBİYYAT FƏNNİ ÜZRƏ MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRMƏ

Ədəbiyyat fənni üzrə məktəbdaxili qiymətləndirmə "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası"na uyğun olaraq aparılır.

Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. Məktəbdaxili qiymətləndirmə *diaqnostik*, *formativ* və *summativ* qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə** dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılmaqla şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi ilə aparılır.

Diaqnostik qiymətləndirmədə tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

Diaqnostik qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər (nəticələrin qısa təsviri) təhsilalanın fərdi qovluğunda saxlanılır.

**Formativ qiymətləndirmə** təhsilalanın hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir.

Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı “Müəllimin formativ qiymətləndirmə dəftəri”ndə və “Məktəbli kitabçası”nda müvafiq yazılı qeydlər aparılır.

Müəllim dərs ilinin yarımillərinin sonunda “Müəllimin formativ qiymətləndirmə dəftəri”ndəki qeydlər əsasında təhsilalanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsilalanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

**Summativ qiymətləndirmə** iki formada aparılır:

• hər bir fənn üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;

• hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur.

Kiçik summativ qiymətləndirmə II-XI siniflərdə bütün fənlər üzrə hər yarımildə 3 dəfədən az 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Hər fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur.

Hər bir fənn üzrə kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

Kiçik və böyük summativ qiymətləndirmələr 100 ballıq şkala ilə ölçülür.

Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri nəzərə alınmaqla hazırlanır.

Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;

– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;

– 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;

– 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

Təhsilalanın summativ qiymətləndirmədə topladığı balların 2, 3, 4, 5 qiymətlərinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir (Qaydalar 4.19-cu bənd):

| Bal aralığı | Qiymət |
|---|---|
| [0-30] | 2 (qeyri-kafi) |
| (30-60] | 3 (kafi) |
| (60-80] | 4 (yaxşı) |
| [80-100] | 5 (əla) |

### Yarımillik və illik qiymətlərin hesablanması

Təhsilalanların kiçik və böyük summativ qiymətləndirmələrdə topladığı ballar əsasında yarımillik ballar hesablanır. Yarımillik balının 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Yarımillik balların miqdarı və onların uyğunlaşdırıldığı qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

Böyük summativ qiymətləndirmə aparılmayan fənlər üzrə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \cdots + ksq_n}{n}$$

Y- təhsilalanın yarımillik üzrə balını;

$ksq_1, ksq_2, .., ksq_n$ – hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarı;

$n$ – kiçik summativ qiymətləndirmələrin sayını bildirir.

Böyük summativ qiymətləndirmə aparılan fənlər üzrə yarımillik bal kiçik və böyük summativ qiymətləndirmələrdə toplanılan ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \cdots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

BSQ – hər yarımillik üzrə aparılan böyük summativ qiymətləndirmədə toplanmış balların miqdarı.

Təhsilalanın illik balları onun yarımillik ballarının ədədi ortası kimi hesablanır və illik balın 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

İllik qiymətləndirmənin nəticələrinə əsasən təhsilalanların sinifdən-sinfə keçirilməsi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

## FORMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏLƏRİ

Müəllim ədəbiyyat dərslərində şagird nailiyyətlərinin formativ qiymətləndirilməsi zamanı təqdim edilən nümunələrdən istifadə edə bilər.

### Bədii əsərin məzmunu üzrə bacarıqların qiymətləndirilməsi meyarları və səviyyələri

**Altstandart:** 1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (poema, hekayə, povest, roman, dram) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

**Təlim nəticəsi:** Poemada (şeir, hekayə, povest, roman, dramda) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

**Qiymətləndirmə meyarı:** Aydınlaşdırma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |

**Altstandart:** 1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram) ideya-məzmununa uyğun ifadəli oxuyur.

**Təlim nəticəsi:** Poemanı (şeir, hekayə, povest, roman, dramı) ideya-məzmununa uyğun ifadəli oxuyur.

**Qiymətləndirmə meyarı:** İfadəlioxuma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemanı (şeir, hekayə, povest, roman, dramı) ideya-məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Poemanı (şeir, hekayə, povest, roman, dramı) müəllimin köməyi ilə ideya-məzmununa uyğun ifadəli oxuyur. | Poemanı (şeir, hekayə, povest, roman, dramı), əsasən, ideya-məzmununa uyğun ifadəli oxuyur. | Poemanı (şeir, hekayə, povest, roman, dramı) ideya-məzmununa uyğun ifadəli oxuyur. |

**Altstandart:** 1.1.3. Süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

**Təlim nəticəsi:** Poemanı (hekayə, povest, roman, dramı) hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam (geniş, yaradıcı) nağıl edir.

**Qiymətləndirmə meyarı:** Hissələrəayırma, plan tərtibetmə, nağıletmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemanı (hekayə, povest, roman, dramı) hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu yığcam (geniş, yaradıcı) nağıl etməkdə çətinlik çəkir. | Poemanı (hekayə, povest, roman, dramı) hissələrə ayırır, seçdiyi hissə-nin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yığcam (geniş, yaradıcı) nağıl edir. | Poemanı (hekayə, povest, roman, dramı) hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yığcam (geniş, yaradıcı) nağıl edir. | Poemanı (hekayə, povest, roman, dramı) hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam (geniş, yaradıcı) nağıl edir. |

**Altstandart:** 1.1.4. Bədii nümunələrin (şeir, poema, hekayə, povest, roman, dram) janr xüsusiyyətlərini müəyyənləşdirir.

**Təlim nəticəsi:** Poema janrının (hekayə, dram janrının...) xüsusiyyətlərini müəyyənləşdirir.

**Qiymətləndirmə meyarı:** Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poema janrının (hekayə, dram janrının...) xüsusiyyətlərini müəyyənləşdirməkdə çətinlik çəkir. | Poema janrının (hekayə, dram janrının...) xüsusiyyətlərini müəllimin köməyi ilə müəyyənləşdirir. | Poema janrının (hekayə, dram janrının...) xüsusiyyətlərini, əsasən, müəyyənləşdirir. | Poema janrının (hekayə, dram janrının...) xüsusiyyətlərini müəyyənləşdirir. |

**Altstandart:** 1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metonimiya, inversiya, simvol) müəyyənləşdirir.

**Təlim nəticəsi:** Poemada (hekayədə, povestdə, şeirdə...) bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.

**Qiymətləndirmə meyarı:** Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemada (hekayədə, povestdə, şeirdə...) bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək-də çətinlik çəkir. | Poemada (hekayədə, povestdə, şeirdə...) bədii təsvir və ifadə vasitələrini suallar verməklə və kömək əsasında müəyyən-ləşdirir. | Poemada (hekayədə, povestdə, şeirdə...) bədii təsvir və ifadə vasitələrini, əsasən, müəyyənləşdirir. | Poemada (hekayədə, povestdə, şeirdə...) bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Bədii əsərin təhlili üzrə**
**bacarıqların qiymətləndirilməsi meyarları və səviyyələri**

**Altstandart:** 1.2.1. Bədii nümunələri (hekayə, povest, roman, dram, poema) növ və janr baxımından müqayisə edir.

**Təlim nəticəsi:** Hekayəni (dram, poemanı) janr baxımından romanla müqayisə edir.

**Qiymətləndirmə meyarı:** Müqayisəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayəni janr baxımından romanla müqayisə etməkdə çətinlik çəkir. | Hekayəni janr baxımından romanla müəllimin köməyi ilə müqayisə edir. | Hekayəni janr baxımından romanla, əsasən, müqayisə edir. | Hekayəni janr baxımından romanla müqayisə edir. |

**Altstandart:** 1.2.2. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.

**Təlim nəticəsi:** Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə hekayənin (dramın, povestin...) qəhrəmanlarını səciyyələndirir.

**Qiymətləndirmə meyarı:** Səciyyələndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ədəbi qəhrəmanları digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə səciyyələndirməkdə çətinlik çəkir. | Ədəbi qəhrəmanları digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə qismən səciyyələndirir. | Ədəbi qəhrəmanları digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə, əsasən, səciyyələndirir. | Ədəbi qəhrəmanları digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə səciyyələndirir. |

**Altstandart:** 1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metonimiya, inversiya, simvol) rolunu aydınlaşdırır.

**Təlim nəticəsi:** Povestin (hekayənin, şeirin...) təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır.

**Qiymətləndirmə meyarı:** Aydınlaşdırma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Povestdə (hekayədə...) bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Povestdə (hekayədə...) bədii təsvir və ifadə vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Povestdə (hekayədə...) bədii təsvir və ifadə vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Povestdə (hekayədə...) bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |

**Altstandart:** 1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, əsaslandırılmış münasibət bildirir.

**Təlim nəticəsi:** Povestin (hekayənin, şeirin...) mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

**Qiymətləndirmə meyarı:** Şərhetmə, münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Povestin (hekayənin, şeirin...) mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh etməkdə, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Povestin (hekayənin, şeirin...) mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, suallar və müəllimin köməyi ilə əsaslandırılmış münasibət bildirir. | Povestin (hekayənin, şeirin...) mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, münasibətini, əsasən, əsaslandırır. | Povestin (hekayənin, şeirin ...) mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |

## Şifahi nitq üzrə bacarıqların qiymətləndirilməsi meyarları və səviyyələri

**Altstandart:** 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir.

**Təlim nəticəsi:** Povestlə bağlı (hekayə ilə bağlı, şeirlə bağlı...) təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir.

**Qiymətləndirmə meyarı:** Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Povestlə bağlı (hekayə ilə bağlı, şeirlə bağlı...) təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh etməkdə çətinlik çəkir. | Povestlə bağlı (hekayə ilə bağlı, şeirlə bağlı...) təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara qismən əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini müəllimin köməyi ilə şərh edir. | Povestlə bağlı (hekayə ilə bağlı, şeirlə bağlı...) təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əksər hallarda əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. | Povestlə bağlı (hekayə ilə bağlı, şeirlə bağlı...) təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |

**Altstandart:** 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

**Təlim nəticəsi:** Povestin (hekayənin, şeirin...) mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

**Qiymətləndirmə meyarı:** Müqayisəetmə, ümumiləşdirməaparma, münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Povestin (hekayənin, şeirin...) mövzusuna, onda qaldırılmış problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirməkdə çətinlik çəkir. | Povestin (hekayənin, şeirin...) mövzusuna, onda qaldırılmış problemə qismən müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. | Povestin (hekayənin, şeirin...) mövzusuna, onda qaldırılmış problemə, əsasən, müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. | Povestin (hekayənin, şeirin...) mövzusuna, onda qaldırılmış problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

**Altstandart:** 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**Təlim nəticəsi:** Povestlə (hekayə ilə, şeirlə...) bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**Qiymətləndirmə meyarı:** Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

## Yazılı nitq üzrə bacarıqların qiymətləndirilməsi meyarları və səviyyələri

**Altstandart:** 3.1.1. Yazacağı mətnin məzmununa uyğun üslub müəyyənləşdirir.

**Təlim nəticəsi:** İnşanın (essenin, məruzənin) məzmununa uyğun üslub müəyyənləşdirir.

**Qiymətləndirmə meyarı:** Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnşanın (essenin, məruzənin) məzmununa uyğun üslub müəyyənləşdirməkdə çətinlik çəkir. | İnşanın (essenin, məruzənin) məzmununa uyğun üslubu suallar və kömək əsasında müəyyənləşdirir. | İnşanın (essenin, məruzənin) məzmununa uyğun üslubu, əsasən, müəyyənləşdirir. | İnşanın (essenin, məruzənin) məzmununa uyğun üslub müəyyənləşdirir. |

**Altstandart:** 3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirir.

**Təlim nəticəsi:** Povestin (hekayənin, şeirin...) ideya-bədii xüsusiyyətlərinə müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla münasibət bildirir.

**Qiymətləndirmə meyarı:** Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirməkdə çətinlik çəkir. | Əsərin ideya-bədii xüsusiyyətlərinə qismən müşahidələrindən, əlavə məlumatlardan çıxış etməklə münasibət bildirir. | Əsərin ideya-bədii xüsusiyyətlərinə, əsasən, müşahidələrindən, əlavə məlumatlardan çıxış etməklə münasibət bildirir. | Əsərin ideya-bədii xüsusiyyətlərinə müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla münasibət bildirir. |

**Altstandart:** 3.1.3. 2,5-3 səhifə həcmində mühakimə, təsvir, müqayisə xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.

**Təlim nəticəsi:** Mühakimə (təsvir, müqayisə) xarakterli inşa (esse, məruzə) yazır.

**Qiymətləndirmə meyarı:** İnşayazma, esseyazma, məruzəyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müqayisə (mühakimə, təsvir) xarakterli inşa, (esse, məruzə) yazmaqda çətinlik çəkir. | Müqayisə (mühakimə, təsvir) xarakterli inşanı (esse, məruzəni) mövzunu qismən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Mühakimə (təsvir, müqayisə) xarakterli inşanı (esse, məruzəni) mövzunu, əsasən, əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Mühakimə (təsvir, müqayisə) xarakterli inşanı (esse, məruzəni) mövzunu əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. |

# MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

*Mövzu:* **Həyat həqiqətləri və zəngin ədəbiyyatımız** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.2.** | • Əsərlərin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |
| **2.2.1.** | • Əsərlərlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Sinfi yeni götürən müəllimin diaqnostik qiymətləndirmə aparması məqsədəuyğundur. Buna daha az vaxt sərf etməyin mühüm şərti müəllimin əvvəlcədən müvafiq hazırlıq işini aparmasıdır. Diaqnostik qiymətləndirmənin çevik, şagirdlərin tanış olduqları üsul və vasitələrini seçən müəllim bunu qısa müddət ərzində həyata keçirə bilər.

Diaqnostik qiymətləndirmənin reallaşdırılmasına ehtiyac olmayan siniflərdə isə iş fərqli məzmunda təşkil edilir. Şagirdlərin yay tətili dövründə mütaliə etdikləri bədii nümunələrlə bağlı yığcam müsahibə, fikir mübadiləsi təşkil edən müəllim, onların diqqətini yeni dərsliklə tanışlığa, 9-cu sinifdə ədəbiyyat fənninin məqsəd və vəzifələrinə cəlb edir. Bütün bunlar tədqiqat sualının formalaşdırılması ilə yekunlaşır.

***Tədqiqat sualı:*** "Həyat həqiqətlərinə sadiqlik bədii ədəbiyyatın sevilməsini və uzunömürlü olmasını təmin edən mühüm şərtlərdəndir" fikrini doğru saymaq olarmı?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Şagirdlər, ilk növbədə, dərslikdəki "Həyat həqiqətləri və ədəbiyyatımız" mətni ilə tanış olurlar. Mətnin oxusunu fərqli yollarla həyata keçirmək olar. Bu yolu müəllimin özü seçməlidir. Yəni sinfin ümumi hazırlıq səviyyəsini, bu və ya digər metodla tanışlıq dərəcəsini, dərsə cəlb edilmiş əlavə materialların həcmini nəzərə alan müəllim nəzərdə tutduğu vaxt çərçivəsində oxunun həyata keçirilməsinə imkan verən optimal yol müəyyənləşdirməlidir. Bir sinifdə fərdi səssiz oxu ilə uğur qazanmaq mümkündürsə, başqa sinifdə səsli oxunun izlənilməsi, yaxud İNSERT, ziqzaq (zəncirvari oxu) və s. faydalı ola bilər. Oxu ilə bağlı yeni metodlardan istifadəni qarşısına məqsəd qoyan müəllim şagirdlərin həmin metodlarla hansı səviyyədə tanış olmalarından çıxış edərək təlimatlandırma aparır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra tanış olmayan sözlərin necə mənimsənildiyi aşkara çıxarılır. Eləcə də şagirdlər üçün qaranlıq qalmış mətləblərə (bu, *ümumiləşdirmə, fərdiləşdirmə* və s. bağlı ola bilər) istiqamətləndirici suallar vasitəsilə aydınlıq gətirilir.

Tədqiqat dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırıq əsasında davam etdirilir. Bu, müxtəlif iş formalarının tətbiqi ilə həyata keçirilə bilər. Məktəblərdə kiçik qruplarda işin təşkilinə daha çox üstünlük verilir. Lakin bu

məsələdə müəllim populyarlığın təsiri altına düşməməlidir. Xüsusən vaxt qıtlığı yaranarsa, digər iş formalarına müraciət etmək faydalıdır.

Tapşırıqdakı suallara müəllim yaradıcı yanaşa bilər. Bu zaman tapşırığa suallar əlavə etmək, yaxud onda ixtisarlar aparmaq mümkündür.

Dərslikdəki "Həyat həqiqətləri və zəngin ədəbiyyatımız" mətni tapşırığın icrasına əhəmiyyətli istiqamət versə də, şagirdlərin əlavə mənbələrə müraciət etməsinə imkan yaradılmalıdır. Bu baxımdan, müəllimin aşağıdakı məzmunda olan materialları şagirdlərə təqdim etməsi məqsədəuyğundur: "*Sənət yarandığı gündən gerçəkliyi əks etdirməyə, aləmi dərk etməyə, idraki rol oynamağa çalışmışdır. Sənəti həyatdan xaric təsəvvür etmək mümkün deyildir. Böyük romantiklər də həyatla bağlı olmuşlar. Əsərin ayağı həyat zəminindən üzülərsə, o, bədii əsər ola bilməz. Dahi romantik şair Nizami və Füzulinin əsərlərində coşqun və tükənməz həyat mənbəyi vardır... Vaqif öz qoşmalarında həyat və dünya gözəlinin real və təbii təsvirini verdiyi kimi, "Görmədim" şeirində dövrünün bir sıra çirkinliklərini də tənqid etmişdir. Şifahi xalq aşıq şeirində və yazılı ədəbiyyatımızda aşıq şeiri tərzində yazan şairlərin əsərlərində də eyni vəziyyəti görə bilirik. Bu şairlər həyatın müəyyən sahələrini, həyatdakı ictimai eybləri düzgün əks etdirməyə çalışmışlar".* (F.Qasımzadə)

Kiçik qruplarda iş formasını seçən müəllim tapşırıqdakı sualları iş vərəqlərində əks etdirərək (hər qrupa bir sual ayırmaqla) şagirdlərə təqdim edir. Müəllimin istiqamətləndirici sualları əsasında şagirdlərin xatırladıqları biliklər (müxtəlif tarixi dövrlərdə baş vermiş mühüm siyasi hadisələrin ədəbiyyata təsiri, fərqli dönəmlərdə yaranmış bədii nümunələrdə həyat həqiqətlərinə, insana münasibət) tapşırığın ilk üç sualına cavabların hazırlanmasında az əhəmiyyət kəsb etmir. Bu suallar, həmçinin əsərin mövzusunun, onda qaldırılmış problemin aydınlaşdırılması, münasibət bildirilməsi ilə bağlı qazanılmış bilik və bacarıqların tətbiqinə də imkan yaradır. İşini bu məzmunda quran müəllim VIII sinfin dərsliyindən müxtəlif tarixi dönəmlərə məxsus nümunələrdən (sinifdənxaric oxu materiallarından seçilməsi daha məqsədəuyğundur) mənbə kimi istifadə olunmasını şagirdlərə tövsiyə edir.

Dərsin **məlumat mübadiləsi** mərhələsində təqdimatların fəal dinlənilməsinə, ehtiyac yaranan məqamlarda sualların verilməsinə imkan yaradılmalıdır. Qrupların bir-birinin işi ilə ətraflı tanış olmaları müəllimin diqqət mərkəzində dayanmalıdır.

Növbəti – **məlumatın müzakirəsi və təşkili** mərhələsində əvvəlki mərhələdə deyilmiş fikirlərin əlaqələndirilməsi, sistemə salınması, birtərəfli, yaxud yanlış mülahizələrə aydınlıq gətirilməsi diqqət mərkəzinə çəkilir. Aparılan dəqiqləşdirmələr, cavabların zənginləşdirilməsi ümumi fikrin formalaşmasına əhəmiyyətli dərəcədə təsir edir.

Dərslikdəki "Tətbiq. Müzakirə. Yaradıcı iş" tapşırığının tələbi (Müzakirə edin: Həyat həqiqətlərinə göz yuman, yaxud onu təhrif edən ədəbiyyatın taleyi necə olar?) tədqiqatın davamı kimi nəzərdə tutulmuşdur. Dərsdə aparılan araşdırma, bu prosesə cəlb edilən əlavə materiallar müzakirənin səmərəli keçməsinə səbəb olur.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində şagirdlərin fəallığının təmin edilməsinə xüsusi diqqət yetirilməlidir. Başqa sözlə, müəllim istiqamətləndirici suallardan istifadə etməklə şagirdlərin müstəqil fikir söyləmələrinə, mövqelərini əsaslandırmalarına şərait yaratmalıdır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, söz sənəti xalqın taleyinə, arzu və istəyinə laqeyd qala bilməz. Bədii söz ustası, əslində, mənsub olduğu xalqın görən gözü, düşünən beynidir. Yaşadığı

dövrdə baş verən mühüm hadisələrin arxasında nəyin dayandığını yazıçı hamıdan tez və dərindən duyur, bunu sənətin ecazkar dilinə çevirərək müasirlərinə təqdim edir. O, başqalarının görə bilmədiyi, yaxud birtərəfli, yanlış qavradığı həyati problemləri daha təsirli boyalarla, həm də onların bədii həllini verməklə əks etdirir. Bədii əsər yazıldığı dövrün həqiqi, gerçək mənzərəsi barədə sonrakı nəsillərdə də aydın təsəvvür yaradır. Bütün bunlar ədəbiyyatın insan və cəmiyyət üçün çox dəyərli olduğunun göstəricisidir.

Çıxarılmış nəticələrin fərziyyələrlə müqayisə edilməsi, tədqiqat sualı ilə əlaqəsinin aydınlaşdırılması unudulmamalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

**Müəllim üçün məlumat.** Ev tapşırıqlarının müəyyənləşdirilməsində müəllim sərbəstdir. O, dərslikdə təklif olunmuş tapşırıqlara yaradıcı yanaşa bilər; tapşırıqlara əlavələr etmək, onlarda ixtisarlar aparmaq mümkündür. Müəllim möhkəmləndirmək, yaxud reallaşdırmaq istədiyi standartlardan və s. çıxış edərək bu istiqamətdə dəyişiklik edə bilər.

# MİLLİ-DEMOKRATİK HƏRƏKAT, SOVET DÖNƏMİ VƏ DÖVLƏT MÜSTƏQİLLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

## I MƏRHƏLƏ

## AZƏRBAYCANDA MİLLİ-DEMOKRATİK HƏRƏKAT DÖVRÜNDƏ ƏDƏBİYYAT

*Mövzu:* **Əhməd Cavad. "Azərbaycan bayrağına"** – 2 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərin köməyi ilə aydınlaşdırır. |
| **1.1.5.** | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyi təqdimatların dinlənilib müzakirə edilməsi yolu ilə müəyyənləşdirilir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün müxtəlif yollardan – rəmzi (simvolik) materiallardan, suallardan və s. istifadə etmək mümkündür. Dərslikdəki "Yada salın" başlıqlı sualların əsasında yığcam müsahibə aparmaqla da motivasiyanı yaratmaq olar.

Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşır.

***Tədqiqat sualı:*** Azərbaycanın dövlət rəmzi olan bayrağa həsr olunan əsərlərdə, sizcə, daha çox hansı hiss və düşüncələr əksini tapmalıdır?

Şagirdlərin fərziyyələri dinlənilir və qeyd olunur.

**Tədqiqatın aparılması.** Bu, fərqli təlim metodlarının, iş növü və formalarının (şeirdə izahına ehtiyac duyulan söz və ifadələrin, mətnaltı mənaların olduğu da unudulmamalıdır) tətbiqi ilə təşkil edilə bilər. Əsərin oxusu üzrə işin bir variantı dərslikdəki ardıcıllığın gözlənilməsi ola bilər. Yəni şeiri fərdi olaraq səssiz oxuyan şagirdlər lüğətdəki izahlara əsaslanmaqla ikihissəli gündəlikdə qeydlər edirlər. Əsərə münasibətdə mövqeləri eyni, yaxud yaxın olan şagirdlərin kiçik qruplarda birləşmələrinə və fikirlərini bölüşmələrinə imkan yaradılır. Qrup sözçülərinin təqdimatları əsasında **fikir mübadiləsi və müzakirə** aparılır. Həmin prosesdə bədii təsvir və ifadə

vasitələrinin hansı səviyyədə müəyyənləşdirildiyi aşkara çıxarılır. Müəllim müzakirənin səmərəli keçməsi, şeirin məzmunu barədə şagirdlərdə dolğun təsəvvürün yaranması məqsədi ilə istiqamətləndirici suallardan istifadə edə bilər.

Oxunun təşkilinin digər bir variantı isə ikihissəli gündəliyin arxa plana keçirilməsi ola bilər. Yəni şagirdlər şeiri müstəqil (fərdi səssiz) oxuduqdan sonra ehtiyac duyduqları mətləbləri müəllimin sualları əsasında aydınlaşdırırlar. Məhz bundan sonra ikihissəli gündəlikdə qeydlər aparırlar. Bu qeydlər hər bir şagirdin məzmunu necə qavradığını, əsərə ilkin münasibətini və s. aşkara çıxarmaq baxımından faydalıdır.

**Müəllim üçün məlumat:** *Əsərin oxusundan sonra şagirdlərə ilkin təəssüratlarını bölüşmək imkanı yaradılır. Bu, əsərin ilkin qavranılması səviyyəsi barədə müəllimin təsəvvür qazanması və sonrakı işini səmərəli qurması üçün əhəmiyyətlidir.*

Oxunun hansı formada təşkilindən asılı olmayaraq – **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində həyata keçirilməli olan işlər diqqətdən kənarda qalmamalıdır. Söylənmiş fikirlərin ümumiləşdirilməsi, son qənaətin fərziyyələrlə müqayisə edilməsi ön plana çəkilir. Bu mərhələnin səmərəli keçməsi üçün müəllimin əvvəlcədən istiqamətləndirici suallar hazırlaması və tətbiq etməsi məqsədəuyğundur.

Bu dərsdə vaxtdan səmərəli istifadə etdikdə şifahi təqdimat üçün təklif olunmuş tapşırığın yerinə yetirilməsinə imkan yaranır.

Təqdimat üçün müəyyənləşdirilmiş mövzular həm məzmunun dərindən mənimsənilməsi, həm də təhlilin səmərəliliyi üçün əhəmiyyətlidir. Müəllim təqdimatların fəal dinlənilməsinə, müzakirənin diskussiya səciyyəli olmasına xüsusi diqqət yetirməlidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Əhməd Cavad. "Azərbaycan bayrağına"** – 2 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.2.** | • Şeirin mövzusuna müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyini müəyyənləşdirmək üçün təqdimatların dinlənilməsi və müzakirə edilməsi daha məqsədəuyğundur. Müvafiq meyarlardan istifadə etməklə qiymətləndirmədə obyektivliyi təmin etmək olar.

Təhlil dərsini fərqli variantlarda təşkil etmək mümkündür. Məsələn, diskussiya, yaxud debatın tətbiqi dərsin canlı, maraqlı keçməsini təmin edə bilər. Bunun üçün əsərin ideya-bədii xüsusiyyətlərini açmağa imkan verən tutarlı sualın müəyyənləşdirilməsi vacibdir.

Dərs variantlardan biri aşağıdakı məzmunda ola bilər.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyaya fərqli yollarla nail olmaq mümkündür. Bunun üçün suallardan, rəmzi materiallardan (milli bayrağa həsr olunmuş mahnıdan, yaxud bədii əsərdən parçanın səsləndirilməsi, dövlət rəmzi kimi bayrağın əhəmiyyəti barədə tanınmış siyasi xadimin sözlərinin xatırladılması və s.) istifadə etmək olar. Yaxud dərslikdəki "Düşünün" başlıqlı sual (Azərbaycanın dövlət bayrağına həsr olunmuş əsərlərdə hansı məsələlərə önəm verilməsini əhəmiyyətli hesab edirsiniz?) əsasında müsahibə aparmaq və tədricən tədqiqat sualını formalaşdırmaq mümkündür.

***Tədqiqat sualı*:** "Şeirdə yalnız Azərbaycanın deyil, bütün türk xalqlarının müstəqilliyi, azadlığı ideyası ifadə edilib" fikrini doğru saymaq olarmı?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Dərsin hansı variantda keçilməsindən asılı olmayaraq, tədqiqata başlamazdan əvvəl lirik şeirlərin təhlili ilə əlaqədar qazanılmış bilik və bacarıqların yada salınması və tətbiqinə istiqamət verilməsi faydalıdır. Şagirdlər təhlildə aşağıdakı məsələlərə diqqət yetirməyin vacib olduğunu xatırlayırlar:

– şeirin yaratdığı təəssüratın, hiss və düşüncənin açıqlanması;
– müəllifin şeirdə diqqəti cəlb etmək istədiyi başlıca problemin, mətləblərin müəyyənləşdirilməsi;
– əsərin bədii təsir gücünü artıran vasitələrin (təsvir və ifadə vasitələrinin və s.) rolunun aydınlaşdırılması;
– şeirdə ifadə olunmuş başlıca fikrin – ideyanın aşkara çıxarılması.

Tədqiqat sualının aydınlaşdırılması üçün dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığından istifadə edilməsi məqsədəuyğundur. Bu tapşırığın uğurla yerinə yetirilməsi "Əsərin təhlilinə hazırlaşın" mətnindəki tövsiyələrin mənimsənilməsindən də xeyli dərəcədə asılıdır.

Şagirdlər müəllimin təklifi ilə cütlük şəklində, yaxud kiçik qruplar yaradaraq tədqiqat aparırlar. Cütlük şəklində işləyənlər fikir mübadiləsi aparmaq üçün sonra kiçik qruplarda birləşə bilərlər. Bu, vaxta qənaət edilməsi baxımından da faydalıdır. Müəllim reallaşdırmaq istədiyi standartlardan, sinfin səviyyəsindən və s. asılı olaraq, "Araşdırın.Fikirləşin. Cavab verin" tapşırığına yaradıcı yanaşa bilər. Başqa sözlə, tapşırıqda ixtisarlar aparmaq, yaxud ona suallar əlavə etmək mümkündür. Tədqiqatın kiçik qruplarda aparılmasını planlaşdıran müəllim tapşırığın suallarını (hər qrupa bir sual təqdim etməklə) iş vərəqlərində əks etdirməlidir.

Həmin tapşırıqdakı suallar vəsaitdə təklif edilmiş tədqiqat sualının araşdırılmasına, aydınlaşdırılmasına imkan yaradır. Məsələn, ikinci sualın üzərində işləyən şagirdlər aydınlaşdırırlar ki, milli bayrağımıza həsr olunmuş digər əsərlərdən fərqli olaraq, bu şeirdə mövzu daha genişdir, elə buna görə də o, başqalarından məzmunca da seçilir, fərqlənir. Üçüncü sual da tədqiqat sualı ilə sıx bağlıdır. Onu araşdıran şagirdlərə məlum olur ki, əsərdə əksini tapmış mühüm mətləblərdən biri bütün türk xalqlarının taleyi ilə bağlı mövqeyin ifadə edilməsidir. Tapşırığın digər sualları da tədqiqat sualındakı başlıca tələbin aydınlaşdırılmasına, ümumilikdə tədqiqatın səmərəli aparılmasına zəmin yaradır.

Dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə şagirdlərdə həssas, diqqətli münasibətin formalaşdırılması vacibdir. Bu mətnlərlə işləmək bacarığına şagirdlər əvvəlki siniflərdə yiyələnmiş olsalar da, həmin mətnlərin sinifdən-sinfə mürəkkəbləşdiyini unutmaq olmaz. Bunu da unutmaq olmaz ki, təhlil üçün mənbə olan bu materiallarda əksini tapmış tövsiyələr şagirdlərin təlimi fəaliyyətinə həmişə səmərəli istiqamət verir.

Hansı təlim metodlarının, iş formalarının tətbiqindən asılı olmayaraq, tədqiqatın gedişində bütün şagirdlərin fəaliyyəti müəllimin nəzarəti altında olmalı, diqqətindən yayınmamalıdır.

**Məlumat mübadiləsi** mərhələsində araşdırmaların nəticələri barədə ətraflı məlumatın verilməsi və fəal dinləmə təmin edilməlidir. Fikirlərin birtərəfli, dayaz, hətta yanlış olması hallarına təbii baxılmalı, sualların verilməsinə imkan yaradılmalıdır. Bu mərhələdə başlıca məqsəd şagirdlərin (qrupların) bir-birinin işinin məzmunu ilə tanış olmalarıdır. Cavabların dəqiqləşdirilməsi, dərinləşdirilməsi, sistemə salınması növbəti mərhələdə həyata keçirilir.

**Məlumatın müzakirəsi və təşkili** mərhələsində səsləndirilmiş fikirlərə münasibət bildirilir, birtərəfli, yanlış mülahizələrə aydınlıq gətirilir, deyilənlərin əlaqələndirilməsi, müqayisə edilməsi, vahid xətt əsasında sistemə salınması həyata keçirilir. Müzakirənin diskussiya xarakterli olması, hər bir şagirdə sərbəst fikir mübadiləsi aparmaq imkanının yaradılması təmin edilir. Şagirdlər hiss etməlidir ki, onların cavabı ümumi işə bir töhfə kimi qəbul edilir, diqqətdən kənarda heç nə qalmır. Bu, onların daha məsuliyyətli olmaları və həvəslə işləmələri üçün stimul rolunu oynayır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsinin səmərəli təşkili üçün müəllimin əvvəlcədən istiqamətləndirici suallar hazırlaması faydalıdır. Bu suallar şagirdlərin fəallaşdırılması vasitəsi olmalı, onları müstəqil fikir söyləməyə, ümumiləşdirmələr aparmağa yönləndirməlidir. İndiyə qədər deyilmiş bütün fikirlərin ümumi ideya halına salınması və ümumiləşdirilməsi bu mərhələdə xüsusi diqqət yetirilən məsələlərdən olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, müstəqilliyini əldə edən Azərbaycanın milli bayrağının parlament binasının üzərində

qaldırılması şairdə böyük sevinc və qürur hissi yaratmış, türk xalqlarının da bu taleyi yaşamasını arzulamışdır.

Çıxarılmış nəticənin tədqiqat sualı ilə əlaqəsinin aydınlaşdırılması, şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisə edilməsi həmin mərhələdə həyata keçirilən mühüm vəzifələrdən olur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Cəfər Cabbarlı. "Ana"** – 3 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi yolu ilə müəyyənləşdirilə bilər. Deməli, Ə.Cavadın "Azərbaycan bayrağı"na şeirini çoxlu sayda şagirdə ifadəli oxutmaq məqsədəuyğun deyildir. Bir neçə şagirdin ifadəli oxusunun dinlənilməsi və müzakirə edilməsi real vəziyyətin aydınlaşdırılmasına imkan verir. Müəllim müvafiq qiymətləndirmə meyarına müraciət edir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdəki işi fərqli məzmunda təşkil etmək olar. İlk növbədə, motivasiyanın yaradılması vacibdir. Bunun üçünsə müxtəlif yollardan istifadə etmək mümkündür. Məsələn, rəmzi material qismində anaya həsr edilmiş mahnıdan, bədii əsərdən parçanın səsləndirilməsi, bədii filmdən fraqmentə, rəsm nümunəsinə baxılması, atalar sözlərinin, ibrətamiz kəlamların və s. xatırladılması əsasında müsahibə aparmaqla motivasiyanı yaratmaq maraqlı olar.

Vaxta qənaət baxımından dərslikdəki "Yada salın" başlıqlı sualların əsasında müsahibə aparmaqla motivasiyanı yaratmaq daha məqsədəuyğundur. Yığcam müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı:*** Ana mövzusuna bədii ədəbiyyatda tükənməz maraq göstərilməsinin səbəbi, sizcə, nədir?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** İlk növbədə, şeirin oxusu və məzmununun mənimsənilməsi həyata keçirilir. Oxu fərqli variantlarda təşkil edilə bilər. Məsələn, sinfin səviyyəsi yüksək olarsa, mətni şagirdlərin müstəqil oxumasına vaxt ayırmaq mümkündür. Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinə diqqət yetirilir. Oxuya ayrılmış vaxt başa çatdıqdan sonra məzmunla bağlı qaranlıq qalmış mətləblərə aydınlıq

gətirilir. Bu, bütün sinfin iştirakı və fəallığı şəraitində həyata keçirilir. Məzmunun daha dərindən qavranılması, mənimsənilənlərin möhkəmləndirilməsi məqsədilə şagirdlər onlara təklif edilmiş bəndlərin məzmununa aid ya cütlük şəklində, ya da kiçik qruplarda suallar tərtib edirlər. Suallar şagirdlərin arasında dəyişdirilir və onlara cavab hazırlanır. Sualların necə tərtib edilməsi və onlara hazırlanmış cavablar barədə təqdimatlar edilməklə **fikir mübadiləsi** və **müzakirə** aparılır.

İkihissəli gündəliklə bağlı təcrübəsi olan sinifdə şeirin oxusunu ondan istifadə ilə də həyata keçirmək olar. Lakin bu halda da məzmunla bağlı qazanılmış məlumata aydınlıq gətirilməsi, dəqiqləşdirmə və dərinləşdirmə istiqamətində iş aparılması vacibdir. Bu zərurət əruz vəznində yazılmış "Ana"nın ideya-məzmunundakı mürəkkəblikdən irəli gəlir.

Üçüncü variant dərslikdə "məzmun üzrə iş" başlığı altında təklif edilənlərin ardıcıllıqla yerinə yetirilməsi ola bilər. Yəni şeirin izahlı oxusunu həyata keçirən müəllim bu prosesə şagirdlərin fəal qoşulmasını təmin edir. Nisbətən asan misra və bəndlərin izahını şagirdlərin öhdəsinə buraxan müəllim, yalnız ən zəruri hallarda istiqamətləndirici suallardan istifadə etməklə işə müdaxilə edir. Məzmunu çətin olan misra və bəndlər isə şagirdlərlə fikir mübadiləsi zəminində müəllim tərəfindən izah olunur. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi də bu prosesdə həyata keçirilir.

Dərslikdəki tövsiyəyə uyğun olaraq, növbəti addım kiçik qrupların yaradılması olur. Hər qrup iki bəndin (qrupların sayından asılı olaraq, bölgü fərqli ola bilər) üzərində işləməklə məzmunu daha dərindən mənimsəmək üçün işi davam etdirir. Bəndlərin məzmununa aid sualların tərtibi, nəsrəçevirmə və s. şagirdlərin maraq göstərdikləri iş növlərindəndir. Sonda təqdimat əsasında **fikir mübadiləsi** və **müzakirə** aparılır.

Oxunun, məzmun üzrə işin hansı formada təşkilindən asılı olmayaraq, **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsinin səmərəli keçməsinə imkan yaranır. İstiqamətləndirici suallardan istifadə edən müəllim bu mərhələdə şagirdlərin maksimum fəallıq nümayiş etdirməsinə nail olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, qədim dövrlərdən başlayaraq, ədəbiyyatımızda ana mövzusuna xüsusi diqqət yetirilmiş və bu mövzuda onlarla gözəl sənət əsəri yaradılmışdır. Müxtəlif dönəmlərdə yaşamış böyük söz ustaları bu mövzuda yazdıqları əsərlərində ananı böyük minnətdarlıq hissi ilə xatırlamış, qazandıqları bütün uğurları onun adı ilə bağlamışlar. Beləliklə, ədəbiyyatımızda belə bir fikir formalaşmışdır ki, ana sonsuz şəfqəti, gücü, qüdrəti ilə övladın həyatında müstəsna rol oynayır.

Əldə olunmuş nəticənin tədqiqat sualı ilə əlaqəsinə, fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Cəfər Cabbarlı. "Ana"** – 3 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| **3.1.3.** | • Müqayisə xarakterli məruzə yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların (məruzələrin) dinlənilməsi və müzakirəsi zəminində müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Təhlil üzrə dərs fərqli variantlarda ola bilər. Məsələn, şeirin ideya-bədii xüsusiyyətlərini araşdırmağa və şərh etməyə imkan verən sual əsasında müzakirə, debat təşkil etməklə dərsin maraqlı, canlı keçməsinə nail olmaq mümkündür. Yaxud dərslikdəki tövsiyələr əsasında hazırlanan dərs vaxtdan səmərəli istifadə edilməsi baxımından daha faydalıdır. Bu dərsin səciyyəvi məqamları aşağıdakı məzmunda olur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya həm rəmzi materiallardan, həm də suallardan istifadə edilməklə yaradıla bilər. İkinci yoldan istifadəyə üstünlük verən müəllim məzmunla bağlı verdiyi bir neçə sualdan sonra diqqəti şeirin bədii xüsusiyyətlərinə, onun maraqla oxunmasının səbəblərinə cəlb edir. Şagirdlər fərqli, ziddiyyətli fikirlər səsləndirməklə məhdudlaşırlar. Bu istiqamətdə aparılan müsahibənin sonunda tədqiqat sualı müəyyənləşdirilmiş olur.

***Tədqiqat sualı:*** "Əsərin böyük uğur qazanmasına, ona oxucu marağının daimi olmasına səbəb yüksək ideya-bədii xüsusiyyətləridir" fikrini doğru saymaq olarmı?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Hansı təlim metodu və iş formalarının seçilməsindən asılı olmayaraq, dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallara müraciət edilməsi məqsədəuyğundur.

Kiçik qruplarda işin təşkilinə üstünlük verən müəllim hər qrupa bir sual ayırmaqla iş vərəqlərini şagirdlərə təqdim edir. İşin icrasına ayrılan vaxt elan olunur.

"Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığı hazırlanarkən tədqiqat sualının araşdırılması, ona əhatəli cavab verilməsi məqsədi diqqət mərkəzində saxlanılmışdır. Başqa sözlə, həmin tapşırığa daxil edilən sualların, demək olar, hamısı bilavasitə tədqiqat sualının aydınlaşdırılmasına xidmət edir. Məsələn, üçüncü sualın üzərində işləyən qrup əsərin bədii keyfiyyəti üçün mühüm olan cəhəti – lirik qəhrəmanın hisslərinin hansı ustalıqla ifadə edildiyini aydınlaşdırmalıdır. Bu, müəllifin sözdən, bədii təsvir və ifadə vasitələrindən necə bəhrələndiyini şərh etmək vəzifəsini də qarşıya qoyur. Dördüncü sual oxucunu lirik qəhrəmanın hiss və duyğularına ortaq olmağa, ona münasibət bildirməyə sövq edir. Əsərin bədii gözəlliyini duymadan buna nail olmaq mümkün deyildir. Beşinci sual da şeirin bədii məziyyətinin üzə

çıxarılmasına az xidmət etmir. Başqa sözlə, lirik qəhrəmanın xarakterindəki başlıca cəhətləri nümunələr əsasında aydınlaşdırmalı olan şagirdlər şeirin bədii xüsusiyyətlərinə də münasibət bildirmiş olurlar. Tapşırıqdakı altıncı, yeddinci suallar da birbaşa tədqiqat sualının mahiyyətinin açıqlanmasına istiqamətləndirilmişdir.

**Məlumat mübadiləsi** mərhələsində qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına imkan yaradılır. Qrup nümayəndələri əhatəli məlumat verməklə yanaşı, onlara ünvanlanmış sualları da cavabsız qoymamalıdırlar. Qrup nümayəndəsinin – sözçüsünün dediklərinə həmin qrupun digər üzvlərinin əlavələr etməsinə icazə vermək olar. Fəal/interaktiv dərslə bağlı xeyli təcrübə qazanan IX sinif şagirdləri bilirlər ki, bu mərhələdə səsləndirilən fikirlərdə birtərəfli, yanlış məqamlar, lazımınca əsaslandırılmamış mülahizələr də vardır. Bunu müəllim də nəzərə alır və məlumat mübadiləsində bütün qrupların fəallığına, şagirdlərin öz mövqelərini sərbəst ifadə etmələrinə şərait yaradır. Növbəti – **məlumatın müzakirəsi** mərhələsində indiyə kimi söylənmiş fikirlərin əlaqələndirilməsinə, müqayisəsinə, sistemə salınmasına səy göstərilir. Müzakirənin diskussiya səciyyəli olması, xüsusilə əhəmiyyətlidir. Buna bütün suallar imkan verir. Məsələn, 6-cı suala cavab hazırlayan şagirdlər yalnız bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırmaqla məhdudlaşa bilməzlər. Belə hal baş verərsə, digər qrupun üzvləri diskussiyada diqqəti buna cəlb etməli və şeirin təsir gücünün artmasında rolu olan digər bədii vasitələrin xatırladılmasına, nümunələr göstərilməsinə nail olmalıdırlar.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Əldə olunmuş faktların, deyilmiş fikirlərin ümumiləşdirilməsi, vahid ideya halına salınması bu mərhələdə diqqət mərkəzində saxlanılır. Müəllimin əvvəlcədən hazırladığı istiqamətləndirici sualların da bu mərhələnin səmərəliliyinə təsiri az olmur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, “Ana” əsəri tarixən qədim olan bir mövzuda yazılsa da, təkrarsız bədii gözəlliyi, yeni ideya çalarları ilə ədəbiyyatımızda mühüm hadisə sayılmış, yüz ilə yaxın bir müddətdə ona oxucu marağı azalmamışdır.

Çıxarılmış nəticələrin tədqiqat sualı və fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir. Bu, tədqiqat işinin düzgün istiqamətdə aparıldığına və başa çatdığına əminlik hissi yaradır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Cəfər Cabbarlı. "Ana"** – 3 saat

*Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** | • Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| **1.1.5.** | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.2.** | • Şeirin mövzusuna müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Əvvəlki siniflərdən məlumdur ki, "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlığı altında verilmiş tapşırıqlarda, əksər hallarda, müxtəlif xarakterli işlərin həyata keçirilməsi nəzərdə tutulur.

Bu qəbildən dərslərdə, adətən, motivasiyanın yaradılması, tədqiqat sualının müəyyənləşdirilməsi daha çox diqqət yetirilən, vaxt ayrılan təlim işi – tapşırıq üzrə həyata keçirilir. Bu mövqedən çıxış edən müəllim yığcam müsahibə aparmaqla ana mövzusuna ədəbiyyatımızda həmişə böyük diqqət yetirildiyini və bunun səbəblərini şagirdlərin xatırlatmalarına nail olur. Dərslikdəki "Düşünün" başlıqlı sualı (Anaya həsr olunmuş əsərlərdə ümumi cəhətlər nə ola bilər?) müsahibəyə cəlb edən müəllim şagirdlərin fəal iştirakı ilə tədqiqat sualının formalaşmasını həyata keçirir.

***Tədqiqat sualı:*** Ana mövzusunda yazılmış əsərlərin ideya-məzmununda oxşar cəhətlərin olmasına səbəb, sizcə, nədir?

Şagirdlərin fərziyyələri dinlənilir və qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Tədqiqat Xaqaninin "Ana" şeirinin oxusu ilə başlanır. Oxu fərqli formalarda həyata keçirilə bilər; şagirdlərin fəal iştirakı ilə izahlı oxu, fərdi səssiz oxu, ikihissəli gündəliyin tətbiqi ilə oxu və s. Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi həyata keçirilir.

Şeirin məzmununun öyrənilməsi, ideyasının müəyyənləşdirilməsi üzrə işi də fərqli variantlarda təşkil etmək mümkündür. Dərslikdə təklif olunmuş tövsiyələr üzrə işin təşkili vaxta qənaət baxımından məqsədəuyğundur. Yəni oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda birləşərək şeirin məzmununa aid suallar tərtib edirlər. Suallar və onlara hazırlanmış cavablar qrup sözçülərinin təqdimatı əsasında müzakirə edilir.

Əsərin ideyasının müəyyənləşdirilməsi və müzakirəsi də bu qayda ilə həyata keçirilə bilər. Bu məzmunda aparılan iş ədəbi nümunələrin (C.Cabbarlının "Ana" şeiri ilə Xaqaninin "Ana" əsərinin) uğurla müqayisə edilməsinə imkan yaradır. Əsərlərin müqayisəsi üçün əvvəlcədən əsasların (əlamətlərin) müəyyənləşdirilməsi vacibdir.

Kiçik qrupların müəyyənləşdirdiyi əsaslar (əlamətlər) ciddi müzakirədən sonra qəbul edilir. İşin icrasını isə hər qrup ayrıca yerinə yetirir və əldə etdiyi nəticəni cədvəldə əks etdirir.

**Məlumat mübadiləsi və müzakirə** mərhələsində diqqət bu iki əsərin necə müqayisə edildiyinə, müqayisədən çıxarılmış nəticəyə yönəldilir. Eləcə də deyilmiş fikirlərin əlaqələndirilməsi, sistemə salınması, yanlış, birtərəfli mülahizələrin aradan qaldırılması həyata keçirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə kimi səsləndirilmiş fikirlərin ümumiləşdirilərək vahid ideya halına salınması diqqət mərkəzində saxlanılır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, hansı dövrdə yazılmasından asılı olmayaraq, anaya həsr edilmiş əsərləri birləşdirən cəhətlər çox olur. Bu əsərlər məzmununa, bədii xüsusiyyətlərinə, ideyalarına görə bir-biri ilə yaxından səsləşir. Ananın mənəvi böyüklüyü, qüdrəti, ülviyyəti, tükənməyən övlad sevgisi və nəvazişi bu mövzuda əsər yazan bütün sənətkarların diqqətini çəkən mühüm cəhətlərdəndir.

Çıxarılmış nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisəsinə vaxt ayrılır.

Yaxşı təşkil edilən, vaxtdan səmərəli istifadə olunan dərsdə dərslikdəki sonuncu tövsiyəni – C.Cabbarlının "Ana" şeirindən bir bəndin ifadəli oxusunu həyata keçirmək mümkün olur. Şeirin ideya-məzmununu dərindən mənimsəyən şagirdlərə bəndin oxusu üçün ifaçılıq vəzifəsini, səsin çalarlarını, fərqli keyfiyyət qazanmasını müəyyənləşdirmək çətin olmur. Bəndin dərslikdə göstərildiyi qaydada cədvəldə yazılması, şərti işarələrdən istifadə olunması oxunu xeyli asanlaşdırır.

Bir neçə ifanın dinlənilib müzakirə edilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

# II MƏRHƏLƏ
# SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

## Proletkultçuluq və repressiya dövründə ədəbiyyat (1920–1940)

*Mövzu:* **Abdulla Şaiq. “Anabacı”** – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.3.** | • Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yaradıcı nağıl edir. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Hekayə ilə bağlı müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Müəllim üçün məlumat.** *Motivasiya yaradılmamışdan əvvəl şagirdlərin “şərəf” və “ləyaqət” anlayışları barədəki məlumatlarının aşkara çıxarılması məqsədi ilə onlara müraciət edilir: – Siz “ləyaqət”, “şərəf” sözlərini eşitmisiniz. Bədii əsərlərdə bu sözlərə az rast gəlməmisiniz, baxdığınız filmlərdə də bu sözləri az eşitməmisiniz. “Ləyaqətli insan”, “filankəs ləyaqətli adamdır”, “filankəs şərəfli ömür yaşamışdır” ifadələri sizə nə deyir? İnsanın öz ləyaqətini uca tutması, şərəfli olması nə deməkdir?*

*Yığcam müsahibə aparılmaqla suallara aydınlıq gətirilir. Şagirdlərin öz həyati təcrübələrinə, incəsənət əsərlərinə müraciət etmələrinə, fikirlərini nümunələrlə əsaslandırmalarına imkan yaradılır.*

**Motivasiya, problemin qoyuluşu.** Rəmzi materiallardan, yaxud suallardan istifadə etməklə motivasiya yaratmaq olar. Dərslikdəki “Yada salın” başlıqlı suallar əsasında yığcam müsahibə təşkil etməklə motivasiyanın yaradılması daha az vaxt aparır. Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

***Tədqiqat sualı* :** Şərəfli və ləyaqətli olmaq insanın həyatdakı mövqeyində hansı rolu oynaya bilər?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Bu, ilk növbədə, oxunun təşkilini tələb edir. Hekayənin oxusu fərqli şəkillərdə aparıla bilər. Bu, sinfin səviyyəsindən, oxu metodları ilə şagirdlərin tanışlıq dərəcəsindən, müəllimin məqsədindən asılıdır. Məsələn, vaxta qənaət baxımından fərdi səssiz oxunu seçən müəllimin dərslikdəki tövsiyələri ardıcıl həyata keçirməsi məqsədəuyğundur. Yəni oxu başa çatdıqdan sonra şagirdlər cütlük şəklində işləməklə mətnkənarı suallara cavab hazırlayırlar. Sonra həmin cütlüklər

üçüncü parçanın məzmununa aid suallar tərtib edirlər. Cavabları məzmunca eyni, yaxud oxşar olan şagirdlər kiçik qruplarda birləşib, tərtib etdikləri də daxil olmaqla, bütün suallarla bağlı fikir mübadiləsi aparırlar. Yalnız bundan sonra qrup sözçülərinin təqdimatları əsasında **fikir mübadiləsi** və **müzakirə** aparılır. Əsərin məzmunu ilə bağlı qazanılmış məlumatın dərinləşdirilməsi və sistemə salınmasında bu mərhələnin əhəmiyyəti böyükdür.

Dərslikdəki növbəti tapşırıq (Əsərdən seçdiyiniz hissəyə ad verin, məzmununu hazırladığınız plan əsasında yaradıcı danışın) məzmunun mənimsənilməsi üzrə işin davamı kimi özünü göstərir. Bu prosesdə fəal dinləməyə və müzakirəyə nail olunmalıdır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici suallardan istifadə etməsi faydalıdır. Diqqət Anabacı obrazına cəlb edilməklə şagirdlərdə belə qənaət möhkəmlənir ki, şərəf hissini unutmayan, ləyaqətlə ömür sürən insanlar başqalarından hörmət görür və nüfuz sahibi olurlar. Onlar həm ailədə, həm də cəmiyyətdə ədalətli, doğruçu, sözübütöv insanlar kimi tanınır və sevilirlər.

Çıxarılmış nəticənin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Abdulla Şaiq. "Anabacı"** – 3 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Müəllifin mühakimələrindən çıxış etməklə hekayənin qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.3.** | • Hekayənin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.1.** | • Hekayə ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi yolu ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Rəmzi (simvolik) material qismində şərəf, ləyaqət, mənlik hissinin uca tutulmasının insan üçün vacib olduğunu əks etdirən deyimlərin, atalar sözlərinin, bədii əsərlərdən sitatların və s. xatırladılması, fikir mübadiləsi aparılması yerinə düşər. Bir variant da ilk dərsdən şagirdlərin diqqətinə çatdırılan "Düşünün" başlıqlı sual (Şərəf və ləyaqətini qorumaq üçün insanda hansı keyfiyyətlər olmalıdır?) əsasında yığcam müsahibə aparmaq və onu tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırmaq ola bilər.

***Tədqiqat sualı:*** Ehtiyac içində məhrumiyyətlərlə dolu ömür yaşayan hekayə qəhrəmanının öz mənliyini, şərəf və ləyaqətini uca tutmasına səbəb, sizcə, nədir?

Fərqli fikirlər – fərziyyələr dinlənilir və qeyd edilir. Fərziyyələrin fərqli olduğuna diqqəti çəkən müəllim doğru cavabın müəyyənləşdirilməsi üçün tədqiqat aparmağın vacib olduğunu xatırladır.

**Tədqiqatın aparılması.** Hansı metod və iş formalarının seçilməsindən asılı olmayaraq, dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına müraciət edilməsi məqsədəuyğundur. Kiçik qruplarda işin təşkilinə üstünlük verən müəllim dərslikdəki tapşırığa yaradıcı yanaşa bilər. Sualların dəyişdirilməsi, onlara əlavələr edilməsi, yeni cədvəl formalarının təklif edilməsi və s. müəllimin istəyindən asılı olaraq, həyata keçirilə bilər. Hər qrupa iş vərəqində bir sual təklif edilsə də, bütün qrupların əlavə mənbələrlə təmin edilməsi məqsədəuyğundur. Məsələn, K.Talıbzadənin tərtib etdiyi "Şaiqanə yad et" (Bakı, 1981) kitabındakı "Həmişə yadımda olan insan" mətni hekayə ilə bağlı aparılan tədqiqat üçün maraqlı mənbədir. Eləcə də T.Əhmədovun "Abdulla Şaiq" (Bakı, 2009), "Əgər Şaiq olmasaydı" (Bakı, 2012) kitablarından seçilmiş bölmələrlə tanışlıq şagirdlərin daha səmərəli tədqiqat aparmalarına imkan yaradar.

"Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına daxil edilmiş bütün suallar tədqiqat sualının aydınlaşdırılmasına dəyərli töhfə verir. Başqa sözlə, əsərin

mövzusunun müəyyənləşdirilməsi, onda qaldırılmış problemin aydınlaşdırılması, yazıçı mühakimələrinə diqqət yetirməklə baş qəhrəmanın səciyyələndirilməsi və s. tədqiqat sualına əsaslı cavab verilməsini təmin edir.

Cədvəllərlə işləməyə şagirdlər xüsusi maraq göstərirlər. Müəllim buna laqeyd qalmamalı, cədvəllərdəki tələblərə əhatəli cavab yazılmasına diqqət yetirməlidir. Cədvəllərin formasına, qeyd edildiyi kimi, müəllim yaradıcı yanaşa bilər. O, lazım gələrsə, cədvəllərə əlavələr etməkdə, yaxud onlarda sadələşdirmə aparmaqda sərbəstdir.

**Məlumat mübadiləsi** mərhələsində kiçik qrupların təqdimatlarının fəal dinlənilməsi təmin olunur. Qrup sözçülərinin məlumatları necə, hansı səriştə ilə çatdırdıqlarına müəllim diqqət yetirir, təkrarların, əhəmiyyətsiz faktların xatırladılmasına yol verilmir. Bunun yerində həyata keçirilməsi şagird təqdimatlarının daha məzmunlu olmasında, həmin mərhələnin səmərəliliyində az rol oynamır. Bütün bunlara baxmayaraq, cavablarda pərakəndəlik, əsaslandırılmamış mülahizələr, birtərəfli yanaşma müşahidə edilir. Bunlar **məlumatın müzakirəsi və təşkili** mərhələsində aradan qaldırılır. Müzakirənin diskussiya xarakterli olmasına, hər bir şagirdin öz fikrini sərbəst ifadə etməsinə imkan yaradılır. Başlıcası isə, hər qrupun cavabına digər qrupların yaradıcı yanaşmalarının təmin edilməsidir. Başqa sözlə, hər bir qrupun şagirdləri digər qrupların əldə etdikləri nəticələrə təkcə təqdimatlar əsasında deyil, hekayə ilə bağlı qazandıqları bütün bilik və bacarıqlar zəminində ciddi münasibət bildirməli, tutarlı əlavələr etməli, onlarda zəruri düzəlişlər aparmalıdır. Məsələn, tapşırığın 2-ci sualı (Hekayənin mövzusunu və onda qaldırılmış başlıca problemi müəyyənləşdirin. Gəldiyiniz nəticəyə əsasən cədvəldə qeydlər edin) üzərində işləyən qrupun təqdimatına digər qruplar münasibət bildirərkən cədvəldə əksini tapmış bütün tələblərlə (əsərin mövzusu; əsərdə diqqətə çatdırılan başlıca problem; problemin həllini yazıçı nədə görür; problemin həlli barədə şagirdlərin özləri nə düşünür) bağlı öz mövqelərini ortaya qoymalıdırlar.

Deyilənlərin ümumi ideya halına salınması, ümumiləşdirmənin aparılması növbəti mərhələdə həyata keçirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Bu mərhələnin səmərəli keçməsi müəllimin əvvəlcədən hazırladığı istiqamətləndirici suallardan xeyli dərəcədə asılıdır. Bu, şagirdlərin müstəqilliyini və fəallığını əlindən almır, əksinə, onlara mənimsədiklərinə əsaslanmaqla fikirlərini ümumiləşdirmə əsasında ifadə etməyə imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, “altmış illik səfil bir həyat” bu zərif qadının belini “ağır yüklərlə” büksə də, “gözlərinin nurunu” alsa da, “dizlərini taqətsiz etsə” də “qəlbinə, ruhuna toxuna” bilməmişdir. “Ata-babadanqalma keçmiş əxlaq və səciyyə” “köhnə nəslin qəhrəmanı olan” bu qadında mənlik, şərəf və ləyaqət hissini qoruyub saxlamışdır.

Çıxarılmış nəticələr şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Abdulla Şaiq. “Anabacı”** – 3 saat

## *Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.2.1.** | • Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| **3.1.1.** | • İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir. |
| **3.1.2.** | • Hekayənin ideya-bədii xüsusiyyətlərinə əlavə məlumatlara əsaslanmaqla münasibət bildirir. |
| **3.1.3.** | • Mühakimə xarakterli inşa, esse yazır. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi yolu ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Dərsdə növbəti addım dərslikdə təklif olunmuş mövzunun (Düşdüyü şəraitdən və vəziyyətdən asılı olmayaraq, insan öz ləyaqətini qoruyub saxlaya bilərmi?) müzakirəsi üzrə işin təşkili ola bilər. Müzakirəni fərqli formalarda (diskussiya, debat və s.) aparmaq mümkündür. Müzakirənin səmərəli keçməsi ona hazırlıq işinin aparılmasından xeyli dərəcədə asılıdır. Hələ dərsə bir neçə gün qalmış şagirdlərə bu sualın üzərində düşünmək, həyatda tanıdıqları insanların, tanınmış söz sənətkarlarının, elm adamlarının, siyasi xadimlərin həyatı, fəaliyyəti barədə bildiklərini təhlil etmək, müəyyən bir qənaətə gəlmək təklif olunur.

Müzakirədə şagirdlərin fikirlərini sərbəst ifadə etmələrinə, diskussiyada fəal olmalarına, mülahizələrini nümunələrlə əsaslandırmalarına diqqət yetirilir.

Müzakirə şagirdlərdə belə bir qənaətin möhkəmlənməsinə səbəb olur ki, *ləyaqətli insan danışığına, davranışına, əməllərinə nəzarət etməyi və obyektiv qiymət verməyi bacarır. O, yersiz danışmaqdan, yüngül hərəkətlərdən uzaq olur. Belə adamlar vəzifə borcunu heç bir təmənna güdmədən layiqincə yerinə yetirdikləri kimi, xeyirxah olmaları ilə də seçilirlər. Şəxsi mənafe, mənsəb və s. üçün yaltaqlanmaq, başqalarının qarşısında alçalmaq belə adamlara yaddır. Öz zəhmətləri, halal qazancları ilə dolanan bu cür insanlarda pul, var-dövlət hərislərinə nifrət olur... Ləyaqətli adamlar həmişə haqqın, ədalətin müdafiəçisi olurlar.*

*İnsan həyatı mürəkkəb və ziddiyyətlidir, enişli, yoxuşludur. Elə buna görə də ləyaqətli, şərəfli ömür bəzən ona baha başa gəlir, itiriləsi, qurban veriləsi çox şeylər olur. Məhz bunun üçün də ləyaqətli insanların birliyi, bir-birinə dayaq olmaları çox vacibdir.*

Məlumdur ki, **tətbiq, müzakirə, yaradıcı iş** dərslərində **motivasiyanın yaradılması, tədqiqat sualı** daha çox önəm verilən, vaxt ayrılan təlim işi ilə bağlı olur. İnşa və esse üzrə işin yerinə yetirilməsinə bu dərsdə önəm verildiyindən motivasiya və tədqiqat sualı da onlarla bağlı həyata keçirilir.

**Motivasiya, problemin qoyuluşu.** Dərslikdə təklif olunmuş inşa və esse mövzuları (Hekayə insanlara, həyata baxışımda hansı dəyişikliyə səbəb oldu?; Anabacı obrazının taleyi məndə hansı hiss və düşüncələr yaratdı?) şagirdlərin diqqətinə çatdırılır. Sonra mühakimə xarakterli inşa və esse ilə bağlı mənimsənilmiş bilik və

bacarıqlar yığcam müsahibə ilə yada salınır. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşdırılır.

***Tədqiqat sualı:*** Mühakimə xarakterli inşa və esse üçün təklif olunmuş mövzularda, başlıca olaraq, hansı məsələlərə diqqət yetirilməlidir?

Fərziyyələr dinlənilir və qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Öz istəklərinə əsasən seçdikləri mövzu üzrə plan tərtib edən şagirdlər müstəqil işləyirlər. Ehtiyac yaranan hallarda müəllim bu və ya digər şagirdə istiqamətləndirici suallarla yardım edir. Şagirdlərin müxtəlif mənbələrə müraciət etmələrinə, bir sıra hallarda cütlük şəklində fikir mübadiləsi aparmalarına imkan yaradılır.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra ayrı-ayrı şagirdlərin təqdimatı əsasında **fikir mübadiləsi və müzakirə** aparılır. Sonrakı – **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində isə əldə olunmuş nəticələrlə fərziyyələrin müqayisə edilməsinə daha çox diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Yusif Vəzir Çəmənzəminli. "Zeybək qızı"** – 3 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Hekayə ilə bağlı müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Müvafiq qiymətləndirmə meyarlarından istifadə edilir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasını fərqli yollarla həyata keçirmək olar. Milli azadlıq, müstəqillik mövzusunda mahnının, marşların dinlənilməsi, bədii əsərdən parçanın oxunması, filmdən fraqmentə, rəsm nümunəsinə baxılması, atalar sözlərinin və s. xatırladılması əsasında müsahibə aparmaqla motivasiyanı yaratmaq maraqlı olar.

Dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında müsahibə aparmaqla motivasiyanın yaradılması vaxta qənaət baxımından məqsədəuyğundur.

***Tədqiqat sualı:*** "Vətənin müstəqilliyi, xalqın azadlığı uğrunda şəhid olanlar əbədi həyat qazanırlar" fikrini doğru saymaq olarmı?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** İlk növbədə, hekayənin oxusu və məzmununun mənimsənilməsi həyata keçirilir. Sinfin səviyyəsindən, məqsəddən və s. asılı olaraq, oxunu

fərqli variantlarda təşkil etmək mümkündür. Əsərin dil və üslubundakı özəllik, mənası aydın olmayan sözlərin çox olması səsli (ucadan) oxunun tətbiqinə də əsas verir. Oxunun hansı formada aparılmasından asılı olmayaraq, tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi həmin prosesdə həyata keçirilir.

İlk üç parçanın oxusu başa çatdıqdan sonra şagirdlər mətnkənarı suallara cütlük şəklində cavab hazırlayırlar. Üçüncü parçanın məzmununa aid sualların tərtib edilməsi isə ya fərdi, ya da cütlük şəklində yerinə yetirilir. Cavabları üst-üstə düşən və ya yaxın olan şagirdlərin kiçik qruplarda birləşərək araşdırmalarını davam etdirmələrinə imkan yaradılır. Bütün cavabları müzakirə edib müəyyən nəticəyə gələn qruplar təqdimat əsasında **fikir mübadiləsi** aparırlar. Bu prosesdə bütün sinfin fəallığı təmin edilir, mətndə qaranlıq mətləbin qalmasına imkan verilmir. **Müzakirə mərhələsində** mətnin – oxunmuş parçaların məzmunu ilə bağlı qazanılmış təsəvvürün tam, bütöv, dolğun olmasına səy göstərilir. Başqa sözlə, mətnkənarı suallara hazırlanmış cavablar müzakirə obyekti olsa da, mətnin bütövlükdə məzmunu barədə əhatəli təsəvvürün formalaşdırılması məqsədi unudulmur. Deməli, oxunmuş hissənin məzmunu ilə bağlı qazanılmış təsəvvürün tamlığına nail olmaq üçün əvvəlcədən hazırlanmış, mətnkənarı suallardan fərqlənən suallar əsasında yığcam müsahibə aparmaq mümkün və faydalıdır.

Dərslikdə şifahi təqdimat üçün təklif edilmiş mövzular ilkin təəssüratın aşkara çıxarılması və dərinləşdirilməsi baxımından faydalıdır. Təqdimatların hazırlanması, dinlənilməsi və müzakirəsi müəllimin diqqətindən kənarda qalmamalıdır.

Əsərin bütövlükdə öyrənilməsi həyata keçirilmədiyindən **nəticə və ümumiləşdirmə** mərhələsinin tələbləri növbəti dərsdə yerinə yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Yusif Vəzir Çəmənzəminli. "Zeybək qızı"** – 3 saat
*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.3.** | • Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yaradıcı nağıl edir. |
| **1.1.4.** | • Hekayə janrının xüsusiyyətlərini müəyyənləşdirir. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Evdə oxunmuş parçaların məzmununun hansı səviyyədə mənimsənildiyini aşkara çıxarmaq üçün təcrübədə nağıletməyə üstünlük verilir. Vaxta qənaət baxımından bu məqsədlə təqdimatların dinlənilməsini və müzakirəsini təşkil etmək daha faydalıdır.

Müəllim müvafiq qiymətləndirmə meyarlarına müraciət etməklə qiymətləndirməni həyata keçirir.

Məzmunun öyrənilməsinə həsr edilmiş bu dərsi müəllim fərqli variantlarda təşkil edə bilər. İstənilən halda, şagirdlər hekayənin məzmunu haqqında bütöv, dolğun təsəvvür qazanmalıdırlar. Onlara evdə oxuduqları dördüncü və beşinci parçaları bir daha nəzərdən keçirmək, mətnkənarı suallara cütlük şəklində cavab hazırlamaq təklif edilir. Sonra kiçik qruplarda birləşən cütlüklər fikir mübadiləsi aparmaqla cavablarını dəqiqləşdirir və ümumiləşdirirlər. Qrup işlərinin nəticələri **məlumat mübadiləsi, müzakirə** mərhələsində təqdimatlar əsasında açıqlanır və müzakirə edilir. Bu prosesdə müəllim mənası yeni öyrənilmiş sözlərdən, bədii təsvir və ifadə vasitələrindən necə istifadə edildiyinə, şagirdlərin şifahi nitqinə diqqət yetirir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Müəllim əvvəlcədən hazırladığı suallardan istifadə etməklə şagirdləri əsaslandırılmış nəticələr çıxarmağa istiqamətləndirir. Kiçik bir hekayə vasitəsi ilə böyük tarixi hadisə haqqında təsəvvür qazanan şagirdlərdə belə qənaət möhkəmlənir ki, vətənini və xalqını sevən kəs onların taleyinə biganə qala bilməz. Belə insanlar şəxsi həyatlarını, talelərini doğma vətənlərinin, mənsub olduqları xalqın taleyindən ayrı təsəvvür etmirlər. Vətənin, xalqın mənafeyini hər şeydən uca tutan bu insanları heç bir çətinlik, məhrumiyyət qorxutmur, bu yolda ölümü onlar özləri üçün şərəf sayırlar. Belə insanların ölümü xalq matəmi kimi qarşılanır. Onlar şəhidliyin zirvəsinə ucalmış insanlar kimi əbədi ömür və xalqın sonsuz məhəbbətini qazanırlar.

Əldə olunmuş nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

Dərslikdəki **"Bilik və bacarıqlarınızı tətbiq edin"** başlıqlı tapşırıqlar həm nəzəri anlayışlarla, həm də məzmunla bağlı qazanılmış biliklərin dərinləşdirilməsi, möhkəmləndirilməsi baxımından faydalıdır. Üçüncü tapşırıq əsərin hekayə janrında olduğunu əsaslandırmağı, dördüncü isə süjetin mərhələlərini müəyyənləşdirməyi

tələb edir. Məzmun standartlarının tələbləri əsasında təklif olunan bu qəbildən tapşırıqların vaxtaşırı icra etdirilməsi məqsədəuyğundur. Təcrübədən məlumdur ki, bu məzmunda olan tapşırıqları icra etməkdə çətinlik çəkən şagirdlər az deyildir. Məhz buna görə də ehtiyac yaranan hallarda hekayə janrının xüsusiyyətləri və süjet xəttinin mərhələləri barədə mənimsənilənlərin üzərinə qayıtmaq məqsədəuyğundur.

Beşinci tapşırıq məzmunun dərindən qavranılmasını təmin etməklə bərabər, obrazlı təfəkkürün, şifahi nitqin inkişafı baxımından da faydalıdır. Şagirdlərin fəaliyyətini müşahidə edən müəllim əsərin bitkin hissələrə nə cür ayrıldığı, plan tərtibinin necə, hansı səviyyədə yerinə yetirildiyi barədə təsəvvür qazanmağa çalışmalıdır. Yaradıcı nağıletməyə hansı səviyyədə əməl edildiyi də müəllimin diqqət mərkəzində olmalıdır. Şagirdlər mətnin əsiri olmamalı, əlavələri ilə onu zənginləşdirməlidirlər.

Tapşırıqların nəticələri təqdimatlar əsasında müzakirə edilir, ümumiləşdirmə aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Yusif Vəzir Çəmənzəminli. "Zeybək qızı"** – 3 saat
## *Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə hekayənin qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.4.** | • Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.2.** | • Hekayənin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |
| **2.2.1.** | • Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi şifahi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanı müxtəlif yollarla yaratmaq olar. Müharibə mövzusunda filmlərdən müvafiq fraqmentin nümayiş etdirilməsi, bədii və musiqi əsərlərindən parçaların səsləndirilməsi, milli azadlıq və müstəqilliklə bağlı müdrik deyimlərin xatırladılması və s. motivasiya yaratmaq üçün vasitə ola bilər. 20 Yanvar faciəsi ilə əlaqədar materiallar, milli azadlıq uğrunda canını qurban verən şəhidlərimiz barədəki mənbələr – bədii və elmi əsərlər, incəsənət nümunələri və s. tətbiq edilməklə motivasiya yaratmaq mümkündür.

Dərslikdəki “Düşünün” başlıqlı sual (Öz səadətini, xoşbəxtliyini xalqının azadlığında görən insanlar barədə nə düşünürsünüz?) əsasında aparılan yığcam müsahibə motivasiyanı az vaxt ərzində təşkil etməyə imkan verir.

***Tədqiqat sualı:*** “Vətəni müstəqil, xalqı azad olmayan şəxs əsl xoşbəxtliyini və səadətini tapa bilməz” fikrini doğru hesab etmək olarmı?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Hansı təlim metodlarının, iş formalarının tətbiqindən asılı olmayaraq, dərslikdəki “Əsərin təhlilinə hazırlaşın” mətninə və “Araşdırın. Fikirləşin. Cavab verin” başlıqlı tapşırığa müraciət edilməsi faydalıdır. Kiçik qruplarda işdən istifadəyə üstünlük verən müəllim şagirdlərin “Əsərin təhlilinə hazırlaşın” mətni ilə tanış olmaları üçün vaxt ayırır. Ardınca “Araşdırın. Fikirləşin. Cavab verin” başlıqlı tapşırıq əsasında hazırladığı iş vərəqlərini qruplara təqdim edir.

Məktəblərimizdə kiçik qruplarda iş formasının tətbiqində bir cəhət hələ də özünü qüsur kimi göstərir. Qrupdakı şagirdlərin heç də hamısı tapşırığın icrasında eyni dərəcədə iştirak etmir. Odur ki müəllim müşahidələrinə ara verməməli, başlıcası isə qrup daxilində vəzifə bölgüsünün aparılmasına nail olmalıdır.

Təhlil dərslərində kiçik qruplarda iş formasının ardıcıl tətbiqi şagirdlərdə belə bir fikir formalaşdırır ki, hər qrupun fəaliyyətinin nəticəsi görülən ümumi işə töhfədir. Bu, onlarda məsuliyyət hissini birə-beş artırır. Elə buna görə də müəllim şagirdlərin bu mövqeyinin güclənməsinə çalışmalı, nümunələrlə əsaslandırmalıdır ki, ümumi işin müvəffəqiyyəti ayrı-ayrı qrupların uğurlu fəaliyyətindən asılıdır. Şagirdlər icra etdikləri tapşırığın tədqiqat sualının aydınlaşdırılmasındakı rolunu işə başladıqları andan aydın təsəvvür etməlidirlər. Müəllim bu məsələdə onlara bələdçi olmalıdır. Məsələn, ikinci sualın (Sizcə, yazıçının bu mövzuya müraciət etməsinə səbəb nədir?) üzərində işləyən qrup “Əsərin təhlilinə hazırlaşın” mətnindəki məlumatlardan, milli azadlıq hərəkatlarına Y.V.Çəmənzəminlinin rəğbəti barədə öyrəndiklərindən bəhrələnə bilər. Mənbələrdən şagirdlərə məlum olur ki, yazıçı Türkiyədə baş verən hadisələri böyük maraq və narahatlıqla izləmiş, bu ölkəni azad, müstəqil görmək arzusunu heç vaxt gizləməmişdir. Bu əsəri qələmə almağının ən mühüm səbəbi də məhz Türkiyədəki milli azadlıq hərəkatına bəslədiyi böyük rəğbət hissi idi.

Yaxud üçüncü sualın (Midhəd əfəndi obrazını səciyyələndirin...) üzərində işləyən şagirdlər işğal olunmuş vətəninin dərdini çəkən, həyəcan, kədər, qəzəb hissini heç cür gizlədə bilməyən Midhəd əfəndi obrazını təhlil etməklə müəllifin niyyətini də açıqlamış olurlar. Əsərdəki təsvirlərdən, müəllif mühakimələrindən aydın olur ki, düşmən tapdağı altında olan vətəninin və həmvətənlərinin acınacaqlı vəziyyəti Midhəd əfəndiyə özü ilə bağlı hər şeyi unutdurmuşdur. Rahatlığını itirən bu ziyalının gəldiyi qənaət budur ki, müstəqil olmayan ölkənin vətəndaşı əsir həyatı yaşayır. Belə vətəndaşın üzü gülməz, əli işə yatmaz, “əcnəbi işğalından təhqir olunmuş şərəfi” ona dinclik verməz...

Tapşırıqdakı altıncı sual da (Əsərdəki konflikti müəyyənləşdirin. O, təbiidirmi?) digər suallar kimi tədqiqat sualının aydınlaşdırılmasında əhəmiyyətli rol oynayır. Əsərin konflikti azad yaşamaq istəyən xalqla işğalçı qüvvələr arasında baş verən münaqişə üzərində qurulmuş, tarixi həqiqəti əks etdirmiş, oxucular tərəfindən təbii qəbul edilmişdir.

**Məlumat mübadiləsi** mərhələsində qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına imkan yaradılır. Çıxış edənlərin tapşırığın tələblərinə uyğun

olaraq, əsərdən nümunələr göstərmələrinə, daha əhəmiyyətli məsələlərin üzərində dayanmalarına istiqamət verilir.

Deyilmiş fikirlərin əlaqələndirilməsinə, müqayisəsinə, sistemə salınmasına **məlumatın müzakirəsi və təşkili** mərhələsində xüsusi diqqət yetirilir. Yanlış, birtərəfli fikirlərin üstündən keçilmir, onlara diskussiya zəminində düzəlişlər və əlavələr edilir. Hansı qrupun yerinə yetirməsindən asılı olmayaraq, müzakirədə bütün suallara eyni münasibət, eyni yanaşma müşahidə olunur. Bu, təhlil dərsinin uğuru, tədqiqatın səmərəliliyinin göstəricisi kimi dəyərləndirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Ümumiləşdirmənin aparılması, deyilmiş fikirlərin vahid ideya şəklinə salınması bu mərhələdə ön plana keçir. Şagirdlər əvvəlcədən hazırlanmış suallar vasitəsi ilə son nəticələrə istiqamətləndirilirlər. Onlarda belə qənaət möhkəmlənir ki, hər bir vətəndaş üçün xoşbəxtliyin və səadətin mənbəyi vətənin müstəqil, xalqın azad olmasıdır. Müstəqilliyi, azadlığı əlindən alınmış ölkənin övladı olmaq doğma vətənində əsir, kölə vəziyyətində yaşamaq deməkdir. Belə ölkənin vətəndaşına nə xoşbəxtlik, nə də səadət nəsib olar.

Doğma yurdda yadelli kimi yaşamağı qəbul etməyən Midhəd əfəndi kimi minlərlə gənc milli azadlıq uğrunda mübarizənin ön sıralarında getmiş, bu yolda canlarından belə keçmişlər.

Çıxarılmış nəticələrin tədqiqat sualı və fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir.

**“Tətbiq. Müzakirə. Yaradıcı iş”** başlığı atında verilmiş müzakirə mövzusu (“Zeybək qızı” hekayəsini milli azadlıq mövzusunda oxuduğunuz bir əsərlə müqayisə əsasında müzakirə aparın) bilik və bacarıqların tətbiqi baxımından faydalıdır. Müqayisə üçün əsərin müəyyənləşdirilməsində şagirdlərin rəyi nəzərə alınmalıdır. Bu məqsədlə sinifdə öyrənilmiş, yaxud müstəqil oxunmuş əsər seçilə bilər.

Müzakirədən əvvəl müqayisənin xüsusiyyətləri, tətbiqi qaydaları üzrə mənimsənilmiş bilik və bacarıqların yığcam müsahibə ilə xatırladılması faydalıdır.

Müqayisənin nəticələri “Zeybək qızı” əsərinin yaratdığı təəssüratın zənginləşməsinə səbəb olur. Şagirdlər belə qənaətə gəlirlər ki, növündən, janrından asılı olmayaraq, milli azadlıq mövzusunda yazılmış əsərlərdə vətənin müstəqilliyi, xalqın azadlığı ideyaları hər şeydən uca tutulur, taleyüklü məsələ kimi dəyərləndirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzü:* **Almas İldırım. "Əsir Azərbaycanım"** – 2 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilib müzakirə edilməsi ilə müəyyənləşdirilir. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə təşkil olunan iş fərqli məzmunda ola bilər. Dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında müsahibə aparmaq və tədqiqat sualını müəyyənləşdirmək vaxta qənaət baxımından məqsədəuyğundur.

***Tədqiqat sualı:*** Vətən mövzusunda yazılmış əsərdə kədərli, bədbin hisslərin ifadə edilməsinə səbəb, sizcə, nə ola bilər?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Əsərin oxusu fərqli şəkildə həyata keçirilə bilər. Şeirin yığcam həcmi, dil-üslub aydınlığı fərdi səssiz oxunu tətbiq etməyə imkan verir. Oxunun hansı formada həyata keçirilməsindən asılı olmayaraq, şagirdlərə ilkin təəssüratlarını bölüşmək imkanı yaradılır. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi həmin mərhələdə reallaşdırılır. Fikirlərini ikihissəli gündəlikdə qeyd etmək təklifini alan şagirdlər mətnə daha diqqətlə yanaşır, müstəqil fəaliyyətlərini genişləndirirlər.

Fikirləri üst-üstə düşən, yaxud oxşar olan şagirdlərin kiçik qruplarda birləşərək cavablarında dəqiqləşdirmələr, ümumiləşdirmələr aparmalarına imkan yaradılır. Yalnız bundan sonra qrup sözçülərinin təqdimatı əsasında əldə olunmuş nəticələr barədə fikir mübadiləsi və müzakirə aparılır.

**Məlumatın mübadiləsi və müzakirəsi mərhələlərində** qrupların bir-birinin işi ilə ətraflı tanış olmalarına imkan yaradılır. Ayrı-ayrı misralarda ifadə olunmuş fikirlərin şərhi, mətnaltı mənaların açıqlanması diqqət mərkəzinə çəkilir. Şeirdə əksini tapmış mətləblərə məhz bu mərhələdə əsaslı aydınlıq gətirilir. Bu mətləblər isə az deyildir; vətən həsrəti, vətəndən kənarda xoşbəxt yaşamağın mümkün olmaması, eyni zamanda doğma yurdun acı taleyi, bədbinlik, ələm, dərd, "sərsəm gediş"... Bütün bunların nümunələr əsasında şərh edilməsi və mənimsənilməsi təkcə növbəti mərhələnin deyil, həm də təhlilin uğurlu olmasına əhəmiyyətli təsir edir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə kimi deyilmiş bütün fikirlərin ümumiləşdirilməsi, vahid ideya şəklinə salınması əsas məqsəd olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, söz ustaları – ədiblərimiz vətənimizi tərənnüm və tərif etməklə məhdudlaşmamışlar. Vətənə həsr olunmuş əsərlərdə, həmçinin yaşanmış faciələrdən doğan acı duyğular, xalqın və vətənin ağır

günləri ilə bağlı kədərli düşüncələr geniş əksini tapmışdır. A.İldırımın şeiri də məhz bu qəbildən olub, ciddi ictimai məzmunu ilə seçilir.

Çıxarılmış nəticələr fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdəki "Bilik və bacarıqlarınızı tətbiq edin" başlıqlı tapşırıq əsərin məzmununun mənimsənilməsi üzrə aparılan işin davamı kimi faydalıdır.

Bu tapşırığın icrası çox vaxt aparmır. Hələ oxu prosesində müəyyənləşdirilmiş bədii təsvir və ifadə vasitələrinin işləndiyi misraların aşkara çıxarılıb cədvəldə yazılması məlumatın dəqiqləşdirilməsi, məzmunla bağlı mənimsənilənlərin dərinləşdirilməsi baxımından faydalıdır.

Uğurlu qafiyələrin müəyyənləşdirilməsi üzərində düşünən şagirdlər təkcə nəzəri anlayışı deyil, həm də şeirin məzmununu dərindən qavrayır, məntiqi və tənqidi təfəkkürlərini inkişaf etdirirlər.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Almas İldırım. "Əsir Azərbaycanım"** – 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.2.** | • Şeirin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyi təqdimatların dinlənilməsi və müzakirəsi ilə aşkara çıxarılır. Həmin prosesdə müvafiq qiymətləndirmə meyarlarına müraciət edilməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələni fərqli variantlarda təşkil etmək mümkündür. Dərslikdəki "Düşünün" başlıqlı sual (Milli azadlığa, vətən həsrətinə həsr olunmuş əsərlərin əhəmiyyəti, sizcə, nədir?) əsasında müsahibə aparmaqla tədqiqat sualını formalaşdırmaq olar.

***Tədqiqat sualı*:** "Şeirin əsas ideyası müstəqilliyinə qəsd edilmiş vətənimizin uğursuz taleyindən doğan nisgilin ifadəsidir" fikrini doğru saymaq olarmı?

İrəli sürülən fərziyyələr dinlənilir və təkrara yol verilmədən lövhədə qeyd olunur.

**Tədqiqatın aparılması.** Tədqiqat üçün metod və iş formaları seçməkdə müəllim sərbəstdir. Lakin bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallara müraciət edilməsi vacibdir.

"Əsərin təhlilinə hazırlaşın" mətni şeirin yaranma şəraiti, onun yazılmasına səbəb olan başlıca amillər barədə aydın təsəvvür yaradır. Bu mətn şeirin ideya-məzmununun qavranılmasında və izahında da əhəmiyyətli rol oynayır.

Tədqiqatın kiçik qruplarda aparılması planlaşdırılarsa, "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallar əsasında hazırlanan iş vərəqləri (hər qrupa bir sual ayrılmaqla) şagirdlərə təqdim edilir. Bu sualların hər birinin tədqiqat sualının aydınlaşdırılmasında öz rolu vardır. Lakin müəllim sinfin səviyyəsindən, vaxt büdcəsindən, qarşıya qoyduğu məqsəddən asılı olaraq, suallara yaradıcı yanaşa bilər.

Tapşırıq üzərində işləyən qruplara, ehtiyac yaranan məqamlarda istiqamət verilir. Bu, onların fəaliyyətinin səmərəli təşkili baxımından əhəmiyyətlidir. Məsələn, ikinci sualın (Şeir hansı mövzuda yazılıb? Şairin bu mövzuya müraciət etməsinə səbəb nədir?) üzərində işləyən şagirdlərə əsərin yarandığı tarixə və şəraitə xüsusi diqqət yetirməyin vacib olduğu xatırladılır, üçüncü sualla (Şairi narahat edən başlıca problem, sizcə, nədir?) əlaqədar tədqiqat aparanların şeirdə öz əksini tapmış düşüncələri ("sərsəm gediş", "eşsiz yurdum", "bəxtsiz anam" və s. söz və ifadələrə nəzər salmaqla) aydınlaşdırmaları vacibdir. Dördüncü sual (Şair öz vətənini azad, müstəqil görəcəyinə ümid edirmi? Nə üçün?) azadlığını, müstəqilliyini itirən vətənimizin keşməkeşli tarixi ilə bu günü arasında müqayisə aparmaq məqsədilə tapşırığa daxil edilmişdir. Beşinci sualın (Şeirin bədii təsir gücünün artması üçün hansı vasitələrdən istifadə edilmişdir?) tələbi ilə bədii təsvir və ifadə vasitələrinin, xüsusən bədii sualların təhlilə cəlb edilməsi müəllif niyyətinin başa düşülməsində əhəmiyyətli rol oynayır. Deyilənlərdən o da məlum olur ki, "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı bütün tələblər tədqiqat sualının araşdırılmasına, aydınlaşdırılmasına layiqli töhfə verir.

**Məlumat mübadiləsi.** Bu, dərsin maraqla gözlənilən mərhələsidir. Doqquzuncular, adətən, dinləməkdən çox çıxış etməyə, fikir bildirməyə meyilli olurlar. Məhz buna görə də müəllim təqdimatların fəal dinlənilməsinə nail olmalıdır. O, təqdimatlarda təkrarçılığın, sözçülüyün qarşısını istiqamətləndirici suallar vasitəsilə alır. Təqdimat edənlərə suallar verilsə də, müzakirə aparılmır. Bu prosesdə müşahidə edilən başlıca qüsurlar – fikirlərin birtərəfli, sistemsiz olması, yetərincə əsaslandırılmaması dərsin **məlumatın müzakirəsi və təşkili mərhələsində** aradan qaldırılır. Müzakirənin səmərəli keçməsi, şagirdlərin fəallığı əsərin məzmununun hansı səviyyədə öyrənilməsindən, əvvəlki mərhələlərdə işin necə təşkil olunmasından asılıdır. Əsərin məzmununu mükəmməl qavrayan, təqdimatları diqqətlə dinləyən şagirdlər müzakirədə fəal olur, əsaslandırılmış mövqe nümayiş etdirirlər.

**Nəticə, ümumiləşdirmə.** Fikirlərin ümumi ideya halına salınması, tədqiqat sualının cavabının formalaşdırılması kimi mühüm vəzifələr bu mərhələdə həyata keçirilir. Müəllimin yönəldici sualları əsasında ümumiləşdirmə aparan şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, A.İldırım xalqının azadlığına, vətəninin müstəqilliyinə edilən qəsdlə heç cürə barışa bilmir. Şeir milli azadlığı öz əqidəsinə çevirən, yurdunun əsir vəziyyətindən sarsılan vətənpərvər şairin mövqeyini ifadə edən gözəl sənət nümunəsidir. Əsər şairin bütün yaradıcılığı üçün səciyyəvi olan ələmli, hüznlü ovqata

malik olsa da, onda Vətənin acı taleyinə, düşdüyü ağır vəziyyətə etiraz motivləri də əksini tapmışdır.

Çıxarılmış nəticələr tədqiqat sualı və şagirdlərin irəli sürdükləri fərziyyələrlə müqayisə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* Mikayıl Müşfiq. "Həyat sevgisi" – 2 saat
## *Birinci saat:* Əsərin məzmunu üzrə iş

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərin köməyi ilə aydınlaşdırır. |
| 1.1.5. | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| 2.2.1. | • Şeirlə bağlı müzakirələrdə mövzuya tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyi ifaların dinlənilib müzakirə edilməsi yolu ilə müəyyənləşdirilir. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya yaratmaq üçün rəmzi materiallardan – müdrik deyimlərdən, atalar sözü və məsəllərdən, bədii mətnlərdən və s. istifadə etmək olar. Buna dərslikdəki "Yada salın" başlıqlı sualların əsasında yığcam müsahibə aparmaqla da nail olmaq mümkündür.

Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşır.

***Tədqiqat sualı:*** Sizcə, sənətkarı yazıb-yaratmağa sövq edən səbəblər nə ola bilər?

Şagirdlərin fərziyyələri dinlənilir və qeyd olunur.

**Tədqiqatın aparılması.** Əsərin oxusu üzrə iş, dərslikdə göstərildiyi kimi, fərqli şəkillərdə təşkil edilə bilər. Lakin unudulmamalıdır ki, əsərlə ilkin tanışlıqdan, bu prosesdə yaranan emosional ovqatdan çox şey asılıdır. Yəni əsərin öyrənilməsi ilə bağlı aparılacaq sonrakı işlərin nə dərəcədə uğurlu olmasına ilk oxunun necə təşkil edilməsi və nəticəsi əhəmiyyətli dərəcədə təsir edir. Məhz bu oxu prosesində reallaşan emosional-obrazlı qavrama sonrakı mərhələlərdə – əsərin məzmununun öyrənilməsində və təhlildə yüksək idraki fəallığa səbəb olur. Doğrudan da, ilkin bədii-emosional təsir şagirdləri ovsunlayır, motivasiyaedici rol oynayaraq əsərin estetik dəyərini duymağa, dərk etməyə və dəyərləndirməyə sövq edir. O nəinki idraki fəallığın dərs boyu qorunub saxlanılmasını təmin edir, həm də şagirdlərin "emosional yaddaşına" dərin iz salır, ümumi inkişafı üçün faydalı olur, onlarda söz sənətinə maraq və məhəbbət formalaşdırır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra kiçik qruplar yaradılır, hər qrup iki bənd (fərqli də ola bilər) üzərində işləməklə ikihissəli gündəlikdə qeydlər edir. Müəllim

şagirdlərin fəaliyyətini diqqətlə müşahidə edir, qrup üzvlərinin hər birinin ümumi işə töhfəsinin nədən ibarət olduğunu müəyyənləşdirir. Məktəb təcrübəsindən məlumdur ki, gənc şairin bu mövzuda əsər yazması, ümumiyyətlə, onun məzmunu şagirdləri ciddi düşündürür. Bu, ikihissəli gündəlikdə qeydlərin geniş fikir mübadiləsi, mübahisə, diskussiya zəminində aparılmasına səbəb olur. Bu prosesdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinə diqqət yetirilir.

**Məlumat mübadiləsi** mərhələsində bütün şagirdlərdə fəallıq müşahidə edilir. Şeirin məzmunu ilə tanış olan şagirdlər təqdimat edənlərin sözünü tez-tez kəsir, əlavələr, düzəlişlər etməyə cəhd göstərirlər. Bu müdaxilələr səmərəli istiqamətləndirilir, vaxt itkisinə yol verilmir. Şeirin məzmunu barədə dolğun təsəvvürün yaradılması məqsədi ilə şagirdlərin hər birinə sual vermək, sərbəst fikir bildirmək imkanı yaradılır.

**Məlumatın müzakirəsi** mərhələsində diqqət təkcə ayrı-ayrı bəndlərdə ifadə olunmuş fikrin necə başa düşüldüyünə yönəldilməməlidir; şairi riqqətə gətirən, həyəcanlandıran, yaşayıb-yaratmağa səsləyən mətləblər bir-bir nəzərdən keçirilməli, mahiyyətinin dərk edilməsinə nail olunmalıdır. Bu, müəllifin hisslər aləminin, həyata baxışının, mövqeyinin başa düşülməsinə əhəmiyyətli dərəcədə təsir edir. Nəticədə tədqiqat sualının aydınlaşdırılmasına yol açılmış olur.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə qədər deyilmiş fikirlərin ümumiləşdirilərək bir ideya halına salınmasına xüsusi diqqət yetirilir. Mənimsənilmiş bilik və bacarıqlar, müəllimin istiqamətləndirici sualları bunun həyata keçirilməsinə imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, müəllifin yaşayıb-yaratmaq həvəsi, istəyi həyata, təbiətə, insanlara sonsuz məhəbbətindən irəli gəlir. O özünü dünyanın, təbiətin ayrılmaz parçası sayır, "işıqlı dünyadan", "aydan", "günəşdən"... "əl çəkməyin" mümkünlüyünü təsəvvür edə bilmir...

Çıxarılmış nəticənin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilməsinə diqqət yetirilir.

Dərslikdə təklif edilmiş mövzular üzrə şagirdlərin təqdimata hazırlaşması üçün vaxt ayrılır. Təqdimatların fəal dinlənilməsinə və müzakirəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mikayıl Müşfiq. "Həyat sevgisi"** – 2 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.1.** | • Şeirlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyini müəyyənləşdirmək üçün təqdimatların dinlənilib müzakirə edilməsi məqsədəuyğundur. Bu prosesdə müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Problemli vəziyyətin yaradılmasına – motivasiyaya fərqli yollarla nail olmaq mümkündür. Məsələn, insanın yaşayıb-yaratmaq istəyini və buna qarşı duran ciddi maneələri əks etdirən bədii əsərdən müvafiq parçanın oxunması, atalar sözləri, aforizmlər əsasında müsahibənin aparılması və s. buna misal ola bilər. Dərslikdəki "Düşünün" başlıqlı sual (Sənətkarın şəxsi narahatlığını əks etdirən əsərlərin yazılmasına səbəb, sizcə, nə ola bilər?) əsasında müsahibə aparmaqla motivasiya yaratmaq isə vaxta qənaət baxımından daha faydalıdır.

***Tədqiqat sualı:*** Sizcə, müəllifi narahat edən hansı problem şeirdə öz ifadəsini tapmışdır?

Səslənən fərziyyələr dinlənilir və təkrara yol verilmədən lövhədə qeyd olunur.

**Tədqiqatın aparılması.** Dərsin necə, hansı variantda keçilməsindən asılı olmayaraq, dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətnindən, "Araşdırın. Fikirləşin. Cavab verin" başlığı altında verilmiş tapşırıqdan istifadə edilməsi məqsədəuyğundur.

Tədqiqat cütlük şəklində, yaxud kiçik qruplarda iş formalarından biri tətbiq edilməklə aparıla bilər. Cütlük şəklində işləyənlərin sonra kiçik qruplarda birləşərək tədqiqatlarını davam etdirmələri də, təcrübədən məlumdur ki, effektli olur. Kiçik qruplarda iş seçilərsə, "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırıq, hər qrupa bir sual ayrılmaqla, iş vərəqlərində şagirdlərə təqdim edilir. Məqsəddən asılı olaraq, tapşırıqda ixtisarlar aparmaq, yaxud ona suallar əlavə etmək olar. Şagirdlər M.Müşfiqin həyatı haqqında əldə etdikləri məlumatlara, "Əsərin təhlilinə hazırlaşın" mətnindəki tövsiyələrə əsaslanmaqla tapşırığın icrasına başlayırlar. Müəllim şagirdlərin fəaliyyətini müşahidə edir, lazım gələrsə, onlara yardımçı suallarla istiqamət verir.

Mühüm məsələlərdən biri də tədqiqat sualı ilə "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığının arasındakı bağlılığın şagirdlər tərəfindən aydın təsəvvür edilməsidir. Tapşırığın bütün tələbləri birbaşa tədqiqat sualı ilə bağlı olub, onun araşdırılmasına, aydınlaşdırılmasına imkan yaradır. Tədqiqatın lap əvvəlindən qrupların bu məsələyə

necə münasibət bəslədiklərini aşkara çıxaran müəllim istiqamətləndirici suallardan istifadə etməklə şagirdlərin fəaliyyətinə səmərəli istiqamət verir.

**Məlumat mübadiləsi** mərhələsində əsas məqsəd qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarını təmin etməkdir. Bunun üçün təqdimatlar diqqətlə dinlənilməli, sual vermək istəyənlərə şərait yaradılmalıdır. Çıxışlardakı birtərəfli, yanlış, əsaslandırılmamış fikirlər fəal dinləmə təmin edildikdə asanlıqla müəyyənləşdirilir. Müəllim çıxışlarda bədii təsvir və ifadə vasitələrindən, yeni öyrənilmiş sözlərdən hansı səviyyədə istifadə edildiyinə diqqət yetirir, fikirlərini dolğun, aydın və inandırıcı ifadə edən şagirdləri təqdir edir. Bu prosesdə birtərəfli, qeyri-dəqiq mülahizələrə yol verilməsi təbii qəbul edilməlidir. Ciddi mübahisəli fikirlərin meydana çıxması ilə müzakirəyə geniş meydan açılır, bu mərhələ cavabların dəqiqləşdiriləcəyi, sistemə salınacağı növbəti – **məlumatın müzakirəsi və təşkili** mərhələsi ilə qovuşur. Səsləndirilmiş fikirlərə münasibət bildirilməsi, deyilənlərin əlaqələndirilməsi, müqayisə edilməsi, sistemə salınması bu mərhələdə həyata keçirilən işlərdəndir. Müəllim müzakirənin diskussiya xarakterli olmasını təmin etməli, hər bir şagirdə sərbəst fikir mübadiləsi aparmaq imkanı yaratmalıdır. O, qrup tapşırıqları arasındakı təbii əlaqələri nəzərə alaraq yönəldici suallar verməklə şagirdlərin bir-birinin cavabına münasibət bildirmələrinə nail olmalıdır.

Müzakirə prosesində bədii əsərlərdən nümunələrin göstərilməsinə, cədvəllə işin məzmununa, dialoji nitq bacarığının nümayişinə xüsusi diqqət yetirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə kimi deyilmiş bütün fikirlərin durulaşmasına, dəqiqləşməsinə və uzlaşmasına imkan yaranmış olur. Müəllim yığcam yekun sözü ilə şagirdləri son nəticələrə istiqamətləndirir: *Bu şeirdən də göründüyü kimi, şairdə vətən, həyat sevgisi, yaşamaq həvəsi və istəyi çox güclü olmuşdur. O, vətəninin "dumanlı dağlarına", "ayna bulaqlarına", "çiçəkli bağlarına" vurğundur. Bəs onda yaşamaq, yaratmaq arzusu ilə çırpınan bu sənətkar niyə belə bədbindir, həyəcanlıdır? Ürəkdən qopub gələn misralarda narahatlığın, təlaşın duyulmasına səbəb nədir? Gənc şair "gündən-günə" "gözəlləşən işıqlı dünyadan", dostdan, tanışdan nə üçün əl çəkməlidir?*

Müəllimin bu sualları, əslində, ritorik mahiyyətlidir, şagird qənaətinin formalaşmasına xidmət edir. "M. Müşfiqin həyatının son illəri" mövzusunda təqdimat hazırlayan, repressiya qurbanları haqqında məlumatlı olan şagirdlər şairi narahat edən problemin nədən ibarət olduğunu müəyyənləşdirə bilirlər. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, rəğbət bəslədiyi, müəllimi hesab etdiyi böyük sənət adamlarının məhv edilməsi həssas şairin qəlbində kəskin etirazın, üsyanın baş qaldırmasına səbəb olmuşdur. Bu dalğanın güclənəcəyini, repressiya qurbanlarının sayının artacağını duyan gənc şair bu şeirində yüzlərlə, minlərlə yaradıcı insanın düşüncəsinə hakim kəsilən problemə toxunmuş, günahsız insanlara qarşı çevrilmiş dəhşətli cinayətə etirazını, bu qanlı olaya münasibətdə mövqeyini ifadə etmişdir.

Çıxarılmış nəticənin tədqiqat sualı ilə əlaqəsi aydınlaşdırılır, fərziyyələrlə müqayisəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

# SİNİFDƏNXARİC OXU DƏRSİ

**Repressiya və ədəbiyyat** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** | • Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Sinifdənxaric oxu dərsi şagirdlərin “Milli mədəni dirçəliş və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat” (1918–1920)” və “Siyasi-ictimai ziddiyyətlər və münaqişələr dövründə ədəbiyyat” (1920–1940) bölməsi üzrə müstəqil oxuduqları əsərlər (Əhməd Cavadın “Göygöl” və Almas İldırımın “A dağlar” şeirləri) üzrə keçilir.

Sinifdənxaric oxu dərsinə əvvəlcədən hazırlıq işləri görülür, dərs ilinin əvvəlindən əsərlərin müstəqil oxunması və mövzu ilə bağlı müəyyənləşdirilmiş sinifdənxaric iş səciyyəli tapşırıqların yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır.

Dərsə hazırlıq dövründə şagirdlər arasında kiçik qruplar şəklində iş bölgüsü aparılır, hər iki sənətkarla bağlı təqdimat hazırlayır, fənn kabinetində repressiya qurbanlarına, mühacirətdə yaşamağa məcbur olmuş sənətkarlara, o cümlədən Ə. Cavad və A.İldırımın həyat və yaradıcılığına həsr olunmuş guşə (sənətkarların portreti, öz əsərlərindən və onlara həsr olunmuş tədqiqatlardan ibarət kitabların sərgisi, ədəbi bülleten, divar qəzeti və s.) təşkil edir, internetdən (YouTube) videomateriallar toplayırlar.

## Dərsin gedişi

**Motivasiya, problemin qoyuluşu.** Dərsin əvvəlində şagirdlərin fənn kabinetində tərtib etdikləri stendə baxış keçirilir, səs yazıları dinlənilir.

İnternetdən vətənindən didərgin salınmış Azərbaycan şairi Almas İldırımın (https://www.youtube.com/ watch? v=eqARXqkoJqQ) və repressiya qurbanı olan Ə.Cavadın (https://www.youtube.com/ watch? v= Z3Uch_JCQRI) ömür və sənət yolundan bəhs edən filmlərdən fraqmentlərə baxılır.

Hər iki film üzrə təəssüratlar dinlənilir, rəy mübadiləsi aparılır. Müzakirə tədqiqat sualının müəyyənləşdirilməsinə imkan yaradır.

***Tədqiqat sualı:*** Sənətkarın bədii yaradıcılığı onun təqib edilməsi, azadlıqdan məhrum edilməsi üçün əsas ola bilərmi?

Şagirdlərin fərziyyələri dinlənilir və lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Kiçik qruplara tapşırıqların əks olunduğu iş vərəqləri təqdim olunur.

**I qrup**

Ə. Cavadın həyat və yaradıcılığı haqqında informasiya xarakterli məruzə hazırlayın. Məruzədə aşağıdakı cəhətlərə diqqət yetirin:

1. Şairin Azərbaycan Demokratik Respublikasının nəğməkarı adlandırılmasının səbəbi
2. Azərbaycan Respublikasının Dövlət Himninin yaradıcılarından olması
3. Repressiya qurbanı olmasının səbəbləri
4. Nəşr olunmuş kitabları və s.

**II qrup**

A.İldırımın həyat və yaradıcılığı haqqında informasiya xarakterli məruzə hazırlayın.

Məruzədə aşağıdakı məsələlərə diqqət yetirin.

1. A.İldırımın qürbət lirikasının parlaq nümunələrinin yaradıcısı olması
2. Şairin yaradıcılığında Vətən mövzusunun aparıcı yer tutması
3. Mühacirətə getməsinin səbəbləri
4. Nəşr olunmuş kitabları

**III qrup**

1. Ə.Cavadın "Göygöl" şeirini bir daha diqqətlə oxuyun, şairin Göygölə münasibətini aydınlaşdırmağa çalışın.
2. Göygölün gözəlliyinə şairin heyranlığı hansı misralarda daha təsirli ifadə edilmişdir?
3. Əsərdə hansı bədii təsvir vasitələri işlənmişdir? Onların rolunu aydınlaşdırın.
4. Şeirin ilk bəndinin ifadəli oxusuna hazırlaşın:

– Əvvəlcə ifaçılıq vəzifəsini – dinləyicilərə nə çatdıracağınızı aydınlaşdırıb dəftərinizdə (şeirin mətninin kənarında) yazın.
– Sonra bəndin oxusunda səsinizin aldığı çalarları qeyd edin. Unutmayın ki, məzmundan asılı olaraq, misraların hər birinin oxusunda da fərqli səs çalarları yarana bilər.
– Fasilələrin yerini, məntiqi vurğulu sözləri müəyyənləşdirib şərti işarələrlə göstərin.

**IV qrup**

1. A.İldırımın "A dağlar" şeirini bir daha diqqətlə oxuyun. Şairin Vətən həsrəti hansı misralarda daha qabarıq ifadə olunub?
2. Şairin öz vətənini yaslı adlandırmasına səbəb nədir?
3. "Söylə nədən dəli Kürüm çağlamaz, İçdən coşub öz gününə ağlamaz" misralarında hansı fikir ifadə edilmişdir?
4. Şeirdə hansı bədii təsvir və ifadə vasitələrinin işləndiyini müəyyənləşdirin, əsərin təsir gücünün artmasında rolunu aydınlaşdırın.
5. Şeirin ilk bəndinin ifadəli oxusuna hazırlaşın:

– Əvvəlcə ifaçılıq vəzifəsini – dinləyicilərə nə çatdıracağınızı aydınlaşdırıb dəftərinizdə (şeirin mətninin kənarında) yazın.

– Sonra bəndin oxusunda səsinizin aldığı çalarları qeyd edin. Unutmayın ki, məzmundan asılı olaraq, misraların hər birinin oxusunda da fərqli səs çalarları yarana bilər.
– Fasilələrin yerini, məntiqi vurğulu sözləri müəyyənləşdirib şərti işarələrlə göstərin.

**V qrup**

A.İldırımın "A dağlar" şeirini Ə.Cavadın "Göygöl" şeiri ilə müqayisə edin.

| | "A dağlar" | "Göygöl" |
|---|---|---|
| Mövzu | | |
| Problem | | |
| İdeya | | |

**Məlumat mübadiləsi və müzakirəsi mərhələlərində** təqdimatlar dinlənilir, fikir mübadiləsi və müzakirə aparılır. Hər iki sənətkarın Azərbaycanın istiqlalı ideyasına bağlılığı, ölkəmizdə baş verən mürəkkəb ictimai-siyasi hadisələr fonunda fəal vətəndaş və sənətkar mövqeyi tutmaları, işğalçılara barışmaz münasibəti əsərlərindən gətirilən nümunələr əsasında şərh edilir. Şagirdlərin şifahi təqdimat bacarığına, fərqli fikirlərə dözümlü münasibət bəsləmələrinə, ifadəli oxu bacarıqlarına diqqət yetirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində qeyd edilir ki, xalqımızın yüzlərlə ziyalısı, sərbəst düşüncə sahibi olan insanlar öz vətəndaş mövqeyinə görə repressiyaya məruz qalmış, təqib olunmuş, həbs edilmiş, güllələnmişdir. Azərbaycanın ən istedadlı sənətkarları qələmi silaha çevirmiş, xalqa həqiqəti çatdırmışlar. Bu cəsarətli sənətkarların repressiyaya məruz qalması xalqımıza, mədəniyyətimizə, ədəbiyyatımıza ağır zərbə vurmuşdur.

Formativ qiymətləndirmədə şagirdlərin fəallığı, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirməsi təmin olunur. Bu istiqamətdə işin ardıcıl və səmərəli təşkili şagirdlərin meyarlara əsaslanmaqla özünüqiymətləndirmə bacarığını inkişaf etdirmələrinə əhəmiyyətli təsir göstərə bilər.

**Evdə iş**

Kitabxanadan, internetdəki mənbələrdən (google.az, YouTube, Vikipediya və s.) topladığınız məlumat əsasında "Repressiya qurbanı olmuş sənətkarlarımız" mövzusunda təqdimat hazırlayın.

## BİRİNCİ VƏ İKİNCİ BÖLMƏLƏR ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Seyid Hüseynin "İki həyat arasında" hekayəsi üzrə aparıla bilər.*

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla Ənisə surətini səciyyələndirin.

| Atasının münasibəti | Müəllifin bu obrazla bağlı mühakimələri | Sizin münasibətiniz |
|---|---|---|
| | | |

2. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla Məşədi Əhməd surətini səciyyələndirin.

| Ənisənin münasibəti | Müəllifin bu obrazla bağlı mühakimələri | Sizin münasibətiniz |
|---|---|---|
| | | |

3. Davranışından, başqalarına münasibətindən çıxış etməklə Muxtar surətini səciyyələndirin.

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

4. Hekayənin mövzusunu və onda təsvir edilən hadisənin nə vaxt baş verdiyini müəyyənləşdirib qısaca yazın.

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

5. Hekayədə işlənmiş aşağıdakı "müsaidə", "təşəbbüs", "tənəzzül" sözlərinin mənasını müəyyənləşdirin.

Müsaidə – ____________________________________________________
Təşəbbüs –____________________________________________________
Tənəzzül – ____________________________________________________

6. Əsərdəki bədii ifadə vasitələrinin növünü müəyyənləşdirib cədvəldə qeyd edin.

| Əsərdən nümunələr | Bədii ifadə vasitəsinin növü |
|---|---|
| Başqasının qazancına göz dikməkdən nə çıxar? | |
| Ənisə düşündü, düşündü.<br>Yeni həyat onu öz tərəfinə çəkirdi, əski həyatın izləri onu tutub buraxmırdı. | |

7. Fikrin təsir gücünün artmasında bədii ifadə vasitələrinin rolunu nümunələrlə əsaslandırıb qısaca yazın.

______________________________________________________________________

______________________________________________________________________

8. Hansı fikri Ənisəyə aid etmək olmaz?
   A) İşləmək, atasına kömək etmək arzusundadır.
   B) Düşdüyü vəziyyəti düzgün qiymətləndirir.
   C) Ailə qurmaqla maddi vəziyyətlərinin düzələcəyinə ümid edir.
   D) Mübarizdir, cəmiyyətin fəal üzvü olmaq istəyir.
   E) Elmə-təhsilə yüksək qiymət verir.

9. Əsərdəki konflikti, onun necə həll olunduğunu müəyyənləşdirib qısaca yazın.

______________________________________________________________________

______________________________________________________________________

_____________________________________________________________________

10. Əsərin ideyasını və onda qaldırılmış başlıca problemi müəyyənləşdirib qısaca yazın.

______________________________________________________________________

______________________________________________________________________

_____________________________________________________________________

# İkinci dünya müharibəsi, şəxsiyyətə pərəstiş və mülayimləşmə dövründə ədəbiyyat (1941–1960)

*Mövzu:* **Müqayisə xarakterli mətni – inşa, esse və məruzəni necə yazmalı?** – 2 saat
*Birinci saat:* **Müqayisə xarakterli yazıya hazırlıq**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.2.1.** | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Müəllim yığcam müsahibə aparır, şagirdlərin müxtəlif xarakterli inşa, esse, məruzə ilə bağlı mənimsəmiş olduqları bilik və bacarıqları xatırlamalarına nail olur. Müsahibə: *Müqayisə nə deməkdir, onun hansı xüsusiyyətləri var? Müqayisə necə aparılır? Ədəbiyyat dərslərində müqayisənin tətbiqi üçün hansı imkanlar var?* sualları ilə davam etdirilir və tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşdırılır.

***Tədqiqat sualı:*** Müqayisə xarakterli inşa, esse və məruzə, sizcə, necə yazılmalıdır?

Şagird fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** İlk növbədə, dərslikdəki mətnin – "Müqayisə xarakterli mətni – inşa, esse və məruzəni necə yazmalı?" oxusu həyata keçirilir.

Oxunun necə reallaşdırılması sinfin səviyyəsindən, müəllimin məqsədindən asılıdır. Sinfin yaxşı mənimsədiyi metod, iş forması, iş növlərindən istifadə etməklə vaxta qənaət edilir. Məsələn, mətnin fərdi səssiz oxusunu təşkil etmək, sonda müsahibə aparmaqla qazanılmış məlumatı dərinləşdirmək, qaranlıq mətləblərə aydınlıq gətirmək olar. Yaxud sinif İNSERT metodu ilə tanışdırsa, ondan istifadə faydalıdır. Eləcə də ziqzaq (zəncirvarı oxu) metodunu tətbiq etmək mümkündür.

Oxu formalarının çoxu sonda kiçik qrupların yaradılmasına, təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparılmasına zəmin yaradır. Müəllim şagirdlərin aşağıdakı məsələlər barədə aydın təsəvvür qazandıqlarına **məlumat mübadiləsi** və **müzakirə** mərhələlərində əmin olmalıdır:

– "tutuşdurma", "qarşılaşdırma", "müqayisə" anlayışlarının mahiyyəti;
– müqayisənin xüsusiyyətləri (müqayisə obyektlərinin doğru seçilməsi, obyektlərin mühüm əlamətlərinin üzərində dayanılması, müqayisənin eyni (vahid) əsaslar üzrə aparılması);
– müqayisənin aparılması qaydaları (obyektlərin arasındakı əlaqənin açılması, obyektlərin arasındakı oxşarlığın, fərqin səbəbinin aydınlaşdırılması, müqayisədən nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması);
– müqayisə xarakterli mətnlərin (inşa, esse, məruzə) əhəmiyyəti;
– müqayisə xarakterli mətnlərin quruluşu;

– məlumat xarakterli məruzə ilə bağlı mənimsənilənlərin müqayisə xarakterli məruzə üçün zəmin olması.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müqayisə xarakterli mətnlərin oxşar və fərqli xüsusiyyətləri, belə mətnlərin yazılması prosesində gözlənilməsi vacib olan qaydalar və s. barədə indiyə qədər deyilənlərin ümumiləşdirilməsinə daha çox diqqət yetirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, müqayisə xarakterli mətnlərin – inşa, esse, məruzənin yazılmasında riayət edilməli olan ümumi qaydalarla bərabər, onların hər birinə məxsus cəhətlər də vardır. Bu özünəməxsusluq həm onların məzmununda, həm də dil-üslub xüsusiyyətlərində özünü göstərir.

Dərsdə vaxtdan səmərəli istifadə aşağıdakı məzmunda işin aparılmasına imkan verir. Şagirdlərə müqayisə xarakterli mətnlər – inşa, esse, məruzə üçün mövzu müəyyənləşdirmək təklif olunur. Fikir mübadiləsi zəminində müəyyənləşdirilən üç mövzu üzrə yazıya hazırlıq (hər şagird bir mövzu üzərində işləməklə) ev tapşırığı kimi təklif edilir. Sinifdə hər üç mətn (inşa, esse, məruzə) üzrə yazı nümunəsinin icra olunacağı vurğulanır.

**Müəllim üçün məlumat.** *Mövzular həm ədəbi əsərlər üzrə, həm də sərbəst ola bilər. Əvvəlki siniflərdə öyrənilmiş bədii əsərlərə müraciət etmək mümkün və faydalıdır. Məsələn, "Azad və Fərda obrazlarının müqayisəli təhlili", "Koroğlu və Bolu bəy surətlərinin müqayisəli səciyyəsi" inşa, "S. S. Axundovun hekayələrinin kiçik qəhrəmanları", "Yurdumuzun baharı və qışı" esse, "Şifahi xalq ədəbiyyatında epik janr", "C.Məmmədquluzadənin yaradıcılığında hekayə janrı" məruzə mövzuları kimi təklif oluna bilər.*

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

**Evdə iş**. Müqayisə xarakterli yazıya (inşa, esse, məruzə) hazırlıq.

### *Mövzu:* **Müqayisə xarakterli mətni – inşa, esse və məruzəni necə yazmalı?** – 2 saat
### *İkinci saat:* **Müqayisə xarakterli yazıların icrası**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **3.1.1.** | • İnşanın (essenin, məruzənin) məzmununa uyğun üslub müəyyənləşdirir. |
| **3.1.3.** | • Müqayisə xarakterli inşa, esse, məruzə yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Hər üç mətn (inşa, esse, məruzə) üzrə şagirdlərin müstəqil apardıqları hazırlıq işlərinin məzmunu barədə sinfin təsəvvür qazanmasına nail olmaq vacibdir. Bu, sonrakı işin səmərəli təşkilinə istiqamət verir.

Müqayisə xarakterli inşa, esse və məruzə üçün ümumi olan cəhətlər müəllimin sualları əsasında xatırladılır. Bu ümumi cəhətləri, müqayisənin xüsusiyyətlərini mənimsəyən şagirdlər seçdikləri mövzular üzrə plan tərtib etməkdə çətinlik çəkmirlər. İnşa, esse, məruzə olmaqla, fərqli mətnlər üzrə hazırlaşan şagirdlərin diqqəti bu yazıların spesifik cəhətlərinə də yönəldilir. Məsələn, inşada plana ciddi əməl etməyin, sitatlardan, faktlardan geniş bəhrələnməyin vacib olması vurğulanır. Essedə həm məzmun, həm də quruluş baxımından sərbəstliyə geniş meydan verildiyi, fikrin obrazlı ifadəsinə diqqət yetirildiyi bir daha yada salınır. Məruzədə isə fakt və rəqəmlərin mühüm yer tutduğu, fikrin dəqiq və yığcam ifadə edilməsinin zəruriliyi xatırladılır. Bütün bunların yazıların fərqli üslublarda ərsəyə gəlməsinə səbəb olmasına da diqqət yetirilir.

Yazının icrasına başlamazdan əvvəl aşağı siniflərdə mənimsənilmiş bilik və bacarıqlar xatırladılmaqla yığcam müsahibə aparılır:
– mövzunun aydın təsəvvür edilməsi və müstəqil şərh olunması;
– sitat, fakt, və rəqəmlərin sistemə salınması, onlardan istifadə məqamlarının müəyyənləşdirilməsi (inşa və məruzə üçün);
– fikrin ifadə tərzinin aydın təsəvvür edilməsi;
– bədii təsvir və ifadə vasitələrinin, obrazlılığın digər vasitələrinin tətbiqi ilə bağlı təsəvvürün canlandırılması və şərhi.

İşin icrasına ayrılan vaxt əvvəlcədən elan edilir. Şagirdlərdən heç birinin fəaliyyəti müəllimin müşahidəsindən kənarda qalmır. Ehtiyac yaranan məqamlarda müəllim istiqamətləndirici suallar vasitəsi ilə şagirdlərə yardım edir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra yazıların səviyyəsi barədə müəyyən təsəvvür qazanmaq mümkündür. Bunun üçün icra olunmuş inşa, esse və məruzələrdən nümunələrin təqdimat əsasında dinlənilməsi və müzakirə edilməsi məqsədəuyğundur. Müzakirə prosesində aşağıdakı məsələlərin diqqət mərkəzində saxlanılması (bunlardan özünüqiymətləndirmə meyarları kimi də istifadə oluna bilər) məqsədəuyğundur:
– yazı mövzuya uyğundurmu?
– yazının (inşa, məruzə) məzmunu onun hissələrinə (giriş, əsas hissə, nəticə) uyğundurmu?

– yazının (inşa, məruzə) hissələri (giriş, əsas hissə, nəticə) arasında əlaqə gözlənilibmi?
– yazıda müqayisənin xüsusiyyətləri nəzərə alınıbmı?
– yazıda müqayisə qaydalarına əməl olunubmu?
– yazıda sitat, fakt və rəqəmlərdən necə istifadə edilib?
– yazıda (essedə) bədii təsvir və ifadə vasitələrindən, obrazlılığın digər vasitələrindən necə istifadə olunub?
– yazı (inşa, xüsusən məruzə) tədqiqat xarakterlidirmi?
– yazıda üslub özəlliyi müşahidə olunurmu?

Vaxt məhdudluğu dərsdə yazıların geniş təhlilinə və müzakirəsinə imkan vermir. Yazıların təkmilləşdirilməsinin (sinifdə aparılan müzakirə şagirdlərə səmərəli istiqamət vermiş olur) ev tapşırığı kimi təklif olunması məqsədəuyğundur. Qiymətləndirmə növbəti dərsdə davam etdirilə bilər.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

**Evdə iş.** Müqayisə xarakterli yazıların (inşa, esse, məruzə) təkmilləşdirilməsi.

## *Mövzu:* Səməd Vurğun. "Ananın öyüdü" – 3 saat
## *Birinci saat:* Əsərin məzmunu üzrə iş

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə iş fərqli məzmunda təşkil oluna bilər. Məsələn, Səməd Vurğunun sözlərinə yazılmış "Şəfqət bacısı" mahnısının müşayiəti ilə İkinci Dünya müharibəsinə aid filmin döyüş kadrlarını nümayiş etdirdikdən sonra müsahibə aparmaq və tədqiqat sualını formalaşdırmaq mümkündür. Eləcə də dərslikdəki "Yada salın" başlıqlı suallar üzrə yığcam müsahibə apararaq tədqiqat sualını müəyyənləşdirmək olar.

***Tədqiqat sualı:*** Cəbhəyə oğul yola salan ananın nəsihətləri hansı məzmunda ola bilər?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Əsərin oxusu fərqli yollarla həyata keçirilə bilər; fərdi səssiz oxu, səsli oxu və s. tətbiqi mümkündür. Tanış olmayan sözlərin mənasını şagirdlər müstəqil aydınlaşdırır, müəllim sualların köməyi ilə onları istiqamətləndirir.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər dərslikdəki suallara cütlük şəklində cavab hazırlayırlar. Bu suallar əsasında yığcam müsahibə aparıldıqdan sonra 3-cü tapşırığın hər iki tələbi fərdi olaraq, yerinə yetirilir. Tədqiqat kiçik qruplarda davam etdirilir, cavablar müzakirə edilir, fərqli fikirlərə münasibət bildirilir, təqdimatlar hazırlanır.

Müəllim kiçik qrupların işini müşahidə edir, qrupun bütün üzvlərinin ümumi işə töhfə verməsinə diqqət yetirir. Ehtiyac yaranarsa, suallar vasitəsi ilə istiqamət verir.

Şifahi təqdimat üçün təklif olunan mövzular məzmunun mənimsənilməsini daha da dərinləşdirir.

**Məlumatın mübadiləsi və müzakirəsi mərhələlərində** ilk növbədə, qrupların təqdimatı dinlənilir. Şagirdlərin fikirlərini sərbəst ifadə etmələrinə, deyilənlərin nümunələrlə əsaslandırılmasına, müzakirələrin diskussiya xarakteri almasına, yeri gəldikdə, fikirlərə tənqidi yanaşmanın özünü göstərməsinə, fərqli fikirlərə dözümlü mövqeyin nümayiş etdirilməsinə səy göstərilməlidir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə kimi deyilmiş bütün fikirlər ümumiləşdirilir, vahid ideya şəklinə salınır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, şeirdə qələbəyə güclü inam hissi ifadə olunmuşdur. Ləyaqətli oğul böyütdüyünə şübhə etməyən ana indi ondan vətən yolunda zəfərlər gözləyir, ona vüqarlı, mərd, igid olmağı tövsiyə edir.

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Səməd Vurğun. "Ananın öyüdü"** – 3 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Müəllifin mühakimələrindən çıxış etməklə şeirin qəhrəmanını səciyyələndirir. |
| **1.2.3.** | • Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin ideya-bədii xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müvafiq qiymətləndirmə meyarlarına müraciət edilməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələnin təşkilində fərqli yollardan istifadə etmək mümkündür. Dərslikdəki "Düşünün" başlıqlı sual (*Sənət adamlarının müharibə mövzusuna dönə-dönə müraciət etmələrinə səbəb, sizcə, nədir?*) üzrə müsahibə əsasında tədqiqat sualını müəyyənləşdirmək vaxta qənaət baxımından faydalıdır.

***Tədqiqat sualı:*** "Şeirdə cəbhəyə oğul yola salan anaların mövqeyi əks etdirilmişdir" fikrini doğru saymaq olarmı?

Şagirdlərin fərziyyələri dinlənilir və lövhədə qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Bu mərhələdə fərqli metod və iş formalarından istifadə etmək mümkündür. Lakin bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallara müraciət edilməsi vacibdir.

"Əsərin təhlilinə hazırlaşın" mətninin oxusunda diqqəti əsərin yazılma tarixinə və səbəbinə cəlb etmək lazımdır. Bu, əsərin təhlili ilə bağlı işlərin yerinə yetirilməsində faydalı ola bilər.

"Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı suallardan kiçik qruplarda iş formasında istifadə etmək məqsədəuyğundur. Buradakı sualların hər biri iş vərəqlərində əks olunaraq qruplara təqdim olunur. İcrası çətinlik törədən tapşırıqlarla bağlı müəllim istiqamətləndirici suallar vasitəsilə tövsiyələr verir. Məsələn, beşinci sual (Şeirin bədii təsir gücünün artmasına şair necə nail olmuşdur?) şagirdləri heç də asan olmayan tələb qarşısında qoyur. Belə ki, şagirdlər bədii təsvir və ifadə vasitələrinin – epitet (Onun polad sinəsinə sığışmadı ürəyi), inversiya (Ana igid balasına açdı öz qollarını), metafor (– Dayan! – deyib, yaxın gəldi, öpdü onun alnından Yay gününün xoş səhəri, bir da dağlar küləyi), təkrir (–Yaşa, – dedi, – ey qəhrəman! Yaşa, – dedi, – ey Vətən!) və s. şeirin bədii təsir gücünün artmasındakı rolunu izah etməli, fikirlərini əsaslandırmalıdırlar. Müəllim suallar vasitəsi ilə şagirdləri məcazların digər bir əhəmiyyətini də – müəllifin məqsədinin daha qabarıq ifadə olunmasındakı mövqeyini də müəyyənləşdirməyə istiqamətləndirməlidir.

**Məlumat mübadiləsi** mərhələsində təqdimatların fəal dinlənilməsi təşkil edilir, bununla da qruplar bir-birinin işinin məzmunu ilə ətraflı tanış ola bilirlər. Cavablarda müşahidə edilən yanlış mülahizələr, pərakəndəlik təbii hal kimi qəbul edilməlidir. Bütün bunlara aydınlıq gətirilməsi, qrupların qənaətlərinin sistemə salınması dərsin növbəti mərhələsində həyata keçirilir.

**Məlumatın müzakirəsi və təşkili** mərhələsinin səmərəli keçməsi müəllimin apardığı hazırlıq işindən çox asılıdır. Müəllim qabaqcadan hazırladığı yardımçı suallarla şagirdləri müzakirələrə yönəltməlidir. Şagirdlərin hər birinə sual vermək, düşüncələrini sərbəst söyləmək imkanı verilməlidir. Müəllim xüsusilə çalışmalıdır ki, şagirdlər yoldaşlarının fikirləri ilə bağlı tənqidi mülahizələrini söyləyərkən əsərdən gətirdikləri nümunələrə istinad etsinlər. Şagirdlərdə tənqidi fikirlərə dözümlülük hissinin formalaşdırılması da diqqətdən yayınmamalıdır. Bu mərhələdə cavabların əlaqələndirilməsinə, müqayisə edilməsinə, qruplaşdırılmasına xüsusi diqqət yetirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin** aparılması mərhələsində indiyə kimi deyilmiş fikirlər ümumiləşdirilərək vahid ideya şəklinə salınır. Şagirdlərdə belə qənaət möhkəmlənir ki, müharibə bəşəriyyəti hədələyən ən dəhşətli təhlükədir. Müharibə hər kəsin həyatını alt-üst edir, onun dəhşətlərini ən çox yaşayanlar isə oğul yolu gözləyən analardır. Lakin analar Vətənin müdafiəsini məhz övladlarından – igid əsgər oğullardan gözləyirlər.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Səməd Vurğun. “Ananın öyüdü”** – 3 saat
## *Üçüncü saat:* **Tətbiq, Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** | • Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| **2.1.2.** | • Şeirin mövzusuna, qoyulmuş problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyini təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirmək mümkündür.

**Motivasiya, problemin qoyuluşu.** “Tətbiq. Müzakirə. Yaradıcı iş” dərsində motivasiya müxtəlif yollarla yaradıla bilər. Məsələn, İkinci Dünya müharibəsində qəhrəman adı almış həmvətənlərimizin şərəfinə ucaldılmış abidələrin şəkillərinin nümayiş etdirilməsi və müsahibə aparılması faydalıdır. Müsahibə əsasında tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:*** Qələbəyə çağırış ruhlu əsərlərdə hansı oxşar cəhətlər ola bilər?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən lövhədə yazılır.

**Tədqiqatın aparılması.** Təklif olunmuş tapşırıqlar fərqli iş formalarının tətbiqi ilə yerinə yetirilə bilər. Birinci tapşırığın (Şeirdən cədvəldəki atalar sözlərinə uyğun

nümunələr seçin, fikrinizi əsaslandırın) cütlük şəklində yerinə yetirilməsi məqsədəuyğundur. Şagirdlərə izah edilməlidir ki, seçim zamanı zahiri oxşarlıq yox, mahiyyətcə yaxınlıq əsas götürülməlidir.

Bədii əsərlərin müqayisəsini tələb edən tapşırığın kiçik qruplarda yerinə yetirilməsi məqsədəuyğundur, tədqiqat sualı da məhz onunla bağlıdır və daha çox qayğı, diqqət tələb edir. Müəllimin Qarabağ savaşına həsr olunan, ideya-məzmununa görə "Ananın öyüdü" ilə səsləşən bir neçə əsəri əvvəlcədən seçməsi faydalıdır. Üzərində dayanılmış əsərin məzmununun əhatəli mənimsənilməsi, ideyası barədə dolğun təsəvvürün qazanılması vacibdir. Bu, müqayisəli təhlilin səmərəli keçməsinə imkan yaradır.

**Məlumat mübadiləsi.** Geniş fikir mübadiləsinin həyata keçirildiyi mərhələdir. Bu mərhələdə qrup təqdimatlarının fəal dinlənilməsinə, çıxış edənlərə sualların verilməsinə şərait yaradılır.

**Məlumatın müzakirəsi və təşkili.** Müzakirənin səmərəli təşkili şagirdlərin fəal iştirakına, fərqli fikirlərin düzgün dəyərləndirilməsinə səbəb olur.

Fikirlərin ümumiləşdirilməsi, vahid ideya şəklinə salınması, son nəticənin çıxarılması növbəti mərhələdə həyata keçirilir.

**Nəticə, ümumiləşdirmə.** Əvvəlki mərhələlərdə işin səmərəli təşkili, xüsusən təhlil üzrə araşdırmaların yüksək səviyyədə həyata keçirilməsi nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması işini xeyli asanlaşdırır. Müəllimin yönəldici sualları əsasında ümumiləşdirmə aparan şagirdlərdə belə bir fikir formalaşır ki, qələbəyə çağırış ruhlu əsərlərdə oxşar cəhətlər çox olur. Vətənə məhəbbət və sədaqət, igid övladları Vətənin müdafiəsinə çağırış, gənclərə nəsihət... bu qəbildən əsərlərin ideya-məzmununu təşkil edir.

Çıxarılmış nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisəsinə ayrıca diqqət yetirilir.

Vaxtdan səmərəli istifadə şeirdən bir parçanın ifadəli oxusu üzrə işin aparılmasına imkan verir. İfaların fəal dinlənilməsi və onlara münasibət bildirilməsi faydalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Süleyman Rüstəm . “Təbrizim”** – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi yolu ilə müəyyənləşdirilə bilər. Müəllim müvafiq standarta əsasən müəyyənləşdirilmiş təlim nəticəsinin qiymətləndirmə meyarına müraciət edir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdəki işi fərqli məzmunda təşkil etmək olar.

Şagirdlərin tarix dərslərindən öyrəndikləri, televiziya və internet vasitəsi ilə qazandıqları biliklər əsasında Cənubi Azərbaycan və Təbriz şəhəri ilə bağlı müsahibə motivasiyanın yaradılmasına imkan verər.

Motivasiyanın yaradılmasının bir variantı da dərslikdəki “Yada salın” başlıqlı sualların əsasında müsahibə aparılmasıdır. Yığcam müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı:*** Cənubi Azərbaycana, Təbrizə həsr olunan lirik şeirlərdə, sizcə, hansı məsələlərə önəm verilər?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** İlk növbədə, şeirin oxusu və məzmununun mənimsənilməsi həyata keçirilir. Youtube saytından S.Rüstəmin “Təbrizim” şeirinin bədii oxusundan bir parçanın (https://www.youtube.com/watch?v=ftLtpe8bv3g) səsləndirilməsi sinifdə xüsusi bir ovqatın yaranmasına səbəb olur. Oxu fərqli variantlarda təşkil edilə bilər. Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinə diqqət yetirilir. Oxuya ayrılmış vaxt başa çatdıqdan sonra məzmunla bağlı qaranlıq qalmış mətləblərə aydınlıq gətirilir. Bu bütün sinfin iştirakı və fəallığı şəraitində həyata keçirilir. Məzmunun daha dərindən qavranılması, mənimsənilənlərin möhkəmləndirilməsi məqsədilə şagirdlər onlara təklif edilmiş suallara cütlük şəklində cavab hazırlayırlar. Kiçik qruplarda birləşən şagirdlər onlar üçün ayrılmış bəndlərin üzərində işləməklə məzmun üzrə suallar və onlara cavab hazırlayırlar.

Seçilmiş bədii təsvir və ifadə vasitələrinin növünün müəyyənləşdirilməsi də məzmunun mənimsənilməsində əhəmiyyətli rol oynayır.

Şeirin məzmunu üzrə iş zamanı “İkihissəli gündəlik”dən istifadə də faydalıdır. Lakin bu halda da məzmunla bağlı qazanılmış məlumata aydınlıq gətirilməsi, dəqiqləşdirmə və dərinləşdirmə istiqamətində iş aparılması vacibdir.

Sonrakı mərhələdə təqdimatlar əsasında **fikir mübadiləsi** və **müzakirə** aparılır. Bu mərhələdə şagirdlərin əsərin məzmunu ilə bağlı müstəqil fikir söyləmələri,

mülahizələrin əsaslandırılması, fərqli fikirlərə dözümlü münasibət nümayiş etdirilməsi diqqət mərkəzində saxlanılır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Cənubla bağlı əsərlərdə soydaşlarımıza sevgi, Vətən torpağını azad görmək arzusu ön plana çəkilir.

Əldə olunmuş nəticənin tədqiqat sualı ilə əlaqəsinə, fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Süleyman Rüstəm. "Təbrizim"** – 3 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi zəminində müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya yaratmaq məqsədilə "Təbrizim" şeirinə yazılmış mahnının dinlənilməsi (https://www.youtube. com/ watch?v=ahPtstmbVvc) faydalıdır. Digər vasitə şairin bu mövzuya müraciətinin səbəbləri üzrə diskussiya ola bilər. Müəllim hər iki halda bu şeirin məşhur olmasının səbəbləri barədə şagirdlərin mülahizələrini dinləməli, müzakirəyə imkan yaratmalıdır. Bu istiqamətdə aparılan müsahibənin sonunda tədqiqat sualı müəyyənləşdirilmiş olur.

***Tədqiqat sualı:*** Bu şeiri yazmaqda şairin başlıca niyyəti, sizcə, nə olmuşdur?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Hansı təlim metodu və iş formalarının seçilməsindən asılı olmayaraq, dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallara müraciət edilməsi məqsədəuyğundur.

Kiçik qruplarda işin təşkilinə üstünlük verən müəllim hər qrupa bir sual ayırmaqla iş vərəqlərini şagirdlərə təqdim edir. İşin icrasına ayrılan vaxt elan olunur.

"Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığı üzrə iş zamanı müxtəlif təlim metod və priyomların (əqli hücum, qrupdaxili diskussiya, müqayisə, tədqiqat və s.) qarşılıqlı

əlaqədə tətbiqi mümkün və faydalıdır. Nəzərə almaq lazımdır ki, tapşırıqdakı sualların hamısı əsərin ideya-bədii xüsusiyyətlərinin, nəticədə müəllif niyyətinin aşkara çıxarılmasına xidmət edir.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələləri kiçik qrupların bir-birinin tədqiqatının nəticələri ilə ətraflı tanış olmalarına, münasibət bildirmələrinə imkan yaradır. Müzakirənin diskussiya səciyyəli olması, iştirakçıların məsələnin mahiyyətindən yayınmamaları, xüsusilə əhəmiyyətlidir. **Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması mərhələsində** tədqiqat və müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, vahid ideya halına salınması zəruridir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Təbrizi tərənnüm edən bu şeirdə, əslində, şairin Vətənin bütövlüyü ilə bağlı arzuları əksini tapmışdır. Bu baxımdan S.Rüstəmin "Təbrizim" şeiri böyük səfərbəredici qüvvəyə malikdir. O, bədii cəhətdən kamil olub, müasirliyi ilə seçilən əsər kimi öz dəyərini saxlamaqdadır.

Çıxarılmış nəticələrin tədqiqat sualı və fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir. Bu, tədqiqat işinin düzgün istiqamətdə aparıldığına və başa çatdığına əminlik hissi yaradır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39–45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Süleyman Rüstəm. "Təbrizim"** – 3 saat
*Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.2.** | • Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| **1.1.5.** | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.2.** | • Şeirin mövzusuna müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Rəmzi materiallardan istifadə yolu ilə motivasiya yaratmaq olar. Bu məqsədlə Təbriz (https://www.youtube.com/watch?v=QzGfjc13gq4) və Bakının (https://www.youtube.com/watch?v=H3c6oG-pKbE) videogörüntülərinin nümayiş etdirilməsi mümkündür.

Dərslikdəki "Düşünün" başlıqlı sual (*Cənub mövzusunda yazılmış əsərlərdə, sizcə, hansı məsələlərə daha çox diqqət yetirilir?*) əsasında yığcam müsahibə aparan müəllim şagirdlərin fəal iştirakı ilə tədqiqat sualının formalaşmasını həyata keçirir.

***Tədqiqat sualı*:** Vətənə həsr olunmuş əsərlərin ideya-məzmununda oxşar cəhətlərin olmasına səbəb, sizcə, nədir?

Şagirdlərin fərziyyələri dinlənilir və qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Tədqiqat A.Səhhətin "Vətən" şeirinin oxusu ilə başlanır. Oxu fərqli formalarda həyata keçirilə bilər; şagirdlərin fəal iştirakı ilə izahlı oxu, fərdi səssiz oxu, ikihissəli gündəliyin tətbiqi ilə oxu və s. Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi həyata keçirilir.

Şeirin məzmununun öyrənilməsi, ideyasının müəyyənləşdirilməsi üzrə işi də fərqli variantlarda təşkil etmək mümkündür. Dərslikdə təklif olunmuş tövsiyələr əsasında işin təşkili vaxta qənaət baxımından məqsədəuyğundur. Yəni oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda birləşərək şeirin məzmununa aid suallar tərtib edirlər. Suallar və onlara hazırlanmış cavablar qrup sözçülərinin təqdimatı əsasında müzakirə edilir.

Əsərin ideyasının müəyyənləşdirilməsi və müzakirəsi də bu qayda ilə həyata keçirilə bilər. Bu məzmunda aparılan iş ədəbi nümunələrin: S.Rüstəmin "Təbrizim", A.Səhhətin "Vətən" şeirinin müqayisə edilməsinə imkan yaradır. Əsərlərin hansı xüsusiyyətlərə görə müqayisə ediləcəyi əvvəlcədən hər iki şeirin ideya-məzmunu nəzərə alınmaqla müəyyənləşdirilir.

**Məlumat mübadiləsi və müzakirə** mərhələsində diqqət bu iki əsərin necə müqayisə edildiyinə, müqayisədən çıxarılmış nəticəyə yönəldilir. Eləcə də deyilmiş fikirlərin əlaqələndirilməsi, sistemə salınması, yanlış, birtərəfli mülahizələrin cilalanması həyata keçirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə kimi səsləndirilmiş fikirlərin ümumiləşdirilərək vahid ideya halına salınması diqqət mərkəzində saxlanılır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, hansı dövrdə yazılmasından asılı olmayaraq, vətənə həsr olunmuş əsərlərdə sənətkarın doğma yurda, soykökünə bağlılıq hissləri geniş əksini tapır. Vətənə dərin məhəbbət, xalqın mənəvi dəyərlərinə ehtiram, səmimilik həmin əsərləri birləşdirən mühüm cəhətlərdir. Vətənin əvəzedilməzliyi, onun uğrunda hər cür fədakarlığa hazır olmaq, bədii dilin gözəlliyi, təravəti bu mövzuda əsər yazan bütün sənətkarların diqqət yetirdiyi cəhətlərdəndir.

Çıxarılmış nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisəsinə vaxt ayrılır.

Dərsdə A.Səhhətin "Vətən" şeirindən bir parçanın ifadəli oxusu şagirdlərin ifadəli oxu bacarıqlarının yeni mətn üzərində tətbiqi, möhkəmləndirilməsi baxımından faydalıdır. Şeirin ideya-məzmununu dərindən mənimsəyən şagirdlər beytlərin oxusu üçün ifaçılıq vəzifəsini, səsin çalarlarını müəyyənləşdirirlər. Təfilələrin əks olunduğu cədvəldən, şərti işarələrdən istifadə edilməsi onların işini xeyli asanlaşdırır.

Bir neçə ifanın dinlənilib müzakirə edilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mir Cəlal. “Vətən yaraları”** – 3 saat
*Birinci saat*: **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.3.** | • Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yaradıcı nağıl edir. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Hekayə ilə bağlı müzakirələrdə mövzuya tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür**.** Məsələn, İkinci Dünya müharibəsinə aid filmlərdən kadrlar nümayiş etdirməklə, yaxud dərslikdəki “Yada salın” başlıqlı suallar əsasında yığcam müsahibə aparmaqla bunu həyata keçirmək olar. Hər iki halda müharibələrin bəşəriyyətə gətirdiyi fəlakətlər yada salınır, ölkəmizin hal-hazırda müharibə şəraitində olması xatırladılır. Tədricən tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:*** İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə həlak olan insanların xatirəsinin bu gün də əziz tutulmasına səbəb nədir?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən lövhədə qeyd edilir.

**Tədqiqatın aparılmasına** hekayənin ilk iki parçasının oxunması ilə başlanılır. Müəllim qarşıya qoyduğu məqsəddən, sinfin səviyyəsindən və s. asılı olaraq, oxunun növünü müəyyənləşdirir. Oxu başa çatdıqdan sonra şagirdlər cütlük şəklində işləməklə mətnkənarı suallara cavab hazırlayırlar. Fikirləri üst-üstə düşən, yaxud yaxın olan şagirdlərin kiçik qruplarda birləşərək araşdırmalarını davam etdirmələrinə imkan yaradılır. Qruplarda cavablar dəqiqləşdirilir, ümumiləşdirilir, vahid fikir şəklində formalaşdırılır. Məhz bundan sonra təqdimatlar əsasında məlumat mübadiləsi və müzakirə reallaşdırılır.

**Məlumat mübadiləsi və müzakirə.** Bu mərhələdə, ilk növbədə, qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına imkan yaradılır. Mübahisə doğuran məqamları müzakirəyə yönəltmək lazımdır. Döyüşə atılarkən və yaralandıqdan sonra əsgərin keçirdiyi hisslər, düşüncələr ciddi müzakirə obyektinə çevrilməli, mübahisəli görünən məqamlara aydınlıq gətirilməlidir. Müəllim müzakirəni elə istiqamətləndirməlidir ki, müharibənin insanların ən munis duyğularına qarşı olduğu aşkara çıxsın.

Yaradıcı nağıletmə ilə bağlı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsinə vaxt ayrılır. Bu, məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsində və şagirdlərin şifahi nitqinin inkişafında əhəmiyyətli rol oynayır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Mir Cəlal. "Vətən yaraları"** – 3 saat
## *İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.4.** | • Hekayə janrının xüsusiyyətlərini müəyyənləşdirir. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

### Dərsin gedişi

Hekayənin evdə oxunmuş parçalarının məzmununun və tanış olmayan sözlərin mənasının hansı səviyyədə qavranıldığı müxtəlif yollarla müəyyənləşdirilə bilər. Bütün hallarda müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur. Şagirdlərə evdə oxunmuş 3, 4 və 5-ci parçaları bir daha nəzərdən keçirmək, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək, sonra cütlük şəklində işləməklə həmin parçalarla bağlı suallar hazırlamaq təklif edilir. Növbəti işi dərslikdəki tövsiyədən fərqli qurmaq da olar. Yəni sualları məzmunca oxşar olan cütlüklər kiçik qruplarda birləşərək fikirlərini dəqiqləşdirir və qrupun ümumi rəyi əsasında hazırlanmış son variantı digər qruplarla mübadilə edirlər. Dəyişdirilmiş suallara hazırlanmış cavablar əsasında təqdimatlar formalaşdırılır. Bu proses **tədqiqatın aparılması** mərhələsi kimi qəbul edilir.

**Məlumat mübadiləsi, müzakirə.** Qruplar təqdimatlar əsasında bir-birinin işi ilə tanış olur. Qruplar bir-birinin sualları ilə tanış olduğundan məlumat mübadiləsi az vaxt aparır və müzakirə ilə qovuşur. Bu məqamda bədii təsvir və ifadə vasitələrinin hansı səviyyədə qavranıldığına xüsusi diqqət yetirilir. Müzakirənin səmərəli keçməsi isə müəllimin istiqamətləndirici suallardan istifadə etməsindən xeyli dərəcədə asılıdır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində şagirdlər faşizmə qarşı mübarizədə azərbaycanlı əsgərlərin iştirakını tarixi zərurət kimi əsaslandırmağa çalışırlar. Onlarda belə bir qənaət möhkəmlənir ki, əsgərlərimiz doğma yurddan uzaqlarda döyüşsələr də, faşizmə qarşı mübarizədə yüksək əzm və şücaət göstərmişlər. Həmvətənlərimiz sülh naminə, bəşəriyyəti faşizm bəlasından qorumaq məqsədi ilə canlarından keçmişlər. Bu müharibədə həlak olanların xatirəsinin əziz tutulmasının mühüm səbəbi də budur.

Fərziyyələr yenidən xatırladılır, nəticələrlə müqayisə edilir. Yekun qənaətlə tədqiqat sualının arasındakı səsləşmələrə diqqət yetirilir.

Dərslikdə təklif edilmiş "**Bilik və bacarıqlarınızı tətbiq edin**" başlıqlı tapşırığın icrasına vaxt ayrılır. Şagirdlərin hər birinin işinin məzmun və keyfiyyəti barədə aydın təsəvvür qazanmaq baxımından tapşırığın fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Vaxt çatışmazlığı yaranarsa, tapşırıq kiçik qruplarla iş formasında da icra edilə bilər. Belə olduqda müəllim qrupdakı hər bir şagirdin fəaliyyəti barədə təsəvvür qazanmağa çalışmalıdır.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra bir neçə təqdimatın dinlənilməsi və müzakirəsi həyata keçirilir. Müzakirədə bütün şagirdlərin fəal iştirakına nail olunmalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Mir Cəlal. "Vətən yaraları"** – 3 saat
## *Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1** | • Hekayəni janr (növ) baxımından dramla müqayisə edir. |
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə hekayənin qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.3.** | • Hekayənin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **3.1.3.** | • Müqayisə xarakterli məruzə yazır. |

**Dərsin gedişi:**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollardan istifadə etmək mümkündür. Məsələn, həm İkinci Dünya müharibəsi, həm də yurdumuzun məruz qaldığı Qarabağ müharibəsini əks etdirən vizual görüntüləri nümayiş etdirməklə müsahibə təşkil etmək mümkündür. Motivasiyanın yaradılması yollarından biri də dərslikdəki "Düşünün" başlıqlı sual (İkinci Dünya müharibəsi illərində yazılmış bədii əsərlərin müasir oxucu üçün əhəmiyyəti nə ola bilər?) əsasında yığcam müsahibənin aparılmasıdır. Müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə gətirib çıxarır.

***Tədqiqat sualı:*** Ədalətli müharibədə qalib gəlməyin başlıca şərtləri hansılardır?

Səsləndirilən fərziyyələr lövhədə qeyd olunur. Bu fərziyyələrin yoxlanılması üçün araşdırmaların aparılmasının vacib olduğu xatırladılır.

**Tədqiqatın aparılmasını** fərqli təlim metodlarının və iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına müraciət edilməsi məqsədəuyğundur. Şagirdlərin aşağıdakı qəbildən mənbələrlə təmin edilməsi araşdırmanın səmərəliliyinə ciddi təsir edir: *"Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum". (Səməd Vurğun)*

*“1941-1945-ci illər müharibəsi dövründə Mir Cəlal daha da fəallaşdı, "Yollar", "Anaların üsyanı", "Vətən yaraları", "Mərcan nənə", "Silah qardaşları" kimi çoxlu hekayələr yazdı. Bunların bəzisində səfərbərlik ruhu və cəbhəyə yollanmaq əzmi əks etdirilirdisə, digər qismində faşizmə qarşı mübarizəyə qalxan döyüşçü surəti yaratmaq niyyəti əsasdı. Söz yox ki, Mir Cəlal da bütün ölkəni Vətən kimi qəbul edir, onun müxtəlif milli tərkibli ordusuna ümidlər bəsləyirdi. Ona görə əsgərin həm fiziki, həm də mənəvi qüdrəti, onu mübarizəyə çəkən amillər araşdırılırdı. "Vətən yaraları" o zaman böyük rəğbətlə qarşılandı, döyüşçülərin, "oxucuların əlindən düşməyən bir əsər oldu”. (Y.İsmayılov)*

Kiçik qruplarda iş formasını seçən müəllim “Araşdırın. Fikirləşin. Cavab verin” başlıqlı tapşırığın sualları əsasında hazırlanmış iş vərəqlərini (hər qrupa bir sual ayırmaqla) şagirdlərə təqdim edir. Qrupların işini müşahidə edən müəllim ehtiyac yarananda yönəldici suallar vasitəsilə şagirdlərə dəstək olur. Önəmli olan budur ki, hər qrup icra edəcəyi tapşırığın mahiyyətini, tələbini başa düşsün. Deməli, yeri gəldikcə təlimatlandırmanın həyata keçirilməsi məqsədəuyğundur. Məsələn, əsgər obrazının xarakterindəki başlıca cəhətləri aydınlaşdırmalı olan qrup onun zəngin mənəvi aləmi, məntiqi düşüncəsi, bir sözlə, maraqlı həyat fəlsəfəsi barədə aydın təsəvvürə malik olmalı və bunları nümunələrlə açıqlamalıdır.

**Məlumat mübadiləsi və müzakirə** mərhələsində düşmənlə mübarizədə əsgərləri dözümlülük, qəhrəmanlıq göstərməyə sövq edən amillərin açıqlanmasına xüsusi diqqət yetirilir.

İkinci sual (Hekayədə yazıçını düşündürən, narahat edən başlıca problem, sizcə, nədir? Müəllif həmin problemin həllini nədə görür?) insanların dinc həyatını amansız dəhşətlərə çevirən müharibə təhlükəsi probleminin aşkara çıxarılmasını nəzərdə tutur. Bu sualın müzakirəsi zamanı şagirdlər problemin ayrı-ayrı cəhətlərini: yarımçıq qalmış ömürlər, övlad itirmiş analar, ayrı düşmüş dostlar və s. sadalaya bilərlər. Müəllim bu deyilənləri başlıca problemin aşkara çıxarılmasına yönəltməlidir.

Əsgər obrazının təhlili üzrə suallara hazırlanmış cavabların müzakirəsi müharibə şəraitində yaşayan bir ölkənin gənclərinin vətənpərvərlik ruhunda tərbiyəsinə yönəldilməlidir.

Beşinci tapşırığın (Hekayəni növ və janr baxımından oxuduğunuz bir dram əsəri ilə müqayisə edin) müzakirəsi zamanı müəllim şagirdlərin dram janrı ilə tanışlığının çox da geniş olmadığını nəzərə alaraq, remarka, dialoq, monoloq kimi anlayışların üzərində dayanmağın vacib olduğunu onlara xatırlatmalıdır.

Altıncı tapşırığın müzakirəsi zamanı bədii təsvir və ifadə vasitələrinin, məsələn, epitet (...anamın isti nəvazişlərinə tutulum), təşbeh (... bu atılan güllələrin biri də mənəm, gurultunu qopardan da mənəm, gündüzün boz və kəsif üfüqlərinə bir bayraq kimi açılıb-örtülən alov da mənəm), metafor (Uca çinarlar, yaşıl təpələr baş əyərək, cəbhədən gələn oğullarını salamlayır, cəbhəyə gedən oğullarına xeyir-dua verir), təzad (Yıxıla-dura yeriyim, ağı qaradan, şirini acıdan, istini soyuqdan seçən, qayğısız körpəlik günləri başlasın) və s. əsərə gətirdiyi bədii gözəllik müəyyən edilməklə yanaşı, onların emosional təsir gücü də qeyd olunmalıdır.

**Nəticə, ümumiləşdirmə.** Əvvəlki mərhələdə həyata keçirilən işlər əsasında ümumiləşdirmə aparan şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, düşmənlə mübarizədə əsgərlərin ruh yüksəkliyinin, mənəvi keyfiyyətlərinin rolu çox böyükdür.

Eyni məqsəd uğrunda mənəvi birliyə sahib olan ordu düşməni məğlub etməyə qadirdir.

Çıxarılmış nəticənin şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsi, tədqiqat sualı ilə necə səsləşməsi də diqqət mərkəzində saxlanılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Mirzə İbrahimov. "Gələcək gün"** – 4 saat
## *Birinci saat*: **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Romanda tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.3.** | • Romanı hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| **1.1.5.** | • Romanda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Romanla bağlı müzakirələrdə mövzuya tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında yığcam müsahibənin aparılması, vaxta qənaət baxımından, daha faydalıdır. Tədqiqat sualı tədricən formalaşdırılır.

***Tədqiqat sualı:*** Zalıma, amansıza yalvarmaqla onda mərhəmət hissi yaratmaq olarmı?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Sinifdə əsərin ilk iki parçasının oxusu həyata keçirilir. Bu, fərqli oxu növlərinin və formalarının tətbiqi ilə reallaşdırıla bilər. Hadisələrin gözlənilməz inkişafı proqnozlaşdırılmış oxudan istifadəyə də üstünlük verir. Dərslikdə təklif edilmiş tapşırıqlar fasilələrlə oxunun tətbiqi üçün nəzərdə tutulmuşdur. Birinci parçanın oxusundan sonra şagirdlərə məzmunla bağlı suallara cütlük şəklində cavab hazırlamaq təklif edilir. Eləcə də ikinci parçanın oxusundan sonra şagirdlər dərslikdəki suallara cütlük şəklində cavab hazırlayırlar. Cavabları oxşar olan cütlüklər birləşərək kiçik qruplar yaradırlar. Cavablarını, müəyyənləşdirdikləri bədii təsvir və ifadə vasitələrini kiçik qruplarda dəqiqləşdirən, ümumiləşdirərək vahid cavab şəklinə salan şagirdlər məlumat mübadiləsinə hazırlaşırlar.

**Məlumat mübadiləsi və müzakirə.** Təqdimatlar əsasında aparılan məlumat mübadiləsi qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına imkan yaratmalıdır. Müzakirədə bütün sinfin iştirakı, şagirdlərin hər birinin öz fikrini sərbəst söyləməsi təmin edilməlidir. Bəzi sualların cavabları qrupda dəqiqləşdirilərkən fikir ayrılıqları da meydana çıxa bilər. Mübahisə doğuran məqamlardan uzaqlaşmaq məqsədəuyğun deyildir. Müzakirənin diskussiya səciyyəli olması həm məzmunun mənimsənilməsi, həm də şagirdlərin inkişafı baxımından səmərəlidir.

Oxunmuş hissənin məzmunu ilə bağlı qazanılmış təsəvvürün tamlığına nail olmaq üçün müəllim əvvəlcədən hazırladığı və qapalı suallardan fərqlənən aşağıdakı qəbildən suallardan da istifadə edə bilər:

1. Əsərdə tanış olduğunuz zəhmətkeş insanların həyatının ağır keçməsinə səbəb, sizcə, nədir ?
2. Firidunun taleyi ilə kəndlilərin taleyi arasında hansı oxşarlıqlar var?
3. Yazıçının doğma torpağa sevgisi əsərdə daha çox özünü nədə göstərir?

Dərsdə vaxtdan qənaətlə istifadə edilməsi yığcam nağıletmə ilə bağlı tapşırığa vaxt ayırmağa imkan verir. Seçdikləri hissənin məzmununa aid planı fərdi olaraq tərtib edən şagirdlərin bir neçəsinin çıxışının dinlənilməsi və yığcam nağıletmənin tələblərinə nə dərəcədə cavab verdiyinin müəyyənləşdirilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

### *Mövzu:* **Mirzə İbrahimov. "Gələcək gün"** – 4 saat
### *İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Romanda tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Romanda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Romanla bağlı müzakirələrdə mövzuya tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Evdə oxunmuş parçaların məzmununun və tanış olmayan sözlərin mənasının hansı səviyyədə qavranıldığı müxtəlif yollarla müəyyənləşdirilə bilər. Bütün hallarda, müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur. Şagirdlərə evdə oxuduqlarını (4-5-ci parçaları) bir daha nəzərdən keçirmək, sonra cütlük şəklində məzmuna aid suallar və onlara cavab hazırlamaq təklif edilir. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra cavabları yaxın olan cütlüklər kiçik qruplarda birləşərək fikirlərini dəqiqləşdirir və ümumiləşdirirlər. **Tədqiqatın aparılması** mərhələsi kimi qəbul edilən bu prosesdə müəllim qrupdakı şagirdlərin birgə fəaliyyətinə, ümumi işdə hər kəsin payının olmasına diqqət yetirir.

**Məlumat mübadiləsi, müzakirə.** Bütün qrupların eyni tapşırığın üzərində işləməsi məlumat mübadiləsinin müzakirə ilə qovuşmasına səbəb olur. Müəllim müzakirədə hər kəsin öz fikrini sərbəst ifadə etməsinə imkan yaradır. Onun istiqamətləndirici suallardan istifadə etməsi diskussiyaya imkan yaratmalıdır. Məsələn, "Musa kişinin günahlandırılmasının əsl səbəbi, sizcə, nədir?" sualı mübahisəli fikirlərin yaranmasına səbəb olur. Hətta şagirdlərdən yanlış nəticə çıxaranlar, dəcin pozulmasında Musa kişinin günahkar olması fikrini irəli sürənlər də ola bilər. Müəllim şagirdlərin diqqətini hakim təbəqənin xalqı qorxu altında saxlamaq üçün qabaqcadan bütün ehtimalları nəzərə aldıqlarına yönəltməlidir. "Musa kişi günahsız olduğu halda, niyə and içmədi?" sualı da birmənalı qarşılanmır. Müəllim Qurana əlbasmanın məqsədyönlü şəkildə mərasimləşdirilməsinin psixoloji qorxu vasitəsinə çevrilməsinə diqqəti cəlb etməlidir.

Müəllim cavablara əlavələr etmək, sual vermək istəyənlərə imkan yaradır.

Dərslikdəki "**Bilik və bacarıqlarınızı tətbiq edin**" başlıqlı tapşırığın icrasına vaxt ayrılır və elan edilir. Tapşırığın hər iki bəndini şagirdlər fərdi olaraq yerinə yetirirlər. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra nəticələr təqdimatların dinlənilməsi və müzakirənin aparılması ilə dəyərləndirilir.

İndiyə qədər deyilmiş fikirlərin əsasında ümumi qənaətin müəyyənləşdirilməsi **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində mühüm vəzifə kimi qarşıya qoyulur. Əsərin məzmununun öyrənilməsinə həsr edilən hər iki dərsdə həyata keçirilən işlərin əsasında şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, ədalətsizliyin, haqsızlığın hökm sürdüyü cəmiyyətdə həqiqi zəhmət adamının əməyi layiqincə qiymətləndirilə bilməz. Onların əməyi hesabına var-dövlət sahibi olanlara, hədsiz sərvət toplayanlara heç bir xahiş, yalvarış təsir edə bilməz. İnsan əzabına, əziyyətinə laqeydləşən bu cür amansız, zalım ağaları öz mənafelərindən başqa, heç nə maraqlandırmır.

Çıxarılmış nəticənin tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mirzə İbrahimov. "Gələcək gün"** – 4 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə romanın qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.4.** | • Romanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Romanla bağlı müzakirələrdə mövzuya tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollardan istifadə etmək mümkündür. Bunlardan biri də dərslikdəki "Düşünün" başlıqlı sual (Cənubi Azərbaycanda milli azadlıq hərəkatının və onun qurbanlarının yazıçılarımızı daim düşündürməsinə səbəb, sizcə, nədir?) əsasında yığcam müsahibənin aparılmasıdır. Müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə gətirib çıxarır.

***Tədqiqat sualı:*** Zalımın zülmündən qurtulmaq, azadlığa nail olmaq üçün doğru yol nədir?

Səsləndirilən fərziyyələr lövhədə qeyd olunur. Bu fərziyyələrin yoxlanılması üçün araşdırmaların aparılmasının vacib olduğu xatırladılır.

**Tədqiqatın aparılmasını** fərqli təlim metodlarının, iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına müraciət edilməsi məqsədəuyğundur.

Kiçik qruplarda iş formasını seçən müəllim "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırığın sualları əsasında hazırlanmış iş vərəqlərini (hər qrupa bir sual ayrılmaqla) şagirdlərə təqdim edir. Qrupların hər biri yerinə yetirdiyi işin mahiyyəti və tədqiqat sualı üçün əhəmiyyəti barədə aydın təsəvvürə malik olmalıdır. Məhz buna görə də qrupların hələ tədqiqat ərəfəsində təlimatlandırılması məqsədəuyğundur. Məsələn, ikinci sualın üzərində işləyən şagirdlərin diqqətini Hikmət İsfahani ilə kəndlilərin qarşılaşması səhnəsinə, başlıcası isə bütün kənd adamlarının düşüncəsinə hakim kəsilmiş "nə etməli?" sualına cəlb etmək məqsədəuyğundur.

Üçüncü sualı (Əsərdə konflikt hansı qüvvələrin arasında baş verir? Bu konflikt olmaya bilərdimi?) araşdıran şagirdlərin ayrı-ayrı obrazların üzərində dayanması ehtimalı güclü olduğundan onlar əvvəlcədən təlimat alır, konfliktin əks qütblərində böyük qüvvələrin dayandığını anlamış olurlar.

Qrupların işini müşahidə edən müəllim ehtiyac yarandıqda istiqamətverici suallar vasitəsi ilə onlara yardım edir.

**Məlumat mübadiləsi.** Geniş fikir mübadiləsi aparılan həyata keçirildiyi bu mərhələdə qrupların təqdimatlarının fəal dinlənilməsinə, qrupların bir-birinin işi ilə ətraflı tanış olmalarına şərait yaradılır.

**Məlumatın müzakirəsi və təşkili.** Müzakirənin səmərəli təşkili şagirdlərin fəallığına, ardıcıl olaraq dialoqa girmələrinə, fərqli fikirləri obyektiv dəyərləndirmələrinə səbəb olur. Müəllim konkret məsələlərlə bağlı fərqli mövqeləri əks etdirən fikirlərin əhatəli müzakirəsinə səy göstərməlidir. Cavabların müqayisəsi, qruplaşdırılması xüsusi diqqət yetirilən məsələlərdən olur.

**Nəticə, ümumiləşdirmə.** Əvvəlki mərhələlərdə işin səmərəli təşkili, xüsusən təhlil üzrə araşdırmaların yüksək səviyyədə həyata keçirilməsi, nəticənin çıxarılması, ümumiləşdirmənin aparılmasını xeyli asanlaşdırır. Müəllimin istiqamətləndirici sualları əsasında ümumiləşdirmə aparan şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, müstəmləkə əsarətində, ağalar-qullar münasibətinin hökm sürdüyü şəraitdə xalqın xoşbəxt yaşaması qeyri-mümkündür. Xalq öz xoşbəxt gələcəyini ancaq mübarizə aparmaqla əldə edə bilər.

Çıxarılmış başlıca nəticənin şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsinə, tədqiqat sualı ilə necə səsləşməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Mirzə İbrahimov. “Gələcək gün”** – 4 saat
## *Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** | • Romanı növ və janr baxımından dramla müqayisə edir. |
| **1.2.3.** | • Romanın təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **2.2.1.** | • Romanla bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| **3.1.3.** | • Müqayisə xarakterli məruzə yazır. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına müxtəlif yollarla nail olmaq mümkündür. Məsələn, Cənubi Azərbaycanda müxtəlif dövrlərdə baş vermiş milli azadlıq hərəkatına başçılıq edən tarixi şəxsiyyətlərin vizual görüntülərini nümayiş etdirməklə müsahibə aparmaq və tədqiqat sualını formalaşdırmaq olar.

***Tədqiqat sualı:*** “Gələcək gün” romanının öz dəyərini bu gün də saxlamasına səbəb, sizcə, nədir?

Sualla əlaqədar fərqli fikirlər – fərziyyələr dinlənilir və qeyd edilir. Fərziyyələrin fərqli olduğuna diqqəti çəkən müəllim onların yoxlanılmasının – tədqiqatın aparılmasının zəruri olduğunu qeyd edir.

**Tədqiqatın aparılması**. Dərslikdəki "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlıqlı tapşırıqlar fərqli təlim metodlarının və iş formalarının tətbiqi ilə yerinə yetirilə bilər. Məsələn, ilk üç tapşırığın kiçik qruplarda yerinə yetirilməsi məqsədəuyğundur. Həmin tapşırıqlar hər qrupa bir tapşırıq verməklə iş vərəqlərində şagirdlərə təqdim olunur. Tədqiqatöncəsi təlimatlandırmanın aparılması məqsədəuyğundur. Bunu tapşırıqların məzmunu tələb edir. Məsələn, birinci tapşırığın (Əsərin bədii gözəlliyini təmin edən vasitələr hansılardır?..) üzərində işləyən şagirdlərə aydın olmalıdır ki, bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırmaqla məhdudlaşmaq olmaz. Diqqət həm də təhkiyənin şirinliyinə, canlı bədii lövhələrə, təsvirlərin reallığına, obrazların nitqindəki fərdiliyə, söz və ifadələrin seçiminə və s. yönəldilməlidir.

Müəllim şagirdlərin hələ əsərin məzmunu üzərində iş zamanı müəyyənləşdirdikləri bədii təsvir və ifadə vasitələrinin (məsələn, epitet: Onun gözlərində ağır bir peşmançılığın izləri vardı; təşbeh: O, motal kimi yıxıldığı yerdə düşüb qalmışdı; metafor: Gecə öz pərdəsini yığıb gedir; metonimiya: Kənd bir-birinə dəymişdi və s.) əsərə gətirdiyi gözəlliyi müəyyən etmək üçün cümləni onlarsız işlətməyi və nəticəni müqayisə etməyi tövsiyə edə bilər. Bu, şagirdlərə bədii təsvir və ifadə vasitələrinin rolunu nümunələr əsasında müşahidə etməyə imkan verir.

İkinci tapşırıqla bağlı şagirdlərə aydın olmalıdır ki, hər iki əsərdə qaldırılan taleyüklü problemlər bu gün də həllini tapmamışdır.

Tədqiqatın gedişi zamanı müəllim şagirdlərin işinə nəzarət edir, lazım gəldikdə istiqamətverici suallar vasitəsilə onlara yardım edir.

Dərslikdə müzakirə üçün nəzərdə tutulmuş mövzuya dərsin bu mərhələsində müraciət edilməsi məqsədəuyğundur. Bu müzakirə tədqiqat sualına aydınlıq gətirilməsinə az təsir göstərmir.

Tədqiqatın sonunda qruplararası **məlumat mübadiləsi və müzakirə** aparılır. Qrupların icra etdikləri tapşırıqlar xeyli fərqli olduğundan fəal dinləməyə nail olunması vacibdir. Qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmaları canlı diskussiya şəraitində mümkündür. Müəllim başlıca diqqətini məhz buna yönəltməli, şagirdləri sual verməyə həvəsləndirməlidir. Qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmaları obyektiv nəticənin çıxarılmasına, əhəmiyyətli ümumiləşdirmənin aparılmasına səbəb olur.

**Nəticə və ümumiləşdirmə** mərhələsində şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, "Gələcək gün" romanında qaldırılan başlıca problem bu gün də mövcuddur. Müstəqilliyə çatmaq, Vətəninə, torpağına sahib olmaq Cənubi Azərbaycanda yaşayan soydaşlarımız üçün problem olaraq qalmaqdadır. İkiyə bölünmüş, eləcə də torpağının bir qismi işğal altında olan Vətən dərdi hər bir soydaşımız üçün şərəf məsələsi olmalıdır. Yüksək bədii keyfiyyətləri ilə seçilən "Gələcək gün" əvəzlənən nəsillərin vətənimizin, xalqımızın tarixi dərdlərini öyrənmələri üçün mötəbər mənbədir.

Çıxarılmış nəticənin şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsi, tədqiqat sualı ilə necə səsləşməsi diqqət mərkəzində saxlanılır.

Dərsdə vaxtdan qənaətlə istifadə dərslikdə təklif edilmiş tapşırığın (Dərsliyinizdə əsərlə bağlı verilən illüstrasiya təsəvvürünüzə uyğundurmu? Nə üçün?) yerinə

yetirilməsinə vaxt ayırmağa imkan verir. Tapşırığı fərdi olaraq yerinə yetirən şagirdlər işin nəticəsinə münasibət bildirirlər.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## SİNİFDƏNXARİC OXU DƏRSİ

**Müharibə qadın yazıçılarımızın yaradıcılığında** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə şeirin lirik qəhrəmanını səciyyələndirir. |
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.1.** | • Şeirlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.1.2.** | • Şeirin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

Sinifdənxaric oxu dərsi şagirdlərin müstəqil oxuduğu əsərlər – Nigar Rəfibəylinin "Vətən qızları", Mirvarid Dilbazinin "Rahat yatardımı körpələrimiz" şeirləri üzrə keçilir.

Dərsə hazırlıq dövründə bütün şagirdlərin sinifdənxaric oxu üçün tövsiyə olunan əsərləri mütaliə etməsi diqqət mərkəzində saxlanılır. Şagirdlər müəllimin tövsiyəsi ilə sinifdənxaric oxu dərsinə hazırlıq işləri görür, müharibə mövzusunda əsərlərdən ibarət kitab sərgisi təşkil edir, hər iki sənətkara həsr olunmuş divar qəzeti tərtib edir, oxuduqları əsərlərə illüstrasiyalar çəkirlər. Həmçinin internet materiallarına müraciət olunur, səsləndirilmək üçün musiqi əsəri, döyüş səhnələrini əks etdirən videomateriallar seçilir.

### Dərsin gedişi

**Motivasiya, problemin qoyuluşu.** Dərsin əvvəlində "Ananın səsi" mahnısı (https://www.youtube.com/watch?v=jAX5ohklnVM) dinlənilir. Sonra "Hədəf Bakıdır" filmindən fraqmentlərə baxış keçirilir:

(https://www.youtube. com/watch?v=kQGKmJqpG5I).

Mahnı və film üzrə təəssüratlar öyrənilir, rəy mübadiləsi və müzakirə nəticəsində tədqiqat sualı müəyyənləşdirilir.

***Tədqiqat sualı:*** Qadın yazıçılarımızın müharibəyə həsr olunmuş əsərlərində fərqli hansı fikirlər əks oluna bilər?

Şagirdlərin fərziyyələri dinlənilir, lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Kiçik qruplara iş vərəqləri təqdim olunur.

**I qrup**

**N.Rəfibəylinin "Vətən qızları" şeiri üzrə araşdırma aparın.**

1. Əsərdə vətən qızlarının dinc dövrdə hünəri haqqında hansı fikirlər söylənilir?
2. Şair müharibə zamanı vətən qızlarının qəhrəmanlığı haqqında nə deyir?
3. Əsərdəki ana obrazını səciyyələndirən söz və ifadələri seçin, münasibətinizi bildirin.
4. Əsərdəki ana, qadın obrazını digər qadınlara nümunə saymaq olarmı? Nə üçün?
5. Aşağıdakı nümunələrdə hansı bədii təsvir və ifadə vasitələri işlənib? Fikrin təsir gücünün artmasında onların rolunu aydınlaşdırın.

| Əsərdən nümunələr | Bədii təsvir və ya ifadə vasitəsinin növü | Fikrin təsir gücünün artmasında rolu |
|---|---|---|
| Şahin kimi qanadlanıb sən uçmusan havalarda,<br>Vətən üçün aslan kimi vuruşmusan davalarda.<br>...Bir quş kimi paraşütlə atılmısan göydən yerə. | | |
| Ana yurdun xilaskarı, o tunc, polad qollu ərlər | | |
| Həyat səni alqışlayır, tarix səni təqdir edir | | |
| Göz dikmişdir qarı düşmən sənin isti ocağına | | |
| O heç geri qalardımı üç istəkli qardaşından? | | |

6. Əsərdəki başlıca fikri – ideyanı müəyyənləşdirin.

**II qrup**

**N.Rəfibəylinin "Vətən qızları" şeiri üzrə araşdırma aparın.**

1. Ananın nişan üzüyünü döyüşən ordu üçün verməsi onu necə səciyyələndirir? Fikrinizi əsaslandırın.
2. Müxtəlif peşələrdə fəaliyyətinə əsaslanmaqla ana, qadın surətini səciyyələndirin.
3. "Həyat səni alqışlayır, tarix səni təqdir edir" misrasında ifadə olunmuş fikri aydınlaşdırın.
4. Ananın hansı keyfiyyətləri düşmənə qalib gəlməkdə orduya kömək edir?
5. "Viran qoyub obaları, tikir zülmün qalasını, Mələr qoyub ayrı salır analardan balasını" misralarında hansı bədii ifadə vasitəsi işlənilib? Fikrin təsir gücünün artmasında onun rolunu izah edin.
6. Əsərdəki başlıca fikri – ideyanı necə izah edərsiniz? Cədvəldən istifadə edin.

| № | Əsərin başlıca ideyası | Nə üçün belə düşünürsünüz? |
|---|---|---|
| | | |
| | | |

**III qrup**

**M.Dilbazinin "Rahat yatardımı körpələrimiz" şeiri üzrə araşdırma aparın.**

1. Əsərin lirik qəhrəmanı döyüşən ordudakı əsgərə necə münasibət bəsləyir? Fikrinizi əsərdən nümunələrlə əsaslandırın.

2. Əsərdəki ananı vətənpərvər saymaq olarmı? Nə üçün? Fikrinizi əsərdən nümunələrlə əsaslandırın.
3. Şeirdə hansı fikirlər diqqəti daha çox cəlb edir? Nə üçün?
4. “Könlümə, nədənsə, bir sevinc gəlir, Sanki fırtınadan sular dincəlir” misraları ananın hansı hisslərini ifadə edir? Fikrinizi əsaslandırın.
5. Aşağıdakı nümunələrdə hansı bədii təsvir və ifadə vasitələri işlənib? Fikrin təsir gücünün artmasında onların rolunu aydınlaşdın.

| Əsərdən nümunələr | Bədii təsvir və ya ifadə vasitəsinin növü | Fikrin təsir gücünün artmasında rolu |
|---|---|---|
| Gecədir, yatmıram axşamdan bəri<br>Döyür soyuq yellər pəncərələri. | | |
| Otağım işıqlı, istiykən, nədən<br>Bilmirəm, könüldən üşüyürəm mən? | | |
| Dağların boranlı yelləri əsir,<br>Böyük bir ordutək qarşımı kəsir. | | |
| Qafqazın qəzəbli, iti çovğunu<br>Saxlaya bilməyir yollarda onu. | | |
| Düşmən gülləsindən üfüqlər yanır,<br>Səhər yaxınlaşır, göy işıqlanır. | | |

6. Əsərdəki başlıca fikri – ideyanı necə izah edərsiniz? Cədvəldən istifadə edin.

| № | Əsərin başlıca ideyası | Nə üçün belə düşünürsünüz? |
|---|---|---|
| | | |
| | | |

**IV qrup**

**M.Dilbazinin “Rahat yatardımı körpələrimiz” şeiri üzrə araşdırma aparın.**

1. “Rahat yatardımı körpələrimiz” şeiri hansı mövzuda yazılıb?
2. Əsərdəki ana obrazına necə münasibət bəsləyirsiniz? Onun övlad məhəbbəti hansı misralarda daha qabarıq ifadə olunub?
3. “Otağım işıqlı, istiykən, nədən Bilmirəm, könüldən üşüyürəm mən” misralarında ananın xarakterindəki hansı cəhət keyfiyyəti üzə çıxır?
4. Əsərdəki ana obrazı ədəbiyyat dərslərində öyrəndiyiniz hansı əsərdəki ana obrazını xatırladır? Nə üçün?
5. “Ana qucağında azad, bəxtiyar, Mənim körpəm kimi azmı körpə var?” misralarında hansı bədii ifadə vasitəsi işlənib? Fikrin təsir gücünün artmasında onun rolunu izah edin.
6. “Düşmənlə üz-üzə durmasanız siz, Rahat yatardımı körpələrimiz?” misraları ananın əsgərlərimizə münasibətini necə əks etdirir?

**V qrup**

**Aşağıdakı tapşırıqlar üzrə araşdırma aparın.**

1. "Vətən qızları" və "Rahat yatardımı körpələrimiz" əsərlərini müqayisə edin. Cədvəldən istifadə edin.

| Hansı cəhətlərə görə müqayisə olunurlar? | Əsərlərin adı | |
|---|---|---|
| | "Vətən qızları" | "Rahat yatardımı körpələrimiz" |
| Mövzu | | |
| Problem | | |
| Obrazlar | | |
| İdeya | | |
| Bədii xüsusiyyətlər | | |

2. Bu mövzuda əsərlərin müasirlərimiz üçün əhəmiyyəti nədir?
3. Hər iki şeirdən seçdiyiniz parçanın ifadəli oxusunu hazırlayın. Şərti işarələrdən istifadə edin.

**Məlumat mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılmasına ayrılmış vaxt başa çatdıqdan sonra təqdimatlar dinlənilir. Müzakirədə ana, qadın obrazlarının səciyyələndirilməsi, onlara münasibətin aşkara çıxarılması, əsərlərin bədii xüsusiyyətlərinin aydınlaşdırılması ön plana çəkilir. Şagirdlərin bu mövzuda əsərlərin müasir dövrdə əhəmiyyəti barədə fikirləri dinlənilir və münasibət bildirilir. Diskussiya zamanı fərqli fikirlərə dözümlü münasibət, mülahizələrin əsaslandırılması, müstəqillik və fəallıq, müasir həyatla əlaqələndirmə diqqət mərkəzində saxlanılır.

**Nəticənin çıxarılması, ümumiləşdirmə aparılması mərhələsində** müəllimin istiqamətləndirici sualları əsasında şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, qadın yazıçılarımızın əsərlərində ananın, qadının müharibə illərində çəkdikləri acılar çox təbii, inandırıcı və səmimi şəkildə ifadə edilir. Onların yaratdıqları əsərlərdə qadınlar həm ön cəbhədə, həm də arxa cəbhədə fədakarlıq göstərir, döyüşən orduya etibarlı dayaq olur, ləyaqətli övlad tərbiyə edirlər.

Çıxarılmış nəticənin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisəsinə vaxt ayrılır.

Formativ qiymətləndirmədə şagirdlərin fəallığı, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirməsi təmin olunur. Bu istiqamətdə işin ardıcıl və səmərəli təşkili şagirdlərin meyarlara əsaslanmaqla özünüqiymətləndirmə bacarığını inkişaf etdirmələrinə əhəmiyyətli təsir göstərə bilər.

**Evdə iş.** Kitabxanadan və ya internetdəki mənbələrdən (google.az, You Tube) istifadə etməklə "Azərbaycan qadını Vətənin müdafiəsində" mövzusunda şifahi təqdimat hazırlayın.

## ÜÇÜNCÜ BÖLMƏ ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Mehdi Hüseynin "Nişan üzüyü" hekayəsi üzrə aparıla bilər.*

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla Əminə xala surətini səciyyələndirin.

| Digər obrazların mühakimələri | Müəllifin bu obrazla bağlı mühakimələri | Sizin münasibətiniz |
|---|---|---|
| | | |

2. Əminə xalanın övladlarına münasibətini aydınlaşdırıb qısaca yazın. Fikrinizi təsdiq edən nümunələr göstərin.

______________________________________________________________

____________________________________________________________

2. Salman haqqında sizdə hansı təsəvvür yarandı? Fikrinizi qısaca yazın.

______________________________________________________________

____________________________________________________________

3. Hekayənin mövzusunu və onda qaldırılmış problemi müəyyənləşdirib qısaca yazın.

______________________________________________________________

____________________________________________________________

5. Hekayədə işlənmiş "gözləri yol çəkirdi" ifadəsinin qarşılığını müəyyənləşdirin.
   A) intizarda idi
   B) təşviş içində idi
   C) kədərli idi
   D) ürəyi sıxılırdı
   E) peşman idi

6. Əsərdəki bədii təsvir və ifadə vasitələrinin növünü müəyyənləşdirib cədvəldə qeyd edin.

| Əsərdən nümunələr | Bədii təsvir və ya ifadə vasitəsinin növü |
|---|---|
| Onların pulemyotları yağış kimi güllə yağdırırdı. | |
| Vuruşurduq, nə vuruşurduq... | |
| Niyə, nə olub, kasıbın qeyrəti olmaz?!. | |

7. Əsərin hekayə janrında olduğunu təsdiq edən bir neçə cəhət göstərin:

Əsər hekayə janrındadır, çünki ...

8. Aşağıdakı fikirlərdən hansını hekayəyə aid etmək olmaz.
A) Əsərdə arxa cəbhədə çalışan insanların həyatından danışılır.
B) Arxa cəbhədə çalışan insanlar cəbhəyə yardım etməyin vacib olduğunu dərk edirlər.
C) Əminə xalanı narahat edən, düşündürən yalnız oğlunun taleyidir.
D) Əsər xalqımızın müharibə dövründəki həyatı barədə təsəvvür yaradır.
E) Hekayədə xalqımıza məxsus qürur, mərdlik, səmimilik kimi xüsusiyyətlər əksini tapıb.

9. Əminə xala obrazını sizə tanış olan hansı ədəbi qəhrəmanla müqayisə edərsiniz? Nə üçün?

10. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir? Fikrinizi qısaca yazın.

# Milli-mənəvi özünüdərk dövründə ədəbiyyat (1961–1990)

*Mövzu*: **Rəsul Rza. "Çinar ömrü"** – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Sərbəst şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Sərbəst şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu, fərqli yollardan istifadə ilə həyata keçirilə bilər; təbiətə həsr edilmiş şeirlərdən birinə bəstələnmiş mahnının (məsələn, Ş.Ələkbərovanın ifasında çinardan da bəhs edilən "Dərələr", "Ay bizim çinara bənzəyən çinar" əsərlərinə bəstələnmiş mahnıların) səsləndirilməsi, Şəki Xan Sarayının önündəki Xan çinarın şəklinin, Rəsul Rza haqqında "Çinar ömrü" filmindən fraqmentin və s. nümayiş etdirilməsi mümkündür. Başqa bir yol şagirdlərin həyat təcrübəsinə, təbiət üzrə öyrəndikləri biliklərə əsasən çinar ağacı ilə bağlı yığcam müsahibənin aparılması ola bilər. Müsahibədə dərslikdəki "Yada salın" başlıqlı suallardan da istifadə etmək faydalıdır. Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

***Tədqiqat sualı:*** Sizcə, çinar haqqında yazılmış əsərlərdə daha çox hansı məsələlər əksini tapa bilər?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən lövhəyə qeyd edilir.

**Tədqiqatın aparılması.** Əsərin oxusunu fərqli formalarda həyata keçirmək mümkündür. Hansı oxu növünün tətbiqindən asılı olmayaraq, digər mövzularda olduğu kimi, dərslikdəki "Oxuda aydınlaşdırın" başlıqlı tapşırığın (*1. Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın. 2. Şeirdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin*) yerinə yetirilməsinin vacibliyi şagirdlərə xatırladılır.

Dərslikdə şeirin fərdi səssiz oxunması tövsiyə edilmişdir. Əsərin ilkin oxusu, təbii ki, onun haqqında dolğun təsəvvürün qazanılmasına imkan vermir. Məhz buna görə də ikinci tapşırıq şagirdləri mətnin – misraların üzərində düşünməyə, ifadə olunmuş fikirləri başa düşməyə istiqamətləndirir. Fərdi qaydada həyata keçirilən bu iş kiçik qruplarda davam etdirilir. Qənaətlərini bölüşən, qaranlıq mətləblərə aydınlıq gətirən şagirdlər ümumiləşdirmə aparmaqla, təqdimata hazırlaşırlar.

**Məlumat mübadiləsi və müzakirə.** Məlumat mübadiləsinin səmərəli keçməsi müəllimin işi necə təşkil etməsindən asılıdır. Belə ki, şagirdlər əsərin məzmunu barədə öyrəndiklərini bütövlükdə çatdırmağa cəhd edir, əhəmiyyətli məsələlərdən tez-tez uzaqlaşırlar. Məhz buna görə də müəllimin sualları şagirdləri konkretliyə, daha vacib məsələlərin (mətnaltı mənaların ifadə olunduğu parçaların) üzərində dayanmağa yönəldir. Məzmunla bağlı bütün mühüm məqamların xatırladılması müzakirənin səmərəli keçməsinə imkan yaradır. Müzakirədə şagirdlərin müstəqillik və fəallığına şərait

yaradılır, onların hər birinə sual vermək, əlavələr etmək imkanı verilir. Şeirdə işlənilmiş bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi ilə bağlı şagirdlərin öz fikirlərini əsərdən nümunələr gətirməklə əsaslandırmalarına xüsusi diqqət yetirilir.

Müzakirə nəticəsində əsərin ilkin qavranılmasındakı çatışmazlıqlar aradan qaldırılır, müxtəlif mülahizələr əlaqələndirilir, müqayisə edilir və qruplaşdırılır. Bu, dərsin **nəticə və ümumiləşdirmə** mərhələsinin səmərəliliyinə zəmin yaradır. Müəllimin istiqamətləndirici sualları əsasında şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, doğma təbiətin möcüzəsi olan çinar ağacı öz vüqarı, əzəməti, əyilməzliyi, dözümlülüyü, gözəlliyi ilə insanları valeh etmiş, müxtəlif sənət adamlarının diqqətini də məhz bu cəhətləri cəlb etmiş və tərənnüm olunmuşdur.

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

Dərslikdə təqdimat üçün təklif olunmuş mövzular əsərin məzmunu üzərində düşünməyə və şagirdlərdə məntiqi təfəkkürün inkişafına imkan yaradır. Təqdimatların dinlənilməsinə və müzakirəsinə vaxt ayrılır.

Dərsdə vaxtdan qənaətlə istifadə edildikdə sonuncu (6-cı) tapşırığın yerinə yetirilməsinə vaxt qalır. Tapşırığın fərdi olaraq yerinə yetirilməsi və bir neçə şagirdin cavabının dinlənilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu*: **Rəsul Rza. "Çinar ömrü"** – 3 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Sərbəst şeirin ideya-xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyini təqdimatların dinlənilməsi və müzakirə edilməsi yolu ilə müəyyənləşdirmək mümkündür. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələ fərqli yollardan istifadə ilə təşkil edilə bilər. Şagirdlərin diqqəti birinci dərsdən üzərində fikirləşdikləri "Düşünün" başlıqlı suala (İnsanın təbiətdə ən qüdrətli olanlarla müqayisə edilməsinə ədəbiyyatda böyük diqqət yetirilməsinin səbəbi, sizcə, nədir?) cəlb olunur. Əqli hücum

metodundan istifadə ilə başlanan diskussiya tədqiqat sualının müəyyənləşdirilməsinə imkan yaradır.

***Tədqiqat sualı:*** Şairin insanlara çinar ömrü yaşamağı arzulamasının əsl səbəbi, sizcə, nədir?

Şagirdlərin fərziyyələri dinlənilir və təkrara yol verilmədən qeyd olunur.

**Tədqiqatın aparılması.** Bu mərhələdə fərqli metod və iş formalarından istifadə etmək mümkündür. Bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallara müraciət edilməsi vacibdir.

Tədqiqatın kiçik qruplarda aparılmasına üstünlük verən müəllim, ilk növbədə, sərbəst şeir və simvol haqqındakı məlumatın oxunması və mənimsənilməsini təşkil edir. Şagirdlərə dərslikdəki "Qısa ədəbiyyatşünaslıq terminləri lüğəti"nə də baxmağı tövsiyə edən müəllim nümunələr əsasında əlavə məlumat da verə bilər.

"Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallar iş vərəqlərində (hər qrupa bir sual olmaqla) şagirdlərə təqdim olunur.

Qrupun sayından, şagirdlərin hazırlıq səviyyəsindən, reallaşdırmaq istədiyi standartlardan və s. asılı olaraq, müəllim tapşırıqda dəyişiklik edə bilər. İşin gedişinə nəzarət edən müəllim qrupları istiqamətləndirici suallarla təlimatlandırır. Şagirdlərin əlavə məlumatlardan istifadə etmələri üçün imkan yaradılmalıdır. Bu məqsədlə R.Rzanın yaradıcılığı, xüsusən "Çinar ömrü" şeiri haqqında müxtəlif tədqiqatçıların, şairin həmkarlarının fikirlərindən nümunələr yazılmış vərəqlərdən istifadə etmək olar. Müvafiq məlumatın toplanmasını şagirdlərin özləri də dərsə qədər həyata keçirə bilərlər.

**Məlumat mübadiləsi və müzakirəsi.** Kiçik qrupların təqdimatları dinlənilir, geniş fikir mübadiləsi aparılır. Bu mərhələdə qrupların təqdimatlarının fəal dinlənilməsinə, çıxış edənlərə sualların verilməsinə şərait yaradılır.

Müzakirədə əsərin bədii keyfiyyətlərinin aydınlaşdırılmasına, bədiiliyə nail olmaq üçün şairin müraciət etdiyi vasitələrin nümunələrlə aydınlaşdırılmasına xüsusi diqqət yetirilir. Şagirdlərə artıq məlumdur ki, əsərin bədiiliyini təmin edən vasitələr çoxdur və bu tələblə qarşılaşdıqda bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırmaqla məhdudlaşmaq doğru deyildir. "Çinar ömrü"ndə şagirdlərin diqqətini cəlb edən vasitələr az deyildir; sözlərin seçilməsində, əlaqələndirilməsində, yeni anlamda işlənilməsində özünü göstərən ustalıq, qafiyələrin orijinallığı, fikrin çox az sözlə tutarlı ifadəsi, adi sözlərlə parlaq bədii lövhə yaradılması, heç kəsə müyəssər olmayan özəl üslub şirinliyi, sait və samit səslərin təkrarı yolu ilə yaradılan güclü ahəng və s.

Bədii təsvir və ifadə vasitələri – bənzətmə, metafor, təkrir, ritorik sual və s. əsərə məxsusi bir gözəllik, özgə bir ovqat bəxş etmişdir.

Altıncı tapşırığın üzərində işləyən qrupun sərbəst şeirin özəlliklərini dərindən mənimsəməsi və bu barədə digər qruplarda aydın təsəvvür yaratması vacibdir. Məhz buna görə də müəllim həmin qrupun öz fikirlərini nümunələrlə əsaslandırmalarına xüsusi diqqət yetirir.

Bu mərhələdə cavabların əlaqələndirilib sistemə salınması, birtərəfli fikirlərə aydınlıq gətirilməsi həyata keçirilir.

**Nəticə, ümumiləşdirmə.** Bütün görülmüş işlər, müəllimin istiqamətləndirici sualları deyilənlərin ümumiləşdirilməsinə, vahid fikir şəklinə salınmasına zəmin yaradır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, şair insan ömrünü, vüqarlı, məğrur, əyilməz çinar ömrü kimi görmək istəyir. İnsana elə bir ömür arzulayır ki, bu ömür

illərin sayı ilə deyil, əməlləri, xeyirxahlığı ilə xatirələrdə qalsın. İnsan həmişə çinara bənzəsin; heç kəsə baş əyməsin, həyatın yoxuşuna şərəflə qalxsın, enişini dözümlə qarşılasın.

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu*: **Rəsul Rza. "Çinar ömrü"** – 3 saat
## *Üçüncü saat*: **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| **2.1.2.** | • Şeirin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi şifahi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Müəllim qeyd edir ki, ədəbiyyatımızda çinara həsr olunmuş şeirlər çoxdur. Müəlliflər mövzuya fərqli yanaşsalar da, onların əsərlərində oxşar cəhətlər də az olmur. Bir sıra sənətkarlar isə bu mövzuya dönə-dönə müraciət etmiş, həmin mövzuda bir neçə əsər yaratmışlar. Sizcə, bu əsərlər məzmunca bir-birini təkrar etmirmi?

Bu sual əsasında aparılan müsahibə müzakirəyə çevrilir, tədricən tədqiqat sualı müəyyənləşdirilir.

***Tədqiqat sualı:*** Eyni mövzuya – çinara həsr edilmiş şeirlərdə oxşar və fərqli cəhətlər nə ola bilər?

Şagirdlərin fərziyyələri dinlənilir və təkrara yol verilmədən qeyd olunur.

**Tədqiqatın aparılması.** Şagirdlərə xatırladılır ki, müqayisə ediləcək əsərlərin hər birinin ideya-məzmunu, bədii xüsusiyyətləri barədə biliklərə yiyələnmək vacibdir. Deməli, tədqiqat sualı üzrə araşdırma aparmaq üçün R.Rzanın ikinci əsərinin – "Çinar"ın ideya-məzmunu, bədii xüsusiyyətləri barədə dolğun təsəvvür qazanılmalıdır.

Dərslikdəki tövsiyəyə uyğun olaraq, şagirdlər R.Rzanın "Çinar" şeirini fərdi olaraq bir daha nəzərdən keçirirlər. Müəllimin təklifi ilə şagirdlər cütlük şəklində işləməklə

şeirdəki tanış olmayan sözlərin mənasını dəqiqləşdirir, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirirlər. Kiçik qruplarda birləşən şagirdlər dərslikdəki tapşırıqları (Şeirin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab hazırlayın; Əsərin bədii gözəlliyini, fikrin təsir gücünü artıran vasitələri və onların rolunu aydınlaşdırın və s.) ardıcıl olaraq yerinə yetirirlər. Müqayisə ilə bağlı olan beşinci suala aid cədvəldə əsərləri hansı cəhətlərə (əsaslara) görə müqayisə etməyin lazım olduğu qeyd edilmişdir. Müəllim həmin cəhətləri artıra bilər. Ümumiyyətlə, tapşırıqdakı bütün tələblərlə bağlı şagirdlərin əvvəlcədən təlimatlandırılması vacibdir. Bu, tədqiqatın və sonrakı mərhələlərdə aparılan işin səmərəliliyində əhəmiyyətli rol oynayır.

Tədqiqatın aparılması üçün ayrılmış vaxt başa çatdıqdan sonra qruplararası **məlumat mübadiləsi və müzakirəsi** aparılır. Təqdimatlar diqqətlə dinlənilir, suallar vasitəsilə dəqiqləşdirmələr aparılır. Müzakirə isə "Çinar" şeirinin ideya-məzmunu, bədii xüsusiyyətləri üzrə qazanılmış biliklərin cilalanmasına imkan verir.

Şagirdlər hər iki əsərin eyni mövzuda yazıldığını, məzmunları arasındakı yaxınlığı (çinarın əyilməzliyi, vüqarlı, məğrur olması) nümunələr əsasında izah edirlər. Eləcə də hər iki əsərin aydın, anlaşıqlı dildə yazılması, maraqlı qafiyə sisteminə malik olmaları onların oxşar cəhətləri kimi qeyd edilir.

Müqayisə edilən əsərlərin fərqli cəhətləri üzərində dayanılır. Qeyd edilir ki, "Çinar ömrü" şeirində insan ömrü ilə çinar ömrü arasında yaxınlığın olması arzusu, insan taleyi kimi mətləblər şairi daha çox düşündürmüşdür. "Çinar"dan fərqli olaraq, bu əsərdə toxunulan mətləblər daha çoxdur.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müzakirə zamanı söylənilən fikirlərin vahid ideya şəklinə salınması, son nəticənin çıxarılması diqqət mərkəzində saxlanılır. Müəllimin istiqamətləndirici suallardan istifadə etməsi şagirdlərin yüksək fəallığına səbəb olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, şair hər iki əsərində təbiətlə, onun möcüzəsi olan çinarla bağlı müşahidələrini, düşüncələrini insanla, insan ömrü ilə əlaqələndirir. İnsanı çinardakı əyilməzlikdən, torpağa bağlılıqdan nümunə götürməyə səsləyir. Şair belə bir həqiqəti diqqətə çatdırır ki, hər cür çətinliyə sinə gərən, kökü ilə torpağa bağlı olan çinar kimi insan da mərd, məğrur, soykökünə, xalqına bağlı olmalıdır.

Hər iki şeirdə bədii təsvir və ifadə vasitələrindən məharətlə istifadə edilmişdir.

Çıxarılmış nəticələr fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İsmayıl Şıxlı. "Namərd gülləsi"** – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırır. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür; İ.Şıxlının 95 illiyi ilə əlaqədar internetdə yerləşdirilmiş videomaterialdan (https://www.youtube.com/watch?v=plZiGtO2IZ8) bir parçanın nümayiş etdirilməsi və müzakirəsi, hekayədən kiçik epizodun oxunması (Niftalı koxanın Mürşüdlə qarşılaşması), əsərə çəkilmiş illüstrasiya üzrə müsahibə və s. Vaxta qənaət baxımından dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında yığcam müsahibənin aparılması faydalıdır.

***Tədqiqat sualı:*** "Əsli-kökü olmayandan arxa çıxmaz" fikrini doğru saymaq olarmı?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Hekayənin məzmununun öyrənilməsinə oxu növlərindən birinin tətbiqi ilə başlanılır. Oxunun hansı formada reallaşdırılmasından asılı olmayaraq, tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinə diqqət yetirilir. Oxu ilə bağlı ilkin təəssüratlarını bölüşmək üçün şagirdlərə imkan yaradılır. Məhz bundan sonra mətnkənarı suallara cütlük şəklində cavab hazırlanır. Bunun həyata keçirilməsi növbəti tapşırığın (əsərlə bağlı təəssüratların ikihissəli gündəlikdə qeyd edilməsi) səmərəli icrasına səbəb olur. Sonrakı tapşırığın (məcazların növünün dəqiqləşdirilməsi) fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Şagirdlərə kiçik qruplarda birləşərək icra etdikləri bütün işləri müzakirə edib dəqiqləşdirməyi təklif edən müəllim ümumiləşdirmə aparılmasına, nəticələrin təqdimat şəklinə salınmasına nail olur. Dərsin **məlumat mübadiləsi və müzakirə mərhələsi** qruplararası təqdimatların dinlənilməsi ilə başlanır. Təqdimatların fəal dinlənilməsinə, qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına şərait yaradılır. Müzakirənin diskussiya səciyyəli olması, şagirdlərin dialoji nitq bacarıqlarını nümayiş etdirmələri diqqət mərkəzində saxlanılır. Müəllim qrup sözçülərindən başqa, digər üzvlərin də öz əlavə və qeydlərini çatdırmalarını təmin edir.

Aparılmış işlərə söylənmiş fikirlərin əsasında nəticə məzmunlu yekun vurulur.

Hekayənin məzmunu bütövlükdə öyrənilmədiyindən, nəticə, ümumiləşdirmə mərhələsinin tələbləri tam halda ikinci dərsdə reallaşdırılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İsmayıl Şıxlı. "Namərd gülləsi"** – 3 saat
*İkinci saat*: **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.3.** | • Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yaradıcı nağıl edir. |
| **1.1.4.** | • Hekayə janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Hekayənin evdə oxunmuş parçasının məzmununun və tanış olmayan sözlərin mənasının hansı səviyyədə qavranıldığı yığcam müsahibə, yaxud təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Bütün hallarda müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Tədqiqatın aparılması.** Şagirdlərə evdə oxuduqları parçanı bir daha nəzərdən keçirmək, məzmununa aid suallar tərtib etmək və onlara cavab hazırlamaq təklif edilir. Bunun üçün cütlük şəklində iş formasının tətbiqi tövsiyə olunur. Növbəti iki tapşırığın (bədii təsvir və ifadə vasitələrinin növünün dəqiqləşdirilməsi, əsərin hekayə janrında olduğunun əsaslandırılması) fərdi olaraq yerinə yetirilməsi daha məqsədəuyğundur. Kiçik qruplarda fəaliyyətlərini davam etdirən şagirdlər yerinə yetirdikləri bütün işlərin nəticəsini müzakirə edib dəqiqləşdirir və ümumiləşdirmə aparırlar. Bu, qrup təqdimatlarının hazırlanmasına əhəmiyyətli dərəcədə təsir edir.

**Məlumat mübadiləsi, müzakirə.** Qrup işlərinin nəticələri təqdimatlar əsasında açıqlanır. Bütün qrupların eyni sualların üzərində işləməsi **məlumat mübadiləsinin müzakirə** ilə qovuşmasına səbəb olur. Müzakirənin səmərəli keçməsi üçün çıxışların diqqətlə dinlənilməsinə, mülahizə və hökmlərin əsaslandırılmasına diqqət yetirilir, sual vermək istəyənlərə şərait yaradılır. Hekayənin məzmunu üzrə qazanılmış təsəvvürün tamlığına nail olmaq üçün müəllim müzakirə prosesində istiqamətləndirici suallardan istifadə edir. Dərslikdə təklif edilmiş tapşırıq (bir hissənin yaradıcı nağıledilməsi) tədqiqatın məntiqi davamı kimi reallaşdırılır.

Əsərin məzmunu üzrə mənimsənilmiş biliklərin ümumi məcraya gətirilməsi **nəticənin çıxarılması, ümumiləşdirmə aparılması** mərhələsində ön plana çəkilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Mürşüdün ona edilən yaxşılığı tez unutması, ailə qədri bilməməsi, nəhayət, Niftalı koxanı qətlə yetirməklə namərd

addım atması təsadüfi deyildir. Keçmişi, kimliyi, əsli-nəcabəti bilinməyən, "haradansa azıb gələn" Mürşüd əsl simasını büruzə verir, ona yardım etmiş insanın qatilinə çevrilir. Bu, nə vaxtsa, baş verməli idi; nəcibliyin və xeyirxahlığın hökm sürdüyü mühitdən kənarda formalaşan adamın belə addım atması gözlənilləndir.

Çıxarılmış nəticənin tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **İsmayıl Şıxlı. "Namərd gülləsi"** – 3 saat
## *Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə hekayənin qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.3.** | • Hekayənin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.1.** | • Hekayə ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.1.2.** | • Hekayənin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollardan istifadə etmək mümkündür. Bunlardan biri dərslikdəki "Düşünün" başlıqlı sual *("Namərdə yaxa verme, mərdə arxa ol" atalar sözündə ifadə edilmiş fikri necə başa düşürsünüz?)* əsasında yığcam müzakirənin aparılması ola bilər.

***Tədqiqat sualı:*** "Mərd mərdi qanar, bərkdə oduna yanar" atalar sözündə ifadə olunmuş fikirlə "Namərd gülləsi" hekayəsinin ideya-məzmunu arasında səsləşmə varmı?

Şagird fərziyyələri dinlənilir və lövhədə qeyd olunur. Bu fərziyyələrin yoxlanılması üçün araşdırmaların aparılmasının vacib olduğu xatırladılır.

**Tədqiqatın aparılması.** Bunu fərqli təlim metodlarının, iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Diskussiya, debat, problemin həlli və s. bu qəbildəndir.

Bütün hallarda dərslikdəki “Əsərin təhlilinə hazırlaşın” mətninə və “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığına müraciət edilməsi məqsədəuyğundur.

Şagirdlər əvvəlcə müəllimin təklifinə əsasən “Əsərin təhlilinə hazırlaşın” mətni ilə tanış olurlar. Mətnin müstəqil oxusunu təşkil edən müəllim müsahibə vasitəsi ilə mənimsəmənin dərinləşməsinə nail ola bilər.

“Araşdırın. Fikirləşin. Cavab verin” başlıqlı tapşırığın sualları əsasında hazırlanmış iş vərəqləri (hər qrupa bir sual ayırmaqla) qruplara təqdim edilir. Hekayə ilə əlaqədar müxtəlif alimlərin fikirlərindən nümunələrin iş vərəqlərinə əlavə edilməsi faydalıdır. Bu, şagirdlərdə öz fikirlərini əsaslandırarkən əlavə materiallardan istifadə etmək bacarığının formalaşdırılması baxımından çox əhəmiyyətlidir. Tədqiqat prosesində həmin parçalardan mənbə kimi istifadə edən şagirdlər müzakirədə onlardan sitatlar gətirirlər.

Tədqiqat başlanmazdan əvvəl təlimatlandırma işinin aparılması faydalıdır. Məsələn, hekayədə obrazların düşüncələrinə geniş yer verilmişdir. Diqqətin bu cəhətə çəkilməsi ədəbi qəhrəmanların başa düşülməsində, hərtərəfli səciyyələndirilməsində az rol oynamır. Tapşırıqda obrazların təhlilinə, konfliktin müəyyənləşdirilməsinə xüsusi önəm verilmişdir. Bu, müəllif mövqeyinin, əsərin ideya-məzmununun qavranılmasında ciddi əhəmiyyət kəsb edir. Hekayədə iki dünyagörüşü, iki həyat mövqeyi qarşı-qarşıya qoyulur. Konfliktin bir tərəfində Niftalı koxa, Kərəm, digərində Mürşüd durur. Niftalı koxanın atası dilənçi kökündə qapısına pənah gətirmiş Mürşüdə arxa, dayaq olur. Niftalı koxa milli xarakteri təcəssüm etdirən surətdir. Onun ailəsində bütövlük, bir-birinə dayaq durmaq ruhu hakimdir. Məhz belə bir mühitdə boya-başa çatan Niftalı koxa ailəsinin, el-obanın təəssübünü çəkir. Odur ki yoxsulluğun daşını atmış, yavaş-yavaş əlinə pul gəlmiş Mürşüdün öz ailəsini incitdiyini eşidəndə dözmür, onu düz yola qaytarmağa cəhd edir. Mürşüd ona kobud cavab verəndə də bu nanəcibliyin qarşısında Niftalı koxa soyuqqanlılıq göstərir, ağsaqqal nümunəsi göstərir.

Elinə, obasına, doğma yurda məhəbbəti Niftalı koxanın həyatının son anında daha qabarıq nəzərə çarpır. O, son dəfə ana Kürə, Ceyrançöl düzənliyinə, sahil boyu uzanan Qarayazı meşələrinə, kənd evlərinə, biçənəklərə, kövşənlərə, dərz tayalarına, mal-qara haylayan uşaqlara diqqətlə baxır, ona əziz olan hər şeylə vidalaşır...

Lakin zaman dəyişir, cəmiyyətdə mərdlik, kişilik qanunları sınağa çəkilir. Artıq cəmiyyətin müqavimətindən, etirazından çəkinməyən Mürşüdlər namərdlik toxumu səpirlər. Mürşüdin Niftalı koxaya namərdcəsinə güllə atması heç bir insanlıq ölçülərinə sığmır.

Kərəm surəti də milli mənəvi dəyərlərə münasibət müstəvisində təhlil olunmalıdır. Həyat, hadisələrin gedişi bir vaxtlar dost olmuş, uşaqlıq illərini bir yerdə keçirmiş Niftalı koxa ilə Kərəmi düşmənə çevirmişdir. Lakin həyatda bir-birinə əks mövqedə dursalar da, hər ikisi mərdlik, kişilik qanunları ilə yaşayır. Kərəmin Niftalı koxanın harayına yetişməsi, ona kömək etmək arzusu, Niftalının mərd gülləsi ilə ölmək istəyi məhz bu dəyərlərə bağlılıqdan irəli gəlir.

Əsərdəki konfliktin mayasında xalqın formalaşmış, zamanın sınaqlarından çıxmış mərdlik qanunlarından uzaqlaşmaq meyilləri və bu cəhdlərə etiraz, müqavimət durur.

Yaxud altıncı tapşırığın üzərində işləyən şagirdlərə *süjet*, *kompozisiya* anlayışları barədəki biliklərinin xatırladılması, icra edəcəkləri işin başlıca istiqamətinin izah edilməsi məqsədəuyğundur.

**Məlumat mübadiləsi və müzakirəsi.** Məlumat mübadiləsi qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına imkan yaratmalıdır. Bunun üçün təqdimatların dolğun məzmuna malik olması, fəal dinləmənin təmin edilməsi vacib şərtdir. Müzakirədə şagirdlərin fəallıq və müstəqilliyinin təmin edilməsi, mülahizələrini nümunələrlə əsaslandırmaları da ciddi tələb kimi gözlənilməlidir. Müzakirədə, həmçinin cavabların əlaqələndirilməsi, təkrarların aradan qaldırılması, ümumiləşdirmə və sistemə salınma ön plana çəkilməlidir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Əvvəlki mərhələlərdə aparılan işin səmərəli təşkili, müəllimin istiqamətləndirici sualları nəticənin çıxarılmasında, ümumiləşdirmənin aparılmasında şagirdlərin fəallığına imkan yaradır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, soykökünə bağlılıq, mənəvi dəyərlərə, xalqımızın yaddaşında yaşayan mərdlik qanunlarına tapınmaq şər işlərdən, hər cür pislikdən uzaq olmağın ən etibarlı təminatçısıdır. Niftalı koxa və qaçaq Kərəmin düşmənçiliyi unudub bir-birinə etibar etməsinin kökündə məhz əsrlər boyu unudulmayan bu böyük dəyərlər durur. Yazıçı belə hesab edir ki, xalqımızın min illər boyu yaşatdığı mənəvi dəyərlərə namərd insanlar ləkə salmağa qadir deyil. Dəniz ləkə götürmədiyi, çirkabı özündən kənarlaşdırdığı kimi, xalq da onun əxlaqına, davranış normalarına zidd olanlara qarşı barışmazdır.

Çıxarılmış nəticənin tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İsa Hüseynov. “Zəhər”** – 4 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.3.** | • Hekayədə seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| **1.1.5** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **3.1.3.** | • Müqayisə xarakterli inşa, esse yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi, müzakirənin aparılması ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli məzmunda təşkil etmək olar. Təbiətə həsr olunmuş mahnıdan bir parçanın dinlənilməsi və ya təbiət mövzusunda sənədli filmdən fraqmentə baxış mümkündür. Variantlardan biri dərslikdəki “Yada salın” başlıqlı suallar əsasında yığcam müsahibənin aparılması ola bilər. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə nəticələnir.

***Tədqiqat sualı***: Təbiətə biganəliyin nəticəsi nə ola bilər?

Müxtəlif fərziyyələr dinlənilir, təkrara yol verilmədən lövhədə qeyd olunur.

**Tədqiqatın aparılması.** Hekayənin həcmi böyük olduğu üçün məzmununun mənimsənilməsi üzrə iş iki dərs saatında həyata keçirilir. Birinci dərs saatında hekayənin birinci parçasının oxusu və məzmunu üzrə iş təşkil edilir. Müəllim qarşıya qoyduğu məqsəddən, sinfin səviyyəsindən və s. asılı olaraq, oxu növünü müəyyənləşdirir. Dərslikdə proqnozlaşdırılmış oxunun tətbiqi tövsiyə edilmişdir. Müəllim bu oxunun tətbiqi ilə bağlı şagirdlərin qazanmış olduqları praktik bacarıqların yada salınmasına nail olur. Hər hissənin sonunda əvvəlki hissə ilə bağlı qeydlərin, eləcə də sonrakı hissə barədə ehtimalların cədvəldə yazılmasının vacib olduğu xatırlanır. İcra etdikləri bu işlə əlaqədar şagirdlərə cütlük şəklində fikir mübadiləsi aparmaq imkanı yaradılır. Bu məzmunda aparılan iş növbəti tapşırıqların (məzmuna aid sual və onlara cavabların hazırlanması, bədii təsvir və ifadə vasitələrinin növünün dəqiqləşdirilməsi) səmərəli icrasına səbəb olur. Kiçik qruplar yaradan şagirdlər yerinə yetirdikləri bütün işləri müzakirə edir, nöqsanları aradan qaldırır, ümumiləşdirmə aparmaqla təqdimata hazırlaşırlar.

**Məlumat mübadiləsi və müzakirə.** Təqdimatlar əsasında aparılan məlumat mübadiləsi qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına imkan yaratmalıdır. Müzakirədə bütün sinfin iştirakı, qrupdaxili fərqli fikirlərin, əlavələrin söylənməsi və dinlənilməsi təmin edilir.

Müzakirəyə nəticə və ümumiləşdirmə məzmunlu müsahibə və söhbətlə yekun vurulur. Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması mərhələsinin tələbləri tam halda məzmunla bağlı iş tamamlanarkən – ikinci dərs saatında həyata keçirilir.

Vaxtdan səmərəli istifadə dərslikdəki növbəti tapşırığın (üzərində iş aparılan parçadan seçilən hissənin hazırlanmış plan əsasında geniş nağıl edilməsi) icrasına imkan verir. Tapşırıq əsərin məzmununun dərindən mənimsənilməsi, şagirdlərin nitq inkişafı baxımından faydalıdır. Eyni zamanda plan tərtibi mətnin məzmununun ardıcıl və sistemli şəkildə nağıl edilməsini xeyli asanlaşdırır.

Öyrəndikləri yeni sözlərdən, bədii təsvir və ifadə vasitələrindən təqdimat və çıxışlarında şagirdlərin necə istifadə etdiklərinə xüsusi diqqət yetirilir, zəruri tövsiyələr verilir.

**Qiymətləndirmə**. Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İsa Hüseynov. “Zəhər”** – 4 saat
*İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.4.** | • Hekayə janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir. |
| **1.1.5** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Hekayənin müstəqil oxunmuş ikinci parçasının məzmununun və tanış olmayan sözlərin mənasının qavranılma səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Bütün hallarda, müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Tədqiqat** dərslikdəki tövsiyəyə uyğun olaraq davam etdirilir. Şagirdlər müstəqil oxuduqları ikinci parçanın məzmununa aid cütlük şəklində sual və onlara cavab hazırlayırlar. Bu mərhələdə mətndə tanış olmayan sözlərin mənasının dəqiqləşdirilməsi, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanır. Sonrakı iki tapşırıq da (hekayənin məzmununa uyğun müdrik sözlərin və əsərlə bağlı doğru cavabların müəyyənləşdirilməsi) cütlük şəklində yerinə yetirilir. Bu əməkdaşlıq az vaxt sərf etməklə daha dəqiq cavabların hazırlanmasına imkan yaradır. Dərslikdə təklif edilmiş növbəti üç tapşırığın (bədii təsvir və ifadə vasitələrinin növünün dəqiqləşdirilməsi, illüstrasiyaya münasibət, hekayə janrına aid xüsusiyyətlərin müəyyənləşdirilməsi) fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Bu, müəllimə şagirdlərin hər birinin fəaliyyətinin məzmunu barədə konkret təsəvvür qazanmağa imkan verir. Tapşırıqlardan biri (Epizoda aid dərslikdəki şəkli uğurlu saymaq olarmı? Nə üçün?) şagirdlərin məntiqi və obrazlı təfəkkürü barədə təsəvvürün qazanılması baxımından əhəmiyyətlidir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər icra etdikləri işlərin nəticələri barədə fikir mübadiləsi və müzakirə aparır, ümumiləşdirmə əsasında təqdimat hazırlayırlar.

Dərsin növbəti – **məlumat mübadiləsi, müzakirənin aparılması** mərhələlərində təqdimatların fəal dinlənilməsinə, fikir mübadiləsi və diskussiyanın səmərəli aparılmasına nail olunur. Hər qrupdan bir deyil, bir neçə şagirdin təqdimatetmədə iştirakı təmin edilir. Bunu icra olunmuş tapşırıqların məzmunu tələb edir; fərqli fikir söyləmək istəyən şagirdlərə mövqelərini açıqlamaq, digərlərinə isə münasibət bildirmək üçün şərait yaradılır.

Səsləndirilmiş fikirlərin ümumiləşdirilməsi, tədqiqat sualının izahına yönləndirilməsi **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində ön plana çəkilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təbiətin tamlığına, bütövlüyünə vurulan zədə nəticəsiz qalmır. İnsanların bilərəkdən və ya düşünmədən

təbiətə vurduğu yara sağalmaz olur və son nəticədə dəhşətli ziyan insanların özünə dəyir.

Çıxarılmış nəticələr fərziyyə və tədqiqat sualı ilə müqayisə olunur.

**Qiymətləndirmə**. Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## DÖRDÜNCÜ BÖLMƏ ÜZRƏ
## BİRİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Əliağa Kürçaylının "Şəhid meşə"şeiri üzrə aparıla bilər*

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Əsərin lirik növdə olduğunu əsaslandırın. Fikrinizi qısaca yazın.

2. Şeirdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirib cədvəldə qeyd edin.

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misralar | Onların növü |
|---|---|
| | |

3. Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırın. Cədvəldən istifadə edin.

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misralar | Fikrin təsir gücünün artmasında onların rolu |
|---|---|
| | |

4. Şeir hansı mövzuda yazılıb?

A) Vətən
B) Təbiət
C) Əmək
D) Qəhrəmanlıq
E) Dostluq

5. Misraların ifadəli oxusunda səsdə hansı çalar duyulmalıdır?

Ağaclar yıxıldı qollu-budaqlı,
Yuvalar dağıldı çolpalarıyla.
Çinarlı, söyüdlü, ağcaqovaqlı
Meşə yoxa çıxdı sıx qatarıyla.

A) Qorxu, çaşqınlıq
B) Fərəh, heyranlıq
C) Laqeydlik, soyuqqanlılıq
D) Kədər, təəssüf
E) Mübarizlik, çağırış

6. Şərti işarələrdən istifadə etməklə bənddə fasilələrin yerini, məntiqi vurğulu sözləri göstərin.

Hər kəndə gedəndə dinləyirəm mən
Şəhid bir meşənin şikayətini.
Özün bir şitil də əkməmisən sən,
Qoruya bilməzsən el sərvətini.

7. “Elat” sözünün mənası hansı variantda düzgün verilib?

A) Bir yurdda yaşayan el, camaat, xalq
B) Eli, camaatı idarə edən şəxs
C) Qəbilə, tayfa başçısı
D) Elin qayğısını çəkən, xeyrində-şərində iştirak edən
E) Eli düşməndən qoruyan igid

8. Şeiri İ.Hüseynovun “Zəhər” hekayəsi ilə müqayisə edin.

___________________________________________________________________________
___________________________________________________________________________
________________________________________________________________________

9. Şeirlə bağlı hansı fikir səhvdir?

A) Əsərin adında epitet işlənilib.
B) Şairin təbiətə məhəbbəti əks olunub.
C) Kürün meşəni məhv etməsi təsvir olunub.
D) Kolxoz sədrinin hərəkəti elin danlağına səbəb olur.
E) Təbiəti qorumağa çağırış öz əksini tapıb.

10. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir? Fikrinizi qısaca yazın.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

*Mövzu:* **İsa Hüseynov**. **“Zəhər”** – 4 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə hekayənin ədəbi qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.3.** | • Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına müxtəlif yollarla nail olmaq mümkündür. Bu məqsədlə dərslikdəki “Düşünün” başlıqlı sual (“Təbiət onu sevən xeyirxah insanların birgə səyi ilə qoruna bilər” fikrini doğru saymaq olarmı?) əsasında müsahibənin aparılması vaxta qənaət baxımından məqsədəuyğundur. Müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə səbəb olur.

***Tədqiqat sualı:*** Yazıçı hekayəni “Zəhər” adlandırmaqla oxucuya hansı fikri çatdırmaq istəmişdir?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması**. Tədqiqat sualının aydınlaşdırılması üçün müəllim fərqli metod, priyom, iş formalarından istifadə edə bilər. Bu zaman qarşıya qoyduğu məqsəd, resurslar, şagirdlərin hazırlıq səviyyəsi nəzərə alınmış olur.

Dərsin necə təşkilindən, hansı yolun seçilməsindən asılı olmayaraq, dərslikdəki “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığına və “Əsərin təhlilinə hazırlaşın” mətninə müraciət edilməsi məqsədəuyğundur.

Tədqiqat “Əsərin təhlilinə hazırlaşın” mətninin oxusu ilə başlanır. Yazıçının yaradıcılığı üçün səciyyəvi olan cəhətlərin, hekayənin çoxproblemli olması ilə bağlı məlumatın və s. əks olunduğu mətnin başa düşülməsi, mənimsənilməsi təhlil üzrə tapşırıqların yerinə yetirilməsinə əhəmiyyətli dərəcədə istiqamət verir. Şagirdlər hansı məsələlərə daha çox diqqət yetirməyin vacib olduğunu həmin mətndən öyrənə bilirlər.

“Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığındakı suallar iş vərəqlərində qruplara (hər qrupa bir sual ayırmaqla) təqdim olunur. Tapşırıqların mahiyyəti, məqsədi üzrə təlimatlandırma işinin aparılması vacibdir.

Müəllim şagirdlərin hazırlıq səviyyəsindən, qarşıya qoyduğu məqsəddən, reallaşdırmaq istədiyi standartlardan çıxış edərək tapşırığa yaradıcı yanaşa bilər; tapşırığa əlavələr etmək, onda ixtisarlar aparmaq mümkündür.

Qrupdaxili vəzifə bölgüsünün aparılmasına da diqqət yetirilir. Tədqiqat prosesində ehtiyac yaranan məqamlarda müəllimin suallar vasitəsi ilə şagirdlərə istiqamət verməsi vacibdir.

**Məlumat mübadiləsi və müzakirə.** İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra qrup təqdimatları dinlənilir. Təqdimat zamanı qrupun digər üzvləri də yoldaşlarının çıxışına əlavələr edə bilərlər. Çalışmaq lazımdır ki, təqdimat edənlər öz fikir və mülahizələrini əsərdən nümunələr göstərməklə əsaslandırsınlar, müzakirə zamanı digər qrup üzvlərinin verdiyi suallara əhatəli cavab versinlər.

Bu mərhələdə müzakirənin diskussiya səciyyəli olması, inandırıcı dəlillərin söylənməsi, fərqli fikirlərə obyektiv, ədalətli yanaşma təmin edilir.

**Nəticə, ümumiləşdirmə**. Müzakirə zamanı söylənmiş fikirlərin ümumiləşdirilməsi, bir ideya şəklinə salınması məqsədilə müəllim istiqamətləndirici suallardan istifadə edə bilər. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təbiətə, canlılara, ümumiyyətlə, gerçəkliyə insanın münasibəti mənəvi-əxlaqi keyfiyyətləri, həyata baxış və dünyagörüşü zəminində özünü göstərir. Mənəviyyatca zəngin, pak, xeyirxah insanlarda təbiətə, onun gözəlliklərinə məhəbbət və vurğunluq güclü olur. Məhz belə insanların birliyi təbiəti, onun gözəlliyini qorumaq üçün yetərli ola bilər. Yazıçını narahat edən digər problem mənən çürük olanların ətrafa zəhər saçmasıdır. Belələri cəmiyyət, həm də təbiət üçün təhlükəlidir. Belələri insan əzabına, iztirabına biganə olduqları kimi, təbiətə, canlılara dəyən ziyana da laqeyddirlər. Hekayədə insan mənəviyyatının təmizliyi problemi yazıçının diqqətə çatdırmaq istədiyi mühüm mətləblərdən biridir.

Nəticə və ümumiləşdirmə məqsədilə aparılan müzakirədə daha çox şagirdin iştirakına çalışmaq, mübahisəli, fərqli fikirlərə əsaslandırılmış münasibət bildirilməsinə nail olmaq lazımdır.

Çıxarılmış nəticənin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisəsinə ayrıca diqqət yetirilir.

**Qiymətləndirmə**. Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İsa Hüseynov. “Zəhər”** – 4 saat
*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.2.1.** | • Yazı ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| **3.1.1.** | • İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir. |
| **3.1.3.** | • Müqayisə xarakterli inşa, esse yazır. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimat və məruzələrin dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Mühakimə, təsvir, müqayisə xarakterli mətnlərin – inşa, esse, məruzənin məzmunu, quruluşu barədə yığcam müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə imkan yaradır.

***Tədqiqat sualı:*** Müqayisə xarakterli yazının məzmununda, başlıca olaraq, hansı məsələlərə önəm verilir?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən lövhədə qeyd olunur.

**Tədqiqatın aparılması.** Dərsin səmərəli keçməsi ona hazırlıq işinin hansı səviyyədə aparılmasından asılıdır. Müəllim dərsə bir neçə gün qalmış şagirdlərin diqqətini dərslikdəki (IV dərsdə) müzakirə və yazı üçün təklif edilmiş mövzulara cəlb edir. Həm müzakirəyə, həm də yazıya hazırlıq işlərinə başlanılır. Digər fənlərdən, müxtəlif mənbələrdən təbii fəlakətlər, onların başvermə səbəbləri, qabaqlayıcı tədbirlər haqqında məlumat toplayan şagirdlər, bu sahədə dünyada müşahidə edilən laqeydlik, yol verilən nöqsanlar barədə də təsəvvür qazanırlar. Buna nail olunması müzakirənin maraqlı keçməsinə, şagirdlərin yüksək fəallıq nümayiş etdirmələrinə səbəb olur.

İnşa və esse üçün dərslikdə təklif edilmiş mövzular müqayisə xarakterlidir. Dərslikdə müqayisə xarakterli yazı ilə bağlı verilmiş tövsiyənin hələ dərsdən əvvəl təkrar edilməsi faydalıdır.

Yazı işinin yerinə yetirilməsinə dərsdə daha çox vaxt ayrılır. Şagirdlər müəllimin təklifi ilə Meşəbəyi Mirqasım və Daşdəmir obrazlarını hansı əsaslara (cəhətlərə) görə müqayisə edəcəklərini müzakirə edirlər. Müəllim daha mühüm, əhəmiyyətli cəhətlərin müəyyənləşdirilməsinə istiqamət verir. Bu obrazlar xarakterlərinə, nitqlərinə, davranış və əməllərinə, təbiətə, canlılara münasibətlərinə, həyata baxışlarına görə kəskin şəkildə fərqlənirlər. Müqayisə üçün əsaslar məhz bu cəhətlər nəzərə alınmaqla müəyyənləşdirilir.

Esse üçün müəyyənləşdirilmiş mövzu, adında ifadə olunmasa da, müqayisə səciyyəlidir. İnsanla təbiətin bir-birini tamamlaması, bir-birinə faydalı olması, hər

ikisinin vüqarlı, səxavətli olması və s. müqayisə üçün əsaslar müəyyənləşdirilərkən nəzərdə alınmalıdır.

Yazının icrası prosesində müəllim çətinlik çəkən şagirdlərə istiqamətləndirici suallar vasitəsi ilə kömək edir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra təqdimat əsasında yazıların başlıca istiqamətləri barədə **fikir mübadiləsi və müzakirə** aparılır. Bu mərhələlərdə müqayisənin hansı əsaslar üzrə aparıldığına, müqayisə qaydalarına necə əməl edildiyinə, müqayisədən nəticə çıxarılıb-çıxarılmadığına, ümumiləşdirmənin nə cür həyata keçirildiyinə diqqət yetirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində şagirdlər yüksək fəallıq göstərirlər. Buna səbəb müqayisə, onun tətbiqi qaydaları barədə bu dərsə qədər müəyyən bilik və bacarıqlara malik olmalarıdır. Bu mərhələdə şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, müqayisə xarakterli yazıda başlıca diqqət obyektlər (müqayisə olunanlar) ayrı-ayrılıqda öyrənilərkən aşkara çıxarılmayan, yaxud sezilməyən cəhətlərin müəyyənləşdirilməsinə və mənimsənilməsinə yönəldilir. Belə yazılarda obyektlərin oxşar və fərqli cəhətlərinin eyni əsaslar üzrə müəyyən ardıcıllıqla aşkara çıxarılması, müqayisədən nəticə çıxarılması və ümumiləşdirmə aparılması mühüm yer tutur.

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Məmməd Araz. "Əsgər məktubu"** – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Şeirdə bədii ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə təşkil olunan iş fərqli məzmunda ola bilər.

Məsələn, Şəmistan Əlizamanlının ifasında "İgid əsgər, möhkəm dayan" mahnısının səsləndirilməsi (https://www.youtube. com/watch?v= aHBEss3oWf4), yaxud erməni işğalçılarına qarşı Azərbaycan ordusunun döyüşlərini əks etdirən sənədli filmlərdən fraqmentlərin nümayişi əsasında müsahibə aparmaqla tədqiqat sualını formalaşdırmaq mümkündür. Eləcə də dərslikdəki "Yada salın" başlıqlı suallar üzrə yığcam müsahibə apararaq tədqiqat sualını müəyyənləşdirmək olar.

***Tədqiqat sualı:*** Vətənin əsgər oğullarından bəhs edən şeirlərdə, başlıca olaraq, nədən danışıla bilər?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Əsərin oxusu fərqli yollarla həyata keçirilə bilər. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər ilkin təəssüratlarını bölüşürlər. Dərslikdə təklif olunmuş tapşırıqlar fərqli iş formalarının tətbiqi ilə yerinə yetirilə bilər. Sonda kiçik qrupların yaradılması, bütün tapşırıqların cavablarının dəqiqləşdirilməsi, ümumiləşdirməsi həyata keçirilir.

**Məlumatın mübadiləsi və müzakirəsi mərhələlərində** qrupların əldə etdikləri nəticələrlə tanışlıq, əsərin məzmunu ilə bağlı mənimsənilənlərin dərinləşdirilməsi və zənginləşdirilməsi niyyəti ön plana keçir. İlk növbədə, qrupların təqdimatı dinlənilir. Şagirdlər fikirlərini sərbəst ifadə etməyə, əsaslandırmağa, müzakirənin diskussiya səciyyəli olmasına, fərqli fikirlərə dözümlü münasibət nümayiş etdirməyə səy göstərməlidirlər. Əvvəlcədən hazırladığı suallardan istifadə edən müəllim şagirdlərin diqqətini şairi düşündürən məsələlərə, xüsusən onun sərhəddə Vətən torpağını qoruyan əsgər oğuldan bəhs etməsinin səbəblərinə yönəltməlidir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə kimi deyilmiş bütün fikirlər ümumiləşdirilməli, vahid ideya şəklinə salınmalıdır. Müəllimin istiqamətləndirici sualları şagirdlərdə belə bir qənaətin möhkəmlənməsinə səbəb olur ki, əsgər oğullardan bəhs edən əsərlərdə onlara vətən yolunda heç bir çətinlikdən, hətta ölümdən belə qorxmamaq, mərd, igid, cəsarətli olmaq, doğma yurdun keşiyini layiqincə çəkmək tövsiyə olunur.

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Məmməd Araz. "Əsgər məktubu"** – 3 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Müəllifin mühakimələrindən çıxış etməklə lirik qəhrəmanı səciyyələndirir. |
| **1.2.4.** | • Şeirin ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müvafiq qiymətləndirmə meyarlarına müraciət edilməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələnin təşkilində fərqli yollardan istifadə etmək olar. Məsələn, dərslikdəki "Düşünün" başlıqlı sual (*Əsgər məktubu haqqında şeir yazmaqda şairin niyyəti nə ola bilər?*) üzrə müsahibə əsasında tədqiqat sualını müəyyənləşdirmək mümkündür.

***Tədqiqat sualı*:** "Müəllif "Əsgər məktubu" şeirində torpaqlarımızın etibarlı müdafiəçilərinin parlaq obrazını yaratmışdır" fikrini doğru saymaq olarmı?

Fərziyyələri dinlənilir və qeyd olunur.

**Tədqiqatın aparılması.** Bu mərhələdə fərqli metod və iş formalarından istifadə etmək mümkündür. Lakin bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırığa müraciət edilməsi vacibdir.

"Əsərin təhlilinə hazırlaşın" mətni ilə tanışlıq şeirin yazılma səbəbi barədə şagirdlərdə təsəvvür yaradır. Vətənin müdafiəsi ilə bağlı şagirdlərin məlumatlarının aşkara çıxarılması və zənginləşdirilməsi şairi düşündürən problemin başa düşülməsinə səbəb olur.

"Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırıq iş vərəqlərində əks etdirilərək kiçik qruplara təqdim olunur. Qrupların işini izləyən müəllim, yeri gəldikcə, yönləndirici suallar vasitəsi ilə onların fəaliyyətinə istiqamət verir, hazırlanan təqdimatların məzmununa diqqət yetirir.

Tapşırığın bütün tələbləri tədqiqat sualının məğzi, mahiyyəti ilə əlaqədardır. Qruplar icra etdikləri işin tədqiqat sualının aydınlaşdırılmasında hansı rol oynadığını aydın təsəvvür etməlidirlər. Bunun üçün müəllimin tədqiqatöncəsi təlimatı, xüsusilə əhəmiyyətlidir.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində, ilk növbədə, təqdimatların dinlənilməsi əsasında fikir mübadiləsi aparılır. Çıxış edənlərə sualların verilməsinə, qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına diqqət yetirilir. Mə-

lumat mübadiləsinin səmərəli keçməsi müzakirənin canlı, diskussiya səciyyəli olmasına imkan yaradır. Birtərəfli mülahizələr, yanlış mövqelər tədricən aradan qalxır. Cavabların müqayisə edilməsi və qruplaşdırılması nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması işini asanlaşdırır.

**Nəticə, ümumiləşdirmə.** Deyilmiş bütün fikirlərin vahid ideya halına salınmasında, bütöv, bitkin cavabın hazırlanmasında müəllimin istiqamətləndirici sualları az rol oynamır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, şair Vətənin müdafiəsini, vətəndaşların qorunmasını müqəddəs vəzifə sayır. Vətənimizin toxunulmazlığının, insanlarımızın salamatlığının keşiyində dayanan əsgər oğullarımızın arzu və istəkləri, səmimi hiss və duyğuları əsərdə yüksək sənətkarlıqla əks etdirilmişdir.

Çıxarılmış nəticələr tədqiqat sualı və fərziyyələrlə müqayisə edilir.

Şagirdlərin diqqəti müzakirə üçün təqdim olunmuş mövzuya cəlb edilir. Müzakirədə sinfin fəal iştirakına şərait yaradılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məmməd Araz. “Əsgər məktubu”** – 3 saat
## *Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.2.** | • Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.2.** | • Şeirin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müvafiq qiymətləndirmə meyarlarına müraciət edilməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələnin təşkilində fərqli yollardan istifadə etmək olar. Suallardan istifadə ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim şagirdlərə tanış olduqları əsgər obrazlarını yada salmağı təklif edir. Yığcam müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı*:** Sənətkarın oxşar mövzuda yazdığı əsərlər üçün hansı cəhətlər ortaq ola bilər?

**Tədqiqatın aparılması.** Dərslikdə təklif edilmiş tapşırıqların ardıcıl yerinə yetirilməsi tədqiqat sualının aydınlaşdırılmasına imkan verir. İlk növbədə, M.Arazın

“Əsgər oğul” şeirinin oxusu təşkil edilir. Oxunun hansı formada aparılmasından asılı olmayaraq, əsərdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması həyata keçirilir. Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər şeirin məzmununa aid suallar və onlara cavab hazırlayırlar. Sualların və onlara hazırlanmış cavabların təqdimat əsasında **müzakirəsi** keçirilir. Yığcam müsahibə aparılmaqla şeirin məzmununun bütövlükdə mənimsənilməsinə nail olunur. Bu, əsərin ideyasının müəyyənləşdirilməsi üzrə kiçik qruplarda aparılan növbəti işin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir.

Müəllim istiqamətləndirici suallardan istifadə etməklə “Əsgər məktubu” və “Əsgər oğul” şeirlərinin hansı əsaslar üzrə müqayisə ediləcəyini şagirdlərin müstəqil müəyyənləşdirmələrinə nail olur. Kiçik qruplar bu əsərlərin mövzu, məzmun, ideya, problem və s. baxımından müqayisəsi üzrə işləyir. Müqayisənin nəticələrinin cədvəldə qeyd edilməsi məqsədəuyğundur. Çıxarılmış nəticələrlə bağlı təqdimat əsasında **fikir mübadiləsi və müzakirə** aparılır.

Vaxtdan səmərəli istifadə edildikdə dərslikdə ifadəli oxu ilə bağlı təklif edilmiş tapşırığın yerinə yetirilməsinə imkan yaranır. Tapşırığı fərdi icra edən şagirdlərə, ehtiyac yaranan məqamlarda istiqamət verilir. İfaların dinlənilib müqayisə edilməsi faydalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## DÖRDÜNCÜ BÖLMƏ ÜZRƏ
## İKİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Balaş Azəroğlunun "Buludlar" şeiri üzrə aparıla bilər*

**Qiymətləndirmə üçün tövsiyə olunan**
**SUAL VƏ TAPŞIRIQLAR**

1. Əsərin lirik növdə olduğunu təsdiq edən bir neçə cəhət göstərin. Cədvəldən istifadə edin.
2. Şeirdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirib cədvəldə qeyd edin.

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misralar | Onların növü |
|---|---|
| | |

3. Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırın. Cədvəldən istifadə edin.

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misralar | Fikrin təsir gücünün artmasında onların rolu |
|---|---|
| | |

4. Mövzu baxımından "Buludlar"la oxşar olan əsər hansıdır?

☐ S.Vurğun "Ananın öyüdü"
☐ S.Rüstəm "Təbrizim"
☐ C.Cabbarlı "Ana"
☐ M.Müşfiq "Həyat sevgisi"

5. Bəndin ifadəli oxusunda səsdə hansı çalar duyulmalıdır?

Gedin, o sahillər gözləyir sizi,
Yuyun göz yaşıyla, yuyun Təbrizi.
Nə düşmən ləpiri, nə də qan izi
Düşməsin bir daha ora, buludlar.

A) kədər, təəssüf
B) fərəh, heyranlıq
C) heyrət, qəzəb
D) laqeyd, soyuqqanlı
E) etiraz, çağırış

6. Şərti işarələrdən istifadə etməklə bənddə fasilələrin yerini, məntiqi vurğulu sözləri göstərin.

Deyin, qəm çəkməsin siz ona, dözsün,
Dərdə, işgəncəyə, zindana dözsün.
Axı söz veribdir, hicrana dözsün,
Tapaq bu dərdlərə çara, buludlar.

7. Şeiri S.Rüstəmin "Təbrizim" əsəri ilə müqayisə edin, Venn diaqramından istifadə edin.

8. Vəzninə, qafiyə quruluşuna əsasən şeirin janrını müəyyənləşdirin.

____________________________________________________________

____________________________________________________________

__________________________________________________________

9. Hansı fikri şeirə aid etmək olmaz?

A) Şeirdə Vətən həsrəti öz əksini tapıb.
B) Şair ikiyə bölünmüş torpağımızın birləşəcəyinə inanır.
C) Lirik qəhrəman öz taleyi ilə təbiət arasında oxşarlıq görür.
D) Əsərdə ancaq təbiətdən bəhs olunur.
E) Lirik qəhrəman pislikləri unutdurmaq üçün təbiətdən kömək umur.

10. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir? Fikrinizi qısaca yazın.

____________________________________________________________

____________________________________________________________

__________________________________________________________

*Mövzu:* **Əli Kərim. "Qaytar ana borcunu"** – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırır. |
| **1.1.5.** | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Bu məqsədlə ana mövzusunda əvvəl öyrənilmiş əsərlərdən, atalar sözlərindən, anaya həsr olunmuş mahnıdan və s. istifadə etmək olar. Vaxta qənaət baxımından dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında yığcam müsahibənin aparılması daha faydalıdır. Müsahibə tədricən tədqiqat sualının formalaşmasına imkan yaradır.

***Tədqiqat sualı:*** Ana və övlad münasibətlərinə həsr olunmuş əsərlərdə daha çox hansı fikirlər öz əksini tapır?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Əsərin oxusu üzrə işi fərqli məzmunda təşkil etmək mümkündür. İlk növbədə, şeirdən kiçik bir parçanı müəllimin nümunəvi ifadəli oxuması, yaxud bədii oxu ustasının ifasının dinləməsi məqsədəuyğundur (https://www.youtube.com/watch?v=OVuw26yyUjo).

Oxunun hansı şəkildə reallaşdırılmasından asılı olmayaraq, mətndəki tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılır. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər ilkin təəssüratlarını bölüşürlər. Növbəti tapşırığın (dərslikdə əsərdən verilmiş misralarda ifadə olunmuş fikrin aydınlaşdırılması) cütlük şəklində icra edilməsi mümkündür. Müəllimin məqsədindən asılı olaraq, sonrakı iki tapşırıq (ikihissəli gündəlik üzrə iş, təsvir və ifadə vasitələrinin növünün dəqiqləşdirilməsi) fərdi, yaxud cütlük şəklində yerinə yetirilə bilər. İkihissəli gündəlik üzrə işin təşkili ayrıca diqqət tələb edir. Şagirdlərə izah olunur ki, şeirin məzmunu ilə bağlı təəssürat, düşüncə və suallarını ikihissəli gündəlikdə əks etdirmələri vacibdir. Bu, məzmunun əhatəli öyrənilməsinə, qaranlıq mətləblərin qalmasına imkan vermir. Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər yerinə yetirdikləri bütün işlərin nəticələri ilə bağlı fikir mübadiləsi aparır, nöqsanları aradan qaldırır, dəqiqləşdirmə və ümumiləşdirməyə diqqət yetirirlər. İşin bu mərhələsində də ikihissəli gündəliklər diqqət mərkəzində saxlanılır, məzmunları arasındakı oxşarlıq və fərq aşkara çıxarılır, təqdimat üçün hazırlanır. Kiçik qruplarda bu istiqamətdə aparılan işin əhəmiyyəti böyükdür; şagirdlər səhvlərini başa düşür, əməkdaşlıq şəraitində yeni bilik və bacarıqlara yiyələnirlər. Bu şəkildə aparılan işin nəticəsində hazırlanan təqdimat məzmunca zəngin olur, üstəlik, qrup daxilində də fərqli fikirdə olanlara rast gəlinir. Buna görə də təqdimatda eyni qrupdan bir neçə nəfərin iştirakına imkan yaradılır. Bu,

**məlumat mübadiləsi və müzakirə** mərhələsində diqqət mərkəzində saxlanılan məsələlərdən olur. Fərqli fikirlərin üstündən sükutla keçilmir, onlara dialoq zəminində aydınlıq gətirilir. Yerinə yetirilmiş bütün işlərin məğzi açıqlanır, fikirlər tədqiqat sualının aydınlaşdırılmasına yönləndirilir. Cavabların əlaqələndirilməsinə, sistemə salınmasına nail olunur.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllim istiqamətləndirici suallardan istifadə etməklə şagirdlərin daha fəal olmalarına imkan yaradır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, ana-övlad münasibətlərinə həsr olunan əsərlərdə nəsihətamiz fikirlər önəmli yer tutur. Bu fikirlər müəllifin müşahidələrindən, məqsədindən asılı olaraq, fərqli məzmunda olur. Lakin bütün hallarda ana haqqı, ana zəhməti diqqət mərkəzinə çəkilir.

Fərziyyələr yenidən xatırladılır, nəticələrlə müqayisə edilir. Yekun qənaətlə tədqiqat sualının arasındakı səsləşmələrə diqqət yetirilir.

**Qiymətləndirmə**. Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Əli Kərim. “Qaytar ana borcunu”**– 3 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə şeirin qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında həyata keçirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Əsərin təhlilinə həsr olunmuş dərsin variantlarından biri aşağıdakı məzmunda ola bilər.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin diqqəti dərslikdəki “Düşünün” başlıqlı suala (Ana-övlad münasibətləri söz sənətkarlarını hansı səbəblərə görə düşündürə bilər?) cəlb olunur. Həmin sual əsasında aparılan yığcam müsahibə tədqiqat sualının formalaşması ilə nəticələnir.

***Tədqiqat sualı:*** "Böyük zaman kəsiyi kamil sənət əsərindəki nəsihətamiz fikirlərin dəyərini azalda bilməz" fikrini doğru saymaq olarmı?

Şagirdlərin irəli sürdükləri fərqli fikirlər – fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Müəllim üçün məlumat.** Tədqiqata başlamazdan əvvəl lirik şeirlərin təhlili ilə əlaqədar qazanılmış bilik və bacarıqların yada salınması, tətbiqinə istiqamət verilməsi məqsədəuyğundur. Şagirdlər müəllimin istiqamətləndirici suallarına əsasən təhlildə aşağıdakı məsələlərə diqqət yetirməyin vacib olduğunu xatırladırlar:

– Şeirin yaratdığı təəssüratın, hiss və düşüncələrin açıqlanması;

– Ana və oğul obrazlarının səciyyələndirilməsi;

– Əsərdə qaldırılan başlıca problemin müəyyənləşdirilməsi;

– Şeirin bədii təsir gücünü artıran vasitələrin (bədii təsvir və ifadə vasitələrinin və s.) rolunun aydınlaşdırılması;

– Şeirdə ifadə olunmuş başlıca fikrin – ideyanın aşkara çıxarılması.

**Tədqiqatın aparılması.** Fərziyyələrin yoxlanılmasına – tədqiqat sualının aydınlaşdırılmasına fərqli yollarla nail olmaq mümkündür. Dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırıq fərqli iş formaları tətbiq edilməklə yerinə yetirilə bilər. Dərsdə bu tapşırıqdan, eləcə də "Əsərin təhlilinə hazırlaşın" mətnindən istifadə edilməsi məqsədəuyğundur.

İlk növbədə, "Əsərin təhlilinə hazırlaşın" mətninin oxusu və məzmununun qavranılması qayğısına qalmaq lazımdır. Mətndə əsərin təhlili ilə bağlı ən zəruri istiqamət verilmiş, *inversiya* anlayışının mahiyyəti açıqlanmışdır. Müəllim həmin anlayışla əlaqədar bədii əsərlərdən əlavə nümunələr göstərə bilər. Bütün bunlar sonrakı tapşırıqların uğurla yerinə yetirilməsində əhəmiyyətli rol oynayır.

"Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığı üzrə tədqiqatın cütlük şəklində, yaxud kiçik qruplarda aparılması mümkündür. Cütlük şəklində işləyənlər fikir mübadiləsi aparmaq məqsədi ilə sonra kiçik qruplar yarada bilərlər. Bütün hallarda müəllimin tapşırıqların məqsədi, istifadə olunacaq vasitələrlə bağlı təlimatlandırma aparması faydalıdır. İşin gedişini diqqətlə izləyən müəllim zərurət yarandıqda şagirdlərə istiqamətləndirici suallarla yardım edə bilər. İkinci sual (əsərdə qaldırılan problemin müəyyənləşdirilməsi) geniş diskussiya, fikir mübadiləsi üçün zəmin yaradır.

Tapşırığın digər sualları (obrazlarının səciyyələndirilməsi, müəllif münasibətinin aydınlaşdırılması və s.) əsərdən nümunələr gətirilməsini, söylənilən fikirlərin əsaslandırılmasını tələb edir.

**Məlumat mübadiləsi** mərhələsində təqdimatların fəal dinlənilməsinə, bununla da şagirdlərin (qrupların) bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına imkan yaradılır. Birtərəfli, yanlış mülahizələrin aradan qaldırılması, cavabların əlaqələndirilməsi növbəti mərhələdə həyata keçirilir.

**Məlumatın müzakirəsi və təşkili** mərhələsində müəllim əvvəlcədən hazırladığı suallar vasitəsi ilə müzakirənin diskussiya xarakteri almasına səy göstərir. Şagirdlərin suallar verməsi, mövqelərini sərbəst açıqlaması stimullaşdırılır. Bu mərhələdə cavabların əlaqələndirilməsinə, müqayisə edilməsinə, qruplaşdırılmasına xüsusi diqqət yetirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin** aparılması mərhələsində fikirlərin ümumi ideya halında birləşdirilməsinə nail olunur. Əldə olunanların bir tam halında

təsəvvür edilməsi uğurlu nəticə kimi dəyərləndirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, kamil sənət əsəri, illər keçsə də, öz dəyərini itirmir. Belə əsərlərdə əksini tapmış ideya köhnəlmir, öz aktuallığını qoruyub saxlayır. Ana-övlad, valideyn-övlad münasibətləri barədə müxtəlif zamanlarda yazılmış əsərlərdə əksini tapmış müdrik nəsihətlər bütün zamanlar üçün əhəmiyyətli ola bilər.

Çıxarılmış nəticənin tədqiqat sualı ilə əlaqəsi, səsləşməsi, fərziyyələrlə müqayisə edilməsi diqqət mərkəzində saxlanılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Əli Kərim. "Qaytar ana borcunu"** – 3 saat
## *Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2** | • Sərbəst şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| **2.1.2.** | • Şeirin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |
| **2.2.1.** | • Müzakirələrdə şeirin mövzusuna, qoyulmuş problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

Üçüncü dərs saatının bir variantı aşağıdakı məzmunda ola bilər.

**Motivasiya, problemin qoyuluşu.** Bədii oxu ustasının ifasında şeirdən bir parça dinlənilir. İfaçının qarşısına hansı vəzifəni qoyduğu qısaca müzakirə edilir, nəticədə tədqiqat sualı müəyyənləşdirilir.

***Tədqiqat sualı:*** Şeirin ifadəli oxusunda başlıca olaraq, hansı vəzifə yerinə yetirilməlidir?

Şagirdlərin fərziyyələri dinlənilir və təkrara yol verilmədən qeyd olunur.

**Tədqiqatın aparılması** üzrə iş dərslikdə təklif edilmiş tövsiyə əsas götürülməklə təşkil oluna bilər. Müəllimin təklifi ilə şeirin birinci parçasını dəftərdə, yaxud iş vərəqində yazan şagirdlər ifaçılıq vəzifəsini – oxuda dinləyicilərə nə çatdıracaqlarını müəyyənləşdirmək üzərində düşünürlər. Bunu şagirdlər cütlük şəklində işləməklə yerinə yetirə bilərlər. Sonrakı tapşırıqların – məntiqi vurğulu sözlərin, fasilələrin yerinin, ayrı-ayrı misraların oxusunda səsin aldığı çalarların və s. müəyyənləşdirilməsi fərdi olaraq icra edilir. Kiçik qruplarda birləşən şagirdlər **fikir mübadiləsi və müzakirə** aparırlar. İfaçılıq vəzifəsinin məzmunu və formalaşdırılması ilə bağlı fikir ayrılığının çox olmasına təbii baxmaq lazımdır. Eləcə də digər məsələlərlə – məntiqi vurğulu sözlər, səsin keyfiyyəti və oxuda almalı olduğu çalarlar

və s. bağlı mübahisə yaranır. Bütün bunların diskussiya zəminində aradan qaldırılmasına səy göstərilir. İfaların dinlənilib müzakirə edilməsi, eləcə də bədii oxu ustasının ifasına münasibət bildirilməsi **nəticənin çıxarılmasına, ümumiləşdirmənin aparılmasına** imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, ifaçılıq vəzifəsi şeirin ideya-məzmunundan çıxış edilərək müəyyənləşdirilməlidir. Ana məhəbbətini, nəvaziş, qayğı və zəhmətini unudan övladın məzəmmət edilməsi şeirdə aparıcı yer tutur. İfaçılıq vəzifəsinin əsasında da elə məhz bu dayanmalıdır.

Nəticənin fərziyyə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilməlidir.

Bütün bu işlərin səmərəli təşkili dərslikdə təklif edilmiş növbəti tapşırıqların (şeirin məzmunu ilə atalar sözlərinin arasındakı səsləşmələrin müəyyənləşdirilməsi və əsaslandırılması, "Övladın valideyn qarşısında borcunu nədə görürəm?" mövzusunda müzakirənin aparılması) icrasına vaxt ayırmağa imkan verir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu*: **Anar. "Keçən ilin son gecəsi"** – 4 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.1.1.** | • Dramda tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Dramda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilmə səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdəki işi fərqli variantlarda təşkil etmək olar. Vaxta qənaət baxımından dərslikdəki "Yada salın" başlıqlı sualların əsasında yığcam müsahibə aparmaqla tədqiqat sualını müəyyənləşdirmək mümkündür.

Digər bir variant aşağıdakı məzmunda ola bilər: İnternetdən istifadə ilə (https:www.youtube. com/watch?v= huDM4z_-fFQ) "Keçən ilin son gecəsi" tamaşasından bir parça nümayiş etdirilir. Tamaşanın və mütaliənin yaratdığı təəssürat müqayisə olunur. Bu istiqamətdə aparılan müsahibə tədqiqat sualının formalaşması ilə yekunlaşır.

***Tədqiqat sualı:*** Ailədə birliyin, ailə üzvlərinin arasında mehribanlıq və səmimiyyətin hökm sürməsinə səbəb nə ola bilər?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Oxunun təşkili zamanı dram janrının xüsusiyyətləri nəzərə alınır. Bu, həm də rollar üzrə oxunun tətbiqini zəruri edir. Bu oxu şagirdlərə dramın xüsusiyyətləri haqqında biliklərini dərinləşdirmək, remarka, dialoq, monoloq,

replikaları diqqətlə müşahidə etmək imkanı yaradır. Müəllim birinci parçadakı ayrı-ayrı səhnələrin rollar üzrə oxusunu təşkil edir. Tanış olmayan sözlərin çox məhdud olması onlara oxu prosesində aydınlıq gətirməyə imkan verir. Birinci parçanın oxusuna ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərə ilkin təəssüratlarını bölüşmək imkanı yaradılır. Bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsini də bu məqamda həyata keçirmək olar. Dərslikdəki tövsiyəyə uyğun olaraq, şagirdlər əsərin onlarda yaratdığı hiss və düşüncələri ikihissəli gündəlikdə qeyd edirlər. Onlar həmçinin müstəqil aydınlaşdıra bilmədikləri məsələləri, özlərini düşündürən sualları da gündəlikdə qeyd etmək tapşırığını alırlar.

Sonrakı tapşırıq (bədii təsvir və ifadə vasitələrinin növünün dəqiqləşdirilməsi) fərdi olaraq yerinə yetirilir.

Kiçik qruplarda birləşən şagirdlər yerinə yetirdikləri bütün işlərin nəticələri barədə fikir mübadiləsi apararaq dəqiqləşdirmə imkanı qazanırlar. Bu iş qrup adından vahid təqdimatın hazırlanması ilə yekunlaşır. Təcrübə göstərir ki, yekun təqdimatdakı bəzi məqamlarla qrup daxilində razılaşmayan şagirdlər də olur. Məlumat mübadiləsi, müzakirə mərhələlərində belə şagirdlərə öz mövqelərini açıqlamaq üçün şərait yaradılmalıdır.

**Məlumat mübadiləsi və müzakirəsi.** Fəal dinləmə, qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanışlıq həyata keçirilir. Bu, müzakirənin səmərəli keçməsinə səbəb olur. Müzakirə zamanı müəllim şagirdlərin dialoji nitq bacarığının nümayişinə, fikirlərin sərbəst söylənilməsinə, müqayisəsinə, onlara əlavələrin edilməsinə, təkliflərin irəli sürülməsinə diqqət yetirir.

Aparılmış işlərə nəticə məzmunlu müsahibə ilə (nəticə və ümumiləşdirmə mərhələsinin tələbləri tam şəkildə ikinci dərsdə – məzmun üzrə iş tamamlandıqda həyata keçirilir) yekun vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu*: **Anar. "Keçən ilin son gecəsi"** – 4 saat
*İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Dramda tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.4.** | • Dram janrının xüsusiyyətlərini müəyyənləşdirir. |
| **1.1.5.** | • Dramda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilmə səviyyəsi yığcam müsahibə və müzakirə ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Tədqiqatın aparılması.** Əsərin evdə oxunmuş ikinci parçasını bir daha nəzərdən keçirən şagirdlər məzmuna aid üçdən az olmayaraq sual və onlara cavab hazırlayırlar. Bunun cütlük şəklində iş formasının tətbiqi ilə həyata keçirilməsi məqsədəuyğundur. Növbəti tapşırığın da (Həmidə xala obrazının nitqi üçün səciyyəvi olan söz və ifadələrin seçilməsi) cütlük şəklində yerinə yetirilməsi faydalıdır. Bu tapşırıq məzmunun daha dərindən mənimsənilməsi və təhlil üçün əhəmiyyətlidir. Dərslikdəki növbəti iki tapşırığın (məcazların növünün dəqiqləşdirilməsi, əsərdə dram janrına xas olan cəhətlərin müəyyənləşdirilməsi) fərdi icrasına imkan yaradılır.

Kiçik qruplarda birləşən şagirdlər yerinə yetirdikləri işlər üzrə əldə etdikləri nəticələri müzakirə edib, dəqiqləşdirmə və ümumiləşdirmə aparırlar. Bu, qrupa vahid təqdimatla çıxış etmək imkanı yaradır.

**Məlumat mübadiləsi və müzakirə** mərhələsində, ilk növbədə, qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına şərait yaradılır. Bunun üçün fəal dinləmənin, məzmunlu çıxışların təmin edilməsi vacibdir. Fərqli düşünən, qrupla razılaşmayan hər bir qrup üzvünə fikrini ifadə etmək imkanı yaradılır. Cavabların əlaqələndirilməsinə, sistemə salınmasına xüsusi diqqət yetirilir. Müəllimin istiqamətləndirici sualları vaxt itkisinin qarşısını alır, müzakirənin səmərəliliyini təmin edir. Müəllim istiqamətləndirici suallardan **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində də istifadə edir. Bu suallar, eləcə də aparılmış işlər şagirdlərdə belə bir qənaət möhkəmləndirir ki, ailədə birliyə, ailə üzvlərinin bir-biri ilə mehriban və səmimi olmasına səbəb onun möhkəm təməl üzərində qurulması, xalqımıza xas olan adət və ənənələrin gözlənilməsidir.

Çıxarılmış nəticələr fərziyyə və tədqiqat sualı ilə müqayisə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyi şagirdlərə xatırladılır.

*Mövzu*: **Anar. “Keçən ilin son gecəsi”** – 4 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə dramın qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.4.** | • Dramın mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| **2.1.1.** | • Dramla bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.2.1.** | • Dramla bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə həyata keçirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə edilməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Müəllim qarşıya qoyduğu məqsəddən, təchizat imkanından, sinfin səviyyəsindən və s. çıxış edərək motivasiyanı fərqli yollarla yarada bilər. Dərslikdəki “Düşünün” başlıqlı sual *(“Övladın ömrü valideyn ömrünün davamıdır" cümləsində ifadə olunmuş fikri necə başa düşürsünüz?)* əsasında yığcam müsahibə aparmaqla tədqiqat sualının müəyyənləşdirilməsi vaxta qənaət baxımından daha məqsədəuyğundur.

Motivasiyanın yaradılmasının digər variantı internetdəki “Keçən ilin son gecəsi” filmindən (https://www.youtube.com/watch?v=5WH0CF3wO_s) fraqmentin nümayiş etdirilməsi əsasında müsahibənin aparılması ola bilər.

***Tədqiqat sualı:*** Gənc nəsil yaşlı nəsildən nələri əxz edib yaşadır?

**Tədqiqatın aparılması.** Dramın təhlili ilə bağlı tədqiqat işini fərqli məzmunda və formada təşkil etmək mümkündür. Lakin bütün hallarda dərslikdəki “Əsərin təhlilinə hazırlaşın” mətninə və “Araşdırın. Fikirləşin. Cavab verin” başlıqlı tapşırığa müraciət edilməsi faydalıdır.

Kiçik qruplarda işin təşkilinə üstünlük verən müəllim şagirdlərin “Əsərin təhlilinə hazırlaşın” mətni ilə tanış olmaları üçün vaxt ayırır. Mətnlə tanışlıqdan sonra “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığındakı suallar iş vərəqlərində (hər qrupa bir sual ayırmaqla) qruplara təqdim edilir. Tapşırıqların icrası ilə bağlı qruplar təlimatlandırılır, tapşırıqların tələblərinə açıqlıq gətirilir, hansı metod və priyomlardan istifadənin daha faydalı olması məsələsinə toxunulur. Əsərdəki obrazların təhlili xüsusi diqqət tələb edir. Bu, əsərin ideyasının başa düşülməsi üçün vacibdir. Unutmamalıdır ki, Həmidə ana obrazının əhatəli təhlili əsərdə qaldırılan problemin, yazıçı niyyətinin açıqlanmasında və dəyərləndirilməsində əhəmiyyətli rol oynayır. Məzmunun öyrənilməsinə həsr edilən dərsdə Həmidə ana obrazının nitqi üçün səciyyəvi olan söz və ifadələrin müəyyənləşdirilməsi təhlilin səmərəliliyinə az təsir etmir. Həmidə xalanın övladlarının xarakterindəki başlıca cəhətlərin aydınlaşdırılması,

Qəzənfərin fikirlərinin çözülməsi əsərin ideya-məzmununun dərk edilməsinə imkan yaradır.

Tədqiqatın gedişini diqqətlə müşahidə edən müəllim ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallardan istifadə etməklə qruplara kömək edir.

**Məlumat mübadiləsi və müzakirə** mərhələsində qruplar birinci növbədə, bir-birinin işinin məzmunu ilə ətraflı tanış olurlar. Təqdimatlarda daha vacib məsələlər üzərində dayanılır, fikri təsdiq edən nümunələr göstərilir. Müəllimin istiqamətləndirici sualları şagirdləri tədqiqat sualını aydınlaşdırmağa yönəldir.

Deyilmiş fikirlərin əlaqələndirilməsi, sistemə salınması diqqət mərkəzinə çəkilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Söylənilənlərin vahid ideya şəklinə salınması, ümumiləşdirmənin aparılması diqqət mərkəzinə çəkilir. Şagirdlər əvvəlcədən hazırlanmış suallar vasitəsi ilə son nəticələrə istiqamətləndirilir. Onlarda belə qənaət möhkəmlənir ki, nəsillər arasında varisliyin mövcud olması həyatın davamı üçün vacib şərtdir. Məhz varislik nəsillər arasında rabitənin qorunub saxlanmasına, yaxşı nə varsa, yaşadılmasına səbəb olur. "Keçən ilin son gecəsi" əsərində yaşlı və gənc nəsil qarşılaşdırılmaqla həyat həqiqətləri əks etdirilmişdir. Bu nəsillərin arasında varisliyin, bağlılığın və ardıcıllığın qorunub saxlanmasının vacib olması fikri əsaslandırılmışdır.

Çıxarılmış nəticələrin tədqiqat sualı və fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu*: **Anar. "Keçən ilin son gecəsi"** – 4 saat
*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** | • Dramı növ və janr baxımından romanla müqayisə edir. |
| **2.1.2.** | • Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |
| **2.2.1.** | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Bilik və bacarıqların tətbiqinə, müzakirə və yaradıcı işə həsr olunan dərsi fərqli variantlarda təşkil etmək mümkündür. Belə dərslərdə debatın aparılması isə onun strukturunda dəyişikliyin baş verməsinə səbəb olur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollar seçmək mümkündür. Suallar əsasında yığcam müsahibə aparmaqla motivasiya yaratmaq və nəticədə tədqiqat sualını formalaşdırmaq olar.

***Tədqiqat sualı:*** Dərslikdə debat üçün təklif edilmiş mövzulardan biri – a) Valideyn-övlad münasibətlərindəki soyuqluğa səbəb onların həyata fərqli baxışıdır; b) İnsanların yadlaşması son dövrlərin başlıca xüsusiyyətidir – müzakirə əsasında seçilir. Debat üçün seçilmiş mövzu tədqiqat sualı kimi qəbul olunur.

Dərs **tədqiqatın aparılması** mərhələsi ilə davam etdirilir, sonrakı mərhələlər (məlumat mübadiləsi, müzakirə, nəticənin çıxarılması) debatın gedişində qovuşur. İlk növbədə, debatın keçirilmə qaydası yığcam müsahibə ilə yada salınır. Dərslikdə təklif edilmiş tövsiyə əsas götürülməklə debatın təşkili həyata keçirilir.

Sinif bir nəfərdən ibarət (çox da ola bilər) hakim seçir. Şagirdlərə artıq məlumdur ki, debatda iştirak edən tərəflər öz dəlillərinin məntiqli olduğuna məhz hakimi inandırmalıdırlar. Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər debat üçün seçilmiş sualı müzakirə edirlər. Hər qrup sualın lehinə və əleyhinə dörddən az olmayaraq dəlil müəyyənləşdirir. Dəlillərin inandırıcı, məntiqli olmasına xüsusi diqqət yetirilir. Qrup müəyyənləşdirdiyi dəlilləri müdafiə edəcəyinə əmin olmalıdır. Qruplar müəyyənləşdirdikləri dəlilləri digər qrupların dəlilləri ilə tutuşdurub, oxşar cəhətləri nəzərdən keçirirlər. Şagirdlərin mövqelərində dəyişikliyin baş verməsinə təbii baxmaq lazımdır. Suala münasibət baxımından sinif iki böyük qrupa bölünür. Müzakirə də onların arasında baş verir. Bir tərəfin (spikerin) verdiyi suala digər tərəf (spiker) cavab verir. Debatın gedişində əlavə ədəbiyyat, cədvəl, sxem, videogörüntü və s. nümayiş etdirilə bilər.

Hakim tərəflərdən birinin dəlillərinin daha əsaslı, inandırıcı olduğunu elan etməkdə sərbəstdir. Lakin o öz mövqeyini, seçimini əsaslandırmalı, tərəfləri inandırmalıdır. Belə dərslərdə müəllimin yekun sözünə ehtiyac duyulur. Yekun sözünün müsahibə üzərində qurulması şagirdlərin fəallığının təmin edilməsi baxımından faydalıdır.

Vaxtdan qənaətlə istifadə edilməsi dərslikdəki növbəti tapşırığın (növ və janr baxımından dramla romanın oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsi) yerinə yetirilməsinə imkan verir. Tapşırığa hazırlanan qısa yazılı cavabların dinlənilməsi və müzakirəsi həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39–45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Elçin. “Talvar”** – 4 saat
*Birinci saat*: **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırır. |
| **1.1.3.** | • Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür; hekayədən yığcam parçanın (xartutun parçalanması və ya Əliabbas kişinin dülgərlik alətlərini satmaq niyyəti) oxunması, YouTube-dən yazıçı Elçinlə bağlı süjetdən (https://www.youtube.com/watch?v=CaCXTREGM_8) fraqmentin nümayişi, əsərin məzmununa uyğun illüstrasiyalardan istifadə bu qəbildəndir. Eləcə də dərslikdəki “Yada salın” başlıqlı suallar əsasında yığcam müsahibə aparmaq faydalıdır.

***Tədqiqat sualı:*** Sadə zəhmət adamına həsr olunan əsərdə oxucu üçün dəyərli nə ola bilər?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Hekayənin məzmununun öyrənilməsinə oxu növlərindən birinin tətbiqi ilə başlanılır. Fasiləli oxunun tətbiqi zamanı hər parçanın oxusundan sonra fasilə edilir, məzmunla bağlı suallara cavab verilir. Hekayənin gözlənilməz başlanğıcı – yüz yaşlı xartutun qəfildən parçalanması hadisələrin gələcək inkişafı barədə şagirdlərdə müxtəlif mülahizələrin yaranmasına səbəb olur. Bu proqnozlaşdırılmış oxunun tətbiqini faydalı edir. Təcrübə göstərir ki, proqnozlaşdırılmış oxudan istifadə şagirdlərdə hadisələrin davamını öyrənməyə maraq oyadır, müstəqilliyə, fəallığa, diqqətli olmağa sövq edir.

Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinə diqqət yetirilir.

Sinifdə öyrənilməsi nəzərdə tutulmuş birinci parçanın oxusuna ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərə ilkin təəssüratlarını bölüşmək imkanı yaradılır. Bu, növbəti tapşırığın (məzmuna aid sualların və onlara cavabların hazırlanması) uğurla yerinə yetirilməsinə də əhəmiyyətli təsir edir. Tapşırıq cütlük şəklində iş formasının tətbiqi ilə icra olunur. Oxunmuş parçada müəyyənləşdirilmiş hissənin – epizodun məzmununun tərtib edilmiş plan əsasında geniş nağıl edilməsi də şagird təəssüratının zənginləşməsinə, qavramanın dərinləşməsinə səbəb olur. Dərslikdə təklif edilmiş növbəti tapşırıq (məcazların növünün dəqiqləşdirilməsi) fərdi olaraq yerinə yetirilir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər icra etdikləri bütün işlərin nəticələri ilə bağlı fikir mübadiləsi aparır, cavabları müqayisə edir, dəqiqləşdirmə və ümumiləşdirmə aparırlar. Bu, qrupun təqdimatının hazırlanmasına imkan verir.

**Məlumatın mübadiləsi və müzakirəsi** mərhələsində qruplar öz mövqelərini təqdimat əsasında açıqlayırlar. Təqdimatlar dinlənilir, suallar verilir, müzakirə aparılır. Müzakirənin diskussiya səciyyəli olmasına, şagirdlərin dialoji nitq bacarıqlarını nümayiş etdirmələrinə imkan yaradılır. Müəllim qrupun cavabını təqdim edən sözçüdən başqa, digər üzvlərin də öz əlavə və qeydlərini çatdırmalarına diqqət yetirir. Aparılmış işlərə nəticə məzmunlu müsahibə ilə (nəticə və ümumiləşdirmə mərhələsinin tələbləri tam şəkildə ikinci dərsdə – məzmun üzrə iş tamamlandıqda həyata keçirilir) yekun vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Elçin. "Talvar"** – 4 saat
*İkinci saat*: **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.4.** | • Hekayə janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Hekayədən evdə oxunmuş parçanın məzmununun, tanış olmayan sözlərin mənasının hansı səviyyədə mənimsənildiyini yığcam müsahibə, yaxud təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirmək olar. Bütün hallarda, müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Əsərin məzmununun öyrənilməsi üzrə **tədqiqat** davam etdirilir. Hekayənin ikinci parçasını bir daha nəzərdən keçirən şagirdlər cütlük şəklində məzmuna aid sual və onlara cavab hazırlayırlar. Tanış olmayan sözlərin mənasının dəqiqləşdirilməsi, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi də bu məqamda həyata keçirilir. Növbəti tapşırıqlar (ikihissəli gündəliyin hazırlanması, məcazların növünün dəqiqləşdirilməsi, əsərin janrının müəyyənləşdirilməsi) fərdi olaraq yerinə yetirilsə də, şagirdlərin, yeri gəldikcə, əməkdaşlıq etmələrinə imkan yaradılır. Müəllim ikihissəli gündəlik üzrə işin icrasına xüsusi diqqət yetirir. Şagirdlər gündəlikdə əsərlə bağlı yalnız təəssüratlarını, düşüncələrini deyil, cavab tapmaq istədikləri sualları da əks etdirirlər. Bu sualların aydınlaşdırılmasına sonrakı mərhələlərdə diqqət yetirilir. Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər yerinə yetirdikləri bütün işlərin nəticələri ilə bağlı fikir mübadiləsi və müzakirə aparırlar. Bu, onlara nöqsanları aradan qaldırmağa, dəqiqləşdirmə və ümumiləşdirmə aparmağa, qrup təqdimatı hazırlamağa imkan yaradır.

**Məlumat mübadiləsi, müzakirə.** Qrup işlərinin nəticələri təqdimatlar əsasında açıqlanır. Bütün qrupların eyni sualların üzərində işləməsi məlumat mübadiləsinin müzakirə ilə qovuşmasına səbəb olur. Müzakirənin səmərəli keçməsi üçün çıxışların diqqətlə dinlənilməsinə, mülahizə və hökmlərin əsaslandırılmasına diqqət yetirilir, sual vermək istəyənlərə şərait yaradılır. Yanlış, birtərəfli fikirlərin aradan qaldırılması, cavabların əlaqələndirilməsi və qruplaşdırılması ümumiləşdirmənin aparılmasına zəmin olur. Müzakirə prosesində diqqət cavabların tədqiqat sualı ilə səsləşməsinə, əsərin məzmununun bütövlükdə qavranılmasına istiqamətləndirilir.

Qazanılmış biliklərin ortaq məxrəcə gətirilməsi, söylənilən fikirlərin ümumi ideya şəklinə salınması **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində həyata keçirilən işlərin əsasında dayanır. Əsərin məzmununun əhatəli öyrənilməsi, sual və tapşırıqların ardıcıl yerinə yetirilməsi, müəllimin istiqamətləndirici sualları şagirdlərdə belə bir qənaətin möhkəmlənməsinə səbəb olur ki, sadə zəhmət adamının ailə münasibətlərindəki səmimilik, milli-mənəvi dəyərlərin qorunub saxlanması, xeyirxah əməllərin insan üçün həmişə vacib olmasının təsdiqi kimi mühüm məsələlərin əsərdə əksini tapması onu oxucuya sevdirən, qiymətli edən mühüm cəhətlərdir.

Çıxarılmış nəticənin tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Elçin. "Talvar"** – 4 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** | • Hekayəni janr baxımından romanla müqayisə edir. |
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə hekayənin qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.3.** | • Hekayənin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir |
| **2.1.1.** | • Hekayə ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.1.2.** | • Hekayənin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollardan istifadə etmək mümkündür. Bunlardan biri dərslikdəki "Düşünün" başlıqlı sual (*Sadə peşə adamını sevdirən, ona nüfuz qazandıran səbəblər, sizcə, nə ola bilər?*) əsasında əqli hücum metodundan istifadə ilə yığcam müzakirənin aparılmasıdır.

***Tədqiqat sualı:*** Həqiqi zəhmət adamının sevilməsinin, hörmət və nüfuz qazanmasının səbəbi nə ola bilər?

Səsləndirilən fərziyyələr lövhədə qeyd olunur. Bu fərziyyələrin yoxlanılması üçün araşdırmaların aparılmasının vacib olduğu xatırladılır.

**Tədqiqatın aparılması.** Bunu fərqli təlim metodlarının, iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Diskussiya, debat, problemin həlli və s. bu qəbildəndir. Bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına müraciət edilməsi məqsədəuyğundur.

Kiçik qruplarda iş formasını seçən müəllim şagirdlərin diqqətini, ilk növbədə, "Əsərin təhlilinə hazırlaşın" mətninə cəlb edir. Bu mətndə şagirdləri hekayənin müstəqil təhlilinə yönləndirən məsələlərə toxunulmuşdur. Mətnin müstəqil oxusunu

təşkil edən müəllim müsahibə vasitəsilə mənimsəmənin dərinləşdirilməsinə nail ola bilər.

"Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırığın sualları əsasında hazırlanmış iş vərəqləri (hər qrupa bir sual ayırmaqla) qruplara təqdim edilir. Hekayə ilə əlaqədar müxtəlif alimlərin Elçin yaradıcılığı ilə bağlı fikirlərindən nümunələrin iş vərəqlərinə əlavə edilməsi faydalıdır. Bu, şagirdlərdə öz fikirlərini əsaslandırarkən əlavə materiallardan istifadə etmək bacarığının formalaşdırılması baxımından da əhəmiyyətlidir. Tədqiqat prosesində həmin parçalardan mənbə kimi istifadə edən şagirdlər müzakirədə onlardan sitatlar gətirirlər.

Məsələn, aşağıdakı sitatların ayrı-ayrı qrupların iş vərəqlərinə əlavə edilməsi məqsədəuyğundur: "Elçin adamların xarakterindəki keçici, ötəri yox, mühüm, təyinedici cəhətləri görür, işıqlandırır və bu işıq altında da onun yaddaqalan obrazını yaradır... O öz epik əsərləri ilə Azərbaycan romanının səviyyəsinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir". (*B. Nəbiyev*)

"Elçinin dil spesifikliyi və özünəməxsusluğu bir yazıçı kimi qabarıq keyfiyyətlərindəndir. Elçinin yaradıcılığının əsas xüsusiyyətlərindən biri obrazların reallığı, dinamikliyidir". (*Y. Səmədoğlu*)

"Bu böyük yazıçının bədii təsvir vasitələri elədir ki, onun əsərlərini oxuduqda, elə bil mahir bir rəssamın fırçası ilə canlandırılmış tablolara tamaşa edirsən". (*T.Salahov*)

"Elçinin əsərləri işıqlı, nikbin hisslərlə, həyat eşqi və insana hərarətli, lirik məhəbbətlə aşılanmışdır... O, insanı daxildən, psixoloji aləminin mürəkkəbliyi ilə təsvir edir, rənglərin zənginliyinə fikir verir". (*M. İbrahimov*)

Qrupların təlimatlandırılması məqsədəuyğundur. Tapşırıqların məzmunundan asılı olaraq, bu, fərqli məzmunda ola bilər.

**Məlumat mübadiləsi və müzakirəsi.** Qruplar tədqiqatın nəticəsi olaraq, öz cavab variantlarını, əldə etdikləri nəticələri təqdim edirlər. Məlumat mübadiləsi prosesində hər qrup araşdırmasının nəticəsi barədə digər qruplarda dolğun təsəvvür yaradır. Qrupun sözçüsünün çıxışı ilə əlaqədar digər qrup üzvlərinin suallarla müraciət etməsi, fərqli fikirlərin, mübahisəli məqamların olması, nəticə etibarilə məlumat mübadiləsi mərhələsinin müzakirə ilə qovuşması təqdir olunmalıdır.

Müzakirə prosesinin özündəcə müxtəlif təlim metod və priyomlarından (əqli hücum, müqayisə, şaxələndirmə və s.), cədvəllərdən istifadə məqsədəuyğundur. Məsələn, Əliabbas kişi obrazını səciyyələndirən şagirdlər həm əsərdən – müəllifin və digər obrazların mülahizələrindən, həm də öz həyat təcrübələrindən, müşahidələrindən çıxış etməlidirlər. Bu baxımdan, müqayisə və diskussiyadan istifadə yerinə düşür. Əliabbas kişi ilə cavan ustanın qarşılaşdırılması onların həyata baxışı arasındakı fərqin aşkara çıxarılmasına səbəb olur, bu isə müəllif mövqeyinin aydınlaşdırılmasına imkan verir. Müzakirənin diskussiya məzmunlu olması üçün – Sizcə, kim haqlıdır, Əliabbas kişi, yoxsa cavan usta? Nə üçün? – tipli suallardan istifadə edilir.

Müzakirə zamanı müəllim bütün şagirdlərin fəallıq göstərməsinə, öz mülahizələrini, qənaətlərini əsaslandırmalarına diqqət yetirir. Fikirlərini əsaslandırarkən şagirdlərin bədii mətndən nümunələr gətirmələrinə, sitatlardan istifadə etmələrinə, şəxsi təcrübə və həyati müşahidələrinə müraciət etmələrinə diqqət yetirilir. Müzakirə prosesinə nəzarət təlim nailiyyətlərinin dəyərləndirilməsi baxımından

əhəmiyyətli olduğundan müəllimin formativ qiymətləndirmə kitabçasında müvafiq qeydlər aparması məqsədəuyğundur.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Bu, həyata keçirilmiş bütün işlərin əsasında ümumiləşdirmənin aparılması, deyilmiş fikirlərin vahid ideya halına salınması mərhələsidir. Bu mərhələdə müəllimin istiqamətləndirici sualları da əhəmiyyətli rol oynayır.

Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, peşəsini sevən, mahir sənətkar olan Əliabbas kişi xeyirxahlığı, ləyaqəti, əməksevərliyi ilə insanların dərin rəğbətini qazanmışdır. Ustanın ailəsi – övladları, nəvələri də ona xas olan ləyaqət, saflıq, əməksevərlik, təvazökarlıq, ailəcanlılıq kimi keyfiyyətləri mənimsəmişlər.

Yazıçı təsvir olunan hadisənin həyatiliyini, obrazların özünəməxsusluğunu əks etdirmək üçün dilimizin zəngin imkanlarından, bədii təsvir və ifadə vasitələrindən sənətkarlıqla istifadə etmiş, maraqlı süjetə, bitkin kompozisiyaya malik sənət əsəri yaratmağa nail olmuşdur.

Çıxarılmış başlıca nəticənin şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsinə, tədqiqat sualı ilə necə səsləşməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Elçin. "Talvar"** – 4 saat
*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.2.** | • Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| **1.1.5.** | • Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **1.2.3.** | • Əsərin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Əsərin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.2.** | • Əsərin mövzusuna müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərə əmək mövzusunda oxuduqları əsərləri xatırlatmaq təklif olunur. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı*:** Müxtəlif sənətkarların əmək mövzusunda yazdıqları əsərlərdə hansı oxşar cəhətlər ola bilər?

Şagirdlərin fərziyyələri dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması.** Dərslikdə "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlığı altında verilmiş tapşırıqlarda əsərin məzmununun mənimsənilməsi, təhlili, müqayisə, ifadəli oxu və s. üzrə bacarıqların tətbiqi nəzərdə tutulmuşdur.

Tədqiqat H.Arifin "Fəhlə əli" şeirinin oxusu ilə (bu, fərqli formalarda təşkil oluna bilər) başlanır. Oxu prosesində tanış olmayan sözlərin mənası aydınlaşdırılır, bədii təsvir və ifadə vasitələri müəyyənləşdirilir.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda birləşərək əsərin məzmununa aid suallar tərtib edir, onlara cavab hazırlayırlar. Bu prosesdə cavabların dəqiqləşdirilməsi, ümumiləşdirilməsi, məcazların rolunun aydınlaşdırılması diqqət mərkəzində saxlanılır. Təqdimatlar əsasında **fikir mübadiləsi, müzakirənin aparılması** məzmunla bağlı mənimsənilənlərin zənginləşməsinə və tam, bütöv şəklə düşməsinə imkan yaradır, eləcə də əsərin ideyasının müəyyənləşdirilməsi işini asanlaşdırır. Bu, kiçik qruplarda reallaşdırılır. Bütün bunlar "Talvar" hekayəsinin H.Arifin "Fəhlə əli" şeiri ilə mövzu, janr, ideya və s. baxımından müqayisə edilməsinə imkan yaradır. Qruplar tədqiqatlarının nəticələrini müqayisə cədvəlində əks etdirirlər.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində hər iki əsərlə bağlı söylənilən fikirlər yekunlaşdırılır. Şagirdlərdə belə bir qənaət yaranır ki, hansı ədəbi növə aidliyindən asılı olmayaraq, əmək mövzusunda yazılmış əsərləri birləşdirən cəhətlər çox olur. Bu, yazarlarımızın xalqımıza xas olan mənəvi dəyərlərə bağlılığından, halal əməyə, zəhmət adamına ehtiramından irəli gəlir. Bu əsərlər ədəbi

növ, janr baxımından fərqlənsə də, məzmununa, bədii xüsusiyyətlərinə, ideyalarına görə bir-biri ilə yaxından səsləşir.

Çıxarılmış nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisəsinə vaxt ayrılır.

Dərsdə "Talvar" hekayəsindən kiçik parçanın ifadəli oxusu üzrə iş aparılır. Əsərin ideya-məzmununu dərindən mənimsəyən şagirdlər seçilmiş parçanın oxusu üçün ifaçılıq vəzifəsini, səsin çalarlarını müəyyənləşdirirlər. Şərti işarələrdən istifadə olunmasına diqqət yetirilir.

Bir neçə ifa dinlənilib müzakirə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## SİNİFDƏNXARİC OXU DƏRSİ

**Həyat həqiqətləri bədii ədəbiyyatda –** 1 saat
**İsi Məlikzadənin "Talisman" hekayəsi üzrə**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə hekayənin qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.4.** | • Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1** | • Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Sinifdənxaric oxu dərsi şagirdlərin "Milli özünəqayıdış dövründə ədəbiyyat (1961–1990)" bölməsi üzrə müstəqil oxuduqları əsər – İ.Məlikzadənin "Talisman" hekayəsi əsasında keçilir.

Hekayənin müstəqil oxusu dərsdən əvvəl həyata keçirilir. Dərsə hazırlıq dövründə şagirdlər İ.Məlikzadənin yaradıcılığı haqqında yığcam təqdimat hazırlayır, fənn kabinetində, yaxud sinif otağında əsərlərindən ibarət sərgi təşkil edirlər.

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin əvvəlində İsi Məlikzadənin "Kişi sözü" (https://www.youtube.com/watch?v=UfqNZ0B7Fdc), "Gümüşgöl əfsanəsi"

(https://www.youtube. com/watch?v =I6dAPKRl-MI) əsərləri əsasında çəkilmiş filmlərdən fraqmentlər nümayiş etdirilir, yığcam müsahibə aparılır. Bu, tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

Motivasiyanın digər variantı sənətkarla bağlı təşkil edilmiş guşəyə baxış və şagirdlərin təqdimatlarının dinlənilməsi ola bilər. Təqdimatlar üzrə müzakirə tədqiqat sualının müəyyənləşdirilməsinə imkan yaradır.

***Tədqiqat sualı:*** "Talisman" hekayəsində xalqımıza xas olan hansı mənəvi dəyərlər öz əksini tapıb?

Şagirdlərin fərziyyələri dinlənilir və lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Kiçik qruplar onlara təqdim edilmiş iş vərəqləri əsasında araşdırma aparırlar.

**I qrup**

– Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla Ağarəhim obrazını səciyyələndirin.
– Maşının əzilməsinə görə pul almaqdan imtina etməyə Ağarəhimi nə vadar etdi? Fikrinizi əsaslandırın.
– "Sonra oturacaqda Ağarəhimin gözlərinə bir şey sataşdı. Götürüb baxdı: qıvrımsaç qızın gülməli gəlinciyi idi. Ağarəhim gülümsədi. "Bu da mənim talismanım", – dedi və hiss elədi ki, bayaq canını yandırıb-yaxan ağrıdan, göynərtidən əsərəlamət qalmayıb" – Bu sözlər Ağarəhim obrazını necə səciyyələndirir?

**II qrup**

– Davranış və əməllərinə əsaslanmaqla Binnət obrazını səciyyələndirin.
– Müəllifin və digər obrazların Binnətə münasibətini aydınlaşdırın.
– Əjdərin xarakterindəki başlıca cəhətlər hansılardır? Yazıçının ona münasibətini aydınlaşdırın.

**III qrup**

– Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla Əfəndi obrazını səciyyələndirin. Fikrinizi nümunələrlə əsaslandırın.
– Əfəndinin davranış və əməllərinə əsaslanaraq xarakterindəki başlıca cəhətləri müəyyənləşdirin.
– "Əfəndinin gözlərindən nur tökülürdü və Ağarəhimin ürəyini işıqla, ümidlə dolduran da, deyəsən, elə bu nur idi" – Ağarəhimin bu düşüncələri onun haqqındakı təsəvvürünüzə nə əlavə etdi.

**IV qrup**

– Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ana obrazını səciyyələndirin.

– Ananın övladları barədə dedikləri onun haqqındakı təsəvvürünüzə nə əlavə etdi?
– Ananın danışığı – nitqi üçün hansı cəhətləri daha səciyyəvi hesab edirsiniz?
İstiqamətləndirici suallardan istifadə edən müəllim tədqiqat prosesində şagirdlərin daha səmərəli işləməsinə nail olur.

**Məlumat mübadiləsi və müzakirə** mərhələsində təqdimatların fəal dinlənilməsi təmin olunur. Bu, müzakirənin səmərəli keçməsinə əhəmiyyətli dərəcədə təsir edir. Müzakirədə aşağıdakı suallardan da istifadə edilməsi məqsədəuyğundur:
– Hekayədə xalqımıza xas olan hansı mənəvi dəyərlər əks olunub?
– Əsərdə yazıçının başlıca niyyəti, sizcə, nədir?
– Bu əsərin müasir oxucu üçün əhəmiyyətini nədə görürsünüz?

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində də müəllimin əvvəlcədən hazırladığı suallardan istifadə etməsi faydalıdır. Bu, həmin mərhələdə vaxta qənaət, əsaslandırılmış nəticənin çıxarılması baxımından əhəmiyyətlidir.

Qeyd edilir ki, əsərdə yazıçı həyat həqiqətini – müasir insanın həyatını, gündəlik qayğılarını, zahirən sadə görünən hadisələrin axarında özünü dərk etməsini əks etdirir. Əsərin qəhrəmanı Ağarəhim öz daxili mənəvi aləmi, hiss və düşüncələri ilə təsvir olunur. Kənddə ailənin mürəkkəb həyat şəraiti, çətinlikləri, eləcə də ailə üzvlərinin bir-birinə münasibəti kənar müşahidəçi təsiri bağışlayan Ağarəhimdəki soyuqluğu, yadlığı aradan qaldırır, kənddə keçirdiyi az vaxt ərzində onun dünyagörüşündə, insanlara yanaşmasında bir dönüş yaranır. Bu, əslində, xalqımıza xas olan mərhəmət, xeyirxahlıq, nəciblik kimi keyfiyyətlərin üzə çıxması, lazım olan anda özünü göstərməsidir.

Nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

Sinifdənxaric oxu dərslərində formativ qiymətləndirmə təlim nəticələrinə müvafiq meyarlar əsasında aparılır.

**Ev tapşırığını** müəyyənləşdirməkdə müəllim sərbəstdir. Bu zaman şagirdlərin maraq və imkanları nəzərə alınır.

## DÖRDÜNCÜ BÖLMƏ ÜZRƏ
## ÜÇÜNCÜ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Sabir Rüstəmxanlının "Sağ ol, ana dilim!" şeiri üzrə aparıla bilər*

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Əsərlə bağlı hansı fikir səhvdir?

A) Dilimizin gələcəyindən bədbinliklə söz açılır.
B) Dilin xalqın tarixini yaşatması fikri irəli sürülür.
C) Dilimizin ikiyə bölünmüş Vətəni birləşdirdiyi göstərilir.
D) Ana dili tərənnüm edilir.
E) Şairin vətənpərvərlik hissləri öz əksini tapıb.

2. "Dəllal" sözünün əsərdəki mənası hansı sırada düzgün verilmişdir?

A) Faktları təhrif edən, saxta tarix yazan
B) Hər hansı bir şeyi sübut etmək üçün əsas
C) Alverdə alanla satan arasında vasitəçilik edən şəxs
D) Vasitəçilik üçün alınan haqq
E) Dəlil, sübut gətirən şəxs

3. Şeirin son bəndindəki həmqafiyə sözləri müəyyənləşdirin. Onların uğurlu olub-olmadıqlarını qısaca yazın.

____________________________________________________________
____________________________________________________________
__________________________________________________________

4. Şeirdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin, fikrin təsir gücünün artmasında onların rolunu izah edin.

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misralar | Növü | Fikrin təsir gücünün artmasında rolu |
|---|---|---|
| Yollarım sınandı yad ölkələrdə,<br>Neçə yad dodaqda səsləndi adım. | | |
| Köməksiz qoymadın, yalqız qoymadın. | | |
| Deyin, qoy dinləsin: "Danışır Bakı!" | | |
| Döyüşdə qılınctək sıyrıldı qından,<br>Başımın üstündə bayrağım oldu. | | |
| İpək nəğmələrim gülləbatmazdı. | | |

5. Əsərin lirik növdə olduğunu nümunələrlə əsaslandırın.

6. Bənddə hansı bədii təsvir vasitəsi işlənmişdir?

Barmağım altında düymə fırlanır,
Londonla, Parislə yanaşı Bakı...
Doğma sözlər üçün darıxan hanı?
Deyin, qoy dinləsin: "Danışır Bakı!"

7. Misraların ifadəli oxusunda səsdə hansı çalar duyulmalıdır?

Sağ ol, ana dilim, ana öyüdüm,
Füzuli eşqindən divanə dilim.
Ürəyim başına nəfəs dərmədən
Fırlanıb kül olan pərvanə dilim.

A) Minnətdarlıq, qürur
B) Sevinc, fərəh
C) Heyrət, təəccüb
D) Kədər, təəssüf
E) Əzmkarlıq, etiraz

8. Şərti işarələrdən istifadə etməklə bənddə fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını göstərin.

Qapılar dalında qoydular səni,
Haqq dedin, dabandan soydular səni,
Ancaq məhv olmadın, anam, can dedim,
Ordular sarsıdan qəhrəman dilim!

9. Şeirdəki başlıca fikir – ideya, sizcə, nədir?

10. Şeirin müasir dövrümüz üçün əhəmiyyətini nədə gördüyünüzü bir neçə cümlə ilə yazın.

# III MƏRHƏLƏ

## Dövlət müstəqilliyi dövründə Azərbaycan ədəbiyyatı (1991-ci ildən günümüzə qədər)

*Mövzu:* **Qılman İlkin. "İntiqam"** – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırır. |
| **1.1.5.** | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. İnternet materiallarından istifadə edib Xocalıda düşmənin əlinə keçməmək üçün gənc ananın qeyri-adi fədakarlığından danışmaq və şagirdlərlə fikir mübadiləsi aparmaq olar (http://modern.az/articles/52620/1/). Motivasiyanın yaradılması məqsədilə dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında yığcam müsahibənin aparılması da faydalıdır.

***Tədqiqat sualı:*** Silahlı qəddar düşmənlə qarşılaşan yaralı, körpə uşaqlı ana üçün xilas yolu nə ola bilər?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Hekayənin məzmununun öyrənilməsinə oxu ilə başlanılır. Oxunun hansı növünün seçilməsindən asılı olmayaraq, tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi həyata keçirilir. Oxuya ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlər ilkin təəssüratlarını bölüşürlər. Bu, növbəti tapşırığın (ikihissəli gündəlikdə qeydlərin edilməsi) səmərəli icrasına imkan yaradır. Mətnkənarı suallara cavabların hazırlanması fərqli şəkillərdə yerinə yetirilə bilər. Dərslikdəki tövsiyə (suallara oxudan sonra cütlük şəklində cavabların hazırlanması) məktəb təcrübəsində uğurla tətbiq olunur. Suallar əsərin məzmununun əhatəli mənimsənilməsinə səbəb olduğu kimi, təhlil üçün də zəmin yaradır.

Dərslikdə təklif olunmuş sonrakı iki tapşırığın (ikihissəli gündəliyin hazırlanması, məcazların növünün dəqiqləşdirilməsi) fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər icra etdikləri bütün işlərin nəticələri ilə bağlı fikir mübadiləsi və müzakirə aparırlar. Bu, cavabların təkmilləş-

məsinə, nöqsanların aradan qaldırılmasına, ümumiləşdirmə əsasında qrup təqdimatının hazırlanmasına imkan verir. Yalnız bundan sonra qruplararası təqdimatların dinlənilməsi əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. İstər məlumat mübadiləsində, istərsə də müzakirədə şagirdlərin hər birinə öz mövqeyini açıqlamaq üçün imkan yaradılmalıdır. Təcrübə göstərir ki, eyni bir qrupun daxilində də bir sıra hallarda fikir ayrılığı mövcud olur. Belə şagirdlərin dinlənilməsinə xüsusi qayğı ilə yanaşmaq məqsədəuyğundur. Müzakirənin diskussiya səciyyəli olması, şagirdlərin öz mülahizələrini əsaslandırmaları, fərqli fikirlərə dözümlü yanaşmaları diqqət mərkəzində saxlanılır. Müzakirə boyu bələdçilik fəaliyyətini davam etdirən müəllim fərdi çıxış və dialoqların məzmunlu olmasına, bütövlükdə şagirdlərin fəaliyyətinə istiqamət verir. Onun əvvəlcədən hazırladığı suallar əsərin bir tam halında qavranılmasına, tədqiqat sualının aydınlaşdırılmasına əhəmiyyətli dərəcədə təsir edir. Müəllimin istiqamətləndirici suallarına **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində də ehtiyac duyulur. Məhz həmin suallar, bu mərhələyə qədər yerinə yetirdikləri işlər, eşidib gördükləri, şəxsi təəssüratları şagirdlərdə belə bir qənaət möhkəmləndirir ki, hekayədə təsvir olunanlar həyat həqiqətləri ilə səsləşir. Körpəsi ilə birlikdə amansız düşmən, xüsusən də erməni yaraqlısının cənginə keçən yaralı ana heç bir nicat yolu tapa bilməz. Erməni yaraqlısından mərhəmət ummaq mənasızdır. Düşmənə yalvarmağı ağlına da gətirməyən ana öz taleyi ilə barışmağa məcburdur. Özünü unudan, yaddan çıxaran yaralı ananın düşüncələrinə yalnız körpəsinin taleyi hakim kəsilir. Özünü və südəmər körpəsini labüd ölüm gözlədiyini anlayan ana var qüvvəsini toplayıb mənfur düşməndən qisas almaqla, həm də öz ləyaqətini qoruyur.

Çıxarılmış nəticənin tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Qılman İlkin. “İntiqam”** – 3 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə hekayənin qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.3.** | • Hekayənin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollardan istifadə etmək mümkündür. Bunlardan biri dərslikdəki “Düşünün” başlıqlı sual (Müharibə zamanı silahlı düşmənlə qarşılaşan yaralı ana və südəmər körpənin beynəlxalq qanunlara görə, hansı hüquqları var?) əsasında diskussiyanın aparılması ola bilər. Yaxud Qarabağ müharibəsinə həsr edilmiş filmdən kiçik bir fraqmenti nümayiş etdirməklə müsahibə təşkil etmək, nəticədə tədqiqat sualını formalaşdırmaq mümkündür.

***Tədqiqat sualı*:** Hekayəni “İntiqam” adlandırmaqda yazıçının başlıca məqsədi, sizcə, nə olmuşdur?

Səsləndirilən fərziyyələr lövhədə qeyd olunur. Bu fərziyyələrin yoxlanılması üçün araşdırmaların aparılmasının vacib olduğu xatırladılır.

**Tədqiqatın aparılması.** Bunu fərqli təlim metodlarının, iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Diskussiya, debat, problemin həlli və s. bu qəbildəndir. Bütün hallarda dərslikdəki “Əsərin təhlilinə hazırlaşın” mətninə və “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığına müraciət edilməsi məqsədəuyğundur.

Kiçik qruplarda iş formasını seçən müəllim şagirdlərin diqqətini, ilk növbədə, “Əsərin təhlilinə hazırlaşın” mətninə cəlb edir. Müstəqil oxunun nəticəsi – mətnin necə qavranıldığı yığcam müsahibə ilə aşkara çıxarıla bilər. Müsahibə prosesində mətndəki fikirlərin başa düşülməsi dərinləşdirilir.

“Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığındakı suallar (hər qrupa bir sual ayırmaqla) şagirdlərə təqdim edilir. Tapşırıqların mahiyyəti, tələbləri, istifadə olunması məqbul sayılan metod və iş formaları və s. barədə təlimatlandırma həyata keçirilir. Tapşırıqda obrazların təhlilinə xüsusi diqqət yetirilmişdir. Bu, təsadüfi deyildir. Hekayədəki obrazların təhlili ideyanın müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Xəzangül obrazı ilə bağlı suala hazırlanan cavablarda qəhrəmanın mətinliyi, vəhşiləşmiş düşmən qarşısında ləyaqətini qoruyub saxlaması ön plana çəkilir. Tərk edilmiş kənddəki evində ermənilərin gəlişini vahimə içində gözləyən bu köməksiz,

yaralı qadını, ilk növbədə, körpəsinin taleyi narahat edir. Hadisələrin gedişi göstərir ki, bu qorxu əbəs deyilmiş.

Sarkis və Levon surətləri insanlığın düşməni olan müharibə caniləri kimi təhlil olunur. Yazıçı bu obrazlar vasitəsilə erməni xislətini ustalıqla açıb göstərmişdir. Onlar qan tökməyə, soyğunçuluğa həris olan, bütün insani sifətlərini itirmiş qatillərdir. Nəticə etibarilə iki xalqı təmsil edən obrazların dünyagörüşü, mənəvi dəyərləri arasında yerlə göy qədər fərq ortaya çıxır.

IX sinif şagirdləri digər fənlərdən, müxtəlif mənbələrdən Qarabağ müharibəsi ilə bağlı xeyli təsəvvür qazanmış olurlar. Bu, dərslikdə təklif edilmiş tapşırığın ("Hekayədə təsvir olunanlar Qarabağ müharibəsinin həqiqətlərini əks etdirir" fikrini doğru saymaq olarmı?") səmərəli yerinə yetirilməsində əhəmiyyətli rol oynayır. Məktəb təcrübəsindən məlumdur ki, şagirdlər mənfur qonşularımızın istər müharibə dövründə, istərsə də müharibədən sonra törətdikləri iyrənc əməllər barədə çoxlu faktla tanışdırlar. Hekayədə təsvir olunanları bildikləri həyati faktlarla müqayisə edən şagirdlər əsərin reallıqdan qaynaqlandığını əsaslandırmaqda çətinlik çəkmirlər.

Məcazla bağlı tapşırıq əsərin bədii məziyyətlərini mətndən konkret nümunələr gətirməklə aydınlaşdırmağı nəzərdə tutur. Şagirdlər məcazların işləndiyi cümlələri məcazsız işlətməklə müşahidə aparır, müqayisə əsasında dəyişikliyin əsərə nə verdiyini müəyyənləşdirirlər.

Əsərdəki başlıca fikrin – ideyanın aydınlaşdırılmasını tələb edən növbəti suala cavabların hazırlanması əvvəlki işlərin hansı səviyyədə yerinə yetirilməsindən, xüsusən məzmunun necə mənimsənilməsindən asılıdır.

**Məlumat mübadiləsi** mərhələsində təqdimatların dolğun olması qrupların bir-birinin işinin nəticələri ilə ətraflı tanış olmalarına imkan yaradır. Müəllim təqdimatlarda sözçülüyə yer verilməməsi, faktların, fikirlərin təkrar olunmaması üçün istiqamətləndirici suallardan istifadə edir. Bu mərhələdə müzakirə açılmasa da, suallardan geniş istifadə olunur. Bu, qrupların bir-birinin işinin məzmunu ilə daha ətraflı tanış olmalarına şərait yaradır. Təqdimatların, suallara verilən cavabların əhatəli olması **müzakirənin** səmərəli keçməsini təmin edən mühüm şərtlərdən biri kimi özünü göstərir. Əvvəlki mərhələdə müşahidə edilən çatışmazlıqlar – birtərəfli, yanlış mülahizələr, cavablarda pərakəndəlik və s. aradan qaldırılır. Bunların yerinə yetirilməsində müəllimin istiqamətləndirici sualları mühüm rol oynayır.

Müzakirədə söylənmiş fikirlər **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində ümumi bir ideya halına gətirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, yaralı ana erməni yaraqlısını öldürməklə qətlə yetirilən günahsız həmvətənlərimizin intiqamını alanlardan biri olur. Hekayə oxuculara belə bir fikir təlqin edir ki, soydaşlarımızın qanı yerdə qalmayacaq, düşmən layiq olduğu cəzanı gec-tez alacaq. Yaralı ananın – Xəzangülün və körpəsinin – bu günahsız qurbanların ruhu, faciəli taleyi də oxucunu intiqama, Vətən yaralarını unutmamağa, qisasa səsləyir.

Çıxarılmış nəticənin şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsinə, tədqiqat sualı ilə necə səsləşməsinə ayrıca diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Qılman İlkin. “İntiqam”** – 3 saat
*Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **2.2.1.** | • Yazı ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| **3.1.1.** | • İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir. |
| **3.1.3.** | • Müqayisə xarakterli inşa, esse yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Müəllim üçün məlumat.** *Dərslikdə ilk tapşırıq inşa və essenin yerinə yetirilməsi ilə bağlıdır. Mövzular (Qarabağ müharibəsi incəsənətin digər növlərində; Qarabağın sənət adamları) plan tərtibindən asılı olaraq, fərqli məzmunda (mühakimə, təsvir, müqayisə) işlənə bilər. Yazının hansı xarakterdə olmasını ehtiyacı nəzərə alan müəllim müəyyənləşdirir. Motivasiya, problemin qoyuluşu mərhələsi də yazının xarakteri nəzərə alınaraq təşkil edilir. Burada müqayisə xarakterli inşa və esse ilə bağlı işin təsviri verilmişdir.*

**Motivasiya, problemin qoyuluşu** mərhələsində müqayisə xarakterli yazının – inşa və essenin icrası ilə bağlı mənimsənilən bilik və bacarıqların yada salınmasına, təkrarına yönəlik yığcam müsahibə aparılır. Müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə imkan yaradır.

***Tədqiqat sualı:*** Müqayisə xarakterli yazının əhəmiyyəti nədən ibarətdir?

Səsləndirilən fərziyyələr dinlənilir, təkrara yol verilmədən lövhədə qeyd olunur.

**Tədqiqatın aparılması.** Yazıya əvvəlcədən hazırlıq işlərinin aparılması vacibdir. Şagirdlər müəllimin təklifi ilə hələ dərsə bir neçə gün qalmış seçdikləri mövzu ilə bağlı material toplayır, ətraflı öyrənir, ondan necə istifadə edəcəklərini müəyyənləşdirirlər. İnşa üzərində işləyəcək şagirdlər Qarabağ müharibəsinə həsr edilmiş filmlərin, mahnıların, rəssamlıq əsərlərinin ideya-məzmunları arasındakı oxşar və fərqli cəhətlərin üzərində fikirləşir, müqayisəyə hansı cəhətləri cəlb edəcəklərini müəyyənləşdirirlər. Şagirdlər bu qəbildən müqayisə ilə bağlı aşağı siniflərdə müəyyən təcrübə qazansalar da, müəllimin istiqamətləndirici köməyinə ehtiyac duyurlar. Müəllim şagirdlərə seçdikləri janrla bağlı konkret tövsiyələr verir. Məsələn, bədii əsər əsasında ekranlaşdırılmış film üzərində dayanan şagirdlər ədəbi nümunə ilə kinonun süjeti, obrazları, ideyası və s. ilə bağlı müqayisə apara bilərlər. Yaxud Qarabağ mövzusunda rəssamlıq əsərlərindəki təsvirlərin oxşar və fərqli cəhətlərini müəyyənləşdirən şagirdlər bu nümunələrin ideya-məzmunlarını müqayisəli şəkildə şərh etmək imkanı qazanarlar. Eləcə də mövzusu Qarabağ müharibəsi olan mahnıların melodiyaları, məzmunları, dinləyicidə yaratdığı emosional ovqat və s. müqayisə obyekti ola bilər. Qarabağ müharibəsi mövzusu artıq teatr səhnələrinə də yol tapmışdır. Bədii əsər əsasında hazırlanmış teatr tamaşası ilə söz sənəti nümunəsinin

müqayisə edilməsi imkanları da genişlənmişdir. Maraqlı nümunələrin seçilməsi, tutarlı tövsiyələrin verilməsi bu istiqamətdə də inşanın icrasına imkan verir.

Esse üçün təklif edilmiş mövzu ("Qarabağın sənət adamları") geniş müqayisələrin aparılmasına yol açır. İncəsənətin eyni, yaxud fərqli sahəsində fəaliyyət göstərən qarabağlı sənət adamlarının yaradıcılığının müqayisə edilməsi maraqlı nəticələrin çıxarılmasına səbəb olur. Bu sənət adamı yazıçı, bəstəkar, rejissor, müğənni, aktyor və s. ola bilər. Bütün hallarda, şagirdlərdən yazıya ciddi hazırlaşmaq tələb olunur. Başlıcası isə zəruri məlumatın, materialın toplanması, öyrənilməsi, onlardan necə istifadə olunacağının müəyyənləşdirilməsidir.

Yazı üçün hazırlanmış planda müqayisənin hansı əsaslar üzrə aparılacağı əksini tapmalıdır. Plan tərtibinə müəllim xüsusi diqqət yetirir. Bu, müqayisə üçün götürülmüş obyektlərin ayrı-ayrılıqda təsvir edilməsi ehtimalının qarşısını alır.

Yazının uğurla icra edilməsinin digər mühüm şərti işin icrası prosesində müəllimin şagirdlərə səmərəli istiqamət verməsidir. Təcrübə göstərir ki, bu qəbildən yazıların yerinə yetirilməsində şagirdlərin tərəddüd etdikləri hallar çox olur, məhz bu məqamlarda müəllimin istiqamətləndirici sualları, tövsiyələri yerinə düşür.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra təqdimat əsasında yazıların başlıca istiqamətləri barədə **fikir mübadiləsi və müzakirə** aparılır. Şagirdlərin təqdimatı ayrı-ayrılıqda dinlənilir, onlara suallar verilir, müqayisə qaydalarına necə əməl edildiyinə, müqayisədən hansı nəticələrin çıxarıldığına xüsusi diqqət yetirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici sualları şagirdlərin yüksək fəallıq göstərmələrinə şərait yaradır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, müqayisə xarakterli yazı obyektlərin (bütövlükdə əsərin, onun obrazlarının, bədii xüsusiyyətlərinin, ideyasının və s.) dərindən mənimsənilməsinə, ən xırda incəliklərinin belə başa düşülüb qiymətləndirilməsinə imkan verir. Müqayisə xarakterli yazının əhəmiyyəti bununla məhdudlaşmır. Müqayisə tələbi obyektlər barədə müstəqil fikir söyləməyə, əqli fəallığın inkişafına, təhlil, ümumiləşdirmə bacarığının formalaşmasına səbəb olur.

Dərsin bu mərhələsinin sonunda çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

Yaxşı planlaşdırılmış dərsdə ikinci tapşırığın icrasına vaxt qalır. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu*: **Bəxtiyar Vahabzadə. "İstiqlal"** – 4 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Poemada tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Poemada bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilmə səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdəki işi fərqli variantlarda təşkil etmək olar. Vaxta qənaət baxımından dərslikdəki "Yada salın" başlıqlı sualların əsasında yığcam müsahibə aparmaqla motivasiya yaratmaq və tədqiqat sualını müəyyənləşdirmək mümkündür. Eləcə də internetdən 20 Yanvar faciəsinə həsr olunmuş videomateriala (https://www.youtube.com/watch?v=GJP8HtKnv_s) baxış, B.Vahabzadənin ifasında "Gülüstan" poemasından bir parçanın dinlənilməsi (https://www.youtube.com/watch?v=I9QYpwRjR7I) motivasiyanın yaradılması, tədqiqat sualının formalaşdırılması üçün vasitə ola bilər.

***Tədqiqat sualı:*** Milli azadlıq mövzusunda yazılmış əsərlərdə başlıca olaraq, hansı problemlər ön plana çəkilir?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Poemadan birinci parçanın oxusu üzrə iş fərqli məzmunda təşkil edilə bilər; fərdi səssiz oxu, səsli oxunun dinlənilməsinin və s. tətbiqi mümkündür. Oxunun hansı şəkildə aparılmasından asılı olmayaraq, sonda şagirdlərə ilkin təəssüratlarını bölüşmək imkanı yaradılır. Növbəti tapşırığın (poemadan verilmiş səciyyəvi misralarda ifadə olunmuş fikirlərin aydınlaşdırılması) cütlük şəklində iş formasının tətbiqi ilə icra edilməsi məqsədəuyğundur. Bu tapşırıq əsərin məzmununun dərindən qavranılmasına, hər sözün, misranın mənasına diqqət yetirilməsinə imkan yaradır. Şagirdlərə cavabları mümkün qədər qısa yazmağın lazım olduğu barədə təlimat verilir. Sonrakı tapşırıq (ikihissəli gündəliyin hazırlanması) fərdi olaraq yerinə yetirilir. Əsərin məzmununu şagirdlərin necə qavradıqlarını, mətnaltı mənaları hansı səviyyədə başa düşdüklərini aşkara çıxarmaq baxımından ikihissəli gündəlikdən istifadə faydalıdır. Şagirdlərə artıq məlumdur ki, cavabını müstəqil aydınlaşdıra bilmədikləri sualları da gündəlikdə əks etdirə bilərlər. Dərslikdə təklif edilmiş növbəti tapşırıq (bədii təsvir və ifadə vasitələrinin növünün dəqiqləşdirilməsi) cütlük şəklində yerinə yetirilir. Bu, vaxta qənaət baxımından faydalıdır. Ayrı-ayrı şagirdlər barədə konkret təsəvvür qazanmaq istəyən müəllim tapşırığın fərdi olaraq yerinə yetirilməsini də təşkil edə bilər.

Ehtiyac yarandığı məqamlarda müəllim qruplara istiqamətləndirici suallar vasitəsi ilə kömək edir.

**Məlumat mübadiləsi və müzakirəsi.** Bu mərhələlərin başlanğıcında qrupların təqdimatları dinlənilir, müzakirədə sualların verilməsi, əlavələr edilməsi, deyilənlərə fəal münasibət bildirilməsi təmin olunur. Şagirdlərin öz mülahizələrini əsərdən

gətirdikləri nümunələrlə, həyat təcrübələri, müşahidələri ilə əsaslandırmalarına diqqət yetirilir. Fərqli fikirlərin söylənilməsi, tarixi məlumatlardan, incəsənət əsərlərindən (şəkil, film) istifadə müzakirənin daha canlı keçməsinə səbəb olur.

Müzakirə zamanı bədii təsvir və ifadə vasitələrinin necə müəyyənləşdirildiyinə diqqət yetirilir.

Müzakirəyə nəticə və ümumiləşdirmə məzmunlu müsahibə və söhbətlə yekun vurulur. Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması mərhələsinin tələbləri tam halda məzmunla bağlı iş tamamlanarkən – ikinci dərs saatında həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Bəxtiyar Vahabzadə. "İstiqlal"** – 4 saat
## *İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Poemada tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.4.** | • Poema janrının xüsusiyyətlərini müəyyənləşdirir. |
| **1.1.5.** | • Poemada bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi – məzmunun mənimsənilməsi, tanış olmayan sözlərin mənasının aydınlaşdırılması təqdimatların dinlənilməsi və müzakirəsi, yaxud yığcam müsahibə əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

Dərsdə həyata keçirilən işlər **tədqiqatın** davamı kimi özünü göstərir. Şagirdlər evdə oxuduqları parçanı bir daha nəzərdən keçirib tanış olmayan sözlərin mənasını dəqiqləşdirir, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirirlər. Bu, növbəti tapşırığın (əsərdən seçilmiş səciyyəvi misralarda əksini tapmış fikirlərin aydınlaşdırılması) səmərəli icrasına da müsbət təsir göstərir. Tapşırığın cütlük şəklində yerinə yetirilməsi məqsədəuyğundur. Bu tapşırıq əsərin məzmununa daha dərindən nüfuz edilməsinə imkan yaradır. Dərslikdə təklif edilmiş növbəti tapşırıqların (bədii təsvir və ifadə vasitələrinin növünün dəqiqləşdirilməsi, əsərin janrının müəyyənləşdirilməsi) fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Bədii təsvir və ifadə vasitələrinin növünün dəqiqləşdirilməsi həm məzmunun əhatəli mənimsənilməsinə, həm də nəzəri anlayışlarla bağlı biliklərin təkrarına və dərinləşməsinə səbəb olur. Əsərin poema janrında olduğunu əsaslandıran şagirdlər nəzəri anlayışla bağlı biliklərini yeni əsər üzərində tətbiq etmək imkanı qazanırlar.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər yerinə yetirdikləri bütün işlərin nəticələrini müzakirə edir, nöqsanları aradan qaldırır, ümumiləşdirmə apararaq vahid təqdimat hazırlayırlar.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsi qrup təqdimatlarının dinlənilməsi ilə başlanır. Eyni məzmunda tapşırıqları icra edən qruplar məlumat mübadiləsində də, müzakirədə də fəallıq göstərirlər. Müəllim bu imkandan geniş istifadə edir; deyilənlərə əlavələr edilməsinə, əsərdən yeni, fərqli nümunələrin seçilməsinə istiqamət verir. Cavabların əlaqələndirilməsi, sistemə salınması nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması işini asanlaşdırır.

Müzakirə zamanı şagirdlərin dialoq və əməkdaşlığına, fərqli fikirlərə dözümlü münasibət bəsləmələrinə diqqət yetirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin əvvəlcədən hazırladığı suallardan istifadə etməsi məqsədəuyğundur. Qazanılmış biliklər, müəllimin istiqamətləndirici sualları şagirdlərdə belə bir qənaəti möhkəmləndirir ki, milli azadlıq mövzusunda yazılmış əsərlərdə vətənə və xalqa dərin məhəbbət, müstəqilliyin ölkə üçün əhəmiyyəti, istiqlal mücahidlərinin tərənnümü, azadlıq uğrunda şəhid olanlara dərin ehtiram kimi məsələlərə daha çox önəm verilir.

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Bəxtiyar Vahabzadə. "İstiqlal"** – 4 saat
## *Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.4.** | • Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.1.** | • Poema ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.2.1.** | • Poema ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Təhlil dərsini fərqli variantlarda təşkil etmək olar. Variantlarından biri aşağıdakı məzmunda ola bilər.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin diqqəti dərslikdəki "Düşünün" başlıqlı suala (*Milli azadlıq mövzusunda əsərlərin yaranmasına səbəb, sizcə, nədir?*) cəlb olunur. Bu sual üzrə fikir mübadiləsi və müzakirə tədqiqat sualının formalaşması ilə nəticələnir.

***Tədqiqat sualı:*** "B.Vahabzadənin "İstiqlal" poemasında "otaylı, butaylı" insanlarımızın arzu və istəkləri ifadə edilmişdir" fikrini doğru saymaq olarmı?

Şagirdlərin irəli sürdükləri fərqli fikirlər – fərziyyələr dinlənilir, təkrara yol verilmədən lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu, fərqli metod və iş formalarının tətbiqi ilə həyata keçirilə bilər. Bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına müraciət edilməsi məqsədəuyğundur. "Əsərin təhlilinə hazırlaşın" mətnindəki fikirlərin mənimsənilməsinə xüsusi diqqət yetirilir. Bu mətnin müstəqil oxusundan sonra yığcam müsahibənin aparılır, Sovet hakimiyyəti dövründə ciddi yasaqlara baxmayaraq, B.Vahabzadənin "Gülüstan" poemasında tarixi həqiqəti dilə gətirdiyi, vətənimizi iki yerə parçalayan yadelliləri lənətlədiyi diqqətə çatdırılır.

Kiçik qruplarda iş formasını tətbiq etməyi qarşısına məqsəd qoyan müəllim "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına yaradıcı yanaşa bilər. Başqa sözlə, tapşırığa əlavələr etmək, yaxud onda ixtisarlar aparmaq mümkündür. Şairin yaradıcılığı, xüsusən "Gülüstan", "İstiqlal" əsərləri ilə bağlı tədqiqat əsərlərindən nümunələrin qruplara təqdim edilməsi (bu qəbildən məlumatın toplanmasını hələ dərsə bir neçə gün qalmış şagirdlərin özlərinə həvalə etmək daha faydalıdır) vacibdir. Tapşırığın hər bir bəndi ilə əlaqədar təlimatlandırmanın həyata keçirilməsi isə faydalıdır. Məsələn, birinci bəndin (Əsər hansı mövzuda yazılmışdır? Şairin "qul millətlərə" münasibətini aydınlaşdırın) üzərində işləyən qrup əsaslandırmalıdır ki, B.Vahabzadə, ümumiyyətlə, millətindən, dinindən, irqindən asılı olmayaraq, bütün millətlərin azad, müstəqil yaşamasının tərəfdarı olmuşdur. Bu, şairin humanist, demokratik görüşlərindən irəli gəlirdi. Poemanın məzmunu şairin bu mövqeyini açıqlamağa imkan verir. Qrupun əlavə ədəbiyyatdan istifadə etməsi mümkün və faydalıdır. Üçüncü tapşırıq (Şairin fikrincə, "Gülüstan" müqaviləsi xalqımızın və vətənimizin taleyində hansı rol oynadı?") şagirdləri digər fənlərdən qazandıqları biliklərdən də bəhrələnməyə istiqamətləndirir. Şagirdlər həmin müqaviləni şairin nifrətlə xatırlamasının səbəblərini açıqlayırlar. Məhz bu müqavilə xalqımızı "biriykən iki eləmiş", "iki hakimin" idarəsinə məruz qoymuş, keçmişini, dilini unutdurmağa yönəltmişdir.

Bütün qruplar üzərində işlədikləri tapşırığın mahiyyətini, başlıca tələbinin nədən ibarət olduğunu aydın təsəvvür etməlidir. Bu, tədqiqatöncəsi təlimatın vacib olduğunu bir daha təsdiq edir.

**Məlumat mübadiləsi, müzakirəsi** mərhələsində ilk addım təqdimatların fəal dinlənilməsinin təmin olunmasıdır. Bununla da qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına imkan yaradılır. Cavablarda qüsurların olmasına təbii baxılmalıdır. Fikirlərdə pərakəndəlik, birtərəfli yanaşma müşahidə edilir. Bütün bunların islah edilməsinə müzakirədə xüsusi diqqət yetirilir. Meydana çıxan əhəmiyyətli sualların hər birinə aydınlıq gətirilməsinə səy göstərilir. Cavablar əlaqələndirilir, tədricən sistemə salınır.

Səsləndirilmiş fikirlərin ümumi ideya halında birləşdirilməsi, yekun qənaət hasil edilməsi **nəticənin çıxarılması, ümumiləşdirmənin** aparılması mərhələsində həyata keçirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, poemada bütöv Azərbaycanın dərdləri, problemləri yüksək sənət dili ilə ifadə edilmişdir. Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın taleyi bizi dərindən düşündürdüyü, narahat etdiyi kimi,

Şimali Azərbaycanın siyasi həyatında baş verən hər bir dəyişikliyi də cənublu soydaşlarımız diqqətlə izləyir, dərdlərimizə şərik çıxırlar. “Quzeydə yadlara öz yerləri göstərildi” – belə bir gün güney üçün də olacaq.

Çıxarılmış nəticənin tədqiqat sualı ilə əlaqəsi, fərziyyələrlə müqayisə edilməsi diqqət mərkəzində saxlanılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **B.Vahabzadə. “İstiqlal”** – 4 saat
## *Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** | • Poemanı janr baxımından romanla müqayisə edir. |
| **2.1.1.** | • Poema və şeirlə bağlı çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.1.2.** | • Poemanın və şeirin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |
| **2.2.1.** | • Poema və şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyi müxtəlif yollarla müəyyənləşdirilə bilər. Təqdimatların dinlənilməsi və yığcam müzakirənin keçirilməsi daha faydalıdır. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

“Tətbiq. Müzakirə. Yaradıcı iş” dərsində **motivasiyanın yaradılması, problemin qoyuluşu** fərqli variantlarda həyata keçirilə bilər. Məsələn, bu məqsədi ilə internet (You Tube) imkanlarından bəhrələnərək B.Vahabzadənin xalqımızın azadlıq mübarizəsi haqqında fikirlərini əks etdirən videomateriala baxış təşkil etmək və ya mövzu üzrə müəyyənləşdirilmiş sual əsasında diskussiya aparmaq faydalıdır.

***Tədqiqat sualı:*** “İstiqlal” poemasının oxucularda böyük maraq doğurmasına səbəb, sizcə, nədir?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Dərslikdə təklif edilmiş tapşırıqlar tədqiqat sualının aydınlaşdırılması üçün əlverişlidir. “İstiqlal” poemasını mövzusuna, ideya-məzmununa görə bir çox əsərlərlə müqayisə etmək mümkündür. Dərslikdə müqayisə üçün şagirdlərə məlum olan “İstiqlal marşı” əsəri tövsiyə edilmişdir. Şagirdlərin rəyi nəzərə alınaraq digər bir əsərin seçilməsi də mümkündür.

İlk növbədə, müqayisənin xüsusiyyətləri, tətbiqi qaydaları barədəki məlumatların yığcam müsahibə ilə xatırlanmasına nail olunur. Hər iki əsərin (“İstiqlal”, “İstiqlal marşı”) hansı əsaslara görə müqayisə ediləcəyi müsahibənin tətbiqi ilə aydınlaşdırılır. Əslində, bu əsaslar dərslikdəki cədvəldə əks etdirilmişdir, lakin onlara əlavələr etmək olar, yaxud fərqli variant hazırlamaq mümkündür. Hansı iş formasının tətbiqi də müəllimin məqsədindən asılıdır. Başqa sözlə, bu məsələdə müəllim sərbəstdir, lakin o, seçimini əsaslandırmalıdır. Kiçik qruplarda iş forması vaxta qənaət və müzakirənin maraqlı keçməsi baxımından məqsədəuyğundur. Tədqiqatın gedişində – ehtiyac yarananda müəllim istiqamətləndirici suallar vasitəsi ilə qruplara kömək edir.

Eyni tapşırıq üzərində işləyən şagirdlər **məlumat mübadiləsi və müzakirə** mərhələsində yüksək fəallıq nümayiş etdirirlər. Qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olması müzakirənin səmərəli keçməsinə səbəb olur. Müzakirədə fərqli fikirlərin söylənilməsinə, mülahizələrin əsaslandırılmasına şərait yaradan müəllim mövqelərin yaxınlaşmasına, uzlaşdırılmasına imkan verən istiqamətləndirici suallardan istifadə edir. Eləcə də qrupların müqayisədən hansı nəticəni çıxardıqlarına, ümumiləşdirməni necə apardıqlarına diqqət yetirir. Bu, **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində həyata keçirilən işi xeyli asanlaşdırır. Müqayisə “İstiqlal” poemasında qaldırılan taleyüklü problemin nə qədər əhəmiyyətli olduğunu aşkara çıxarmağa imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, poemanın geniş yayılmasına, sevilməsinə səbəb təkcə onda qaldırılan ideyaların xalqın arzu və istəkləri ilə üst-üstə düşməsi deyildir. Uzun illər azadlığa, müstəqilliyə qovuşmaq istəyi, bu yolda həyatını qurban verənlərin unudulmaz xatirəsi və əvəzolunmaz xidmətləri, vətənin parçalanmasının, qardaşın-qardaşdan ayrı düşməsinin yaratdığı nisgil, həsrət poemada böyük sənətkarlıqla, səmimi duyğularla ifadə edilmişdir.

Çıxarılmış nəticənin tədqiqat sualı və fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

Dərsdə vaxtdan qənaətlə istifadə dərslikdə təklif edilmiş növbəti tapşırığın (poemanın janr baxımından romanla müqayisə edilməsi) yerinə yetirilməsinə imkan yaradır. Roman janrı olmaqla “Gələcək gün”ün məzmunu, quruluşu barədə aydın təsəvvürü olan şagirdlər tapşırığın icrasında ciddi çətinlik çəkmirlər. Lakin cavablar əhatə olunan məsələlərin həcminə görə fərqlənir. Yüksək səviyyəli cavablarda janrların arasındakı oxşarlıq və fərq daha çox cəhətlər üzrə aşkara çıxarılır.

Sonuncu tapşırığa (B.Vahabzadə haqqında deyilmiş fikirlərlə tanışlıq) şagirdlərin diqqətini hələ üçüncü dərsin əvvəlində cəlb etmək faydalıdır. Bu dərsdə həmin fikirləri bir daha nəzərdən keçirən şagirdlərə öz münasibətlərini bildirmələri təklif olunur. Yaxud yığcam müsahibə aparmaqla şagirdlərin fikirlərini eşitmək, müzakirə aparmaq olar.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Xəlil Rza Ulutürk.**
**"Qaytar mənim qüdrətimi, Azərbaycan!"** – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.5.** | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə təşkil olunan iş fərqli məzmunda ola bilər. Məsələn, Xəlil Rzaya həsr olunmuş videoçəkilişə baxış (https://www.youtube.com/watch?v=pSpCMcZsVyM) və müsahibə aparmaqla tədqiqat sualını formalaşdırmaq mümkündür. Eləcə də dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında yığcam müsahibə təşkil etməklə tədqiqat sualını müəyyənləşdirmək olar.

***Tədqiqat sualı:*** Müstəqilliyini yenicə qazandığı, müharibəyə cəlb edildiyi bir vaxtda ölkədə yaranan bədii əsərlərdə hansı məsələlərə önəm verilər?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** İlk növbədə, əsərin oxusu həyata keçirilir. Müəllim sinfin səviyyəsindən, qarşıya qoyduğu məqsəddən və s. asılı olaraq, oxunu fərqli formalarda təşkil edə bilər. Bütün hallarda tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi həyata keçirilir. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərin ilkin təəssüratlarını bölüşmələrinə imkan yaradılır. Dərslikdəki növbəti tapşırıq (misralarda ifadə olunmuş fikrin aydınlaşdırılıb qısaca yazılması) cütlük şəklində iş, yaxud kiçik qruplarda iş formasının tətbiqi ilə yerinə yetirilir. Əsərin məzmununun mənimsənilməsində bu tapşırığın əhəmiyyəti böyükdür. Müəllim şagirdlərin fəaliyyətini diqqətlə izləyir, onlara səmərəli istiqamət verir. Cavabların mümkün qədər qısa yazılmasına, əhəmiyyətli məsələlərin üzərində dayanılmasına nail olur.

Sonrakı tapşırıq (bədii təsvir və ifadə vasitələrinin növünün müəyyənləşdirilməsi) həm nəzəri anlayışlarla bağlı biliklərin dərinləşməsində, həm də əsərin məzmununun və bədii keyfiyyətlərinin mənimsənilməsində az əhəmiyyət kəsb etmir. Dərslikdəki növbəti tapşırıq da (cümlələrdə ifadə olunmuş doğru fikirlərin müəyyənləşdirilib münasibət bildirilməsi) məzmunun dərindən mənimsənilməsinə və təhlilə zəmin yaratması baxımından faydalıdır.

Təcrübə göstərir ki, dərslikdə təklif olunmuş tapşırıqlar fərqli səviyyələrdə yerinə yetirilmiş olur. Kiçik qruplarda birləşib fikir mübadiləsi aparan şagirdlər cavablarındakı nöqsanları aradan qaldırmaq imkanı qazanırlar. Bu prosesdə mövqelərdə baş verən yaxınlaşma ümumiləşdirmə aparmağa, əhatəli təqdimat hazırlamağa şərait yaradır. Qrup üzrə hazırlanan təqdimatlar dərsin **məlumatın mübadiləsi və müzakirəsi mərhələlərində** dinlənilir və müzakirə olunur. Qruplar ilk növbədə bir-birinin işinin

məzmunu ilə ətraflı tanış olmaq imkanı qazanırlar. Bütün qrupların eyni tapşırıqların üzərində işləmələri elə məlumat mübadiləsi mərhələsindəcə müzakirənin bünövrəsinin qoyulmasına, maraqlı diskussiyanın başlanmasına səbəb olur. Məsələn, tapşırığın birinin tələbinə görə şeirdən verilmiş misraların mənasını aydınlaşdıran şagirdlərin cavablarında fərqli yozumlar müşahidə olunur, yaxud məcazların növü ilə bağlı da fikirlərdə haçalanma özünü göstərir. Belə yanaşma digər tapşırığa hazırlanmış cavablarda da diqqəti cəlb edir. Bütün bunlar müzakirəyə maraqlı rəng qatır, müəllimdən isə çeviklik, prosesi səmərəli təşkil etmək bacarığı tələb edir. Bunun sayəsində cavablardakı pərakəndəlik, faktlara, məsələlərə birtərəfli yanaşmalar aradan qaldırılır. **Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində isə indiyə kimi deyilmiş bütün fikirlərin ümumiləşdirilməsi, vahid ideya şəklinə salınması ön plana çəkilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, həqiqi ədəbiyyat xalqın, vətənin taleyinə heç vaxt laqeyd qalmamışdır. Vətənin ağır günündə yaradıcı adamlar da düşmənə qarşı səfərbər olurlar. Vətən məhəbbəti, torpağa, elə sədaqət, qorxmazlıq, düşmənə nifrət bədii əsərlərdə daha çox diqqət yetirilən məsələlər olur. Müstəqilliyini yenicə əldə edən, cəlb olunduğu müharibədə böyük itkilərə, dağıntılara məruz qalan vətənimizdə hamı kimi söz sənətkarları da qələmləri ilə düşmənə qarşı mübarizə aparırdılar. Hər gün yaradılan yeni-yeni əsərlərdə müstəqilliyimizin qan bahasına əldə edildiyi, şəhidlərin unudulmazlığı, Vətənə sədaqət, mübarizəyə çağırış, qələbəyə inam, amansız düşmənə nifrət ifadə olunurdu. Çıxarılmış nəticənin tədqiqat sualı ilə əlaqəsinin aydınlaşdırılmasına, şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsinə xüsusi diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Xəlil Rza Ulutürk.**
## **"Qaytar mənim qüdrətimi, Azərbaycan!"**– 3 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Müəllifin mühakimələrindən çıxış etməklə obrazları səciyyələndirir. |
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.1.** | • Şeirlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.2.1.** | • Şeirlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin həmin prosesdə müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu**. Təhlil dərsində motivasiyanın yaradılması üçün fərqli yollardan istifadə etmək olar. Rəmzi (simvolik) materiallardan, suallardan və s. istifadə etməklə motivasiyanı yaratmaq və son nəticədə tədqiqat sualını formalaşdırmaq mümkündür. İlk dərsdən şagirdlərin diqqətinə çatdırılan "Düşünün" başlıqlı sual *("Vətən üçün təhlükə yarananda həqiqi sənətkarın qələmi süngü, özü əsgər olur" cümləsində ifadə olunmuş fikri necə başa düşürsünüz?)* əsasında yığcam müsahibə aparan müəllim bu yolla da tədqiqat sualını müəyyənləşdirə bilər.

***Tədqiqat sualı*:** "Bu şeirdə böyük vətənpərvər, qorxmaz azadlıq mücahidi, ustad şair görürük" fikrini doğru saymaq olarmı?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Təhlil dərsi müxtəlif təlim metodları, iş formaları tətbiq edilməklə təşkil oluna bilər. Dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına və "Əsərin təhlilinə hazırlaşın" mətninə müraciət edilməsi vacibdir.

"Əsərin təhlilinə hazırlaşın" mətninin başa düşülərək mənimsənilməsi həyata keçirilir. Şairin yaradıcılığı, öyrənilən əsərlə bağlı müxtəlif tədqiqat əsərlərindən toplanmış məlumatdan necə istifadə edilməsinin səmərəli olması barədə şagirdlərə istiqamət verilir. Müəllimin ictimai-siyasi mövzuda olan lirik əsərlər haqqında əlavə nümunələr göstərməsi, dərslikdəki "Qısa ədəbiyyatşünaslıq terminləri lüğəti"ndəki məlumatlardan şagirdlərin bəhrələnməsini təmin etməsi məqsədəuyğundur.

Tədqiqatın kiçik qruplarda aparılmasına üstünlük verən müəllim "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı sualların (hər qrupa bir sual ayırmaqla) əks olunduğu iş vərəqlərini qruplara təqdim edir. Tapşırığın bütün tələbləri tədqiqat sualının aydınlaşdırılmasında müəyyən rol oynayır. Müəllim tədqiqat başlanmazdan

əvvəl verdiyi təlimatlarda bu məsələ ilə yanaşı, hər qrupun hansı məsələlərə daha çox diqqət yetirməli olduğu barədə tövsiyə verir.

**Məlumatın mübadiləsi və müzakirəsi** mərhələsində kiçik qrupların təqdimatlarının dinlənilməsi və müzakirəsi həyata keçirilir. Qrupların bir-birini fəal dinləməsi, suallar verməsi, öz mövqelərini əsaslandırması diqqət mərkəzində saxlanılır.

Müzakirədə müəllifi narahat edən problemlər – müstəqilliyin qorunub saxlanmasına mane olan əngəllər, ölkəyə dəyən mənəvi və maddi zərər, Vətən torpağının işğal altında olması, Azərbaycan həqiqətinə göz yumulması, düşmənin qəddar, vəhşi əməlləri və s. bir-bir nəzərdən keçirilir.

Şagirdlər Azərbaycanın qələbəsinə şairin qəti inam bəsləməsinin səbəblərini açıqlayır, xalqın azadlıq istəyini, mübarizlik əzmini xatırladırlar.

Şairin Xocalı qətliamını törədən düşmənin mənfur obrazını ustalıqla yaratdığına diqqəti çəkən şagirdlər əsərdən fikirlərini təsdiq edən nümunələr göstərirlər.

Əsər yüksək bədii məziyyətləri ilə diqqəti cəlb edir. Mətn daxilində ustalıqla əlaqələndirilən söz və ifadələr müəllifin fikrini sərrast ifadə edir, asan qavranılır, dərin emosionallıq yaratmaq keyfiyyətləri ilə seçilir. Orijinallığı ilə seçilən məcazlar əsərin bədii təsir gücünün artmasında, estetik təsirinin tamlığında əhəmiyyətli rol oynayır. Tapşırığın tələblərinə uyğun olaraq bu məsələlər əsərdən seçilən nümunələr əsasında şərh edilir.

Müəllim ehtiyac duyulan məqamlarda yığcam izahlarla şagirdlərə istiqamət verir, onları əlavə məlumatlardan, müşahidələrindən bəhrələnməyə yönəldir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici sualları olmadan belə, şagirdlər vətənini, xalqını sonsuz məhəbbətlə sevən, azadlığı hər şeydən uca tutan, imperiyaya qarşı cəsarətli çıxışları ilə xalqı ayağa qaldıran müəllif obrazını asanlıqla təsəvvür edir və yüksək qiymətləndirirlər. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, vətəninin müstəqilliyi, xalqının azadlığı yolunda hər cür fədakarlığa hazır olan Xəlil Rza Ulutürk əsərdə həm böyük sənətkar, həm də imperiyaya qarşı mübarizə aparmış, minlərlə azadlıq mücahidinin ümumiləşdirilmiş obrazı kimi qavranılır.

Çıxarılmış nəticənin tədqiqat sualı və şagirdlərin irəli sürdükləri fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Xəlil Rza Ulutürk.**
**“Qaytar mənim qüdrətimi, Azərbaycan!”** – 3 saat
*Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** | • Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| **2.1.2.** | • Şeirin mövzusuna, qoyulmuş problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |
| **2.2.1.** | • Əsərlərlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər.

**Motivasiya, problemin qoyuluşu.** Azərbaycanın müstəqilliyi, milli azadlıq hərəkatı, Qarabağ müharibəsi mövzusunda şagirdlərə tanış olan əsərlər xatırladılır və yığcam müsahibə aparılır. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı:*** Xəlil Rza Ulutürkün “Qaytar mənim qüdrətimi, Azərbaycan!” şeiri oxşar mövzuda olan əsərlərdən hansı cəhətlərinə görə fərqlənir?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Dərslikdəki tapşırıqlar elə hazırlanmışdır ki, müəllim fərqli iş formalarından istifadə edə bilər. Birinci tapşırıq (müzakirənin aparılması) ona müəyyən hazırlıq işinin aparılmasını tələb edir. Doğrudur, şagirdlərdə Xəlil Rza Ulutürkün şəxsiyyətinə və yaradıcılığına xüsusi maraq, pərəstiş çox tez yaranır. Bu, digər sənətkarlarla, onların yaradıcılığı ilə Xəlil Rza şəxsiyyətinin və yaradıcılığının arasında oxşarlıq və fərqin müəyyənləşdirilməsi arzusunun baş qaldırmasına səbəb olur. Lakin şeirin tədrisinə başlanan saatdan şagirdlərin diqqətinin həmin tapşırığa cəlb edilməsi faydalıdır. Müzakirədə şagirdlərə seçim etməkdə sərbəstlik verilir. Başqa sözlə, ictimai fəaliyyəti, yaradıcılığı ilə Xəlil Rzaya yaxın olan sənətkarı şagirdlərin özlərinin müəyyənləşdirməsinə imkan yaradılmalıdır. Müəllim izah edir ki, müqayisə bir sənətkarı başqasının hesabına yüksəltmək, yaxud aşağılamaq məqsədi daşımır. Burada başlıca məqsəd onların yaradıcılığının, ayrı-ayrı əsərlərinin oxşar və fərqli cəhətlərinin aydınlaşdırılması olur.

Dərslikdə təklif edilmiş növbəti tapşırığa (“Qaytar mənim qüdrətimi, Azərbaycan!” şeiri ilə Q.İlkinin yenicə öyrənilmiş “İntiqam” əsərinin müqayisəsi) dərsdə daha çox diqqət yetirilir və vaxt ayrılır. Təlimatlandırma zamanı bu iki əsərin hansı əsaslar üzrə (mövzu, problem, ideya, bədiilik və s.) müqayisə ediləcəyi barədə şagirdlərdə aydın təsəvvür yaradılır. Tapşırıq kiçik qruplarda iş formasının tətbiqi ilə yerinə yetirilir. **Məlumat mübadiləsi və müzakirə** mərhələlərinin birləşdirilməsi vaxta qənaət etməyə imkan verir. **Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici sualları şagirdlərdə belə bir qənaət möhkəmləndirir ki, Xəlil Rza Ulutürkün milli azadlıq, Qarabağla bağlı yazdıqları, o cümlədən “Qaytar mənim qüdrətimi, Azərbaycan!” şeiri oxşar mövzuda

olan digər əsərlərdən məzmunca daha kəskin olması, şərəfli keçmişimizə böyük rəğbət bəslənməsi, qələbəyə, gələcəyə nikbin ruhun hakim olması baxımından fərqlənir.

Sonrakı tapşırıq (şeirin lirik növdə olduğunun əsaslandırılması) cütlük şəklində yerinə yetirilir və nəticəsi sinif üzrə aparılan müsahibə əsasında müzakirə olunur.

Dərsdə ifadəli oxu üzrə işin təşkili dərslikdəki tövsiyə əsas götürülməklə həyata keçirilir. Şagirdlər müəllimin təklifi ilə şeirin ilk altı misrasını iş vərəqlərinə, yaxud dəftərlərinə köçürürlər. Mətnin sağ tərəfində ağ yer saxlanılır. Parçanı bir daha diqqətlə nəzərdən keçirən şagirdlər onun ideya-məzmunundan çıxış edərək ifaçılıq vəzifəsini müəyyənləşdirir və mətnin sağ tərəfində yazırlar. Hər misranı dönə-dönə oxuyan şagirdlər onlarda ifadə olunmuş hiss və fikrin təsiri altında səsin almalı olduğu çalarları (kədər, həsrət, təntənə və s.) müəyyənləşdirib ifaçılıq vəzifəsinin altında qeyd edirlər. Səsdəki dəyişilmələr (tonun yüksəlməsi, alçalması və s.), məntiqi vurğulu sözlər, fasilələrin yeri mətn üzərində şərti işarələrlə göstərilir. İfaların dinlənilib, münasibət bildirilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## BEŞİNCİ BÖLMƏ ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Sabir Əhmədovun "Dənizdən gələn səda" hekayəsi üzrə aparıla bilər*

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Hekayənin mövzusunu və onda təsvir edilən hadisənin nə vaxt baş verdiyini müəyyənləşdirib qısaca yazın.

______________________________________________________________________________
______________________________________________________________________________
__________________________________________________________________________

2. Hekayədə işlənmiş "imsiləmək" sözünün mənası hansı bənddə doğru verilmişdir?

   A) yamsılamaq
   B) həvəslənmək
   C) qorxmaq
   D) həyəcanlanmaq
   E) qoxulamaq

3. Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdin, fikrin təsir gücünün artmasında rolunu aydınlaşdırın.

| **Bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr** | **Növü** | **Fikrin təsir gücünün artmasında rolu** |
|---|---|---|
| Əllidən artıq gəminin göyərtəsindən qopan haray Bakı üzərində dalğalandı... | | |
| Bircə saat gecikəndə, gəlib görürdüm, ayağından asılmış quş təki eyvandasan... | | |
| Dənizə qar yağır, başıma qar ələnir. | | |

4. "Dənizdən gələn səda" hekayəsini B.Vahabzadənin "İstiqlal" poeması ilə mövzu, ideya-məzmun baxımından müqayisə edin. Venn diaqramından və ya müqayisə cədvəlindən istifadə edin.

5. Əsərin hekayə janrında olduğunu təsdiq edən bir neçə cəhət göstərin:

Əsər hekayə janrındadır, çünki ...

6. Hansı fikri əsərin qəhrəmanına aid etmək olmaz?

A) 20 Yanvar şəhidlərinə xas olan başlıca xüsusiyyətlərə malikdir.
B) İşğalçı orduya qarşı çıxdığına görə peşmançılıq hissi keçirir.
C) Vətən qarşısında öz borcunu yerinə yetirir.
D) Anasına dərin məhəbbət hissi bəsləyir.
E) Onunla həmfikir olanların taleyi üçün narahatlıq hissi keçirir.

7. Hansı fikrin yanlış (Y), hansı fikrin doğru (D) olduğunu çərçivədə qeyd edin.

☐ Xalqımızın işğalçı orduya qarşı birliyindən söz açılıb.
☐ Əsərin qəhrəmanı xalqımızın igid oğullarını təmsil edir.
☐ Əsər lirik növün nümunəsidir.
☐ Müəllif 20 Yanvarda meydanda olmamasından təəssüf keçirir.
☐ Yazıçı şəhidlərdən böyük ehtiramla bəhs edir.

8. Əsərdə qaldırılmış başlıca problemi müəyyənləşdirib qısaca yazın.

9. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir? Fikrinizi qısaca yazın.

10. “20 Yanvar şəhidləri xalqımızın qəhrəmanlıq ənənələrinin davamçılarıdır” mövzusunda mühakimə xarakterli yığcam esse yazın.

# CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI

*Mövzu:* **Məhəmmədhüseyn Şəhriyar.**
**“Heydərbabaya salam”** – 4 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Poemada tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.3.** | • Poemanı hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yaradıcı nağıl edir. |
| **1.1.5.** | • Poemada bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür**.** Məsələn, Rübabə Muradovanın ifasında əsərin mətninə bəstələnmiş mahnını səsləndirməklə müsahibə təşkil etmək olar. Yaxud dərslikdəki “Yada salın” başlıqlı suallar əsasında yığcam müsahibə aparmaq mümkündür. Hər iki halda tədqiqat sualı tədricən formalaşdırılır.

***Tədqiqat sualı:*** Uzun ayrılıqdan sonra vətənə dönən insan başqaları ilə hansı hiss və düşüncələrini bölüşər?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Əsərin (birinci hissənin) oxusu fərqli yollarla həyata keçirilə bilər; fərdi səssiz oxu, səsli oxu və s. tətbiqi mümkündür. Əsərin dili cənub şivəsində olduğu üçün tanış olmayan söz və ifadələrə xüsusi həssaslıqla yanaşılmalıdır.

Əsərin oxusuna ayrılan vaxt başa çatdıqdan sonra dərslikdə təklif edilmiş tapşırıqların ardıcıl olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Tapşırığın məzmununda dəyişiklik etməkdə müəllim sərbəstdir. Bu, müəllimin məqsədindən, sinfin səviyyəsindən və s. asılı olaraq, həyata keçirilə bilər. Dərslikdəki tapşırıqlar bir-biri ilə sıx bağlı olub məzmunun dərindən qavranılmasına imkan yaradır. Poemada cənub ləhcəsinə məxsus sözlərin fərqli yazılışını və deməli, onların fərqli tələffüzünü ardıcıl müşahidə etmək mümkündür. Bunların aydınlaşdırılması məzmunun dərindən başa düşülməsi baxımından vacibdir. Bu, tapşırıqda ayrıca tələb kimi daxil edilmişdir.

Əsərdə sətiraltı mənalar, fikrin dolayısı ilə ifadə olunduğu cümlələr – misralar da az deyildir. Təcrübədən məlumdur ki, şagirdlərin əksəriyyəti bunu ilkin oxuda anlamaqda çətinlik çəkirlər. Tapşırıqda şagirdlərin diqqəti bu məsələyə cəlb edilmiş, cütlük şəklində işləməklə qaranlıq mətləblərə aydınlıq gətirmələrinə istiqamət verilmişdir. Həmin misraları əvvəlcədən müəyyənləşdirən müəllim, ehtiyac duyulan məqamlarda şagirdlərin diqqətini onlara cəlb etməlidir.

Müşahidələr göstərir ki, bədii mətndəki məcazları seçməkdə çətinlik çəkməyən bir çox şagirdlər onların növünü müəyyənləşdirməkdə köməyə ehtiyac duyurlar.

Məhz buna görə dərsliyə bədii təsvir və ifadə vasitələrinin növünün dəqiqləşdirilməsi ilə bağlı tapşırıq daxil edilmişdir. Bu tapşırıq nəzəri məlumatın tətbiqi, eləcə də bədii mətnin məzmununun dərindən qavranılması baxımından əhəmiyyətlidir.

Dərslikdəki növbəti tapşırıq – suallara cavab hazırlamaq tələbi məzmunla bağlı qazanılmış təsəvvürün tamlığına imkan yaradır.

Tapşırıqları cütlük şəklində yerinə yetirən şagirdlər kiçik qruplarda birləşərək cavabları dəqiqləşdirir, fərqli fikirlərə münasibət bildirir, ümumiləşdirmə aparırlar.

**Məlumatın mübadiləsi və müzakirəsi mərhələlərində** aparılan iş kiçik qrupların təqdimatına əsaslanır. Əsərin məzmunu üzrə tam, dürüst təsəvvürün formalaşması bu mərhələlərdə aparılan işlərdən çox asılıdır. Müəllim fikirlərin sərbəst şəkildə ifadə edilməsinə, müzakirələrin diskussiya xarakteri almasına səy göstərməlidir.

Aparılmış bütün işlərlə bağlı dərsin sonunda nəticənin çıxarılmasına diqqət yetirilir. Bu, müəllimin istiqamətləndirici sualları əsasında həyata keçirilir. Sinif yekun qənaətə ikinci dərsdə – əsərin məzmununun mənimsənilməsi tamamlandıqdan sonra gəlir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Məhəmmədhüseyn Şəhriyar.**
**"Heydərbabaya salam"** – 4 saat
*İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Poemada tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.4.** | • Poema janrının xüsusiyyətlərini müəyyənləşdirir. |
| **1.1.5.** | • Poemada bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin gedişi**

Poemanın evdə oxunmuş ikinci hissəsinin məzmununun və tanış olmayan sözlərin mənasının hansı səviyyədə qavranıldığı fərqli yollarla müəyyənləşdirilə bilər. Bütün hallarda, müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Şagirdlərə evdə oxunmuş hissəni bir daha nəzərdən keçirmək, sonra kiçik qruplarda birləşərək dərslikdə təklif olunmuş tapşırığı ardıcıl olaraq yerinə yetirmək təklif olunur. Tapşırığın məzmunca dəyişdirilməsində müəllim sərbəstdir. Tapşırığa suallar əlavə etmək, yaxud onda ixtisar aparmaq bir sıra şərtlərlə (müəllimin məqsədindən, sinfin səviyyəsindən, reallaşdırılması nəzərdə tutulan standartlardan və s.) bağlıdır.

Dərs yaxşı planlaşdırıldıqda, vaxtdan qənaətlə istifadə edildikdə dərslikdə təklif edilmiş digər iki tapşırığa – müzakirəyə, poemanın janr xüsusiyyətlərinin müəyyənləşdirilməsinə vaxt ayırmaq mümkün olur. İkinci tapşırığın fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur.

Bütün bu proses **tədqiqatın aparılması** mərhələsi kimi qəbul edilir.

**Məlumat mübadiləsi, müzakirə.** Qrup işlərinin nəticələri təqdimatlar əsasında müzakirə olunur. Şagirdlərin yerinə yetirdikləri tapşırıqlarda fərqli fikirlərin meydana çıxmasına imkan verən məqamlar da vardır. Müəllim bundan istifadə edərək müzakirənin diskussiyaya çevrilməsinə səy göstərməlidir. Müzakirədə hələ formalaşmamış, pərakəndə fikirlərin meydana çıxması təbiidir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində indiyə kimi deyilmiş bütün fikirlər ümumiləşdirilməli, vahid ideya şəklinə salınmalıdır. Nəticədə şagirdlər vətənini, el-obasını, onun hər qarış torpağını, daşını, ünsiyyətdə olduğu və olmadığı həmyerlilərini sonsuz məhəbbətlə sevən həssas şair obrazı barədə dolğun təsəvvür qazanmış olurlar. Onlarda belə bir qənaət möhkəmlənir ki, şair xatirələrini danışmaqdan yorulmur, aşıb-daşan məhəbbət dolu hisslərini ifadə etməkdən usanmır. Müəllif fərəh, sevinc hisslərini, özünə hakim kəsilmiş şirinli-acılı düşüncələrini hamı ilə bölüşmək istəyir... Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsi diqqət mərkəzində saxlanılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Məhəmmədhüseyn Şəhriyar.**
**"Heydərbabaya salam"** – 4 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Müəllifin mühakimələrindən çıxış etməklə poemanın qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.3.** | • Poemada bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.2.1.** | • Poema ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi bir neçə şagirdin təqdimatının dinlənilməsi və digər şagirdlərlə fəal müzakirə əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollardan istifadə etmək mümkündür. Motivasiyanın yaradılması yollarından biri də dərslikdəki "Düşünün" başlıqlı sual (*Xalq adət-ənənələrinin geniş əks olunduğu əsərlər sizdə hansı hiss və düşüncələr yaradır?*) əsasında yığcam müsahibənin aparılmasıdır. Müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə gətirib çıxarır.

***Tədqiqat sualı:*** Sizcə, aşağıdakı fikirlərdən hansı poemanın ideya-məzmununu daha dolğun ifadə edir?

1. Poemada şairin vətən sevgisi, onun təbiətinə vurğunluq, yurddaşlarına, dərin məhəbbət və rəğbət hissi ifadə olunmuşdur.
2. Poemada şairin yurddaşlarına, doğma vətəninə dərin məhəbbəti və ciddi taleyüklü problemlərə münasibəti əks olunmuşdur.

Səsləndirilən fərziyyələr lövhədə qeyd olunur. Bu fərziyyələrin yoxlanılması üçün araşdırmaların aparılmasının vacib olduğu xatırladılır.

**Tədqiqatın aparılmasını** fərqli təlim metodlarının, iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına müraciət edilməsi məqsədəuyğundur.

"Əsərin təhlilinə hazırlaşın" mətni ilə tanışlıq poema barədə şagirdlərdə xeyli təsəvvür yaradır. Bütün qrupların tədqiqat ərəfəsində mətnlə ətraflı tanış olmalarına, yaranmış sualların şagirdlərin fəallığı şəraitində aydınlaşdırılmasına vaxt ayrılır.

"Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı sual və tapşırıqlar iş vərəqlərində şagirdlərə təqdim olunur. Qruplar tapşırıq üzərində işləyərkən müəllim onların fəaliyyətini istiqamətləndirir, hazırlanan cavablarda hansı məqamlara diqqət yetirməyin vacib olduğunu qeyd edir. Poemada əksini tapmış ciddi mətləblərin – kəndin ağır güzəranı, dolanışığı, ədalətsizliyin, haqsızlığın tüğyan etməsi, "məzlumların ahını" dinləyənin tapılmaması, yurdun "yaman günə salınması", "qanlı zindana", "acı şərbətə" dönməsi, sabaha inamsızlıq və s. açıqlanması ciddi araşdırma, əsər üzərində diqqətli müşahidə tələb edir. Qrupların işini daim izləyən müəllim yönəldici suallardan istifadə etməklə şagirdlərin diqqətini bu qəbildən məqamlara da cəlb edir.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində kiçik qrupların təqdimatı dinlənilir, fikir mübadiləsi və müzakirə aparılır. Müzakirənin səmərəli olması üçün sərbəst diskussiya şəraitinin yaradılması vacibdir. Müəllim qrupların bir-birinin fikirlərinə əlavələr etmələrinə və tənqidi münasibət bildirmələrinə istiqamət verir.

**Nəticə, ümumiləşdirmə.** Bu mərhələdə də şagirdlərinin maksimum fəallığına nail olmaq lazımdır. Əvvəlki mərhələlərdə görülmüş işlər və müəllimin yönəldici sualları şagirdlərdə belə bir qənaət formalaşdırır ki, əsərin hər kəlməsində, hər cümləsində yurdun keçmişinə, xalq adət-ənənələrinə bağlı olan, vətənin əsrarəngiz təbiətini ürəkdən sevən bir insanın – müəllifin səmimi səsi eşidilir. O, vətənin dərdlərini özününkü sayır, başının üstünü duman alan, məhrumiyyət içində çapalayan yurdunu "yaman günə" salanlara nifrətini gizlətmir.

Çıxarılmış nəticələrin tədqiqat sualı və şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisə edilməsinə xüsusi diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Məhəmmədhüseyn Şəhriyar.**
**"Heydərbabaya salam"** – 4 saat
*Dördüncü saat*: **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** | • Poemanı ideya-məzmununa uyğun ifadəli oxuyur. |
| **2.1.1.** | • Poema ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.2.1.** | • Poema ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına müxtəlif yollarla nail olmaq mümkündür. Məsələn, Şəhriyarın ifasında poemadan parçaları səsləndirmək, oxucuda yaranan hiss və düşüncələrlə bağlı müsahibə aparmaq olar. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı:*** Poemanın bu gün də sevilə-sevilə oxunmasına, ona marağın gündən-günə artmasına səbəb, sizcə, nədir?

Sualla əlaqədar deyilmiş fikirlər dinlənilir və lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması**. Dərslikdəki "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlıqlı tapşırığın birinci bəndi kiçik qruplarda iş formasının tətbiqi ilə həyata keçirilir. Bu tapşırıq poemanın ideya-bədii keyfiyyətinin dəyərləndirilməsi, ədəbiyyat tarixində ləyaqətli yer tutmasının aydınlaşdırılması baxımından əhəmiyyətlidir. Beləliklə, əsərin həmişəyaşarlılığının səbəbləri barədə şagird təsəvvürü xeyli zənginləşir və konkretləşir.

Sonda qruplararası **məlumat mübadiləsi və müzakirə** aparılır. Bütün qruplar eyni tapşırıq üzərində işlədiyindən məlumat mübadiləsi müzakirə ilə qovuşur, ciddi diskussiyaya yol açılır. Əsərin möhtəşəmliyini, uzunömürlülüyünü təmin edən konkret faktlar üzərində dayanılır.

**Nəticə və ümumiləşdirmə** mərhələsində şagirdlərdə belə bir qənaət formalaşır ki, "Heydərbabaya salam" xalqın ruhundan, arzu və istəklərindən süzülüb gələn, onun mənəvi gücünü və qüdrətini nümayiş etdirən, ana dilinin zənginliyini ləyaqətlə əks etdirən möhtəşəm bir əsərdir. Əsəri oxuduqca insan özünü baş verənlərin mərkəzində hiss edir, təhkiyəçiyə yoldaş olur, onun hisslərinə, dərdlərinə şərik çıxır. Əsərin bütün zamanlarda sevilməsinin, əvəzlənən nəsillərin sönməyən maraqla üz tutduğu qiymətli abidəyə çevrilməsinin bir mühüm səbəbi də elə budur.

Çıxarılmış nəticənin şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsinə, tədqiqat sualı ilə necə səsləşməsinə diqqət yetirilir.

Vaxtdan qənaətlə istifadə edilməsi ifadəli oxu ilə bağlı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsinə imkan verir. Şeirin bir, yaxud iki bəndi üzərində dərslikdə qeyd olunmuş işlərin fərdi şəkildə yerinə yetirilməsi məqsədəuyğundur. Parçanın ifadəli oxusu zamanı ifaçının hansı vəzifəni yerinə yetirəcəyi barədə işin əvvəlində müsahibə aparmaq faydalıdır. Sonda bir neçə ifa dinlənilir və onlara münasibət bildirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

# DÜNYA ƏDƏBİYYATI

*Mövzu:* **Ernest Heminquey. "Qoca və dəniz"** – 4 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Povestdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.3.** | • Povesti hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| **1.1.5.** | • Povestdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Povestlə bağlı müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Həmin prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür**.** Dərslikdəki "Yada salın" başlıqlı suallardan istifadə vaxta qənaət baxımından məqsədəuyğundur. Həmin suallar əsasında aparılan yığcam müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı:*** Məqsədə yalnız iradənin gücü ilə çatmaq mümkündürmü?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Povestin məzmununun öyrənilməsinə oxu növlərindən birinin tətbiqi ilə başlamaq olar. Seçim etməkdə müəllim sərbəstdir. O, sinfin səviyyəsindən, oxunun növ və formaları ilə şagirdlərin tanışlıq dərəcəsindən, reallaşdıracağı standartdan və s. çıxış etməklə bu məsələni həll edir.

Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına, məcazların müəyyənləşdirilməsinə diqqət yetirilir.

Əsərin ilk iki parçasının oxusuna ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər mətnkənarı suallara cütlük şəklində cavab hazırlayırlar. Mövqeləri yaxın olan cütlər kiçik qruplarda birləşirlər. Cavablarını dəqiqləşdirən və ümumiləşdirən şagirdlər təqdimata hazırlaşırlar.

**Məlumat mübadiləsi və müzakirə.** Təqdimatlar əsasında aparılan məlumat mübadiləsi qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmalarına imkan yaradır. Müzakirədə bütün sinfin fəal iştirakına, şagirdlərin hər birinin öz fikrini sərbəst söyləməsinə nail olunmalıdır. Mətnkənarı suallar təkcə məzmunla bağlı olmadığından geniş diskussiyaya yol açır. Müəllim diskussiyanı suallar vasitəsi ilə səmərəli səmtə yönəldir.

Dərslikdəki növbəti tapşırıq (tərtib olunmuş plan əsasında bir hissənin məzmununun geniş danışılması) mətnin dərindən qavranılması, şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsi baxımından faydalıdır. Cavabların diqqətlə dinlənilməsi təmin edilməli, müzakirəsinə vaxt ayrılmalıdır.

Müəllim çalışmalıdır ki, müzakirələrdə şagirdlərdə mübahisəyə dözümlülük, tənqidi fikirlərə hörmət hissi formalaşsın.

Yekun nəticənin çıxarılması əsərin məzmunu bütövlükdə mənimsənildikdən sonra – ikinci dərsdə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **E.Heminquey. "Qoca və dəniz"** – 4 saat
*İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** | • Povestdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| **1.1.3.** | • Povesti hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yaradıcı nağıl edir. |
| **1.1.5.** | • Povestdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| **2.2.1.** | • Povestlə bağlı müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Povestin evdə oxunmuş parçalarının məzmununun və tanış olmayan sözlərin mənasının hansı səviyyədə qavranıldığı müxtəlif yollarla müəyyənləşdirilə bilər. Bütün hallarda, müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur. Keçən dərsdə başlanmış **tədqiqat** işi məzmunun öyrənilməsinə həsr olunan ikinci dərsdə davam etdirilir. Cütlük şəklində iş formasını seçən müəllim şagirdlərə evdə oxuduqları 3-cü və 4-cü parçaların məzmununa aid suallar və onların cavablarını hazırlamağı təklif edir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra cavabları məzmunca yaxın olan cütlüklər kiçik qruplarda birləşərək fikirlərini dəqiqləşdirir və ümumiləşdirirlər. Bu prosesdə müəllim qrupdakı şagirdlərin əməkdaşlığına xüsusi diqqət yetirir.

**Məlumat mübadiləsi, müzakirə.** Qrup işlərinin nəticələri təqdimatlar əsasında müzakirə olunur. Müzakirənin səmərəli keçməsi üçün müəllim istiqamətləndirici suallardan istifadə edir, hər kəsin öz fikrini sərbəst ifadə etməsinə imkan yaradır. O, cavabların əsaslandırılmasına, fərqli fikirlərə tənqidi, eyni zamanda dözümlü münasibət göstərilməsinə diqqət yetirir.

İndiyə qədər deyilmiş fikirlərin əsasında yekun qənaətin formalaşdırılması **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində mühüm vəzifə kimi qarşıya qoyulur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, məqsədinə çatmaq üçün insan çox vaxt çətin sınaqlarla üz-üzə qalır. Bu sınaqlardan üzüağ çıxmaq üçün o, çalışmalı, mübarizə aparmalı olur. Bunun üçün isə ondan böyük iradi qüvvə, əzmkarlıq tələb olunur. Lakin uğur qazanmaq, məqsədə çatmaq üçün hələ bunlar

kifayət deyildir; çətinliklərin öhdəsindən gəlmək üçün təcrübəni nəzərə almaq, ağılla, düşüncə ilə hərəkət etmək vacibdir. Ağıl, zəka və möhkəm iradə qovuşaraq insanı yenilməz edir, qüdrətli, məğlubedilməz varlığa çevirir.

Çıxarılmış nəticənin tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

Dərslikdə təklif edilmiş "**Bilik və bacarıqlarınızı tətbiq edin**" başlıqlı tapşırıqları şagirdlər fərdi olaraq yerinə yetirirlər. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra bir neçə təqdimatın və nağıletmənin dinlənilməsi, müzakirəsi həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Ernest Heminquey. "Qoca və dəniz"** – 4 saat
## *Üçüncü saat*: **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə povestin qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.4.** | • Povestin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.2.** | • Povestin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |
| **2.2.1.** | • Povestlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün fərqli yollardan istifadə etmək mümkündür. Bunlardan biri də dərslikdəki "Düşünün" başlıqlı sual ("İnsanın məğlubiyyəti yalnız müvəqqəti ola bilər" fikrini doğru saymaq olarmı?") əsasında yığcam müsahibənin aparılmasıdır. Müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə gətirib çıxarır.

***Tədqiqat sualı:*** Bu əsəri yazmaqda yazıçının əsl niyyəti, sizcə, nədir?

Səsləndirilən fərziyyələr lövhədə qeyd olunur. Bu fərziyyələrin yoxlanılması üçün araşdırma aparmağın vacib olduğu xatırladılır.

**Tədqiqatın aparılmasını** fərqli təlim metodlarının, iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Bütün hallarda dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına müraciət edilməsi məqsədəuyğundur.

Müəllimin müxtəlif mənbələrdən aşağıdakı qəbildən məlumatları toplayaraq şagirdlərə – bütün qruplara təqdim etməsi tədqiqatın səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir: *"Qoca və dəniz"də Heminquey Allahı tapdı. Orada nəhəng balıq var; Allah bu nəhəng balığı yaradıb ki, onu ovlasınlar. Allah qocanı da yaradıb ki, bu nəhəng balığı tutsun. Allah bu balığı yeməli olan akulanı da yaradıb və Allah onların hamısını eyni məhəbbətlə sevir. Deməli, Ernest Heminqueyin qənaəti belədir ki, hər şeyi Allah yaradıb və Allah yaratdıqlarının hər birini eyni məhəbbətlə sevir". (U. Folkner)*

Kiçik qruplarda iş formasını seçən müəllim "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırığın sualları əsasında hazırlanmış iş vərəqlərini (hər qrupa bir sual ayrılmaqla) şagirdlərə təqdim edir. Tədqiqat başlanmamışdan əvvəl qrupların təlimatlandırılması məqsədəuyğundur. Başlıcası isə, qruplardan hər birinin icra edəcəyi işin məğzi barədə aydın təsəvvür qazanmasına nail olunmalıdır.

**Məlumat mübadiləsi.** Bu, geniş fikir mübadiləsinin həyata keçirildiyi mərhələdir. Başqa sözlə, qrupların bir-birinin işinin məzmunu barədə əhatəli məlumat eşitməsi və mənimsəməsi vacibdir. Bu, müzakirənin səmərəli keçməsini təmin edən mühüm şərtlərdəndir. Qrup sözçülərinin əhəmiyyətli, daha vacib məsələlərin üzərində dayanmalarına, sözçülüyə, təkrara yol verməmələrinə diqqət yetirilməlidir. Bu mərhələdə söylənilmiş fikirlərdə pərakəndəliyin, birtərəfli, yaxud yanlış mülahizələrin mövcud olmasına təbii baxılmalıdır.

**Məlumatın müzakirəsi və təşkili.** Fikirləri əlaqələndirmək, aralarında körpü salmaq, maksimum ümumiləşdirmə aparmaqla sistemləşdirmək bu mərhələdə diqqət mərkəzində saxlanılır. Bütün bunlar müəllimdən yüksək səriştə və çeviklik tələb edir. Yanlış və birtərəfli mülahizələri şagirdlərin özlərinin aradan qaldırmalarına nail olmaq üçün o, istiqamətləndirici suallardan məharətlə istifadə edir, "nə üçün?", "niyə?", "hamı belə düşünürmü?", "kimin mövqeyi fərqlidir?", "daha tutarlı nümunə ola bilərmi?" və s. suallarla müzakirənin canlı, məhsuldar keçməsinə çalışır. Müzakirənin səmərəli təşkili şagirdlərin fəallığına, ardıcıl olaraq dialoqa girmələrinə səbəb olur.

**Nəticə, ümumiləşdirmə.** Müəllimin istiqamətləndirici sualları əsasında ümumiləşdirmə aparan şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, əsərdə insanın, təbiətin və bütün canlıların bir-biri ilə qarşılıqlı əlaqədə mövcud olması fikri əsaslandırılmışdır. Onların hər birinin mövcudluğu, hər birinin həyatı digəri üçün önəmlidir. Onlar bir-birindən yararlanaraq mövcud olmaq imkanı qazanır və həyat davam edir. İnsan ağlı, zəkası, əzmi, tükənməz qüdrəti ilə ucadır. Yer üzünün əşrəfi olan insan öz əməyi, polad iradəsi ilə bütün mövcud olanların fövqündə durmaq haqqını qazanmışdır.

Çıxarılmış başlıca nəticənin şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsinə, tədqiqat sualı ilə əlaqəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Ernest Heminquey. "Qoca və dəniz"** – 4 saat
*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.4** | • Povestin janr xüsusiyyətlərini müəyyənləşdirir. |
| **1.2.1.** | • Povesti janr və növ baxımından hekayə ilə müqayisə edir. |
| **2.2.1.** | • Povestlə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir, müvafiq qiymətləndirmə meyarına müraciət olunur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına müxtəlif yollarla nail olmaq mümkündür. Məsələn, qoca balıqçının düşüncələri ilə bağlı müsahibə təşkil etməklə tədqiqat sualını formalaşdırmaq olar. Yaxud məşhur alimlərin, yazıçıların povest haqqındakı fikirləri əsasında müsahibə təşkil etməklə tədqiqat sualını müəyyənləşdirmək mümkündür.

***Tədqiqat sualı:*** "Qoca və dəniz" povesti hansı keyfiyyətlərinə görə bugünkü oxucu üçün əhəmiyyətli sayıla bilər?

Fərziyyələr dinlənilir və qeyd edilir. Fərziyyələrin fərqli olduğuna diqqəti çəkən müəllim onların yoxlanılmasının – tədqiqatın aparılmasının zəruri olduğunu qeyd edir.

**Tədqiqatın aparılması**. Dərslikdəki "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlıqlı tapşırıqların yerinə yetirilməsi üzrə işi fərqli formalarda təşkil etmək olar. Dərslikdə, ilk növbədə, müzakirə üçün mövzular təklif edilmişdir. Şagirdlərin hamısının (cütlük şəklində, yaxud kiçik qruplarda) həmin mövzuların hər birinin üzərində işləməsi və müzakirəyə hazırlaşması vacibdir. Müəllim əsərdən nümunələrin seçilməsinə, tapşırıqların ardıcıl yerinə yetirilməsinə diqqət edir.

Müəllim **müzakirəni** necə təşkil edəcəyini əvvəlcədən planlaşdırmalıdır. Bu dərsdə məlumat mübadiləsi önəmli deyildir; mövzuların ardıcıl müzakirəsi birbaşa müəllimin təşkilatçılığı, istiqamətləndirici sualları ilə həyata keçirilir.

Dərslikdə təklif olunmuş debat ("İnsan övladı məğlubiyyət üçün yaranmayıb. Onu məhv etmək olar, məğlub eləmək olmaz") bu mərhələ ilə qovuşur. Debat üzrə aparılan iş, eləcə də müzakirə "povest mövzusuna, qaldırdığı problemə, bütövlükdə ideya-məzmununa görə dünya ədəbiyyatını zənginləşdirən gözəl sənət əsəridir" fikrinin üzərində köklənir.

Dərslikdəki növbəti tapşırıq fərdi olaraq yerinə yetirilir. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi faydalıdır.

**Nəticə və ümumiləşdirmə** mərhələsində şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, əsərdə bədii həllini tapmış məsələlər – insan mənəviyyatı, onun ətraf mühitə münasibəti, gerçəkliklə əlaqəsi, yenilməzliyi, qüdrəti sənəti və cəmiyyəti bütün zamanlarda düşündürən aktual problem olmuşdur. Həyatın mənası, onun fəlsəfəsi həcmcə heç də böyük olmayan bu povestdə təkrarolunmaz müdrikliklə araşdırılmış və əvəzolunmaz sənətkarlıqla ifadə edilmişdir.

Çıxarılmış nəticənin şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisəsi, tədqiqat sualı ilə necə səsləşməsi diqqət mərkəzində saxlanılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən 39-45-ci səhifələrdə verilmiş müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə cədvəllərdən istifadə məqsədəuyğundur.

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## SİNİFDƏNXARİC OXU DƏRSİ

**Zəlimxan Yaqub "Dur ayağa, məmləkətim!" şeiri** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə şeirin lirik qəhrəmanını səciyyələndirir. |
| **1.2.3.** | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| **1.2.4.** | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| **2.1.1.** | • Şeirlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.1.2.** | • Şeirin mövzusuna, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

Dərsə hazırlıq dövründə bütün şagirdlərin şairin yaradıcılığı ilə tanış olması, sinifdənxaric oxu üçün tövsiyə olunan "Dur ayağa, məmləkətim!" şeirini mütaliə etməsi, ədəbiyyat dəftərində qeydlər aparması diqqət mərkəzində saxlanılır. Kiçik qruplar müəllimin tövsiyəsi ilə sinifdənxaric oxu dərsinə hazırlıq işləri görür, şairə həsr olunmuş guşə, əsərlərindən ibarət kitab sərgisi təşkil edir, internet materialları toplayır. Dərsdə nümayiş etdirilmək üçün videomateriallar, şairin sözlərinə yazılmış mahnılar seçilir.

### Dərsin gedişi

**Motivasiya, problemin qoyuluşu.** Dərsin əvvəlində şairin 65 illiyi münasibətilə çəkilmiş filmdən (https://www.youtube.com/ watch?v=21Y-n-FPsX4) fraqment, çıxışının videoyazısı nümayiş etdirilir. "Ananın səsi" mahnısı (https://www.youtube.com/watch?v=jAX5ohklnVM) dinlənilir. Sonra "Hədəf Bakıdır" filmindən (https://www.youtube.com/watch?v=kQGKmJqpG5I) fraqmentlərə baxış keçirilir. Rəy mübadiləsi aparılır, nəticədə tədqiqat sualı müəyyənləşdirilir.

*Tədqiqat sualı:* Şeirdə müəllifin əsl niyyəti, sizcə, nədir?

Şagirdlərin fərziyyələri dinlənilir, lövhədə qeyd edilir.

**Tədqiqatın aparılması.** Tapşırıqların əks olunduğu iş vərəqləri kiçik qruplara təqdim olunur.

**I qrup**

**Bəndləri diqqətlə oxuyun, sual və tapşırıqlar üzrə təqdimata hazırlaşın.**

Düşmən bilir, bu torpağın altı nədir, üstü nə,
Onunçün də od yağdırır gecə-gündüz üstünə.
Qurban olum dumanına, qurban olum tüstünə,
Qılınca dön, həqiqətim, qalxana dön, qeyrətim!
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Şuşa, Laçın, Xocalı qovrulur öz yağında,
Yetmiş yeddi yara var sinələrin dağında.
Vaqif, Şəmşir, Ələsgər düşmənin tapdağında,
Dağ yandırar intizarım, daş yandırar həsrətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

1. Şeirdə düşmənin vətənimizə göz dikməsinin səbəbi haqqında nə deyilir?
2. Doğma torpağın işğal olunması şairə necə təsir edir?
3. Vaqif, Şəmşir, Ələsgər dedikdə şair kimləri nəzərdə tutur?
4. Aşağıdakı nümunələrdə hansı bədii təsvir və ifadə vasitələri işlənib və onlar fikrin təsir gücünü necə artırır?

| Əsərdən nümunələr | Bədii təsvir və ya ifadə vasitəsinin növü | Fikrin təsir gücünün artmasında rolu |
|---|---|---|
| Düşmən bilir, bu torpağın altı nədir, üstü nə, Onunçün də od yağdırır gecə-gündüz üstünə. | | |
| Şuşa, Laçın, Xocalı qovrulur öz yağında... | | |
| Dağ yandırar intizarım, daş yandırar həsrətim! | | |
| Dur ayağa, məmləkətim, dur ayağa millətim! | | |

**II qrup**

**Bəndləri diqqətlə oxuyun, sual və tapşırıqlar üzrə təqdimata hazırlaşın.**

Məzarsızdır meşələrdə qaçqın olub ölənlər,
Kəfənsizdir son tikəni körpəsiylə bölənlər.
Qismətimiz uçurumlar, aşırımlar, bələnlər,
İçərimi yedi-tökdü hirsim, kinim, nifrətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

İtkinlərin tapılsa da, ölənlərin dirilməz,
Baltalanıb budanmışam, budaqlarım gərilməz.
Ağac əkdim, meyvələri öz əlimlə dərilməz,
Yağıların pəncəsində cəhənnəmdir cənnətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

1. Əsərdə xalqımızın itkiləri: qaçqınlar, şəhidlər haqqında hansı fikirlər söylənilir?
2. Şair nə üçün öz hirsindən, kinindən, nifrətindən söz açır?
3. “Ağac əkdim, meyvələri öz əlimlə dərilməz” misrasında ifadə olunmuş fikri aydınlaşdırın.
4. “Yağıların pəncəsində cəhənnəmdir cənnətim” misrasında hansı bədii ifadə vasitəsinin işləndiyini, fikrin təsir gücünün artmasında rolunu izah edin.

**III qrup**
**Bəndləri diqqətlə oxuyun, sual və tapşırıqlar üzrə təqdimata hazırlaşın.**

Haqsız meydan suladıqca əlimizdən haqq gedir,
Gözümüzdən arx açılır, çay gedir, bulaq gedir.
Qarış-qarış, parça-parça yurd gedir, torpaq gedir,
Mən ki əsir olmamışam, nədir bu əsarətim?
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Nifrətini silah elə, gəl, silahı gözləmə,
Sarıl bu inamına, gəl, sabahı gözləmə.
Haqqa güvən, nə gədanı, nə də şahı gözləmə,
Ona-buna göz dikənə yoxdur mənim rəğbətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

1. “Haqsız meydan suladıqca əlimizdən haqq gedir” misrasında ifadə olunan fikri aydınlaşdırın.
2. “Mən ki əsir olmamışam, nədir bu əsarətim?” misrasında hansı bədii ifadə vasitəsi işləndiyini, fikrin təsir gücünün artmasında rolunu izah edin.
3. “Nifrətini silah elə, gəl, silahı gözləmə, Sarıl bu inamına, gəl, sabahı gözləmə” – şairin belə qənaətə gəlməsinə səbəb nədir?
4. Şair “Ona-buna göz dikənə yoxdur mənim rəğbətim” dedikdə nəyi nəzərdə tutur?

**IV qrup**
**Bəndləri diqqətlə oxuyun, sual və tapşırıqlar üzrə təqdimata hazırlaşın.**

Torpağımız neçə dəfə tapdalanmış, talanmış,
Durugözlü çeşmələrə qızıl qanlar calanmış.
Babəkim də, Koroğlum da, Xətayim də yalanmış,
Haqqımızı qaytarmasaq, sən arxasız, mən yetim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Nə Tərtərdə ləzzət qaldı, nə Qarqarda, Xaçında,
Oğul qanı xınalandı anaların saçında.
Şəhid oldum Xocalıda, şəhid oldum Laçında,
Bu yolların son ucunda şəhidlikdir qismətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

1. Şair nə üçün "Babəkim də, Koroğlum da, Xətayim də yalanmış, Haqqımızı qaytarmasaq, sən arxasız, mən yetim" deyir?
2. "Oğul qanı xınalandı anaların saçında" misrasında ifadə olunan fikri şərh edin.
3. Aşağıdakı nümunələrdə hansı bədii təsvir və ifadə vasitələri işlənib və fikrin təsir gücünün artmasında onların rolu nədən ibarətdir?

| Əsərdən nümunələr | Bədii təsvir və ya ifadə vasitəsinin növü | Fikrin təsir gücünün artmasında rolu |
|---|---|---|
| Durugözlü çeşmələrə qızıl qanlar calanmış | | |
| Şuşa, Laçın, Xocalı qovrulur öz yağında | | |
| Dağ yandırar intizarım, daş yandırar həsrətim | | |
| Dur ayağa, məmləkətim, dur ayağa millətim | | |

**V qrup**
**M.Arazın "Əsgər oğul" şeirini nəzərdən keçirin, bir-birinizlə əməkdaşlıq etməklə tapşırığı yerinə yetirin.**

1. Mövzu, problem, ideya baxımından "Dur ayağa, məmləkətim!" və "Əsgər oğul" şeirlərinin oxşar və fərqli cəhətlərini müəyyənləşdirin. Müqayisə cədvəlindən istifadə edin.

| Hansı cəhətlərinə görə müqayisə olunurlar? | Əsərlərin adı | |
|---|---|---|
| | "Dur ayağa, məmləkətim!" | "Əsgər oğul" |
| Mövzu | | |
| Problem | | |
| İdeya | | |

2. Şeirdən iki bəndin ifadəli oxusunu hazırlayın. Şərti işarələrdən istifadə edin.

**Məlumat mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılmasına ayrılmış vaxt başa çatdıqdan sonra təqdimatlar dinlənilir. Müzakirədə şagirdlərin lirik qəhrəman

obrazına, əsərin bədii xüsusiyyətlərinə münasibətinə aydınlıq gətirilir. Bu mövzuda əsərlərin müasir dövr üçün əhəmiyyəti barədə fikirlərin dinlənilməsinə və müzakirəsinə önəm verilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmə aparılması mərhələsində** şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, vətənimizin düşdüyü vəziyyətlə heç cür barışmayan şair doğma xalqına müraciət edərək hamının qəlbindən keçənləri dilə gətirir: Vətən torpağı xilas edilməlidir, bunu yalnız özümüz edə bilərik!

Çıxarılmış nəticə fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

Formativ qiymətləndirmədə şagirdlərin fəallığı, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə təmin olunur. Bunun üçün müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir. Bu istiqamətdə işin ardıcıl və səmərəli təşkili şagirdlərin meyarlara əsaslanmaqla özünüqiymətləndirmə bacarığını inkişaf etdirmələrinə əhəmiyyətli təsir göstərə bilər.

**Evdə iş.** "Qarabağı azad etmək üçün hansı şərtlərin olmasını vacib sayıram" mövzusunda məruzəyə hazırlaşın.

## ALTINCI BÖLMƏ ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Həbib Sahirin “Səhənd dağı” şeiri üzrə aparıla bilər*

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Bu şeiri mövzu, ideya baxımından hansı əsərlə müqayisə etmək olar?

   A) S.Vurğun“Ananın öyüdü”
   B) M.Müşfiq “Həyat sevgisi”
   C) İ.Şıxlı “Namərd gülləsi”
   D) M.Şəhriyar“Heydərbabaya salam”
   E) İ.Hüseynov “Zəhər”

2. Əsərlə bağlı hansı fikir səhvdir?
   A) Cənubi Azərbaycanın təbiəti tərənnüm olunur.
   B) Şairin Səhənd dağına məhəbbəti öz əksini tapıb.
   C) Səhənd dağının həsrətindən söz açılır.
   D) Şeirdə Azərbaycan dilinin özünəməxsus ahəngi olan cənub dialektini əks etdirən sözlər işlənib.
   E) Şeirdə azadlıq uğrunda mübarizəyə çağırış var.

3. “Od yandırıb qaranlıqda, toy tutun” misrasında hansı fikir ifadə olunub?
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
_________________________________________________________________

4. Misralardakı bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin, fikrin təsir gücünün artmasında onların rolunu izah edin.

| **Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misralar** | **Növü** | **Fikrin təsir gücünün artmasında rolu** |
|---|---|---|
| Şəfəq gülür suda, Səhənd oyanır | | |
| Çıraq kimi qızıl lalə yandırıb, | | |
| Yaşıl xalı döşəmişəm hər yerə. | | |
| Deyin görüm, bu bir ildə nə gördüz?<br>Nə eşitdiz bu dünyada, obalar? | | |

5. Şeir hansı mövzuda yazılmışdır? Fikrinizi əsaslandırın.

______________________________________________________________________

______________________________________________________________________

6. Şeir hansı vəzndə yazılmışdır? Fikrinizi əsaslandırın.

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

7. Misraların ifadəli oxusunda səsin aldığı çalarları müəyyənləşdirib qarşısında qeyd edin.

Sizdən uzaq, qara günlər görmüşəm,
Çox çəkmişəm həsrətizi, bir il var,
Deyin görüm, bu bir ildə nə gördüz?
Nə eşitdiz bu dünyada, obalar?

A) Həsrət, sual
B) Sevinc, fərəh
C) Narazılıq, etiraz
D) Qəm, kədər
E) Heyrət, təəccüb

8. Bənddə fasilələrin yerini, məntiqi vurğulu sözləri müəyyənləşdirib, şərti işarələrlə götərin.

Gəlin için sularımdan doyunca,
Dağın malı yellərindir, selindir,
Qayalarım, suyum, otum, otlağım,
Ətəyimdə bəslədiyim elindir.

9. Şeirdəki başlıca fikir – ideya, sizcə, nədir?

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

10. Şeirin sizdə Cənubi Azərbaycan, onun təbiəti ilə bağlı doğurduğu hiss və düşüncələri yığcam esse şəkilndə yazın.

______________________________________________________________________

______________________________________________________________________

# GÜNDƏLİK PLANLAŞDIRMAYA AİD NÜMUNƏLƏR

*Mövzu:* **Əhməd Cavad. “Azərbaycan bayrağına”** – 2 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (poema, hekayə, povest, roman, dram) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərin köməyi ilə aydınlaşdırır. |
| 1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metonimiya, inversiya, simvol) müəyyənləşdirir. | • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

**Dərsin tipi:** induktiv; bədii əsərin öyrənilməsi.
**İş forması:** fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**İnteqrasiya:** Az.d. – 2.1.1., X.d. – 1.1.2. 3.1.4.
**Metod və priyomlar:** əqli hücum, müsahibə, ikihissəli gündəlik, izahlı oxu, problemin həlli, müzakirə, təqdimat.
**Təchizat**: Dərslik, lüğətlər, iş vərəqləri, şeirin məzmununa uyğun şəkillər, şairin portreti, http://www.president.az/azerbaijan/symbols, https://az.wikipedia.org/wiki/Azərbaycan _bayrağı

### Dərsin gedişi

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün müxtəlif yollardan – rəmzi (simvolik) materiallardan, suallardan və s. istifadə etmək mümkündür. Motivasiyanın yaradılmasının səmərəli yollarından biri də Azərbaycan Respublikasının Himninin səsləndirilməsi və Dövlət Bayrağının nümayiş etdirilməsi ola bilər. Dərslikdəki “Yada salın” başlıqlı sualların əsasında yığcam müsahibə aparmaqla da motivasiyanı yaratmaq olar.

– Dövlət rəmzləri haqqında yazılmış hansı əsərlərlə tanışsınız?

– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

Birinci sualla əlaqədar şagirdlərlə dövlət rəmzləri haqqında geniş fikir mübadiləsi aparılır.

Müsahibə zamanı “Prezident.az” saytındakı Azərbaycan bayrağı ilə bağlı aşağıdakı materialın məzmunu şagirdlərin diqqətinə çatdırılır:

## Azərbaycan dövlətinin rəmzləri

(Konstitusiyanın 33-cü maddəsi)

I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir.

II. Azərbaycan Respublikasının Dövlət Bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət Bayrağının və Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət Himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.

## Dövlət Bayrağı

Azərbaycanda üçrəngli dövlət bayrağı 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraqdan imtina edilmişdir.

Bu bayraq ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edilmiş və Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.

1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.

Azərbaycan Respublikasının Dövlət Bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng – Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng – müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng – islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. “Ay-ulduz”un mənası – Bayrağın üzərindəki aypara türk xalqlarının simvoludur, səkkizguşəli ulduzun mənasına gəlincə bu, “Azərbaycan” sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada “Azərbaycan” sözü səkkiz hərflə yazılır. Bəzi tədqiqatçıların fikrincə isə, Rəsulzadə dövlətin prinsiplərini müəyyənləşdirərkən səkkiz prinsipə əsaslanıb: bunlar türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdir.

Ulu Öndər Heydər Əliyevin 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" sərəncamı dövlət atributlarının təbliği baxımından mühüm əhəmiyyət daşımışdır. “Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun” – deyə Ulu Öndər çıxışlarında dəfələrlə bildirmişdir.

2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı meydanının təntənəli açılış mərasimi keçirilmişdir. Mərasimdə çıxış edən Prezident İlham Əliyevin bayrağımızla bağlı fikirləri olduqca qürurvericidir. Dövlətimizin başçısı deyib: "Bayraq meydanı Bakını, bir mədəniyyət mərkəzinə, Azərbaycanın bir siyasi mərkəzinə çevriləcəkdir. Ölkəmizin mərkəzi olan Bakı şəhərində belə möhtəşəm meydanın yaradılması, doğrudan da, böyük hadisədir. Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndində, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşır.

***Tədqiqat sualı:*** Azərbaycanın dövlət rəmzi olan bayrağa həsr olunan əsərlərdə, sizcə, daha çox hansı hiss və düşüncələr əksini tapmalıdır?

Şagirdlərin fərziyyələri dinlənilir və qeyd olunur.

**Tədqiqatın aparılması.** Bu, fərqli təlim metodlarının, iş növü və formalarının (şeirdə izahına ehtiyac duyulan söz və ifadələrin, mətnaltı mənaların olduğu da unudulmamalıdır) tətbiqi ilə təşkil edilə bilər. Əsərin oxusu üzrə işin bir variantı dərslikdəki ardıcıllığın gözlənilməsi ola bilər.

1. Şeiri fərdi olaraq səssiz oxuyun, ikihissəli gündəlikdə qeydlər edin.

| № | Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|---|
| | | |

2. Eyni, yaxud oxşar fikirdə olduğunuz yoldaşlarınızla kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün.
3. Çıxardığınız nəticələr barədə təqdimatlar etməklə fikir mübadiləsi və müzakirə aparın.

Şeiri fərdi səssiz oxuyan şagirdlər lüğətdəki izahlara əsaslanmaqla ikihissəli gündəlikdə qeydlər edirlər. Əsərə münasibətdə mövqeləri eyni, yaxud yaxın olan şagirdlərin kiçik qruplarda birləşmələrinə və fikirlərini bölüşmələrinə imkan yaradılır.

Qrup sözçülərinin təqdimatları əsasında **fikir mübadiləsi və müzakirə** aparılır.

Həmin prosesdə bədii təsvir və ifadə vasitələrinin hansı səviyyədə müəyyənləşdirildiyi aşkara çıxarılır. Müəllim müzakirənin səmərəli keçməsi, şeirin məzmunu barədə şagirdlərdə dolğun təsəvvürün yaranması məqsədi ilə istiqamətləndirici suallardan istifadə edə bilər.

Oxunun təşkilinin digər bir variantı isə ikihissəli gündəliyin arxa plana keçirilməsi ola bilər. Yəni şagirdlər şeiri müstəqil (fərdi səssiz) oxuduqdan sonra ehtiyac duyduqları mətləbləri müəllimin sualları əsasında aydınlaşdırırlar. Məhz bundan sonra ikihissəli gündəlikdə qeydlər aparırlar. Bu qeydlər hər bir şagirdin məzmunu necə qavradığını, əsərə ilkin münasibətini və s. aşkara çıxarmaq baxımından faydalıdır.

Oxunun hansı formada təşkilindən asılı olmayaraq, **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində həyata keçirilməli olan işlər diqqətdən kənarda qalmamalıdır. Söylənmiş fikirlərin ümumiləşdirilməsi, son qənaətin fərziyyələrlə müqayisə edilməsi ön plana çəkilir. Bu mərhələnin səmərəli keçməsi

üçün müəllimin əvvəlcədən istiqamətləndirici suallar hazırlaması və tətbiq etməsi məqsədəuyğundur.

Bu dərsdə vaxtdan səmərəli istifadə etdikdə şifahi təqdimat üçün təklif olunmuş tapşırığın yerinə yetirilməsinə imkan yaranır.

**Mövzulardan birini seçib şifahi təqdimat hazırlayın.**

a) Şeir müəllif haqqında təəssüratıma yeni nə əlavə etdi?
b) Şeirin məndə daha güclü təəssürat yaradan sözü, ifadəsi, misrası və bəndi.

Təqdimat üçün müəyyənləşdirilmiş mövzular həm məzmunun dərindən mənimsənilməsi, həm də təhlilin səmərəliliyi üçün əhəmiyyətlidir. Müəllim təqdimatların fəal dinlənilməsinə, müzakirənin diskussiya səciyyəli olmasına xüsusi diqqət yetirməlidir.

**Qiymətləndirmə**. Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
Aydınlaşdırma
Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından, əsasən, aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii təsvir və ifadə vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii təsvir və ifadə vasitələrini, əsasən, müəyyənləşdirir. | Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Ə.Cavad. “Azərbaycan bayrağına”** – 2 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metonimiya, inversiya, simvol) rolunu aydınlaşdırır. | • Şeirin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, əsaslandırılmış münasibət bildirir. | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. | • Şeirin mövzusuna müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**İnteqrasiya:** Az.d. – 2.1.2. 2.2.3., X.d. – 2.1.3. 3.1.4.
**Metod və priyomlar:** müsahibə, müzakirə, təqdimat.
**Təchizat:** dərslik, iş vərəqləri, əsərin məzmunu üzrə şəkillər.

**Dərsin gedişi**

Ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyini müəyyənləşdirmək üçün təqdimatların dinlənilməsi və müzakirə edilməsi daha məqsədəuyğundur. Müvafiq meyarlardan istifadə etməklə qiymətləndirmədə obyektivliyi təmin etmək olar.

Təhlil dərsini fərqli variantlarda təşkil etmək mümkündür. Məsələn, diskussiya, yaxud debatın tətbiqi dərsin canlı, maraqlı keçməsini təmin edə bilər. Bunun üçün əsərin ideya-bədii xüsusiyyətlərini açmağa imkan verən tutarlı sualın müəyyənləşdirilməsi vacibdir.

Dərs variantlardan biri aşağıdakı məzmunda ola bilər.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyaya fərqli yollarla nail olmaq mümkündür. Bunun üçün suallardan, rəmzi materiallardan (milli bayrağa həsr olunmuş mahnı, yaxud bədii əsərdən parçanın səsləndirilməsi, dövlət rəmzi kimi bayrağın əhəmiyyəti barədə tanınmış siyasi xadimin sözlərinin xatırladılması və s.) istifadə etmək olar. Müəllimin You Tube saytı vasitəsilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Bayraq meydanının təntənəli açılış mərasimini əks etdirən videosüjetə baxış təşkil etməsi daha məqsədəuyğundur (https://www.youtube.com/watch?v=W_UMdjovGS4).

Yaxud dərslikdəki “Düşünün” başlıqlı sual (Azərbaycanın Dövlət Bayrağına həsr olunmuş əsərlərdə hansı məsələlərə önəm verilməsini əhəmiyyətli hesab edirsiniz?) əsasında müsahibə aparmaq və tədricən tədqiqat sualını formalaşdırmaq mümkündür.

***Tədqiqat sualı:*** “Şeirdə yalnız Azərbaycanın deyil, bütün türk xalqlarının müstəqilliyi, azadlığı ideyası ifadə edilib” fikrini doğru saymaq olarmı?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Dərsin hansı variantda keçilməsindən asılı olmayaraq, tədqiqata başlamazdan əvvəl lirik şeirlərin təhlili ilə əlaqədar qazanılmış bilik və bacarıqların yada salınması və tətbiqinə istiqamət verilməsi faydalıdır. Şagirdlər təhlildə aşağıdakı məsələlərə diqqət yetirməyin vacib olduğunu xatırlayırlar:

– şeirin yaratdığı təəssüratın, hiss və düşüncənin açıqlanması;
– müəllifin şeirdə diqqəti cəlb etmək istədiyi başlıca problemin, mətləblərin müəyyənləşdirilməsi;
– əsərin bədii təsir gücünü artıran vasitələrin (təsvir və ifadə vasitələrinin və s.) rolunun aydınlaşdırılması;
– şeirdə ifadə olunmuş başlıca fikrin – ideyanın aşkara çıxarılması.

Tədqiqat sualının aydınlaşdırılması üçün dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığından istifadə edilməsi məqsədəuyğundur. Bu tapşırığın uğurla yerinə yetirilməsi "Əsərin təhlilinə hazırlaşın" mətnindəki tövsiyələrin mənimsənilməsindən də xeyli dərəcədə asılıdır. Dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə şagirdlərdə həssas, diqqətli münasibətin formalaşdırılması vacibdir. Bu mətnlərlə işləmək bacarığına şagirdlər əvvəlki siniflərdə yiyələnmiş olsalar da, həmin mətnlərin sinifdən-sinfə mürəkkəbləşdiyini unutmaq olmaz. Bunu da unutmaq olmaz ki, təhlil üçün mənbə olan bu materiallarda əksini tapmış tövsiyələr şagirdlərin təlimi fəaliyyətinə həmişə səmərəli istiqamət verir:

1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ordakı fikirlərdən faydalanın.

*Şairin milli bayrağımıza şeir həsr etməsi təsadüfi deyildir. Milli azadlıq, vətənimizin müstəqilliyi şairin ən böyük idealı, həyatının əsas mənası idi. Onu "milli dövlətimizin nəğməkarı" adlandıranlar səhv etmirdilər. Digər əsərlərində olduğu kimi, "Azərbaycan bayrağına" şeirində də vətənini, xalqını dərin məhəbbətlə sevən səmimi bir el sənətkarının ürək çırpıntılarını duymaq çətin deyildir. 10 aprel 1919-cu ildə Bakı şəhərində, parlament binasının üzərində dalğalanmış üçrəngli milli bayrağımız vətənpərvər şairi riqqətə gətirmiş və bu gözəl sənət əsəri yaranmışdır.*

*Əsərdə əksini tapan mətləblər çoxdur. Onları aydınlaşdırmağa, təhlil etməyə çalışın. Şeirdə bədiiliyi təmin edən vasitələrin üzərində düşünün. Onun dilinə, sözlərin seçiminə, məcazların əsərə gətirdiyi gözəlliyə münasibət bildirin.*

Şagirdlər müəllimin təklifi ilə cütlük şəklində, yaxud kiçik qruplar yaradaraq tədqiqat aparırlar. Cütlük şəklində işləyənlər fikir mübadiləsi aparmaq üçün sonra kiçik qruplarda birləşə bilərlər. Bu, vaxta qənaət edilməsi baxımından da faydalıdır. Müəllim reallaşdırmaq istədiyi standartlardan, sinfin səviyyəsindən və s. asılı olaraq, "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına yaradıcı yanaşa bilər. Başqa sözlə, tapşırıqda ixtisarlar aparmaq, yaxud ona suallar əlavə etmək mümkündür. Tədqiqatın kiçik qruplarda aparılmasını planlaşdıran müəllim tapşırığın suallarını (hər qrupa bir sual təqdim etməklə) iş vərəqlərində əks etdirməlidir.

2. Sizcə, əsər hansı mövzuda yazılmışdır? Oxşar hesab etdiyiniz əsərlə (məsələn, C.Cabbarlının aşağıda verilmiş şeiri ilə) müqayisə etməklə fikrinizi əsaslandırın.

**Azərbaycan bayrağına**
*(ixtisarla)*

Kölgəsində ay əyilib bir gözəli qucmada.
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,

Şu görünüş bir ananın şəfqətinə oxşuyor.
Düşündükcə zövqlərimi, vicdanımı oxşuyor.

Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə, böylə söyləmək:

Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!

Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!

Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı!

Səkkiz uclu şu yıldız da səkkiz hərfli Od yurdu
Əsarətin gecəsindən fürsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur!

Şu hilal da türk bilgisi, düzgün sevgi nişani,
Yurdumuzu qucmuşdur!

Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!

Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun, bir göy bayraq Turan üstə açılsın.

| № | Hansı əsasa (əlamətə) görə müqayisə edilirlər? | Ə.Cavad. "Azərbaycan bayrağına" | C.Cabbarlı. "Azərbaycan bayrağına" |
|---|---|---|---|
| 1 | Mövzuya görə | | |
| 2 | Məzmuna görə | | |

3. Əsərdə əksini tapmış mətləblərdən hansını daha əhəmiyyətli hesab edirsiniz? Cədvəldən istifadə edin.

| Əsərdə əksini tapmış əsas mətləblər | Bunu təsdiq edən nümunələr | Mühüm hesab etdiyiniz mətləblərə münasibətiniz |
|---|---|---|
| | | |
| | | |

4. Lirik qəhrəman haqqında aydın təsəvvür qazandınız. Onu necə səciyyələndirərdiniz? Cədvəldən istifadə edin.

| Lirik qəhrəmanın xarakterindəki başlıca cəhətlər | Bunu təsdiq edən nümunələr | Lirik qəhrəmana münasibətiniz |
|---|---|---|
| | | |
| | | |

5. Əsərin bədii təsir gücünü artıran vasitələrin rolunu nümunələr əsasında aydınlaşdırın. Cədvəldən istifadə edin.

| № | Əsərin bədii təsir gücünü artıran vasitələr | Onların rolunu nümunələr əsasında aydınlaşdırın |
|---|---|---|
| 1 | Sözlərin, ifadələrin uğurla seçilməsi | |
| 2 | Uğurlu qafiyələr | |
| 3 | Bədii təsvir vasitələri | |
| 4 | Bədii ifadə vasitələri | |

6. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

| Əsərdəki başlıca fikir – ideya | Nə üçün belə düşünürsünüz? |
|---|---|
| | |

Həmin tapşırıqdakı suallar vəsaitdə təklif edilmiş tədqiqat sualının araşdırılmasına, aydınlaşdırılmasına imkan yaradır. Məsələn, ikinci sualın üzərində işləyən şagirdlər aydınlaşdırırlar ki, milli bayrağımıza həsr olunmuş digər əsərlərdən fərqli olaraq, bu şeirdə mövzu daha genişdir, elə buna görə də o, başqalarından məzmunca da seçilir, fərqlənir. Üçüncü sual da tədqiqat sualı ilə sıx bağlıdır. Onu araşdıran şagirdlərə məlum olur ki, əsərdə əksini tapmış mühüm mətləblərdən biri bütün türk xalqlarının taleyi ilə bağlı mövqeyin ifadə edilməsidir. Tapşırığın digər sualları da

tədqiqat sualındakı başlıca tələbin aydınlaşdırılmasına, ümumilikdə tədqiqatın səmərəli aparılmasına zəmin yaradır.

Hansı təlim metodlarının, iş formalarının tətbiqindən asılı olmayaraq, tədqiqatın gedişində bütün şagirdlərin fəaliyyəti müəllimin nəzarəti altında olmalı, diqqətindən yayınmamalıdır.

**Məlumat mübadiləsi** mərhələsində araşdırmaların nəticələri barədə ətraflı məlumatın verilməsi və fəal dinləmə təmin edilməlidir. Fikirlərin birtərəfli, dayaz, hətta yanlış olması hallarına təbii baxılmalı, sualların verilməsinə imkan yaradılmalıdır. Bu mərhələdə başlıca məqsəd şagirdlərin (qrupların) bir-birinin işinin məzmunu ilə tanış olmalarıdır. Cavabların dəqiqləşdirilməsi, dərinləşdirilməsi, sistemə salınması növbəti mərhələdə həyata keçirilir.

**Məlumatın müzakirəsi və təşkili** mərhələsində səsləndirilmiş fikirlərə münasibət bildirilir, birtərəfli, yanlış mülahizələrə aydınlıq gətirilir, deyilənlərin əlaqələndirilməsi, müqayisə edilməsi, vahid xətt əsasında sistemə salınması həyata keçirilir. Müzakirənin diskussiya xarakterli olması, hər bir şagirdə sərbəst fikir mübadiləsi aparmaq imkanının yaradılması təmin edilir. Şagirdlər hiss etməlidir ki, onların cavabı ümumi işə bir töhfə kimi qəbul edilir, diqqətdən kənarda heç nə qalmır. Bu, onların daha məsuliyyətli olmaları və həvəslə işləmələri üçün stimul rolunu oynayır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsinin səmərəli təşkili üçün müəllimin əvvəlcədən istiqamətləndirici suallar hazırlaması faydalıdır. Bu suallar şagirdlərin fəallaşdırılması vasitəsi olmalı, onları müstəqil fikir söyləməyə, ümumiləşdirmələr aparmağa yönləndirməlidir. İndiyə qədər deyilmiş bütün fikirlərin ümumi ideya halına salınması və ümumiləşdirilməsi bu mərhələdə xüsusi diqqət yetirilən məsələlərdən olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, müstəqilliyini əldə edən Azərbaycanın milli bayrağının parlament binasının üzərində qaldırılması şairdə böyük sevinc və qürur hissi yaratmış, o, türk xalqlarının da bu taleyi yaşamasını arzulamışdır.

Üçrəngli bayrağımız Azərbaycanımızın müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir. Azərbaycan əsgəri də Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir. Üçrəngli bayrağımız hər zaman əbədi olacaq, bütün dünyada Azərbaycan dövlətinin və xalqının imzasını qürurla təsdiqləyəcək.

Çıxarılmış nəticənin tədqiqat sualı ilə əlaqəsinin aydınlaşdırılması, şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə müqayisə edilməsi həmin mərhələdə həyata keçirilən mühüm vəzifələrdən olur.

**Qiymətləndirmə**. Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
Aydınlaşdırma
Şərhetmə
Münasibətbildirmə
Müqayisəetmə
Ümumiləşdirməaparma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə bədii təsvir və ifadə vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirdə bədii təsvir və ifadə vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Şeirdə bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh etməkdə, əsaslan-dırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, suallar və müəllimin köməyi ilə əsaslandırılmış münasibət bildirir. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, münasibətini əksər hallarda əsaslandırır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| Şeirin mövzusuna müqayisələr, ümumiləşdirmələr aparmaqla mü-nasibət bildirməkdə çətinlik çəkir. | Şeirin mövzusuna qismən müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. | Şeirin mövzusuna, əsasən, müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. | Şeirin mövzusuna müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Abdulla Şaiq. "Anabacı"** – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (poema, hekayə, povest, roman, dram) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. | • Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Süjetli bədii nümunələri (poema, hekayə, povest, roman, dram) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir. | • Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yaradıcı nağıl edir. |
| 1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metonimiya, inversiya, simvol) müəyyənləşdirir. | • Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Hekayə ilə bağlı müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**İnteqrasiya:** Az.d. – 2.1.1., X.d. – 1.1.2. 3.1.3. 3.1.4.
**Metod və priyomlar:** müsahibə, müzakirə, problemin həlli, təqdimat.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, əsərin məzmunu üzrə şəkillər.

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Müəllim üçün məlumat.** *Motivasiya yaradılmamışdan əvvəl şagirdlərin "şərəf" və "ləyaqət" anlayışları barədəki məlumatlarının aşkara çıxarılması məqsədi ilə onlara müraciət edilir: – Siz "ləyaqət", "şərəf" sözlərini eşitmisiniz. Bədii əsərlərdə bu sözlərə az rast gəlməmisiniz, baxdığınız filmlərdə də bu sözləri az eşitməmisiniz. "Ləyaqətli insan", "filankəs ləyaqətli adamdır", "filankəs şərəfli ömür yaşamışdır" ifadələri sizə nə deyir? İnsanın öz ləyaqətini uca tutması, şərəfli olması nə deməkdir?*

*Şagirdlərin "Ləyaqət əsil-nəsəblə deyil, ağıl və ədəblədir" atalar sözü barədə mülahizələrini dinləmək də faydalıdır. S.Rüstəmin 5-ci sinif "Ədəbiyyat" dərsliyindən (Bakınəşr, 2012) öyrənilmiş "Duz-çörək" şeirindən aşağıdakı bəndin xatırladılması və yığcam fikir mübadiləsi də yeni mövzunun qavranılması üçün zəmin yaradır:*

*İnsanın şərəfi, bəzəyi, məncə,*
*Deyildir nə ipək, nə tirmə, oğlum!*
*Yaxşıdan yaxşı ol ellər içində,*
*Dostuna bir ziyan yetirmə, oğlum!*

*Yığcam müsahibə aparılmaqla suallara, bədii nümunələrə aydınlıq gətirilir. Şagirdlərin öz həyati təcrübələrinə, incəsənət əsərlərinə müraciət etmələrinə, fikirlərini nümunələrlə əsaslandırmalarına imkan yaradılır.*

**Motivasiya, problemin qoyuluşu.** Rəmzi materiallardan, yaxud suallardan istifadə etməklə motivasiya yaratmaq olar. Dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında yığcam müsahibə təşkil etməklə motivasiyanın yaradılması daha az vaxt aparır.

**Yada salın:**

– Şərəf və ləyaqətini uca tutan hansı ədəbi qəhrəmanlarla tanışsınız?

– Onların hansı davranış və əməlləri sizin üçün daha dəyərlidir?

Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

Motivasiyanın bir variantı da internetdən istifadə ilə şagirdlərin ədib haqqında (https://az.wikipedia.org/wiki/Abdulla_Şaiq) materialla tanış edilməsi ola bilər. Eyni zamanda görkəmli ziyalıların A.Şaiq haqqında fikirlərindən istifadə məktəblilərin ədibin yaradıcılığına marağını artırır:

– Abdulla Şaiq həqiqəti hər şeydən uca tutan, daima həqiqət axtaran, tərəqqi və yüksəliş yolunda fədakarcasına çalışan yazıçı olmuşdur. (M.İbrahimov)

– Abdulla Şaiqin nəcib həyatı bir çıraq kimi həmişə xalq üçün yanmışdır. Bu çırağın işığında uşaqların da, böyüklərin də qəlbində yalnız xeyirxah duyğular, xeyirxah arzular baş qaldırmışdır. (İ. Əfəndiyev)

– Xalqını nəcib bir oğul qəlbi ilə sevən sənətkar öz xalqının ürəyində əbədi yaşayacaqdır. (S. Rüstəm)

– Abdulla Şaiq mənəviyyatı pak, daxili təmiz, rəftarı gözəl bir insan kimi xalqımızın qəlbində yaşayır, yaşayacaq da! (Ə. Bədəlbəyli)

***Tədqiqat sualı:*** Şərəfli və ləyaqətli olmaq insanın həyatdakı mövqeyində hansı rolu oynaya bilər?

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Bu, ilk növbədə, oxunun təşkilini tələb edir. Hekayənin oxusu fərqli şəkillərdə aparıla bilər. Bu, sinfin səviyyəsindən, oxu metodları ilə şagirdlərin tanışlıq dərəcəsindən, müəllimin məqsədindən asılıdır. Əsərin oxusunun metodik baxımdan düzgün təşkilinə xüsusi diqqət yetirilməlidir. Məsələn, vaxta qənaət baxımından fərdi səssiz oxunu seçən müəllimin dərslikdəki sual və tapşırıqlar üzrə ardıcıl iş aparması məqsədəuyğundur.

1. Əsərin oxusundan (bunu fərqli şəkildə yerinə yetirə bilərsiniz) sonra parta yoldaşınızla birlikdə mətnin kənarındakı suallara cavab hazırlayın.
2. Mətnin üçüncü parçasına aid suallar tərtib edin.
3. Kiçik qruplarda birləşib, tərtib etdikləriniz də daxil olmaqla, bütün sualların cavabı ilə bağlı fikir mübadiləsi aparın.
4. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.
5. Əsərdən seçdiyiniz hissəyə ad verin, məzmununu hazırladığınız plan əsasında yaradıcı danışın.

Oxu başa çatdıqdan sonra şagirdlər tövsiyələrə uyğun olaraq, cütlük şəklində işləməklə mətnkənarı suallara cavab hazırlayırlar. Sonra həmin cütlüklər üçüncü

parçanın məzmununa aid suallar tərtib edirlər. Cavabları məzmunca eyni, yaxud oxşar olan şagirdlər kiçik qruplarda birləşib, tərtib etdikləri də daxil olmaqla, bütün suallarla bağlı fikir mübadiləsi aparırlar. Yalnız bundan sonra qrup sözçülərinin təqdimatları əsasında **fikir mübadiləsi** və **müzakirə** aparılır.

Əsərin məzmunu ilə bağlı qazanılmış məlumatın dərinləşdirilməsi və sistemə salınmasında bu mərhələnin əhəmiyyəti böyükdür. Müzakirə zamanı aşağıdakı suallardan istifadə etməklə əsərin ilkin qavranılmasını dərinləşdirmək olar:

1. Anabacı kim idi və məşğələdən evinə qayıdan qəhrəmana müraciət etməkdə məqsədi nə idi?
2. Anabacının əlindəki kağızda nə yazılmışdı?
3. Anabacı ilə söhbətin məzmunu nədən ibarət idi?
4. Anabacı xəstəyə yardım üçün verilən pulu alanda nə dedi?
5. Gətirdiyi coraba görə pul təklifini Anabacı nə üçün rədd etdi?
6. Anabacının hərəkətləri, davranışı əsərin qəhrəmanında hansı düşüncələr, suallar doğurdu?

Dərslikdəki növbəti tapşırıq (Əsərdən seçdiyiniz hissəyə ad verin, məzmununu hazırladığınız plan əsasında yaradıcı danışın) məzmunun mənimsənilməsi üzrə işin davamı kimi özünü göstərir. Bu prosesdə fəal dinləməyə və müzakirəyə nail olunmalıdır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici suallardan istifadə etməsi faydalıdır. Diqqət Anabacı obrazına cəlb edilməklə şagirdlərdə belə qənaət möhkəmlənir ki, şərəf hissini unutmayan, ləyaqətlə ömür sürən insanlar başqalarından hörmət görür və nüfuz sahibi olurlar. Onlar həm ailədə, həm də cəmiyyətdə ədalətli, doğruçu, sözübütöv insanlar kimi tanınır və sevilirlər.

Çıxarılmış nəticənin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*
Aydınlaşdırma
Hissələrəayırma
Plantərtibetmə
Nağıletmə
Müəyyənləşdirmə
Əsaslandırma
Nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından, əsasən, aydınlaşdırır. | Tanış olman sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. |

| | | | |
|---|---|---|---|
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu yaradıcı nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yaradıcı nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yaradıcı nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yaradıcı nağıl edir. |
| Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayədə bədii təsvir və ifadə vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Hekayədə bədii təsvir və ifadə vasitələrini, əsasən, müəyyənləşdirir. | Hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |
| Müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Abdulla Şaiq. "Anabacı"** – 3 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.2. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir. | • Müəllifin mühakimələrindən çıxış etməklə hekayənin qəhrəmanlarını səciyyələndirir. |
| 1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metonimiya, inversiya, simvol) rolunu aydınlaşdırır. | • Hekayənin təsir gücünün artmasında bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, əsaslandırılmış münasibət bildirir. | • Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. | • Hekayə ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**İnteqrasiya:** Az.d. – 2.1.2. 2.2.3., X.d. – 2.1.2. 2.1.3.
**Metod və priyomlar:** müsahibə, problemin həlli, müzakirə, təqdimat.
**Təchizat:** dərslik, iş vərəqləri, əsərin məzmunu üzrə şəkillər.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi yolu ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Rəmzi (simvolik) material qismində şərəf, ləyaqət, mənlik hissinin uca tutulmasının insan üçün vacib olduğunu əks etdirən deyimlərin, atalar sözlərinin, bədii əsərlərdən sitatların və s. xatırladılması, fikir mübadiləsi aparılması yerinə düşər. Bir variant da ilk dərsdən şagirdlərin diqqətinə çatdırılan "Düşünün" başlıqlı sual (Şərəf və ləyaqətini qorumaq üçün insanda hansı keyfiyyətlər olmalıdır?) əsasında yığcam müsahibə aparmaq və onu tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırmaq ola bilər.

Motivasiyanın yaradılmasının bir variantı da internetdən istifadə ilə şagirdlərin ədibin 130 illiyi ilə əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanasının hazırladığı ədəbi-bədii kompozisiyadan (http://www.clb.az/files/mv/AShaiq.pdf) müəllimin məqsədəmüvafiq saydığı bir parça ilə tanışlığı ola bilər.

***Tədqiqat sualı:*** Ehtiyac içində məhrumiyyətlərlə dolu ömür yaşayan hekayə qəhrəmanının öz mənliyini, şərəf və ləyaqətini uca tutmasına səbəb, sizcə, nədir?

Fərqli fikirlər – fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması.** Hansı metod və iş formalarının seçilməsindən asılı olmayaraq, dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə müraciət edilməsi məqsədəuyğundur.

*1. Mətni oxuyun. Tapşırıqları yerinə yetirərkən ordakı fikirlərdən faydalanın.*

*Müəllifin oğlu, tanınmış ədəbiyyatşünas alim Kamal Talıbzadə yazır:*

*"Bizim evə gəlib-gedən, nənəm Mehri xanımla dostluq edən Nənəxanım adlı qoca bir arvad vardı, qara, köhnə çarşaba bürünüb gəzərdi... Onunla atam təsadüfən küçədə rastlaşmış, bir xahişini yerinə yetirmək üçün kimsəsiz qocanı evə gətirmiş və uçurum qarşısında duran bir ailəni fəlakətdən xilas etmişdi. Bu təsadüf atamın 1923-cü ildə qələmə aldığı "Anabacı" hekayəsinin yazılmasına səbəb olmuşdu. Qoca qadına edilmiş yaxşılıq müqabilində hədiyyə olaraq toxuduğu yun corabı təqdim edəndə atamın zəhmət haqqı vermək istəməsini o elə qəzəblə qarşılamış, ruhundakı etiraz o qədər güclü və əzəmətli olmuşdu ki, yazıçını qələmə müraciət etməyə, insan ləyaqəti haqqında əsər yazmağa ruhlandırmışdı..."*

*Yazıçı həyatda tanıdığı, müşahidə etdiyi Nənəxanımın və onun kimi onlarla insanın fərdi cizgilərini diqqətlə öyrənmiş, ümumiləşdirmə aparmış, parlaq, yaddaqalan ədəbi qəhrəmanını – Anabacı obrazını yaratmağa nail olmuşdur. Əsərin üzərində müşahidələrinizi davam etdirin, bu obrazı yaradarkən müəllifin hansı bədii vasitələrdən və necə istifadə etdiyini aydınlaşdırmağa çalışın.*

Mətnlə tanışlıqdan sonra şagirdlərin diqqəti "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına yönəldilir. "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına daxil edilmiş bütün suallar tədqiqat sualının aydınlaşdırılmasına dəyərli töhfə verir. Başqa sözlə, əsərin mövzusunun müəyyənləşdirilməsi, onda qaldırılmış problemin aydınlaşdırılması, yazıçı mühakimələrinə diqqət yetirməklə baş qəhrəmanın səciyyələndirilməsi və s. tədqiqat sualına əsaslı cavab verilməsini təmin edir.

1. Hekayənin mövzusunu və onda qaldırılmış başlıca problemi müəyyənləşdirin. Gəldiyiniz nəticəyə əsasən cədvəldə qeydlər edin.

| Əsərin mövzusu | Əsərdə diqqətə çatdırılan başlıca problem | Problemin həllini yazıçı nədə görür? | Problemin həlli barədə siz nə düşünürsünüz? |
|---|---|---|---|
| | | | |

2. Anabacı obrazını səciyyələndirin. Cədvəldən istifadə edin.

| Anabacı obrazı | | |
|---|---|---|
| Onun xarakterindəki başlıca cəhətlər | Müəllifin bu obraz haqqında mühakimələri | Sizin ona münasibətiniz |
| | | |

3. Hekayənin müəllifi haqqında sizdə hansı təsəvvür yarandı? Fikrinizi nümunələrlə əsaslandırın.

4. Əsərin bədii təsir gücü hansı vasitələrlə artırılmışdır? Cədvəldən istifadə edin.

| Əsərin bədii təsir gücünü artıran vasitələr | | |
|---|---|---|
| Bədii təsvir və ifadə vasitələri (nümunələrlə əsaslandırmalı) | Obrazlı söz, ifadə və cümlələr (nümunələrlə əsaslandırmalı) | Təsvirlər (nümunələrlə əsaslandırmalı) |
| | | |

5. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir? Cədvəldən istifadə edin.

| Əsərin əsas ideyası | Nə üçün belə düşünürsünüz? |
|---|---|
| | |

Kiçik qruplarda işin təşkilinə üstünlük verən müəllim dərslikdəki tapşırığa yaradıcı yanaşa bilər. Sualların dəyişdirilməsi, onlara əlavələr edilməsi, yeni cədvəl formalarının təklif edilməsi və s. müəllimin istəyindən asılı olaraq, həyata keçirilə bilər. Hər qrupa iş vərəqində bir sual təklif edilsə də, bütün qrupların əlavə mənbələrlə təmin edilməsi məqsədəuyğundur. Məsələn, K.Talıbzadənin tərtib etdiyi “Şaiqanə yad et” (Bakı, 1981) kitabındakı “Həmişə yadımda olan insan” mətni hekayə ilə bağlı aparılan tədqiqat üçün maraqlı mənbədir. Eləcə də T.Əhmədovun “Abdulla Şaiq” (Bakı, 2009), “Əgər Şaiq olmasaydı” (Bakı, 2012) kitablarından seçilmiş bölmələrlə tanışlıq şagirdlərin daha səmərəli tədqiqat aparmalarına imkan yaradar.

Tədqiqat zamanı şagirdlərə hekayənin müəllifi və Anabacı obrazları ilə bağlı cavablarında əsərdən aşağıdakı iki nümunəyə də münasibət bildirmələri tövsiyə edilir:

1. Bir az sonra bu qoca və düşkün qadına əl tutmaq məqsədi ilə bir qədər pul vermək istərkən dik-dik üzümə baxdı. Sərt bir səslə:

– Bu nədir? Mən bunu sənə satmaq üçün gətirməmişəm. Onun üçün bazar var. Bunu sənə bəxşiş gətirmişəm, – deyə əllərini çarşabının altında bir-birinə sıxaraq saxladı. O bu sözləri deyərkən gözlərindəki ildırımlar ta qəlbimin içində partlayan kimi oldu, yoxsul, miskin bildiyim bu qarının bu qədər qəhər və hiddəti qarşısında biixtiyar titrədim.

Hər zaman hüzn, iztirabla məni yaralayan bu miskin qadın bu dəfə məğrurluğu ilə məni qorxutdu. Bir daha üzünə baxdım. Bu dəfə üzünə qəhər və hiddət qığılcımlarının yerinə vəzifələrini bitirmiş olanlara məxsus qürur rəngi çökmüşdü. Gözlərinin baxışı, ziyası qəlbinin rahat-rahat döyündüyünü göstərirdi. Heç bir zaman görmədiyim bu rəng, bu işıq nədən doğmuşdu?

2. Köhnə nəslin son qəhrəmanı olan bu qadın hələ qarşımda oturmuş, mənə meydan oxuyur, həm də ata-babadanqalma keçmiş əxlaq və səciyyələrini bütün hal və hərəkətləri ilə mənə anladırdı. Artıq yarım əsr əvvəlin canlı tarixi olan bu qadın, nəzərimdə daha böyümüş, daha canlanmış, sanki mənə: “Yoxsul olsam da, qəlbim geniş, ruhum ucadır” demək istəyirdi. Çox gözəl, bunu mən də etiraf edirəm. Lakin, ey yüksək qadın, söylə, altmış illik səfil bir həyatın sənə yükləmiş olduğu ağır yüklər

belini bükmüş, gözlərinin nurunu almış, dizlərini taqətsiz etmiş olduğu halda, necə olmuş ki, qəlbinə, ruhuna toxunmamışdır? Sən mənə bunu anlat!

Cədvəllərlə işləməyə şagirdlər xüsusi maraq göstərirlər. Müəllim buna laqeyd qalmamalı, cədvəllərdəki tələblərə əhatəli cavab yazılmasına diqqət yetirməlidir. Cədvəllərin formasına, qeyd edildiyi kimi, müəllim yaradıcı yanaşa bilər. O, lazım gələrsə, cədvəllərə əlavələr etməkdə, yaxud onlarda sadələşdirmə aparmaqda sərbəstdir.

**Məlumat mübadiləsi** mərhələsində kiçik qrupların təqdimatlarının fəal dinlənilməsi təmin olunur. Qrup sözçülərinin məlumatları necə, hansı səriştə ilə çatdırdıqlarına müəllim diqqət yetirir, təkrarların, əhəmiyyətsiz faktların xatırladılmasına yol verilmir. Bunun ehtiyatla və yerində həyata keçirilməsi şagird təqdimatlarının daha məzmunlu olmasında, həmin mərhələnin səmərəliliyində az rol oynamır. Bütün bunlara baxmayaraq, cavablarda pərakəndəlik, əsaslandırılmamış mülahizələr, birtərəfli yanaşma müşahidə edilir. Bunlar **məlumatın müzakirəsi və təşkili** mərhələsində aradan qaldırılır. Müzakirənin diskussiya xarakterli olmasına, hər bir şagirdin öz fikrini sərbəst ifadə etməsinə imkan yaradılır. Başlıcası isə, hər qrupun cavabına digər qrupların yaradıcı yanaşmaları təmin edilməlidir. Başqa sözlə, hər bir qrupun şagirdləri digər qrupların əldə etdikləri nəticələrə təkcə təqdimatlar əsasında deyil, hekayə ilə bağlı qazandıqları bütün bilik və bacarıqlar zəminində ciddi münasibət bildirməli, tutarlı əlavələr etməli, onlarda zəruri düzəlişlər aparmalıdır. Məsələn, tapşırığın 2-ci sualı (Hekayənin mövzusunu və onda qaldırılmış başlıca problemi müəyyənləşdirin. Gəldiyiniz nəticəyə əsasən cədvəldə qeydlər edin) üzərində işləyən qrupun təqdimatına digər qruplar münasibət bildirərkən cədvəldə əksini tapmış bütün tələblərlə (əsərin mövzusu; əsərdə diqqətə çatdırılan başlıca problem; problemin həllini yazıçı nədə görür; problemin həlli barədə şagirdlərin özləri nə düşünür) bağlı öz mövqelərini ortaya qoymalıdırlar.

Deyilənlərin ümumi ideya halına salınması, ümumiləşdirmənin aparılması növbəti mərhələdə həyata keçirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Bu mərhələnin səmərəli keçməsi müəllimin əvvəlcədən hazırladığı istiqamətləndirici suallardan xeyli dərəcədə asılıdır. Bu, şagirdlərin müstəqilliyini və fəallığını əlindən almır, əksinə, onlara mənimsədiklərinə əsaslanmaqla fikirlərini ümumiləşdirmə əsasında ifadə etməyə imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, "altmış illik səfil bir həyat" bu zərif qadının belini "ağır yüklərlə" büksə də, "gözlərinin nurunu" alsa da, "dizlərini taqətsiz etsə" də "qəlbinə, ruhuna toxuna" bilməmişdir. "Ata-babadanqalma keçmiş əxlaq və səciyyə" "köhnə nəslin qəhrəmanı olan" bu qadında mənlik, şərəf və ləyaqət hissini qoruyub saxlamışdır.

Çıxarılmış nəticələr şagirdlərin irəli sürmüş olduqları fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*
Səciyyələndirmə
Aydınlaşdırma
Şərhetmə
Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ədəbi qəhrəmanları müəllifin mühakimələrindən çıxış etməklə səciyyələndirməkdə çətinlik çəkir. | Ədəbi qəhrəmanları müəllifin mühakimələrindən çıxış etməklə qismən səciyyələndirir. | Ədəbi qəhrəmanları müəllifin mühakimələrindən çıxış etməklə, əsasən, səciyyələndirir. | Ədəbi qəhrəmanları müəllifin mühakimələrindən çıxış etməklə səciyyələndirir. |
| Hekayədə bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə bədii təsvir və ifadə vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Hekayədə bədii təsvir və ifadə vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Hekayədə bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırır. |
| Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh etməkdə, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, suallar və müəllimin köməyi ilə əsaslandırılmış münasibət bildirir. | Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, münasibətini əksər hallarda əsaslandırır. | Hekayənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir. |
| Hekayə ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh etməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara qismən əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini müəllimin köməyi ilə şərh edir. | Hekayə ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əksər hallarda əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. | Hekayə ilə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Abdulla Şaiq. "Anabacı"** – 3 saat
*Üçüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| 3.1.1. Yazacağı mətnin məzmununa uyğun üslub müəyyənləşdirir. | • İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir. |
| 3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirir. | • Hekayənin ideya-bədii xüsusiyyətlərinə əlavə məlumatlara əsaslanmaqla münasibət bildirir. |
| 3.1.3. 2,5-3 səhifə həcmində mühakimə, təsvir, müqayisə xarakterli mətnlər (inşa, esse, məruzə) yazır. | • Mühakimə xarakterli inşa, esse yazır. |

**Dərsin tipi:** induktiv; bədii əsərin öyrənilməsi.
**İş forması:** fərdi iş, bütün siniflə birgə iş.
**İnteqrasiya:** Az.d. – 1.1.2. 2.2.3. 3.1.1., X.d. – 4.1.1.
**Metod və priyomlar:** əqli hücum, müsahibə, Venn diaqramı, izahlı və ifadəli oxu, problemin həlli.
**Təchizat**: Dərslik, lüğətlər, iş vərəqləri, şairin portreti.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi yolu ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Dərsdə növbəti addım dərslikdə təklif olunmuş mövzunun (Düşdüyü şəraitdən və vəziyyətdən asılı olmayaraq, insan öz ləyaqətini qoruyub saxlaya bilərmi?) müzakirəsi üzrə işin təşkili ola bilər. Müzakirəni fərqli formalarda (diskussiya, debat və s.) aparmaq mümkündür. Müzakirənin səmərəli keçməsi ona hazırlıq işinin aparılmasından xeyli dərəcədə asılıdır. Hələ dərsə bir neçə gün qalmış şagirdlərə bu sualın üzərində düşünmək, həyatda tanıdıqları insanların, tanınmış söz sənətkarlarının, elm adamlarının, siyasi xadimlərin həyatı, fəaliyyəti barədə bildiklərini təhlil etmək, müəyyən bir qənaətə gəlmək təklif olunur.

Müzakirədə şagirdlərin fikirlərini sərbəst ifadə etmələrinə, diskussiyada fəal olmalarına, mülahizələrini nümunələrlə əsaslandırmalarına diqqət yetirilir.

Müzakirə şagirdlərdə belə bir qənaətin möhkəmlənməsinə səbəb olur ki, ləyaqətli insan danışığına, davranışına, əməllərinə nəzarət etməyi və obyektiv qiymət verməyi

bacarır. O, yersiz danışmaqdan, yüngül hərəkətlərdən uzaq olur. Belə adamlar vəzifə borcunu heç bir təmənna güdmədən layiqincə yerinə yetirdikləri kimi, xeyirxah olmaları ilə də seçilirlər. Şəxsi mənafe, mənsəb və s. üçün yaltaqlanmaq, başqalarının qarşısında alçalmaq belə adamlara yaddır. Öz zəhmətləri, halal qazancları ilə dolanan bu cür insanlarda pul, var-dövlət hərislərinə nifrət olur... Ləyaqətli adamlar həmişə haqqın, ədalətin müdafiəçisi olurlar.

İnsan həyatı mürəkkəb və ziddiyyətlidir, enişli, yoxuşludur. Elə buna görə də ləyaqətli, şərəfli ömür bəzən ona baha başa gəlir, itiriləsi, qurban veriləsi çox şeylər olur. Məhz bunun üçün də ləyaqətli insanların birliyi, bir-birinə dayaq olmaları çox vacibdir.

Şagirdlərə "Ana bala ucundan canını oda yaxar", "Ana evin dirəyidir", "Ana ürəyi, dağ çiçəyi", "Ana haqqı – Tanrı haqqı", "Ananın canı övladdadır" atalar sözlərindən hansının "Anabacı" hekayəsində təsvir olunanlarla səsləşməsi barədə sualla da müraciət etmək faydalıdır. Müzakirə zamanı məktəblilərin öz fikirlərini əsaslandırmalarına diqqət yetirilir.

Müzakirədə şagirdlərin problem barədə müstəqil fikir söyləmələrinə imkan yaratmaq üçün Nizami Gəncəvinin aşağıdakı misralarına da münasibət bildirilməsi təklif oluna bilər:

Bacarsan, hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər.

Şagirdlərdə belə qənaət yaradılır ki, yazıçı hekayədə Anabacının simasında sadə və yoxsul insanların həyatını təsvir etmişdir. Anabacı saf, ləyaqətli, düzlüyü sevən, şərəfini, mənliyini üstün tutan bir insandır. O, çətin bir duruma düşsə də, vüqarını, mənliyini, halallığı qoruyub saxlayır. Yazıçı oxucunun diqqətini öz şərəf və ləyaqətini qoruyan, zəhmətkeş, saf mənəviyyatlı insanların tutduğu yolun düzgünlüyünə cəlb edir.

Məlumdur ki, **tətbiq, müzakirə, yaradıcı iş** dərslərində **motivasiyanın yaradılması, tədqiqat sualı** daha çox önəm verilən, vaxt ayrılan təlim işi ilə bağlı olur. İnşa və esse üzrə işin yerinə yetirilməsinə bu dərsdə önəm verildiyindən motivasiya və tədqiqat sualı da onlarla bağlı həyata keçirilir.

**Motivasiya, problemin qoyuluşu.** Dərslikdə təklif olunmuş inşa və esse mövzuları (Hekayə insanlara, həyata baxışında hansı dəyişikliyə səbəb oldu?; Anabacı obrazının taleyi məndə hansı hiss və düşüncələr yaratdı?) şagirdlərin diqqətinə çatdırılır. Sonra mühakimə xarakterli inşa və esse ilə bağlı mənimsənilmiş bilik və bacarıqlar yığcam müsahibə ilə yada salınır. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşdırılır.

***Tədqiqat sualı:*** Mühakimə xarakterli inşa və esse üçün təklif olunmuş mövzularda, başlıca olaraq, hansı məsələlərə diqqət yetirilməlidir?

Fərziyyələr dinlənilir və qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Öz istəklərinə əsasən seçdikləri mövzu üzrə plan tərtib edən şagirdlər müstəqil işləyirlər. Ehtiyac yaranan hallarda müəllim bu və ya digər şagirdə istiqamətləndirici suallarla yardım edir. Şagirdlərin müxtəlif mənbələrə

müraciət etmələrinə, bir sıra hallarda cütlük şəklində fikir mübadiləsi aparmalarına imkan yaradılır.

1. Müzakirə edin: Düşdüyü şəraitdən və vəziyyətdən asılı olmayaraq, insan öz ləyaqətini qoruyub saxlaya bilərmi?
2. Mövzulardan birini seçib işləyin.

a) "Hekayə insanlara, həyata baxışımda hansı dəyişiklik yaratdı?" mövzusunda inşa yazın.
b) "Anabacı obrazının taleyi məndə hansı hiss və düşüncələr yaratdı?" mövzusunda esse yazın.

3. İnşa və esselərdən nümunələri müzakirə edin.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra ayrı-ayrı şagirdlərin təqdimatı əsasında **fikir mübadiləsi və müzakirə** aparılır.

Sonrakı – **nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində isə əldə olunmuş nəticələrlə fərziyyələrin müqayisə edilməsinə daha çox diqqət yetirilir.

Şagirdlərə məlum olan meyarlara əsasən bu mərhələdə özünüqiymətləndirmə də həyata keçirmək olar.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*
Əsaslandırma
Nümayişetdirmə
Müəyyənləşdirmə
Münasibətbildirmə
İnşayazma
Esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Hekayə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməkdə çətinlik çəkir. | İnşanın, essenin məzmununa uyğun üslubu suallar və kömək əsasında müəyyənləşdirir. | İnşanın, essenin məzmununa uyğun üslubu, əsasən, müəyyənləşdirir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir. |
| Əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə | Əsərin ideya-bədii xüsusiyyətlərinə qismən əlavə məlumatlardan çıxış | Əsərin ideya-bədii xüsusiyyətlərinə, əsasən, əlavə məlumatlardan çıxış | Əsərin ideya-bədii xüsusiyyətlərinə əlavə məlumatlara |

| | | | |
|---|---|---|---|
| münasibət bildir-məkdə çətinlik çəkir. | etməklə münasibət bildirir. | etməklə münasibət bildirir. | əsaslanmaqla münasibət bildirir. |
| Mühakimə xarakterli inşa, esse yazmaqda çətinlik çəkir. | Mühakimə xarakterli inşanı, esseni mövzunu qismən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Mühakimə xarakterli inşanı, esseni mövzunu, əsasən, əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Mühakimə xarakterli inşanı, esseni mövzunu əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## Mənbələr

1. “Heydər Əliyev və mədəniyyət”. 3 clddə. Bakı: Nurlar, 2008.
2. Azərbaycan Respublikası Təhsil nazirinin “Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı tədbirlər barədə” əmri (https://edu.gov.az/az/page/81/9763)
3. Abbasov Ə. “Şagird nailiyyətlərinin qiymətləndirilməsi: müasir baxış və konseptual yanaşmalar”. Azərbaycan məktəbi, 2007, № 4, 2005.
4. Abbaslı B. Ədəbiyyatdan V–XI siniflərdə əruz vəznində yazılmış əsərlərin tədrisi. Bakı, 2010.
5. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2009.
6. Azərbaycan Respublikasında ümumi təhsilin milli kurikulumu. Bakı, 2006.
7. Azərbaycan Respublikasında ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Kurikulum, 2009, № 2.
8. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi” qəzeti, 25 oktyabr 2013, № 41 (8558).
9. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
10. Aslanov Y. Ədəbiyyat tədrisi: Ənənə və müasirlik. Bakı: ADPU-nun nəşri, 2011.
11. Bəylərov E. Formativ qiymətləndirmə. Kurikulum, 2009, № 2.
12. Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977.
13. Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı: Çaşıoğlu, 2004.
14. Энциклопедия интерактивного обучения. Е.Пометун. Киев, 2007.
15. Ərəb-fars sözləri lüğəti. I-II cild. Bakı: Şərq-Qərb, 2005.
16. Əsgərli Z. Poetika. İzahlı sözlük. Bakı: Elm, 2014, 262 s.
17. İnnovativ təlim metodları və texnologiyaların tezaurusu. Bakı: XXI Əsr Təhsil Mərkəzi, 2014.
18. Krouford A., Vendi Soul E., Metyu S., Makinster C. Düşünən sinif üçün öyrətmə və öyrənmə üsulları. Bakı, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, 2012.
19. Qarayev Y. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, 456 s.
20. Qəribli İ. Sözün sehri. Bakı: Elm və təhsil, 2014.
21. Методика преподавания литературы. В 2-х частях. Под ред. О.Ю.Богдановой, В.Г.Маранцмана. М.: Просвещение, 1995.
22. Mikayılov Ş. Bəkirova A. Əliyeva Ş. V–XI siniflərin ədəbiyyat dərslərində təlim texnologiyalarından kompleks şəkildə istifadə. Bakı: Çaşıoğlu, 2008.
23. Mir Cəlal, P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1988.
24. Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. Bakı: Maarif, 1992.
25. Müasir Azərbaycan ədəbiyyatı Bakı: Bakı Universiteti, 2007, 564 s.
26. “Müəllimlik bir missiyadır”. Azərbaycan Respublikasının Təhsil naziri Mikayıl Cabbarovla müsahibə. “Azərbaycan müəllimi” qəzeti. 15 avqust 2014-cü il.
27. Müəllim hazırlığının və orta təhsilin perspektivləri. (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Müəllim üçün vəsait. Bakı, İREX, 2005.

28. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Müəllim üçün vəsait. Bakı, İREX, 2005.
29. Hacıyev A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Təhsil, 2003.
30. Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979.
31. Həsənli B.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2014.
32. Həsənli B. IX sinifdə ədəbiyyat tədrisi. Bakı: Müəllim, 2006.
33. Həsənli B., Abdullazadə. N. İfadəli oxu. Bakı: Müəllim, 2015.
34. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009.
35. Hüseynoğlu S. İfadəli oxunun əsasları. Bakı: ADPU-nun nəşri, 2009.
36. Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı: 2019.
37. Hüseynoğlu S. Ədəbiyyatın metodikası. Bakı: 2020.
38. Hüseynoğlu S. Yeni təlim texnologiyaları və ədəbiyyat dərslikləri. Azərbaycan dili və ədəbiyyat tədrisi. 2015, № 2, s.25-32.
39. Təhsil lüğəti. Bakı: Müasir təhsil və Tədrisə Yardım Mərkəzi. 2011.
40. Тимофеев Л.И. Основы теории литературы. Москва: Просвещение, 1976.
41. Veysova Z.A. Fəal/interaktiv təlim. Bakı, 2007.
42. http:// edu.gov.az
43. http://pedsovet.org
44. http://www.anl.az/down/anar70.pdf

*BURAXILIŞ MƏLUMATI*

**Ədəbiyyat – 9**
*Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün*
*Ədəbiyyat fənni üzrə dərsliyin (qrif nömrəsi:2024-042)*
*metodik vəsaiti*

**Tərtibçi heyət:**

Müəlliflər: **Bilal Ağabala oğlu Həsənov**
**Aynur Cəfər qızı Mustafayeva**
**Soltan Hüseyn oğlu Əliyev**
**Nuriyyə Vəli qızı Verdiyeva**

Nəşriyyat redaktoru **Kəmalə Abbasova**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Korrektor **Aqşin Məsimov**

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi - 2024**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 12,6. Fiziki çap vərəqi həcmi: 14.
Formatı: 70×100 1/16. Kəsimdən sonra ölçüsü: 165×240. Səhifə sayı: 224. Şriftin adı və ölçüsü: Times New Roman qarnituru 11 pt. Ofset kağızı. Ofset çapı.
Pulsuz. Bakı – 2024.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 02.05.2024**

Nəşriyyat:
**“Bakı” nəşriyyatı** (Bakı ş., H.Seyidbəyli küç., 30).

Pulsuz